**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**ELM VƏ ALİ TƏHSİL ÜZRƏ DÖVLƏT AGENTLİYİ**

**AZƏRBAYCAN TEXNİKİ UNİVERSİTETİNİN NƏZDİNDƏ**

**BAKI TEXNİKİ KOLLECİ PUBLİK HÜQUQİ ŞƏXSİ**

# "Humanitar elmlər" fənn birləşməsi

# Azərbaycan tarixi

**(36 saat)**

**(ümumtəhsil qruplar üzrə, II semestr)**

Bakı Texniki Kolleci

**BAKI – 2025**

**MÜNDƏRİCAT**

**1.Azərbaycan torpaqlarının işğalının başlanması. Cənubi Qafqaz uğrunda Rusiya-Qacar müharibələri.......................................................................3-14**
**2.Müstəmləkə idarə üsulu. Müstəmləkəçilik əleyhinə çıxışlar…………......15-22**
**3.XIX əsrin 40-cı illərində Şimali Azərbaycanda keçirilən islahatlar..........23-27**
**4.Şimalı Azərbaycanda iqtisadi inkişaf. Milli demokratik hərəkat. Çarizmin milli qırğın siyasəti………………………………………….......................28-57**
**5.Şimali Azərbaycan Birinci Dünya müharibəsi illərində. Bakı Sovetinin azərbaycanlılara qarşı soyqırım siyasəti....................................................58-68**
**6. Cənubi Azərbaycan XIX əsrdə.................................................................69-72**
**7. Cənubi Azərbaycan XX əsrin əvvəllərində. Məşrutə hərəkatı. Cənubi Azərbaycan 1917-1920-ci illərdə………………………………...............74-93**
**8. Azərbaycan Xalq Cümhuriyyətinin yaranması. Daxili və xarici siyasəti…………...............................................................................................94-108**
**9.Azərbaycan Xalq Cümhuriyyətinin süqutu. Bolşevik istilası və onun nəticələri……………………………….................................................................109-117**
**10.Totalitar sovet rejiminin təşəkkülü. Kütləvi repressiyalar..................118-122**
**11. Azərbaycan İkinci Dünya müharibəsi illərində...................................123-128**
**12.Cənubi Azərbaycan 1920-1940-cı illərdə. ″21 Azər″ hərəkatı. Cənubi Azərbaycan və İran İslam inqilabı ………................................................129-138**
**13.Azərbaycan SSR XX əsrin 40-70 -ci illərində .......................................139 -147**
**14.″Yenidənqurma″ və ″aşkarlıq″ siyasətinin iflasa uğraması.Dağlıq Qarabağ münaqişəsinin başlanması. Xalq hərəkatı................................................148-157**
**15. Birinci Qarabağ müharibəsi. Xocalı soyqırımı. ..................................158-164**
**16.Dövlət müstəqilliyinin bərpası. Milli Qurtuluş. Azərbaycan Respublikasının daxili və xarici siyasəti.........................................................................165-185**
**17.Yeni minillik-yeni lider. Vətən müharibəsi. Böyük Zəfər ..................186-216**
**18.Ədəbiyyat.................................................................................................217**

Bakı Texniki Kollec

# 1. Azərbaycan torpaqlarının işğalının başlanması. Cənubi Qafqaz uğrunda Rusiya-Qacar müharibələri

XVIII əsrdə Rusiya imperiyası Azərbaycana iki dəfə yürüş təşkil etmiş, lakin onun işğalçılıq planları müxtəlif səbəblərdən baş tutmamışdı. XIX əsrin əvvəllərində hakimiyyətə gələn I Aleksandr isə sələfi Paveldən fərqli olaraq, Azərbaycanın şimal xanlıqlarının tabe etdirilməsi üçün əməli fəaliyyətə keçdi. O dövrün beynəlxalq vəziyyəti Rusiyanın Azərbaycanın şimal torpaqlarının işğalına başlamasına əlverişli şərait yaradırdı. 1791-ci ildə bağlanmış Yassı müqaviləsi ilə Rusiya bu regionda onun güclənməsinə mane olan Osmanlı imperiyasını Cənubi Qafqazda, o cümlədən Azərbaycanda fəal siyasət yürütmək imkanından məhrum etmişdi. Həmin dövrdə Qacarlar dövlətindəki siyasi qeyri-sabitlik də Rusiyanın regionda irimiqyaslı hərbi əməliyyatlar aparması üçün əlverişli şərait yaradırdı. Digər tərəfdən, Azərbaycanın parçalanmış vəziyyətdə olması, xanlıqlararası çəkişmələr xalqın müqavimət gücünü zəiflətmişdi. Rusiya Yaxın Şərqdə əsas rəqibləri olan Böyük Britaniya və Fransa kimi güclü Avropa dövlətləinin fəaliyyətindən də ciddi narahatlıq keçirirdi. Qacarlar dövlətinin Böyük Britaniya ilə yaxınlaşması, zəruri olarsa, bu dövlətdən hərbi və maliyyə yardımı almağı nəzərdə tutan saziş imzalaması Rusiyanın Cənubi Qafqazla bağlı planlarına böyük zərbə ola bilərdi.


I Aleksandr

Kartli-Kaxetiya şahzadələrinin bəzi Azərbaycan xanları və Qacarlarla əlaqələr yaratması çar sarayında narazılıqla qarşılanmışdı. Prosesləri diqqətlə izləyən I Aleksandr 1801-ci ilin sentyabrında verdiyi Manifestlə Şərqi Gürcüstanın (Kartli-Kaxetiyanın) daxili müstəqilliyini ləğv etdi. Onun tabeliyində olan Borçalı, Pəmbək, Qazax və Şəmşəddil sultanlıqları da Rusiyaya ilhaq edildi. Beləliklə, Azərbaycanın şimal torpaqlarının işğalı prosesində ilk addım atılmış oldu. Bu hadisə Gəncə və

Bakı Texniki Kollec

İrəvan xanları tərəfindən ciddi etirazla qarşılandı. İrəvan xanı Məhəmməd xan Rusiyanın təcavüzkar siyasətinə qarşı daha qətiyyətlə çıxış edərək pəmbəkliləri işğalçılara boyun əyməməyə çağırdı, onlara rus qoşunlarının işğal etdikləri əraziləri tərk edib İrəvana köçməyi təklif etdi. Xanın müraciəti ilə 600 pəmbəkli İrəvana pənah gətirdi. İrəvan xanı eyni zamanda öz nümayəndəsini Tiflisə göndərərək şahın fərmanına əsasən Pəmbək vilayətinin ona məxsus olduğunu da bildirmişdi. Şəmşəddilin ruslar tərəfindən ilhaqına cavab olaraq oxşar addımı Gəncə xanı Cavad xan Ziyadoğlu da atmışdı. Lakin Azərbaycan xanları arasında birliyin olmaması səbəbindən bütün cəhdlər nəticəsiz qaldı.

XIX əsrin əvvəllərində Avropada gedən mürəkkəb siyasi proseslər Rusiyanı ehtiyatlı və düşünülmüş addımlar atmağa vadar edirdi. Rusiya özünü xanlıqların himayəçisi kimi qələmə verməyə, hər vasitə ilə Azərbaycan hakimlərinin Osmanlı və Qacarlar dövlətlərinə meyil etmələrinin qarşısını almağa çalışırdı. Əsas vəzifələrdən biri də xanları mümkün qədər özünə yaxınlaşdırmaq idi. Quba və Lənkəran xanlıqları ilə 1802-ci ilin sonlarında bağlanan Georgiyevsk sazişi də məhz bu məqsədə xidmət edirdi. Sazişin əsas müddəasını guya İran (Qacarlar) təhlükəsinə qarşı birgə mübarizə təşkil edirdi. Lakin Azərbaycanın işğalı planını həyata keçirməyə münasib fürsət gözləyən Rusiya üçün bu saziş Xəzərsahili bölgələrin gələcək istilasına hesablanmış taktiki addım idi. Hadisələrin sonrakı gedişi də bunu sübut etdi.

1803-cü ilin əvvəllərində rus qoşunları Car-Balakən camaatlığının ərazisinə daxil oldu. Camaatlığın əlverişli coğrafi mövqeyi var idi. Bir tərəfdən Gürcüstan, digər tərəfdən isə Dağıstanla sərhəddə yerləşən bu ərazi Azərbaycanın içərilərinə doğru hərəkət etmək üçün də mühüm strateji məntəqə idi. Dağlı xalqlarının Rusiyaya qarşı azadlıq mübarizə sinin getdiyi bir vaxtda camaatlığın işğal edilməsinə çar strateqləri böyük əhəmiyyət verirdilər. Car-Balakənin işğalı dağlı xalqlarının Şimali Qafqazda

Bakı Texniki Kolleci

genişlənən azadlıq hərəkatının cənubla əlaqəsinin kəsilmə sinə hesablanmışdı. 1803-cü ilin martında Qanıx (Alazan) çayı sahilində baş verən döyüş də üstün qüvvələrə malik nizami rus qoşunları qalib gəldi. Aprel ayında isə Tiflisdə Car-Balakən camaatlığı ilə Rusiya arasında "Andlı öhdəlik" adlanan müqavilə imzalandı. Bu müqavilə ilə camaatlıq Rusiya himayəsinə keçdi. Burada rus qoşunları yerləşdirilməli, əhali ipəklə xərac verməli və Tiflisə girovlar göndərməli idi. Lakin bu şərtlərə əməl olunmadığından 1804-cü ilin əvvəllərində Car-Balakənə yenidən rus qoşunları yeridildi. Car tutulsa da, Zaqatala yaxınlığında baş verən döyüşdə əhali rus qoşunlarını darmadağın etdi, general Qulyakov isə öldürüldü. Lakin bu qələbəyə baxmayaraq, buraya çoxsaylı rus qoşunları yeridən general Sisianov bir qədər sonra yenidən Car-Balakən camaatlığını, həmçinin İlisu sultanlığını özünə tabe edə bildi. Gəncənin qəhrəman müdafiəsi. Sisianovun digər hədəfi Gəncə xanlığı idi. Bunun bir sıra səbəbləri vardı. Gəncə xanı Cavad xan ruslara qarşı mübarizədə xanlıqlara müraciət etmiş, I Aleksandrın 1801-ci il Manifestindən sonra Şəmşəddili bir müddət öz himayəsi altına almışdı. Eyni zamanda Azərbaycan torpaqlarının işğalını qarşısına məqsəd qoyan ruslar üçün Gəncə böyük strateji əhəmiyyət daşıyırdı. Azərbaycanın qərbində əsrlər boyu güclü qala rolunu oynamış Gəncənin işğalı digər xanlıqların da tabe etdirilməsini asanlaşdıra bilərdi. Gürcü əsilli general Sisianov bu xanlığın ələ keçirilməsinə böyük önəm verirdi. Onun rus himayəsinə keçmək haqqında müxtəlif təhdidlərlə dolu məktubları, külli miqdarda xərac tələb etməsi Cavad xan tərəfindən qətiyyətlə rədd edildi. Maraqlıdır ki, həmişə diplomatik manevrləri ilə fərqlənən Gəncə xanı bu dəfə Sisianovun məktublarını elə onun öz tonunda da cavablandırdı. Nəticədə Quruqobu yaxınlığındakı kəşfiyyat xarakterli döyüşdən sonra 1803-cü ilin dekabrında Gəncə rus qoşunları tərəfindən mühasirəyə alındı. Şəhər bir aydan çox hücumlara tab gətirdi. Lakin nə Gəncənin strateji əhəmiyyətini anlamayan Fətəli şah Qacar, nə də Cavad xanın müraciət etdiyi Azərbaycan xanları ona yardım etdilər.

Bakı Texniki Kolleci

Sisianovun həqarət dolu məktubuna Cavad xan cəsarətlə: "Şəhəri verməyə gəlincə bu niyyətindən çəkin, çünki bu olan iş deyil. Sən Gəncəyə yalnız mənim meyitimin üzərindən girə bilərsən. Başa düşürsənmi? Ancaq mən öləndən sonra, başqa heç cür!" – cavabını verir. 1804-cü il yanvarın 3-dən 4-nə keçən gecə əlavə kömək alan rus qoşunlarının Gəncə üzərinə həlledici hücumu başladı. Gəncəlilərin qəhrəmancasına döyüşməsinə baxmayaraq, şəhər işğal edildi, Cavad xan isə qəhrəmanlıqla həlak oldu.Sisianovun təklifi ilə I Aleksandrın arvadının şərəfinə Yelizavetpol adlandırılan Gəncə rus zabitinin idarə etdiyi dairəyə çevrildi. Gəncə adının işlədilməsi qadağan olundu, buna görə xüsusi cərimə də müəyyənləşdirildi. Gəncənin işğalı ilə digər xanlıqlara da yol açıldı, ruslar Azərbaycanın işğalı və gələcəkdə Xəzər sahillərinə çıxmaq üçün əlverişli məntəqə əldə etdilər.

## ⁂Cənubi Qafqaz uğrunda Rusiya-Qacar müharibələri ⁂

**Müharibə başlayır.** Fətəli şah Qacar Cavad xanı müdafiə etməməklə hansı böyük səhvə yol verdiyini yalnız Gəncə xanlığının işğalından sonra anladı. Gəncənin ruslar tərəfindən tutulması Qacarların Azərbaycanın şimalında ən mühüm dayaqlarından birinin itirilməsi demək idi. Rusiya imperiyası isə bu hadisədən sonra Cənubi Qafqazda hərbi-strateji üstünlük əldə etmiş oldu. Rus qoşunlarının cəmləşmə yeri olan Gəncə qalası digər Azərbaycan xanlıqlarının işğalı üçün də hərbi baza rolunu oynamağa başladı. Azərbaycanın şimalında reallaşan bu işğal və Cavad xanın öldürülməsi Rusiya imperiyası üçün böyük mənəvi üstünlük yaratdı, Azərbaycan xanları arasında Qacarlar səltənətinə münasibətdə tərəddüdlərə səbəb oldu. Təbii ki,Fətəli şah bununla barışmaq istəmirdi. Buna görə də 1804-cü ilin mayında şah hökuməti çar Rusiyasına Cənubi Qafqazda işğal etdikləri ərazilərdən çıxmağı tələb edən ultimatum verdi. Rədd cavabı Fətəli Şah Qacar alan Qacarlar dövləti Rusiya imperiyası ilə diplomatik münasibətləri kəsdi. Həmin ilin yayında 1804–1813-cü illəri əhatə edən I Rusiya–Qacarlar müharibəsi başladı. Rus qoşunlarının əsas hücum

Bakı Texniki Kolleci

hədəfi İrəvan xanlığı idi. Osmanlı dövləti ilə sərhəddə yerləşən və mühüm coğrafi-strateji mövqeyə malik olan bu xanlıq Rusiyanın istilaçılıq planlarında xüsusi yer tuturdu. İrəvan üzərinə yürüş Şörəyeldən başlandı. Rus qoşunları Gümrüdə möhkəmlənərək iyulun 2-də oradan Üçkilsəyə (Üçmüəzzinə) doğru hərəkət etdi. Qacarlar İranının Üçkilsədə yerləşən qoşunları ilə rus qoşunları arasında 5 gündən artıq davam edən qanlı döyüş başladı. İlk vaxtlar rus qoşunları üstünlük qazansa da, xeyli itki verərək Üçkilsəni tərk etməyə məcbur oldu. Sisianovun başçılıq etdiyi qoşunlar İrəvan yaxınlığında Zəngi çayı üzərində yerləşən, əlverişli strateji mövqeyi olan Qəmərli kəndini ələ keçirməyə can atırdı. Qoşunun tərkibində gürcü knyazlarının və ermənilərin də olması Rusiyanın bu ərazilərlə bağlı gələcək planlarından xəbər verirdi. Qəmərli kəndi uğrunda İrəvan xanı və onun köməyinə gəlmiş Abbas Mirzənin birləşmiş qüvvələri ilə rus qoşunları arasında qanlı döyüş başladı. Ruslar məğlub edildilər.

İrəvan qalası istiqamətində gedən ilk döyüşlərdə ruslar xeyli canlı qüvvə itirdilər. Çarəsiz qalan general P.Sisianov məktubla İrəvan xanına müraciət edərək məsələni diplomatik yolla həll etməyə çalışsa da, onun bu səyləri nəticəsiz qaldı. Qalanın müdafiəsinə tam arxayın olan və havaların getdikcə soyuduğunu nəzərə alan İrəvan xanı Məhəmməd xan rus qoşunlarının ərzaq və sursatlarının tükənəcəyinə ümid edirdi. Yerli əhali düşmənə yardım etməmək üçün taxılı iri küplərə doldurub yerə basdırmışdı. Sisianov gizlədilmiş taxılı tapanlara 50 qəpik gümüş pul verməyi vəd etsə də, bunun heç bir nəticəsi olmadı. Əvəzində, Üçkilsə monastırı ətrafında yaşayan ermənilər rusların düşdüyü çətin vəziyyətdən yararlanaraq əldə etdikləri taxılı çox baha qiymətə gizlincə rus zabitlərinə satırdılar. İrəvan ətrafında vəziyyətin ağırlaşdığını görən Sisianov əvvəlki hədə-qorxuları mülayim müraciətlərlə əvəz etdi. Xana müxtəlif güzəştlər vəd verən çar generalı onun son ana qədər qalanı təslim edəcəyinə ümid bəsləyirdi. Sisianovun "geridəqalmış" bir xalqın nümayəndəsi hesab

etdiyi İrəvan xanı onu çıxılmaz vəziyyətə salmışdı. Məhəmməd xanın yaxşı hərbi hazırlığı və uğurlu taktiki tədbirləri nəticəsində rus qoşunları böyük itki verdi. Həmin il sentyabrın 1-də Sisianov axırıncı dəfə Məhəmməd xandan İrəvan qalasını təhvil verməyi tələb etdi. Onun bu müraciətinə ertəsi gün Məhəmməd xan yenidən rədd cavabı göndərdi. Son cəhdinin də uğursuz alındığını görən Sisianov sentyabrın 3-də rus qoşunlarının geri çəkilməsi barədə əmr verdi.

Qarabağ, Şəki və Şamaxı xanlıqlarının işğalı. İrəvan xanlığı istiqamətində uğur qazana bilməyən general Sisianov bu dəfə diqqətini Qarabağa yönəltdi. Öz hakimiyyətini qorumağa çalışan Qarabağ xanı İbrahimxəlil xan Qacarların Gəncə istiqamətində göndərdiyi qoşunu məğlub etməklə Sisianovun rəğbətini qazanmışdı.Cənubi Qafqazdakı rus komandanlığı ilə sıx əlaqələr qurmuş Qarabağın separatçı xristian məliklərini siyasi baxımdan neytrallaşdırmağa çalışan İbrahimxəlil xan da Sisianovla görüşməyə razılıq verdi. 1805-ci il mayın 14-də Qarabağ xanlığı ilə Rusiya dövləti arasında Kürəkçayda müqavilə imzalandı. Giriş və 11 maddədən ibarət olan bu müqavilə ilə Qarabağ xanlığı "əbədi olaraq" Rusiya himayəsinə keçdi. Müqavilədə Rusiya imperiyası və Qarabağ xanlığı arasında qarşılıqlı münasibətlərin hüquqi əsasları öz əksini tapmışdı. Rusiya xanlığı himayə etməyi öz öhdəsinə götürür, rus qoşunları onun ərazisində yerləşdirilirdi. Bunun müqabilində Qarabağ xanı Rusiyaya hər il 8 min çervon xərac ödəməli idi. Xanın müstəqil daxili siyasətinə təminat verilir, lakin xarici siyasət məsələlərinin Rusiyanın buradakı nümayəndəsi ilə razılaşdırılması tövsiyə edilirdi. Bu isə Qarabağ xanlığının müstəqil xarici siyasət hüququnun itirilməsi demək idi. İbrahimxəlil xanın məsləhəti ilə Şəki xanı Səlim xan da bir həftə sonra Kürəkçay müqaviləsini imzaladı.


*İbrahimxəlil xan*

General Sisianov oxşar şərtlərlə Şamaxı xanı Mustafa xana da Rusiya imperiyasının himayəsinə keçməyi təklif etdi. Lakin Qarabağ və Şəki xanlarından

Bakı Texniki Kolleci

fərqli olaraq, hərbi əməliyyatlarda Qacar qoşunlarının üstünlük qazanacağına ümid edən Mustafa xan müxtəlif bəhanələrlə danışıqları uzadır, Sisianova öz şərtlərini göndərirdi. Onu diplomatik yolla tabe edə bilməyəcəyini anlayan Sisianov xanlıq üzərinə hərbi yürüşə başladı. Şamaxı xanlığına tabe olan Cavad ərazisini Qarabağ xanlığına birləşdirməyə çalışan İbrahimxəlil xanın və Şamaxı xanı ilə ədavəti olan Şəki xanının hərbi qüvvələri də rus qoşunlarının tərkibində idi və yürüşdə iştirak edirdilər. Mustafa xan Fit dağında müdafiə mövqelərini möhkəmləndirdi. 1805-ci ilin dekabrında birləşmiş qüvvələr bu mövqelərə yaxınlaşdı. Üstün qüvvələr qarşısında duruş gətirə bilməyəcəyini anlayan Mustafa xan Fit dağı yaxınlığına çatmış Sisianovun düşərgəsinə gələrək müqavilə imzalamağa məcbur oldu. Kürəkçay müqaviləsinin şərtlərinə oxşar şərtlərlə bağlanmış müqaviləyə görə, Şamaxı xanlığı da Rusiya himayəsinə keçirdi. Lakin hadisələrin sonrakı inkişafı sübut etdi ki, Georgiyevsk sazişi kimi bu müqavilələr də Rusiya imperiyasının Azərbaycan torpaqlarının işğalı istiqamətində atdığı taktiki addımlardan biri idi.

1806-cı ilin iyununda Abbas Mirzənin göndərdiyi şah qoşunları Qarabağa daxil oldu. Bu zaman ailəsi ilə birlikdə Xankəndində olan İbrahimxəlil xan mayor D.Lisaneviçin əmri ilə heç bir əsas olmadan rus qoşunlarının hücumuna məruz qaldı. Xan və onun yaxınları öldürüldü. Bu hadisə şəkili Səlim xanı hiddətləndirdi. O, rus qoşunlarını Şəkidən qovdu. Bu isə Kürəkçay müqaviləsinin Şəki xanı tərəfindən nümayişkaranə şəkildə pozulması demək idi. Dərbənd, Bakı və Quba xanlıqlarının işğalı. Şamaxının işğalından sonra Bakı xanlığına yol açılmışdı. Lakin general Sisianov Bakının qala divarları yaxınlığında öldürüldükdən sonra rus qoşunları geri çəkilməyə məcbur oldu. 1806-cı ilin iyununda yenidən Xəzərsahili bölgələrdə fəallaşan rus ordusu Dərbəndi işğal etdi, sentyabrda isə Bakıya yetişdi. Hüseyn qulu xan dənizdən və qurudan şəhərə yaxınlaşan rus qoşunlarına müqavimət göstərə bilməyəcəyini anlayıb əhalini yersiz qırğından qorumaq məqsədilə şəhəri tərk etdi.

Bakı Texniki Kolleci

Sentyabrın 3-də Bakı işğal olundu. Xanlıq ləğv edilərək Rusiyanın əyalətinə çevrildi. Bir qədər sonra Quba xanlığı da ruslar tərəfindən zəbt edildi. Qubanın idarə edilməsi keçmiş Bakı xanı II Mirzə Məhəmmədin başçılığı ilə yerli bəylərdən təşkil olunmuş Əyalət şurasına tapşırıldı. 1806-cı il oktyabrın sonlarında rus qoşunları Şəkini mühasirəyə aldılar. Şəhər əhalisinin şiddətli müqavimət göstərməsinə baxmayaraq, Şəki işğal edildi. Səlim xan da digər xanlar kimi Qacarlar səltənətinə pənah apardı. Şəkinin işğalından sonra burada da rusmeyilli qüvvələrdən ibarət müvəqqəti idarə yaradıldı.

Osmanlı–Rusiya müharibəsi. Rus qoşunlarının 1806-cı ildə qazandığı uğurlar Osmanlı sarayında da böyük narahatlığa səbəb olmuşdu. Cənubi Qafqazda rus təsirinin artması ilə barışmayan Osmanlı dövləti həmin ilin sonunda Rusiyaya qarşı yeni müharibəyə başladı. Lakin 1807-ci ildə Gümrü yaxınlığındakı məğlubiyyət Osmanlı dövlətinin Rusiyanı Cənubi Qafqazdan, o cümlədən Azərbaycanın şimal torpaqlarından çıxarmaq planlarına ağır zərbə vurdu. İki dövlət arasında danışıqlar 1812-ci il mayın 16-da Buxarest sülhünün imzalanması ilə nəticələndi. Bu müqavilə ilə Osmanlı dövləti Cənubi Qafqazdakı rus işğallarını tanımağa məcbur oldu.

Gülüstan sülhü. Qacarlarla müharibə hələ də davam edirdi. 1808-ci ilin payızında rus qoşunları Üçkilsəni və Naxçıvanı ələ keçirərək İrəvanı ikinci dəfə mühasirəyə aldı. Bir neçə ay davam edən mühasirə nəticəsiz qaldı, rus qoşunlarının İrəvana ardıcıl hücumları qala müdafiəçiləri tərəfindən dəf edildi. İrəvan qalasının qəhrəman müdafiəsi rus qoşunlarının planlarını pozdu. Qazanılmış vaxt Abbas Mirzəyə İrəvan istiqamətinə yeni qüvvələr cəlb etməyə imkan yaratdı. 1809-cu ilin mayında Azərbaycan valisinin qoşunları rusları Naxçıvandan vurub çıxardı, geri çəkilən rus qoşunlarının əsas qüvvələri isə Qarababa kəndi yaxınlığında baş verən döyüşdə darmadağın edildi. Bu hadisə çar Rusiyasında böyük məyusluğa səbəb oldu. Əsas diqqətini Napoleon Fransasına və Avropadakı proseslərə yönəltmiş I Aleksandr

Bakı Texniki Kolleci

Qacarlarla sülh danışıqlarına başlamağı vacib hesab edirdi. Bu məqsədlə rus çarı İrəvan uğrunda döyüşlərdə məğlub olmuş general İ.Qudoviçi A.Tormasovla əvəzləmiş və ona sülh proseslərini sürətləndirmək göstərişini vermişdi. 1809–1810-cu illərdə Qarabağ və Gəncə istiqamətində gedən hərbi əməliyyatlardakı uğursuzluqlar Abbas Mirzəni də sülh danışıqlarını bərpa etmək məcburiyyətində qoydu. Lakin sülh danışıqlarına başlanılsa da, proses Lənkəran xanlığının gələcək statusu məsələsində düyünə düşdü. Rusiya işğal etdiyi ərazilərlə kifayətlənməyərək Xəzər sahilində xüsusi mövqeyə malik olan Lənkəran xanlığının torpaqlarına da iddia edirdi. Lənkəran xanı Mir Mustafa xanın da Rusiyaya meyil göstərdiyini əsas gətirən çar hökuməti bu məsələdə güzəştə getmək fikrində deyildi. Qacarlar dövləti isə Lənkəranın müstəqil xanlıq kimi qalmasında maraqlı idi. Rusiyanın Xəzər sahillərində möhkəmlənməsini özünün Yaxın və Orta Şərqdəki maraqlarına böyük təhlükə hesab edən İngiltərənin müdaxiləsi ilə danışıqlar uğursuzluqla nəticələndi. Hərbi əməliyyatlar yenidən bərpa edildi.

1812-ci ilin oktyabrında Aslandüz çölündə rus qoşunlarının qələbəsi ilə nəticələnən döyüş müharibənin sonrakı gedişinə həlledici təsir göstərdi. Abbas Mirzənin başçılıq etdiyi hərbi qüvvələrin bu məğlubiyyəti Lənkərandakı şah qoşunlarını da ümidsiz vəziyyətdə qoydu. Lənkəran qalası mühasirəyə düşdü. Qalanın müdafiəsinə Qacar sərkərdəsi Sadıq xan rəhbərlik edirdi. O, rusların qalanın təslim olması haqqında tələblərini rədd etdi. 1812-ci il dekabrın 31-də rus qoşunlarının Lənkəran üzərinə həll edici hücumu başladı. Üstün qüvvələrə qarşı qeyri-bərabər döyüşdə Sadıq xan qəhrəmanlıqla həlak oldu. Yanvarın 1-də Lənkəran işğal edildi.

Lənkəranın işğalından sonra sülh danışıqları yenidən bərpa olundu. 1813-cü il oktyabrın 12-də Qarabağın Gülüstan kəndində iki dövlət arasında sülh müqaviləsi bağlandı. Müqaviləni Qacarların nümayəndə heyətinin başçısı Mirzə Əbülhəsən və



Bakı Texniki Kolleci

Rusiyanı təmsil edən general N.Rtişşev imzalamışdı. Danışıqlarda Qacarlar dövlətinin nümayəndə heyətinin tərkibində olan ingilis müşavir Qor Ouzli də iştirak edirdi. Məhz onun fəallığı nəticəsində müqaviləyə edilmiş əlavə aktla Qacarlar dövlətinə sülh müqaviləsinin nəticələrinə, xüsusilə sərhədlərin dəyişdirilməsinə gələcəkdə yenidən baxılması hüququ verildi. Gülüstan müqaviləsi preambula, 11 maddə və Separat aktdan ibarət idi. Müqaviləyə görə, Qacarlar dövləti Gəncə, Şəki, Şirvan, Quba, Bakı və Lənkəran xanlıqlarının, Şərqi Gürcüstan və Dağıstanın Rusiya hakimiyyəti altına keçməsini qəbul edirdi. Xəzər dənizində hərbi dəniz donanması saxlamaq hüququ yalnız Rusiyaya məxsus olurdu. Gülüstan sülhünün 7-ci maddəsinə görə, hər iki ölkədə diplomatik korpusların yaradılması da nəzərdə tutulurdu. Bir neçə maddə isə ticarət və gömrük məsələlərinə həsr edilmişdi. Gülüstan sülhü ilə Cənubi Qafqazın, o cümlədən Azərbaycanın şimal xanlıqlarının işğalının ilk mərhələsi başa çatdı. Naxçıvan və İrəvan xanlıqlarından başqa, bütün şimal ərazilər Rusiya əsarəti altına düşdü. Torpaqlar bölüşdürüldü və xalqın gələcək faciələrinin əsası qoyuldu.

**Cənubi Qafqaz və Azərbaycan uğrunda II Rusiya–Qacarlar müharibəsi. Türkmənçay sülhü.** Qacarlar səltənəti onun üçün ağır şərtlərlə imzalanmış Gülüstan müqaviləsi ilə barışmaq istəmirdi. XIX əsrin ikinci onilliyində Separat aktdan istifadə edərək sərhədlər məsələsinə yenidən baxılmasına çalışan şah hökumətinin bütün səyləri nəticəsiz qalmışdı. Napoleon Fransası üzərində qələbə çalınmasında oynadığı rol, Avropadakı mövqeyinin möhkəmlənməsi Rusiyanın beynəlxalq nüfuzunu əhəmiyyətli dərəcədə artırdığından çar hökuməti ərazi məsələlərində heç bir güzəştə getmək istəmirdi. Lakin Rusiyanın Qafqazda güclənməsi, Yaxın və Orta Şərqdə proseslərə təsirinin artması Qacarlarla yanaşı, bunu Şərqdəki mülkləri üçün təhlükə hesab edən İngiltərəni də narahat edirdi. Bu iki dövlət arasında ortaq maraqlar 1814-cü ildə Tehran müqaviləsinin imzalanması ilə nəticələndi. Müqaviləyə görə,

Bakı Texniki Kolleci

İngiltərə Qacarlar dövlətinə hərbi və maliyyə yardımı etməyi öz üzərinə götürür, Gülüstan müqaviləsinin şərtlərinə yenidən baxılmasına kömək edəcəyinə vəd verirdi. Bunun qarşılığında isə Qacarlar dövləti İngiltərəyə Hindistan sərhədlərinin təhlükəsizliyini təmin edəcəyini bildirirdi. İngiltərənin yardımı ilə ordusunu yenidən qurmağa başlayan Abbas Mirzə Qacarlara sığınmış Azərbaycan xanlarının da ona yardım edəcəyini nəzərə alaraq cidd-cəhdlə yeni müharibəyə hazırlaşırdı. Rusiyadakı Dekabristlər üsyanı ilə bağlı xəbər Qacarların yeni müharibəyə başlamasını sürətləndirdi. İlk hərbi əməliyyatlar 1826-cı ilin iyulunda oldu. Abbas Mirzənin əsas məqsədi Tiflisi tutmaq, rusları bütünlüklə Cənubi Qafqazdan çıxararaq Terek çayından şimala qovmaq idi. Qacar qoşunlarının hərəkət istiqaməti də buna hesablanmışdı. Müharibənin başlanğıcında Abbas Mirzə xeyli uğur əldə etdi. Azərbaycan xanlarının da yaxından iştirakı ilə Lənkəran, Şamaxı, Şəki və Gəncə əraziləri ruslardan təmizləndi. Bu ərazilərdə xan hakimiyyəti bərpa olundu. Hərbi əməliyyatlara qoşulan İrvan xanı Həsən xan da Pəmbək və Şörəyeli azad etdi. Lakin Abbas Mirzə dağınıq vəziyyətdə olan rus dəstələrini əzmək əvəzinə, əsas qüvvələri ilə Şuşa qalasını mühasirəyə aldı. Mühasirə 48 gün davam etdi. Bundan yararlanan rus komandanlığı pərakəndə haldaolan rus qoşunlarını Tiflisə cəmlədi, buraya yeni qüvvələr göndərdi. Qraf İ.F.Paskeviç isə Qafqazdakı rus qoşunlarının komandanı təyin edildi. Nəticə özünü çox gözlətmədi. 1826-cı ilin sentyabrında Şəmkir döyüşündə ruslar qələbə qazandılar. Sentyabrın 13-də Gəncədə baş verən döyüş həlledici oldu. Abbas Mirzənin başçılıq etdiyi şah qoşunlarının əsas hissəsi xəyanət nəticəsində məğlub edildi. Bu məğlubiyyət Qacarların Qafqazdakı nüfuzuna ağır zərbə vurdu və müharibənin taleyini həll etdi. 1827-ci ilin yayında rus qoşunları əvvəlcə Naxçıvanı müqavimətsiz tutdu. Həmin ilin iyulunda baş verən Cavanbulaq, sentyabrın 20-də isə Sərdarabad döyüşlərindəki qələbələr İrəvan xanlığının taleyini, demək olar ki, həll etdi. İrəvan xanı Həsən xanın şiddətli müqavimətinə baxmayaraq, şəhər ruslar tərəfindən tutuldu. Hərbi əməliyyatları Azərbaycanın cənubuna keçirən



Bakı Texniki Kolleci

ruslar 1827-ci ilin oktyabrında Maku, Xoy, Mərənd və Təbrizi zəbt etdilər. 1827-ci ilin noyabrından başlamış danışıqlar Rusiya böyük miqdarda təzminat tələb etdiyi üçün uzanırdı. Bunu bəhanə edən ruslar Urmiya və Ərdəbili də işğal etdilər. Nəhayət, 1828-ci il fevral ayının 10-da Təbriz yaxınlığındakı Türkmənçay kəndində sülh müqaviləsi imzalandı. On altı maddədən ibarət olan bu sülhə görə, Qacarlar dövləti ilə Rusiya arasındakı sərhədlər yeniləndi. Şah hökuməti Naxçıvan və İrəvan xanlıqlarının da Rusiyaya ilhaqını tanıdı, 20 milyon rubl məbləğində təzminat ödəməyi öz öhdəsinə götürdü. Müqaviləyə görə, Xəzər dənizində hərbi donanma saxlamaq hüququ yenə də yalnız Rusiyaya məxsus idi. Bundan başqa, Türkmənçay sülhündə qarşılıqlı ticarət əlaqələrinin genişləndirilməsi, yeni ticarət konsulluqlarının açılması, gömrük məsələləri də öz əksini tapırdı. Sülhün ən ağrılı məqamlarından biri isə 15-ci maddə idi. Bu maddədə Qacarların daxili əyalətlərində yaşayan əhalinin Rusiyaya (Azərbaycanın şimalına) sərbəst köçməsinə şərait yaratdığı əks olunurdu. Bu maddəyə uyğun olaraq, Rusya-Qacarlar müharibələrinin gedişində xəyanət yolunu tutmuş ermənilərin kütləvi surətdə Cənubi Qafqaza və əsasən, Azərbaycan torpaqlarına köçürülməsi prosesi başlandı. Türkmənçay sülhü ilə tarixi Azərbaycan torpaqlarının ikiyə bölünməsi rəsmiləşdirildi. Azər baycan torpaqlarına ermənilərin köçürülməsi 1828–1829-cu illəri əhatə edən Osmanlı-Rusiya müharibəsindən sonra daha geniş vüsət aldı. 1829-cu ildə imzalanmış Ədirnə sülhünə görə, Osmanlı dövləti ərazisindən 90 minə yaxın erməni əhalisi Azərbaycanın şimal torpaqlarına köçürüldü. Bu sülhə əsasən, Axalsıx paşalığının bir hissəsi Rusiya imperiyasına ilhaq edildi, Osmanlı dövləti bütün Cənubi Qafqazın işğalını rəsmən tanıdı.


*Türkmənçay müqaviləsinin bağlandığı ev (ön planda)*

Bakı Texniki Kolleci

## 2. Müstəmləkə idarə üsulu. Müstəmləkəçilik əleyhinə çıxışlar.

Hələ I Rusiya-Qacarlar müharibəsinin gedişində çar Rusiyası yerli xanlıqları ləğv etməyə başlamışdı. Rus qoşunlarına şiddətli müqavimət göstərən xanlıqların yerində başında rus zabitinin-komendantın durduğu idarə üsulu yaradıldı. Məsələn, Dərbənd, Bakı xanlıqları məhz bu cür ləğv edilmişdi. 1806-cı ildə işğal olunmuş Quba xanlığında isə bir müddət yerli bəylərdən ibarət Əyalət şurası fəaliyyət göstərmişdi. 1810-cu ildə müstəmləkə zülmü əleyhinə burada baş vermiş üsyan yatırıldıqdan sonra həmin şura ləğv edildi. Rusiya idarəçiliyini "könüllü" qəbul etməyə məcbur olmuş xanlıqların isə taleyi bir qədər fərqli idi. Qarabağ, Şəki, Şirvan və Lənkəran xanlıqlarında yerli idarəçilik bir müddət saxlanılmışdı. Lakin Cənubi Qafqazdakı rus məmurları onların mövcudluğuna, yerli idarəçiliyin qalmasına uzun müddət dözmək fikrində olmadıqlarını tezliklə büruzə verdilər. 1819-cu ildə sonuncu Şəki xanı İsmayıl xan zəhərlənərək öldürüldü və xanlığın varlığına son qoyuldu. 1820-ci ildə Şamaxı, bundan iki il sonra isə Qarabağ xanlığı ləğv edildi. Rusiyaya sədaqəti ilə seçilən Lənkəran xanlığını da eyni aqibət gözləyirdi. Yüksək rütbəli rus məmurlarının xüsusi göstərişi və bunu yerinə yetirən komendantın təzyiqi nəticəsində 1826-cı ildə Mirhəsən xan da xanlığı tərk etməyə məcbur oldu. Beləliklə, Lənkəran xanlığının davarlığına son qoyuldu. Bu tədbirlərlə çar Rusiyası XIX əsrin əvvəllərində imzalanmış müqavilələrin xanlıqların işğalı prosesində həyata keçirilmiş taktiki addım olduğunu bir daha əyani şəkildə nümayiş etdirdi.

1828-ci ilin martında daha bir tarixi haqsızlıq baş verdi. Çar I Nikolayın fərmanı ilə Naxçıvan və İrəvan xanlıqlarının torpaqlarını əhatə edən qondarma "erməni vilayəti" yaradıldı. Bu addım həmin xanlıqların rəsmən ləğv olunması ilə yanaşı, gələcəkdə tarixi Azərbaycan torpaqları hesabına erməni dövlətinin təşkilinə zəmin

Bakı Texniki Kolleci

hazırladı.Beləliklə, rus işğalından sonra keçən qısa zaman ərzində yerli idarəetmə sistemi bütünlüklə yeni hərbi idarə üsulu ilə əvəz edildi. Onun yerində rus zabitləri-komendantlar tərəfindən idarə olunan əyalətlər, dairələr və distansiyalar yaradıldı. Komendantları Qafqazın Baş hakimi təyin edirdi. Onlara geniş səlahiyyətlər verilmişdi. İdarə etdikləri ərazilərdə bütün mülki və hərbi idarəçilik komendantların əllərində cəmlənmişdi. Onlar hətta məhkəmələrə də sədrlik edirdilər. Bu isə misli görünməmiş özbaşınalıqlara, əhalinin soyulub-talanmasına şərait yaradırdı. Əyalətlər mahallara, mahallar isə ənənəvi olaraq kəndlərə bölünürdü. Mahalları naiblər, kəndləri isə kəndxuda və ya yüzbaşılar idarə edirdi. Naiblər və kəndxudalar, əsasən, vergilərin yığılması və komendantlara göndərliməsi ilə məşğul olurdular. Naib və ya kəndxuda vəzifəsinə təyin edilənlərin Rusiyaya sədaqəti əsas götürülürdü. Dövlətdən heç bir maaş almayan bu vəzifə sahiblərinə çar hökuməti yalnız bəzi imtiyazlar vermişdi.Qarabağ, Şəki, Şirvan və Lənkəran əraziləri mərkəzi Şuşa olan Müsəlman Əyalətləri Rəisliyində birləşdirilmiş, Bakı və Quba isə Dərbənddə yerləşən Hərbi Dairə Rəisliyinə tabe etdirilmişdi.Rus işğalı məhkəmə sistemində də mühüm dəyişikliklərə səbəb oldu. Ənənəvi şəriət məhkəmələri öz əvvəlki rolunu itirdi. Bu məhkəmələrin səlahiyyətləri evlənmə-boşanma (kəbin-talaq) və vərəsəlik məsələləri ilə məhdudlaşdırıldı. Əvəzində yeni yaradılan əyalət və şəhər məhkəmələrinə geniş səlahiyyətlər verildi. Bu məhkəmələrdə verilən qərarlar qayda-qanundan daha çox onlara sədrlik edən komendantların iradəsindən asılı idi. Məhkəmələr rus dilində aparılır, bu isə dili bilməyən yerli əhali üçün böyük problemlər yaradırdı. Ən böyük ədalətsizliklərdən biri də mülki cinayətlərə hərbçilər üçün yaradılmış səhra məhkəmələrində baxılması idi.

Göründüyü kimi, komendant idarə üsulu Şimali Azərbaycanda çar Rusiyasının müstəmləkəçi maraqlarına xidmət edən və məmur özbaşınalığına şərait yaradan ədalətsiz inzibati idarə sistemi idi.

Bakı Texniki Kolleci

Çarizmin köçürmə siyasəti. Bir tərəfdən Osmanlı dövləti, digər tərəfdən Qacarlar İranı ilə əhatə olunan Cənubi Qafqazın əhalisinin, əsasən, müsəlmanlardan ibarət olması çarizmin müstəmləkəçi maraqlarına cavab vermirdi. I Pyotrun vəsiyyətlərindən kənara çıxmayan rus çariz mi ermənilərin Şimali Azərbaycana köçürülməsinə xüsusi diqqət ayırırdı. Xristianları Cənubi Qafqaza köçürməkdə çarizmin bir sıra məqsədləri var idi:

1. İşğal edilmiş ərazidə yaşayan əhalinin mütləq çoxluğunu müsəlmanlar təşkil etdiyindən Osmanlı və Qacarlar dövlətlərinə meyil göstərməyən və Rusiya imperiyasına sədaqətlə xidmət edəcək qeyri-müsəlmanları yerləşdirməklə özünə etibarlı sosial dayaq yaratmaq;
2. Xristian əhalini qonşu müsəlman dövlətləri ilə sərhəddə yerləşdirməklə bufer zona yaratmağa nail olmaq, yerli müsəlman-türk əhalinin müsəlman Şərqi ilə əlaqələrini zəiflətmək;
3. Xristianlaşdırma və ruslaşdırma siyasətini həyata keçirmək;
4. Regionun iqtisadi fəthini sürətləndirmək və xəzinənin gəlirlərini artırmaq.

Bu məqsədlərə çatmaq üçün çarizm erməni faktoruna xüsusi diqqət ayırmışdı. Erməni kilsə xadimləri və rus ordusunda xidmət edən erməni mənşəli zabitlər vasitəsilə Qacarlar və Osmanlı dövlətləri ərazisində yaşayan bu xalqın nümayəndələri arasında Qafqaza köçürülmə ilə bağlı təbliğat aparılırdı. Çar hökuməti onlara Azərbaycan torpaqları hesabına dövlət yaradacağı vədini də vermişdi. Ermənilərin Qacarlar İranından Şimali Azərbayana köçürülməsi 1804-cü ildən başlayaraq mərhələ-mərhələ həyata keçirildi. 1804-cü ildə Yelizavetpol



*Ermənilərin İrandan Cənubi Qafqaza köçürülməsi. 1828-ci il*

Bakı Texniki Kolleci

qəzasına 105 erməni ailəsi, 1805-ci ildə isə 1300 erməni köçürüldü. General Sisianov hətta 1600 aysoru da Şimali Azərbaycanda yerləşdirdi. Ermənilərin kütləvi şəkildə Cənubi Qafqaza gətirilməsi Türkmənçay və Ədirnə müqavilələrindən sonra daha geniş vüsət aldı.

15-ci maddədə "bağışlanma əta olunanlar" Rusiya ilə aparılan müharibələrin gedişində şah hökumətinə xəyanət edən, rus qoşunlarının uğur qazanması üçün onlara çuğulçuluq edib hər cür yardım göstərən ermənilər idi. Türkmənçay və Ədirnə sülh müqavilələrindən sonra Şimali Azərbaycan torpaqlarına qısa müddət ərzində təxminən 130 minə yaxın erməni köçürülmüşdü. Köçürülən əhali, əsasən, Qarabağda, Naxçıvan və İrəvanda yerləşdirilmişdi. Şimali Azərbaycan torpaqlarında ermənilərin məskunlaşması XX əsrin əvvəllərinə qədər davam etmiş, əhalinin etnik tərkibi ciddi dəyişikliklərə məruz qalmışdı. Köçürülən ermənilər vergilərdən bir müddət azad edilir, onlara münbit torpaqlar verilirdi. Sonralar onların üzərinə qoyulan vergi də yerli əhaliyə nisbətən xeyli az idi. Azərbaycan torpaqlarında ermənilərin kütləvi surətdə yerləşdirilməsi bədnam qonşuların bu günkü ərazi iddialarının meydana çıxmasına şərait yaratmışdı.

Almanların Qafqaza köçürülməsi. Çarizmin köçürmə siyasətində almanlar da mühüm yer tuturdular. XVIII əsrin sonu – XIX əsrin əvvəllərində Almaniya siyasi dağınıqlıq dövrünü keçirməklə yanaşı, ağır iqtisadi böhran içərisində idi. Napoleon müharibələri də ölkədən yan ötmədi. Məhz belə bir dövrdə Rusiya alman əhalisinin hərbi cəhətdən fəth edilmiş Qafqaz torpaqlarında yerləşdirilməsinə ciddi diqqət ayırdı. Almaniyanın cənubundakı Vürtemberq knyazlığı, Baden Napoleon müharibələrindən daha çox zərər görmüşdü. Alman köçkünlərinin Qafqaza köçürülməsi prosesi 1817-1818-ci illərdə başladı. Onların içərisində savadlı mühəndislərin, bacarıqlı sənətkarların, kəndlilərin olması da rus çarizminin Qafqazla bağlı iqtisadi maraqları ilə üst-üstə düşürdü.

Bakı Texniki Kolleci

Azərbaycanda rus məskənləri. Çar hökuməti ruslaşdırma siyasətinə uyğun olaraq Azərbaycana rusların köçürülməsini də diqqətdə saxlayırdı. İlk vaxtlar burada xidmət edən əsgərlərin xidmət müddətini başa vurduqdan sonra Azərbaycanda məskunlaşdırılmasına cəhd edilsə də, bu alınmadı. Rus əsgərləri özləri üçün yad olan iqlimdə yaşamaq istəmirdilər. Əvəzində I Nikolay 1830-cu iloktyabrın 20-də rus kəndlilərinin Şimali Azərbaycana köçürülməsi haqqında fərman verdi. Bu fərmanla Azərbaycanda ilk rus məskənləri yaradıldı. Sonrakı dövrlərdə də rusların Azərbaycanın şimal torpaqlarında yerləşdirilməsi prosesi davam etdirildi. Ən münbit torpaqlar, həmçinin yerli əhalinin yaylaq kimi istifadə etdiyi ərazilər gəlmələrə verildi.Sosial-iqtisadi həyatda yeniliklər. Rus işğalı əhalinin sosial tərkibində bir sıra dəyişikliklərə səbəb oldu. Hakim zümrə içərisində bəylər və ağalar aparıcı rol oynamağa başladılar. Ali ruhanilər də öz mövqelərini qoruyurdular. Çarizm yerli zadəganları özünə yaxınlaşdırmaq üçün 13 iyul 1830-cu il tarixli fərman verdi. Bu fərmanla bəylərin və ağaların müsadirə olunmuş torpaqlarının müəyyən hissəsi geri qaytarılır, lakin onların dövlət idarəçiliyində iştirakına məhdudiyyətlər qoyulurdu. Müsəlman ruhanilərinin əhali üzərindəki böyük təsirini nəzərə alan çar hökuməti onları nəzarətdə saxlamaq üçün 1829-cu ildə şeyxülislam və müfti vəzifələrini təsis etdi. Şeyxülislam şiə məzhəbli, müfti isə sünni məzhəbli əhaliyə dini rəhbərlik etməli idi.

1836-cı ildə Xaçın məlikliyi ərazisində yerləşən alban katolikosluğu ləğv edildi, alban kilsəsi və alban tarixinə aid qiymətli mənbələr Rusiyaya aparıldı. Bu, qədim alban etnosunun varlığına böyük zərbə oldu.

Əhalinin sosial tərkibi. Rus işğalından sonra əhalinin aşağı zümrəsinin tərkibində ciddi dəyşikliklər baş verməmişdi. Əvvəllər olduğu kimi, bu zümrə yenə də kəndlilər, sənətkarlar və tacirlərdən ibarət idi. İşğalın nəticəsi olaraq kəndlilər iki böyük təbəqəyə ayrılmışdı: dövlət kəndliləri və sahibkar kəndliləri. İşğal prosesinin

Bakı Texniki Kolleci

gedişində hakim zümrədən müsadirə olunmuş torpaqlar dövlət (xəzinə) torpaqları adlandırılaraq birbaşa mərkəzi hakimiyyətin ixtiyarına verilmişdi. Belə torpaqlarda yaşayan kəndlilər dövlət (xəzinə) kəndliləri, bəy, ağa torpaqlarında yaşayan kəndlilər isə sahibkar kəndliləri adlandırılırdı. İstər sahibkar, istərsə də dövlət kəndliləri ənənəvi olaraq rəiyyət, rəncbər, elat kimi qruplara bölünürdü.

Torpaq mülkiyyəti formaları və vergilər. Rus işğalı torpaq mülkiyyətinə də müəyyən qədər təsir göstərmişdi. Bu dövrdə dövlət torpaqları tiyul, vəqf, mülk və mülki-xalisə kimi mülkiyyət formaları mövcud idi.

- Tiyul çarizmə sədaqətlə xidmət edənlərə verilirdi.
- Vəqf məscidlərə və kilsələrə məxsus torpaqlar idi.
- Mülk və mülki-xalisə isə yerli bəylərin və ağaların irsi torpaqları hesab olunurdu.

Aparıcı vergilər yenə də malcəhət və bəhrə olaraq qalırdı.Rus işğalı dövründə XVIII əsrdə tətbiq edilən vergilər saxlanılmış, onların miqdarı isə daha da artırılmışdı. Müsəlman əhali xristianlara nisbətən daha çox vergi ödəyir və mükəlləfiyyətlər icra edirdi. Çox zaman komendantlar vergiləri özbaşına artırır və ya bir vergini bir neçə dəfə alırdılar. Cənubi Qafqazın işğalından sonra Şimali Azərbaycan tədricən Rusiyanın xammal və satış bazarına çevrilirdi. Çarizmin iqtisadi siyasətinin mahiyyəti də elə bunun üzərində qurulmuşdu: yerli xammalı Rusiyaya daşımaq, orada istehsal olunan hazır məhsulları isə müstəmləkəsində satmaq. Azərbaycanda istehsal edilən xam ipək, pambıq, qızıl, boya, yun məmulatları və s. məhsullar Rusiyaya aparılırdı. Bu dövrdə ilk manufakturalar meydana gəldi. 1827-ci ildə Şəki yaxınlığında Xanabad manufakturası fəaliyyətə başladı. Sonralar bu manufaktura Cənubi Qafqazda 1836-cı ildə yaradılmış, ipəkçiliyi və ticarət sənayesini yayan cəmiyyətin sərəncamına verildi.

Çarizmin diqqətində olan sahələrdən biri də neft istehsalı idi. Əvvəllər Bakı xanına məxsus bütün neft quyuları müsadirə edilərək xəzinə torpaqlarına qatılmışdı.

Bakı Texniki Kolleci

Neft quyuları iltizama verilir, orada kəndlilərin icbari əməyindən istifadə olunurdu. Bu isə neft hasilatına mənfi təsir göstərirdi. Balıq vətəgələri və duz mədənləri də iltizama verilən sahələrdən idi. İlk kapitalist müəssisələrinin meydana gəlməsinə baxmayaraq, XIX əsrin birinci yarısında Azərbaycan aqrar ölkə olaraq qalırdı. Əhalinin əsas məşğuliyyəti əkinçilik, maldarlıq və kustar sənətkarlıq idi.

Sənətkarlıq və ticarət. Çar Rusiyası sənətkarlıq və ticarətdən gələn gəlirlərini artırmaq üçün XIX əsrin 20–30-cu illərində bir sıra addımlar atdı. Bu illərdə qəbul edilən ticarət əsasnamələri, həmçinin 1836-cı ildə rəhdari rüsumunun ləğvi ticarətin inkişafına müsbət təsir göstərdi. Xanlıqlar dövründən qalan müxtəlif çəki, ölçü və pul vahidlərinin mövcudluğu sənətkarlıq və ticarətin inkişafını ləngidirdi. 1839-1843-cü illərdə bu sahədə irəliyə doğru addımlar atıldı. Azərbaycanda da Rusiyada istifadə olunan vahid çəki, ölçü, pul vahidləri tətbiq edildi. Beləliklə, çarizmin bölgədən gələn gəlirlərini artırmaq məqsədilə həyata keçirdiyi islahatlar obyektiv olaraq sənətkarlıq və ticarətin inkişafına müsbət təsir göstərdi.

Müstəmləkə zülmünə qarşı xalq üsyanları. XIX əsrin 30-cu illərində Şimali Azərbaycanı üsyanlar bürüdü. Bu üsyanlarda əhalinin bütün təbəqələrinin iştirakı və onlara hakim zümrənin nümayəndələrinin başçılıq etməsi azərbaycanlıların çarizmin müstəmləkə zülmü ilə barışmazlığının göstəricisi idi. Rus çarizminin Şimali Azərbaycanda apardığı milli dini ayrı-seçkilik, ruslaşdırma, xristianlaşdırma siyasəti, köçürülmələr nəticəsində yerli əhalinin münbit torpaqlarını, xüsusilə yaylaqlarının xeyli hissəsini itirməsi, komendant özbaşınalıqları, vergi və mükəlləfiyyətlərin çoxluğu əhalidə kəskin narazılıq doğururdu.

Bakı Texniki Kolleci

## RUS İŞĞALINDAN SONRA YARADILAN İNZİBATİ İDARƏETMƏ SİSTEMİ (KOMENDANT İDARƏ ÜSULU)




**XIX əsrin 30-cu illərində çar Rusiyasının müstəmləkə siyasətinə qarşı baş verən üsyanlar**

| İllər | Baş verdiyi ərazi | Üsyanın rəhbəri | Özünəməxsus səbəbi | Məğlubolma səbəbləri |
|---|---|---|---|---|
| 1830 | Car-Balakən | Şeyx Şaban | Daxili muxtariyyətin ləğvi | • *Qeyri-mütəşəkkillik*<br>• *Zəif silahlanma*<br>• *Vahid mərkəzdən idarə olunmaması*<br>• *Yerli xarakter daşıması*<br>• *Üsyançıların sayca azlığı*<br>• *Həlledici məqamlarda ləngimə* |
| 1831 | Lənkəran | Mirhəsən xan | Əkinəyararlı torpaqların azlığı | |
| 1837–1838 | Quba | Hacı Məhəmməd | İltizam sisteminin daha sərt formada tətbiqi | |
| 1838 | Şəki | Məşədi Məhəmməd | Vergilərin çoxluğu | |

# 3. XIX əsrin 40-cı illərində Şimali Azərbaycanda keçirilən islahatlar

İnzibati-məhkəmə islahatlarının hazırlanması və tətbiqi. XIX əsrin 30-cu illərində baş vermiş üsyanlar yatırılsa da, onları doğuran sosial- iqtisadi və siyasi səbəblər qalmaqda idi. Azərbaycanda çarizmin iqtisadi siyasətinin həyata keçirilməsi, diyarın təbii ehtiyatlarının mənimsənilməsi cəhdləri, bəzi digər amillərlə yanaşı, komendant idarə üsulunun təsiri altında ləngidilirdi. Hətta çar məmurlarının etirafına görə, bu idarəçilik üsulu dövlət xəzinəsinə xeyli ziyan da vururdu. Həmçinin çarizmin Cənubi Qafqazda öz hökmranlığını möhkəmləndirməsinə nail olmaq cəhdi komendant idarə üsulunun ləğvini və onun yeni sistemlə əvəz olunmasını tələb edirdi. 1840-cı il aprelin 10-da I Nikolay tərəfindən "Zaqafqaziya (Cənubi Qafqaz – red.) diyarının idarə olunması üçün təsisat" adı altında inzibati məhkəmə islahatı layihəsi təsdiq olundu. Bu islahat 1841-ci il yanvarın 1-dən qüvvəyə mindi. Cənubi Qafqazın inzibati quruluşu dəyişdirilərək Ümumrusiya inzibati ərazi bölgüsünə uyğunlaşdırıldı. Komendant idarə üsulu ləğv edildi. İslahat nəticəsində Cənubi Qafqaz diyarı mərkəzi Tiflis olan Gürcüstan-İmeretiya quberniyasına və mərkəzi Şamaxı olan Xəzər vilayətinə bölündü. Quberniya və vilayət qəzalara ayrıldı. Qəzaların tərkibində nahiyələr yaradıldı ki, onların da çoxu keçmiş mahalların ərazilərinə uyğun gəlirdi. Nahiyələrin sayı və sahələri Qafqaz çar hakimiyyət orqanları tərəfindən təsdiq olunurdu. Bu zaman əhalinin milli tərkibinə və iqtisadi özünə məxsusluğuna məhəl qoyulmurdu. Cənubi Qafqazın ali idarəçiliyi buradakı qoşunların komandanının – Baş hakimin əlində cəmlənmişdi. Baş hakim general-qubernatora nisbətən daha geniş səlahiyyətlərə malik idi. Həm qubernator, həm də vilayət rəisi vəzifələrinə çarın fərmanı ilə yalnız ruslar təyin edilirdi. 1840-cı il 10 aprel qanunu Cənubi Qafqazın məhkəmə sistemində mühüm dəyişikliklər etdi. Qəza məhkəməsi

Bakı Texniki Kolleci

hakimlərdən və vergi verən təbəqələrdən seçilən iclasçılardan ibarət idi. Mülki işlərə hərbi məhkəmələrdə baxılması qaydası ləğv edildi. Ümumimperiya qanunlarına əsaslanan quberniya, vilayət və qəza məhkəmələri yaradıldı. Bütün kargüzarlıq işləri yalnız rus dilində aparılırdı.1840-cı il qanunu ilə şəriət məhkəmələrinin əlində yenə də yalnız nikah və vərəsəlik işlərini həll emək hüququ saxlanılmışdı. Buna baxmayaraq, Şimali Azərbaycanın yerli sakinləri bütün mülki-hüquqi mübahisələrə görə şəriət məhkəmələrinə üz tutmaqda davam edirdilər.

Azərbaycanlı məmurlar inzibati idarələr və məhkəmələrdən çıxarılır, onların yerinə rus məmurları təyin olunurdu. Çarizmin 1841-ci il tarixli qərarı ilə Qazax, Şəmşəddil və Borçalı nahiyələrinin ağaları, Xəzər vilayətinin bəyləri kəndlərin idarəçiliyindən kənarlaşdırıldı. Bəylər və ağalar tiyul torpaqlarından məhrum edildilər. Bu qərar böyük narazılıqlara və çıxışlara səbəb olduğundan 1842-ci ildə torpaqların müsadirəsi dayandırıldı. Çarizm tərəfindən 1840-cı illərin əvvəllərində elan olunmuş, yerli feodallarla münasibətlərin kəsilməsinə yönəldilmiş siyasət uğursuzluqla nəticələndi.

Yeni inzibati-ərazi bölgüsü. Çar hökuməti dağlılarla müharibəni tezliklə başa çatdırmaq və Qafqazda öz mövqeyini möhkəmləndirmək üçün 1844-cü ildə Cənubi Qafqaz diyarının Baş idarəsi əvəzinə, Qafqaz Canişinliyini təsis etdi. Canişin mütləqiyyətin "ali hüquqları"nın başlıca keşikçisi idi və ona müstəsna dərəcədə geniş səlahiyyətlər verilmişdi. Qraf Mixail Vorontsov Qafqaz canişini təyin olundu. Diyarın inzibati-ərazi qurumunda aparılan dəyişikliklər də Cənubi Qafqazda çar hakimiyyətinin güclənməsinə xidmət edirdi. 1846-cı il 14 dekabr tarixli fərmanla Gürcüstan-İmeretiya quberniyası və Xəzər vilayətinin yerində 4 quberniya yaradıldı. Bu quberniyalar aşağıdakılar idi:



*Şamaxı şəhərinin gerbi*

Bakı Texniki Kolleci

1. Tiflis;
2. Kutais;
3. Şamaxı;
4. Dərbənd.

Bir qədər sonra 1849-cu ildə isə İrəvan quberniyası formalaşdırıldı. Lakin bu inzibati-ərazi quruluşu da Azərbaycan və gürcü torpaqlarını nəinki müvafiq quberniyaların hüdudlarında birləşdirdi, əksinə, daha da parçaladı. Beləliklə, inzibati-məhkəmə sistemində edilmiş dəyişikliklər zəhmətkeş kütlələrin vəziyyətini yüngülləşdirmək əvəzinə, sosial və milli əsarəti daha da ağırlaşdırdı.

Çarizmin Azərbaycan zadəganları ilə ittifaqı möhkəmləndirməsi. XIX yüzilliyin 40-cı illərinin əvvəllərində Azərbaycanda yaranmış şərait bu ölkədə mütləqiyyətə elə bir möhkəm sosial zəmin yaratmaq zərurətini diktə edirdi ki, ona arxalanaraq kəndliləri də əldə saxlamaq mümkün olsun.

Beləliklə, yaranmış vəziyyət çarizmi yerli bəylərə, ağalara qarşı siyasətini dəyişməyə vadar etdi. 1842-ci ildə Tiflisdə ağaların şəxsi hüquqları və onların həyata keçirilməsi yollarının işlənib-hazırlanması ilə məşğul olan komitə fəaliyyətə başladı. Komitənin qarşısında ağaların şəxsində elə bir "ali müsəlman silki" yaratmaq vəzifəsi qoyulurdu ki, hökumət bu vasitə ilə xalqa müvafiq surətdə təsir göstərə bilsin. Azərbaycan bəylərinin torpaq hüquqları və onların kəndlilərlə qarşılıqlı münasibəti məsələsi M.Vorontsovun canişinliyi dövründə həll edildi. Qafqaza yola düşmək ərəfəsində Vorontsovu çarın özü qəbul etdi və o, I Nikolaydan çarizmin aqrar siyasətinin başlıca istiqamətini müəyyənləşdirən göstərişlər aldı. 1843-cü ildən etibarən rəsmi sənədlərdə Azərbaycan ağa və bəyləri "ali müsəlman silki" adlandırılmağa başlandı. I Nikolay 1846-cı il dekabrın 6-da canişin adına reskript (qanun gücündə olan sənəd) imzaladı. Reskript ali müsəlman silkinin həm mülk, həm də tiyul torpaqları üzərində tam irsi mülkiyyət hüququnu təsdiq edirdi. Çar

Bakı Texniki Kolleci

Rusiyasının zadəganları kimi Azərbaycan feodalları da öz torpaqlarından imperiyanın ümumi qnunları əsasında “istifadə etmək, satmaq, bağışlamaq, irsən vermək” hüququ aldılar. Çar hökuməti bütün imperiyada olduğu kimi, feodalların silki hüquqlarının qayğısına qalaraq qeyd edirdi ki, hüquqi sövdələşmə əsasında Azərbaycan feodalları torpağı yalnız ali müsəlman silkinə verə bilərlər. Tiyul və mülkün feodal torpaq mülkiyyətinin eyni kateqoriyasına daxil edilməsi Azərbaycan feodallarının torpaq hüquqlarının güclənməsi ilə əlaqədar yeni bir mərhələnin başlanması demək idi. Sahibkar kəndliləri də formal olaraq dövlət kəndliləri təbəqəsinə şamil edildilər. Kəndli qrupları (rəiyyət, rəncbər, nökər və s.) isə ləğv edilərək ümumi adla – “mülkədar tabelisi” adlandırıldı. Bəylərə və ağalara öz kəndliləri üzərində polis və inzibati məhkəmə hüquqları verildi. Çar hökuməti feodalların torpaq üzərində mülkiyyət və kəndlilər üzərindəinzibati hüquqlarını təsdiqləyərək bunun müqabilində özünə sədaqətlə xidmət göstərməyi tələb edirdi.

1847-ci il kəndli əsasnamələri. Reskriptdə şərh olunan və torpaq sahibkarları ilə kəndlilərin qarşılıqlı münasibətlərini müəyyənləşdirən prinsiplər 1847-ci il 20 aprel və 28 dekabr tarixli “Kəndli əsasnamələri”ndə konkretləşdirildi. Bu əsasnamələrdən birincisi Şamaxı və Dərbənd quberniyalarının bəy kəndlilərinə, ikincisi isə Yelizavetpol qəzasındakı Qazax və Şəmşəddil nahiyələri ağalarının torpaqlarında yaşayan kəndlilərə aid idi. “Kəndli əsasnamələri”ndə torpaq mülkiyyətçiləri ilə kəndlilərin qarşılıqlı münasibətlərini müəyyənləşdirən, sahibkar kəndlilərinin iqtisadi və hüquqi vəziyyətinə aid bir sıra müxtəlif məsələlərə toxunulurdu. Bunlar aşağıdakılar idi:

1. Torpaq;
2. Vergi;
3. Mükəlləfiyyət.

Bakı Texniki Kolleci

Əsasnamə torpaq mülkiyyətçilərinin üzərinə 15 yaşından yuxarı kişi cinsindən olan hər bir kəndlini taxılçılıq, maldarlıq və bostançılıq üçün yararlı olan 5 desyatinlik (desyatin – 1,36 hektar) pay torpağı ilə təmin etmək vəzifəsi qoyurdu. Qanunda kəndli mükəlləfiyyətlərinin müxtəlif növləri, ödənilməsi və yerinə yetirilməsi üsulları ətraflı surətdə şərh edilirdi. Malcəhət torpaq vergisi olub məhsulun 1/10-i qədər müəyyən edilmişdi. Kəndlilər öz pay torpaqlarını sahibkarların iş heyvanı, alətləri və toxumundan istifadə edərək becərdikləri təqdirdə məhsulun 1/5 -dən çox olmayan hissəsini sahibkara verməli idilər. Əkinçiliklə və oturaq maldarlıqla məşğul olan kəndlilər mal-qaralarının sahibkar torpağında otarılması müqabilində məbləği müəyyənləşdirilməmiş xüsusi pul vergisi-çöpbaşı ödəyəcəkdilər.

Əsasnamənin əsas maddələrindən biri kəndlilərin mükəlləfiyyətləri məsələsi idi. Kəndli ailələri bir nəfəri öz iş heyvanı və alətləri ilə birlikdə ildə 18 gün ərzində bəy təsərrüfatında biyara göndərmək məcburiyyətində idilər. Bundan başqa, kəndlilər ildə iki gün elliklə sahibkar üçün işləyərək  əvrəz) kənd təsərrüfatı və ya suvarma işlərini yerinə yetirməyə borclu hesab olunurdular. Əsasnamə sahibkarlara onların torpaqlarında yaşayan kəndlilər üzərində polis və məhdud məhkəmə hakimiyyəti hüququ verir, kəndlilərin “şəxsən azad və digər sahibkarın yanına keçmək hüququna malik olduqlarını” təsdiq edirdi. 1840-cı illərdə keçirilən islahatlar müstəmləkə xarakteri daşısa da, rus çarizmi ilə ali müsəlman silki arasında ittifaqın yaranmasına səbəb oldu. Həmçinin ağa-kəndli münasibətlərində də bir qədər qayda-qanun yaradıldı.

Bakı Texniki Kolleci

# 4.Şimalı Azərbaycanda iqtisadi inkişaf. Milli demokratik hərəkat. Çarizmin milli qırğın siyasəti

İslahatlar ərəfəsində Şimali Azərbaycanda sosial-iqtisadi vəziyyət. XIX əsrin ortalarına kimi Rusiya imperiyası mütləqiyyət quruluşlu müstəmləkə ölkəsi idi. Hakimiyyət yalnız feodal-zadəgan təbəqəsinin əlində cəmləşmişdi. Bu aqrar ölkədə feodal-asılı münasibətlər hökm sürürdü. Müstəmləkə vəziyyətində olan Şimali Azərbaycanda vəziyyət daha ağır idi. Ölkə əhalisinin əsas hissəsini təşkil edən kəndlilər dövlətdən və feodallardan asılı vəziyyətdə qalaraq torpaq mülkiyyəti hüququndan məhrum olmuşdular. Azərbaycanlı feodal-zadəganlar torpaq mülkiyyəti hüququna, öz kəndliləri üzərində hakimiyyətə malik olsalar da, dövlətin inzibati-idarə işlərindən kənarlaşdırılmışdılar. Siyasi hakimiyyət və idarəçilik hüququ yalnız zadəgan əsilli rus məmurlarına məxsus idi. Rusiya Azərbaycandan xammal mənbəyi və rus mallarının satış bazarı kimi istifadə etdiyindən sənətkar və tacir təbəqələrinin də vəziyyəti qənaətbəxş deyildi. Sənaye istehsalının genişlənməsi sənətkarlığın bir sıra sahələrinin tənəzzülünə səbəb olurdu. Rus işğalı Şimali Azərbaycan tacirlərinin Şərq ölkələri ilə ənənəvi ticarət əlaqələrinin qırılması ilə nəticələnmişdi. Çar hökumətinin 1831-ci ildə tətbiq etdiyi "Ticarət əsasnamə"si xarici malların Azərbaycana daxil olmasını məhdudlaşdırmış, keyfiyyətcə aşağı olan rus mallarının satışı ticarət dövriyyəsinin azalmasına gətirib çıxarmışdı. İslahatlar ərəfəsində Azərbaycan kəndliləri arasında narazılıqlar çoxalmışdı. Buna səbəb yerli zadəgan-feodalların (bəy, ağa) vergiləri artırması idi. Dövlət idarəçiliyindən, hərbi gəlirlərdən məhrum edilmiş azərbaycanlı zadəganlar əmtəə-pul münasibətlərinin genişləndiyi şəraitdə sənaye istehsalı olan malları əldə etmək üçün vergiləri qaldırırdılar. Burjua islahatlarının keçirilmə səbəbləri. Rusiyanın Krım müharibəsində acınacaqlı məğlubiyyəti onun hərbi-texniki və sənaye cəhətdən

Bakı Texniki Kolleci

dünyanın aparıcı dövlətlərindən geri qaldığını göstərdi. Müharibədə məğlubiyyət ölkə daxilindəki bütün ziddiyyətləri artıraraq aşkara çıxardı. Sosial ziddiyyətlərin kəskinləşməsi Rusiyanın hakim dairələrini islahatlara başlamağa məcbur etdi. Çar hökuməti islahatlar keçirməklə ölkədə sosial partlayışın qarşısını almağa, Rusiyanı aqrar ölkədən sənaye ölkəsinə çevirməyə çalışırdı. Feodal-təhkimli cəmiyyətini burjua cəmiyyəti ilə əvəz etməklə iqtisadiyyatın inkişafı təmin olunmalı idi. Rusiyada kapitalist sənayesinin inkişafına mane olan əsas səbəb isə ölkə əhalisinin əksər hissəsini təşkil edən kəndlilərin təhkimli vəziyyətdə qalması və bunun nəticəsində azad işçi qüvvəsinin çatışmaması idi. Digər tərəfdən, sənayenin inkişafı üçün külli miqdarda pul kapital lazım gəlirdi. Rusiya isə dövlət səviyyəsində sənayeyə pul qoymağa hazır deyildi. Buna görə də xarici kapitalın ölkəyə daxil olmasına şərait yaratmaq tələb olunurdu. Rusiyanın hakim dairələri dövlətin siyasi quruluşunu dəyişmədən ictimai quruluşda müəyyən islahatlar aparmaqla ölkənin iqtisadi inkişafına nail olmaq istəyirdilər.

**İslahatlar başlayır.** 1861-ci ildə çar II Aleksandr (1855–1881) “Təhkimçilik hüququnun ləğv olunması haqqında” Əsasnaməni təsdiq etdikdən sonra Rusiyada islahatlar başlandı. Bu islahatlar, ilk növbədə, daxildə – ruslar yaşayan bölgələrdə aparılırdı. Lakin ölkənin ümumi yüksəlişinə nail olmaq, inkişaf edən sənayenin tələbatını ödəmək üçün hökumət bu prosesi müstəmləkələrdə də reallaşdırmağa məcbur idi. Amma bölgələrdə iş Rusiyada olduğundan daha gec və məhdud formada gedirdi. 1865-ci ildə “Kənd cəmiyyətlərinin ictimai idarəsi haqqında” Əsasnamə ilə bəylərin kəndlilər üzərində polis və məhkəmə hakimiyyəti hüququ ləğv edildi, seçkili orqan olan vahid Kənd İdarəsi yaradıldı. Bəylərin Kənd İdarəsinə müəyyən təsiri qalsa da, kəndlilər üzərində hakimiyyəti bu yolla xeyli azaldı. Əsasnamənin mütərəqqi cəhətlərinə baxmayaraq, torpaqlar yenə də bəy və ağaların mülkiyyətində saxlanılır, vergilərin ümumi miqdarı dəyişməz qalırdı.



Bakı Texniki Kolleci

**1870-ci il kəndli islahatı.** Çar hökuməti Azərbaycanda kəndli islahtının keçirilməsini bir neçə il gecikdirdi. Hökumət bunu iqtisadi şəraitin yetişmədiyi, azərbaycanlı kəndlilərin təhkimli olmadığı bəhanəsi ilə əsaslandırırdı. Azərbaycanda rəsmən təhkimçilik münasibətləri olmasa da, iltizama verilmiş sahələrdə kəndlilər icbari qaydada işlədilir, gördükləri iş üçün əməkhaqqı almırdılar. 1864-cü ildə neft quyularına təhkim edilmiş Balaxanı kəndlilərinin, zəy zavodunda çalışan Zəylik kənd sakinlərinin, 1868-ci ildə isə Naxçıvan duz mədənlərində işləyən kəndlilərin məcburi əməyi ləğv olundu. Uzun sürən hazırlıq işlərindən sonra 1870-ci il 14 may tarixində "Kəndli islahatının keçirilməsi barədə" Əsasnamə imperator II Aleksandr tərəfindən təsdiq edildi. Azərbaycanda tətbiq olunan kəndli islhatının Rusiyada 1861-ci ildə başlanan islahatlardan fərqli və mənfi cəhəti dövlət kəndlilərinə aid edilməməsi idi.


БОЖІЕЮ МИЛОСТІЮ
МЫ, АЛЕКСАНДРЪ ВТОРЫЙ,
ИМПЕРАТОРЪ И САМОДЕРЖЕЦЪ
ВСЕРОССІЙСКІЙ,
ЦАРЬ ПОЛЬСКІЙ, ВЕЛИКІЙ КНЯЗЬ ФИНЛЯНДСКІЙ,
и прочая, и прочая, и прочая.

*Təhkimçilik hüququnun ləğv edilməsi ilə bağlı 19 fevral 1861-ci il tarixli fərman*

**Əsasnamədə aşağıdakı məsələlər nəzərdə tutulurdu:**

1. Kəndlilərin feodal asılılığından azad edilməsi;
2. Torpaq mülkiyyəti;
3. Vergi və mükəlləfiyyətlər.

İslahatın ən əsas cəhəti kəndlilərin feodal asılılığından azad olunması, yəni şəxsi azadlıq əldə etməsi idi. Artıq kəndlinin yaşadığı yerdən istədiyi vaxt köçüb getmək hüququ var idi. Kəndlilərə 5 desyatindən çox olmayan torpaq payı verilirdi. Burada ən vacib yenilik kəndlinin öz pay torpağını satın alıb şəxsi mülkiyyətinə keçirmək hüququna sahib olması idi. Lakin Rusiyanın daxili quberniyalarından fərqli olaraq,

Bakı Texniki Kol

azərbaycanlı kəndlilərin öz torpaqlarını satın almasına hökumət heç bir yardım göstərmədi. Digər tərəfdən, Azərbaycandakı torpaqların satınalma məbləği Rusiyanın mərkəzi quberniyalarında olan qiymətdən bir neçə dəfə yüksək təyin edilmişdi.

Bakı quberniyasında sahibkar kəndlilərinin 1 desyatin torpaq üçün ödədikləri məbləğ Minsk quberniyasından 25 dəfə, Həştərxan quberniyasından 20 dəfə, Perm, Orenburq quberniyası kəndlilərinin ödədiyi məbləğdən 10 dəfə çox müəyyən edilmişdi. Yelizavetpol quberniyasında vəziyyət daha pis idi. Burada kəndlilər Rusiya kəndliləri ilə müqayisədə 30-40 dəfə artıq satınalma məbləği ödəməli olurdular. Ümumiyyətlə, “Əsasnamə” azərbaycanlı mülkədar-zadəganların mənafeyinə uyğun tərtib edilmişdi. Çar hökuməti islahatı elə keçirməyə çalışırdı ki, mülkədarlara zərər vurmasın, onların torpaqlardan əldə etdikləri ümumi gəlir isə azalmasın. Çar hökuməti siyasi hüquqlardan məhrum etdiyi azərbaycanlı zadəganlar arasında gəlirlərin zəifləməsi nəticəsində narazılıqların artmasını istəmirdi. Çarizm yalnız torpaq hüquqlarını tanımaqla öz tərəfinə çəkdiyi müsəlman zadəgan-mülkədarların kəndlərdə böyük nüfuza malik olduqlarını, lazım gələrsə, özkəndlilərini mübarizəyə qaldıra biləcəklərini anlayır və bundan çəkinirdi.

1870-ci il islahatına görə, mülkədarlara torpaqlarının 1/3 hissəsini xüsusi mülkiyyətdə saxlamaq hüququ verilirdi. Həm də bu, münbit və əkinəyararlı torpaqlar olmalı idi. Bu hüquqdan istifadə edən mülkədarlar ən yaxşı əraziləri öz mülkiyyətlərində saxlayırdılar. İslahata əsasən, kəndlilərin əlində 5 desyatindən çox torpaq olduqda artıq hissələr mülkədarların xeyrinə kəsilib götürülürdü. Lakin Əsasnamədə ərazisi 5 desyatindən az olan kəndlilərə əlavə torpaqlar verilməsi nəzərdə tutulmurdu. Onların evləri, meyvə, üzüm bağları, əkin sahələri və biçənəkləri daimi istifadələrində saxlanılsa da, xüsusi mülkiyyətə çevrilmirdi.

Bakı Texniki Kolleci

Bahalıq səbəbindən torpaqlarını satın ala bilməyən kəndlilər yenə də əvvəlki qaydada vergilər ödəməyə məcbur olurdular. Məhsul vergisi – malcəhət və bəhrə hər zamankı kimi əsas yeri tuturdu. Bəylərin və ağaların (mülkədarların) mülklərində malcəhətin həcmi məhsulun 1/10 hissəsinə bərabər idi. Biyar günlərinin və müxtəlif peşkəşlərin (hədiyyələrin) əvəzinə bəy torpaqlarında istər həyətyanı, istərsə əkin torpaqlarının hər desyatininə görə 30 qəpik, ağa "mülklərində" isə 15 qəpik məbləğində pul mükəlləfiyyəti tətbiq olunurdu.

İslahatdan sonra kəndlilər arasında aztorpaqlı və torpaqsız olanların sayı daha da artdı. Topaqlarını satın ala bilməyən, amma kənddə qalmağa məcbur olanlar "müvəqqəti mükəlləfiyyətli" vəziyyətə düşdülər. Rusiyada "müvəqqəti mükəlləfiyyətli" münasibətlərə XIX əsrin 80-ci illərində son qoyulduğu halda azərbaycanlı kəndlilər 40 ildən çox bu vəziyyətdə qaldılar. Çar məmurları özləri etiraf edirdilər ki, kəndli islahatı imperiyanın heç bir ərazisində Azərbaycandakı kimi ağır və əzablı olmamışdır.

1870-ci il 14 may islahatı mənfi cəhətlərinə baxmayaraq, burjua xarakteri daşıyırdı. İslahat kənddə mövcud olan vəziyyətin tədricən kapitalist istehsalına keçməsinə şərait yaratdı. İslahatdan sonra kənddə təbəqələşmə gücləndi. Ağır şərtlərə baxmayaraq, ortabab kəndlilər öz pay torpaqlarını satın ala bildilər, sonra da tədricən varlı kəndlilərə qolçomaqlara çevrildilər. Aztorpaqlı kəndlilər mülkədarların və qolçomaqların təsərrüfatlarında muzdur – muzdlu işçi kimi çalışmaq məcburiyyətində qaldılar. Beləliklə, kəndlərdə də kapitalist münasibətləri formalaşmağa başladı.

Sahibkar kəndliləri yalnız çar hökumətinin 1912–1913-cü illərdə verdiyi "Cənubi Qafqaz quberniyalarında torpaqların məcburi satın alınması haqqında" qanuna görə"müvəqqəti mükəlləfiyyətli" vəziyyətindən azad oldular. 1912-ci il qanununa

Bakı Texniki Kolleci

əsasən, dövlət torpağın pulunu kəndlilərin əvəzinə mülkədarlara birdəfəlik ödəyirdi. Kəndlilər isə 20 il ərzində bu pulu dövlət xəzinəsinə qaytarmalı idilər. 1912-ci il qanununun digər müsbət xüsusiyyəti əkinçilik üçün yararsız torpaqların kəndlilərin mülkiyyətinə pulsuz keçməsi, pay torpaqlarında salınmış bağ yerlərinə görə pul ödənilməməsi idi. Ən başlıcası isə, bu qanunla kəndlilər torpaq mülkiyyətçisinə çevrilirdilər.

Məhkəmə və şəhər islahatı. 1866-cı il məhkəmə və 1878-ci il şəhər islahatı ("Şəhər özünüidarəsi" haqqında Əsasnamə) burjua islahatları arasında daha mütərəqqi xarakter daşıyırdı. Əvvəlcə Rusiyanın mərkəzi quberniyalarında keçirilən bu islahatlar formalaşmaqda olan burjua təbəqəsinin cəmiyyət həyatının idarə olunmasında iştirakına şərait yaratmaq məqsədi güdürdü. Bu, monarxiya və zadəganların mütləq hakim mövqe tutduğu ölkədə burjua-demokratik cəmiyyəti yaratmaq yolunda atılmış ilk addım oldu. Lakin hakim mövqeyini itirmək istəməyən mürtəce zadəganların müqaviməti sayəsində məhkəmə islahatı nəzərdə tutulduğundan məhdud və yarımçıq keçirildi. Müstəmləkə vəziyyətində olan Cənubi Qafqazda isə daha məhdud qaydada tətbiq edildi.

Cənubi Qafqazda bütün zümrələrin nümayəndələrindən təşkil edilən andlı iclasçılar məhkəməsi yaradılmadı. Çünki Rusiyanın hakim dairələri yerli əhalinin məhkəmədə, cüzi də olsa, iştirakına imkan vermək istəmirdi. Azərbaycanda hakimlər Qafqaz canişini tərəfindən ruslardan və ya xristian dininə mənsub digər xalqların nümayəndələrindən təyin edilirdilər. Məhkəmə işləri yalnız rus dilində aparılırdı. Proses iştirakçıları bir-birini başa düşmədiyi üçün tərcüməçi vasitəsilə danışmağa məcbur olurdular. Məhkəmə hakimləri yerli əhalinin əsrlər boyu formalaşmış adət-ənənələrini qətiyyən nəzərə almır, şahid ifadələrini dinləmək istəmir, ancaq yazılı sənədlər tələb edirdilər. Əhalinin, xüsusən kəndlilərin savadsızlığı şəraitində isə belə sənədlər, adətən, olmurdu. Bütün mənfi cəhətlərinə

Bakı Texniki Kolleci

baxmayaraq, müxtəlif təbəqələrdən olanlar üçün ümumi məhkəmənin yaradılması, məhkəmə iclaslarının açıq keçirilməsi, vəkillərin iştirakına icazə verilməsi islahatın mütərəqqi tərəfi idi. Yerli əhalinin məhkəmə hakimi olmasına icazə verilmədiyindən XX əsrin əvvəllərindən başlayaraq Rusiya universitetlərində hüquq fakültəsində təhsil almış azərbaycanlılar vəkil kimi çıxış edirdilər. Onların arasında Əlimərdan bəy Topçubaşov, Fətəli xan Xoyski daha məşhur idi. Qafqazın müxtəlif bölgələrində yaşayan adamlar bu vəkillərin məhkəmədə etdikləri çıxışları dinləmək üçün Bakıya gəlirdilər. Adları çəkilən şəxslər, əsasən, haqsızlığa məruz qalan, böhtan və şərlə üzləşən müsəlmanları müdafiə edir və çox zaman məhkəmə proseslərində onları təmizə çıxarmağa nail olurdular.

XIX əsrin ikinci yarısında kəndli çıxışlarının artmasına cavab olaraq çar hökuməti məhkəmə və inzibati polis zülmünü daha da gücləndirdi. Bundan sonra kəndlilərin çar məmurlarının və mülkədarların həyatına və mülkiyyətinə zərər vurmaları ilə bağlı cinayət işləri hərbi-dairə məhkəmələrinə verildi. Burada isə ölüm cəzası adi hala çevrilmişdi. Kapitalist münasibətlərinin inkişafı, şəhər əhalisinin sürətli artımı, xüsusilə sənaye və ticarət mərkəzinə çevrilən şəhərlərdə vəziyyətin mürəkkəbləşməsi, tacir və sənayeçilərin ictimai-siyasi proseslərdə iştirak etmək tələbləri Rusiya hakim dairələrini şəhər islahatı keçirməyə vadar edirdi. Rusiyada 1870-ci ildə hazırlanan "Şəhər özünüidarəsi haqqında" Əsasnamə şəhər islahatı Azərbaycanda xeyli gec 1878-ci ildə və daha məhdud formada, özü də yalnız Bakıda tətbiq olundu. İslahata qədər şəhərlərin idarə olunması, şəhər təsərrüfatı polis idarələrinin əlində cəmləşmişdi. Əsasnaməyə görə, Şəhər Duması (şəhər bələdiyyəsi) seçkilər əsasında yaranırdı. Seçkilərdə 25 yaşına çatmış, şəhər vergilərini ödəyən, dövlətin müəyyən etdiyi əmlaka malik olan kişilər iştirak edə bilərdilər. Milli və dini ayrı-seçkilik siyasəti burada da özünü göstərdi. Şəhər Dumasına seçilənlərin yalnız 50 faizi müsəlman ola bilərdi. Şəhər Dumasının

Bakı Texnik Kolleci

icraedici orqanı olan Şəhər İdarəsinin başçısı da yalnız ruslardan seçilməli idi. İdarənin tərkibi qubernator tərəfindən təsdiq olunurdu. Şəhər Dumasının səlahiyyətlərinə, əsasən, abadlıq işləri, yanğınla mübarizə, şəhər təsərrüfatının idarə edilməsi, xalq təhsili və səhiyyə məsələləri daxil idi. Müstəmləkəçi ruhuna baxmayaraq, şəhər özünüidarə orqanının mövcudluğu abadlaşdırma, təhsil və mədəniyyət sahələrinin inkişafında müsbət rol oynamışdır. Seçkili idarəetmə orqanının yaradılması bu vaxta qədər idarəçilik işlərindən kənar edilmiş yerli əhaliyə seçmək və seçilmək hüququnun verilməsi mütərəqqi addım idi. Milli burjuaziyanın təmsilçiləri olan Hacı Zeynalabdin Tağıyev, Musa Nağıyev, görkəmli ictimai xadim və maarifçi Həsən bəy Zərdabi bir neçə dəfə Şəhər Dumasına üzv seçilmiş və onun işində fəal iştirak etmişdilər. H.Z.Tağıyev öz xərci ilə şəhərdə yanğından mühafizə deposu düzəltdirmişdi. H.Zərdabi Dumada məktəb və tibb, həmçinin su təchizatı komissiyalarının üzvü olmuş,yeni tipli təhsil müəssisələrinin yaradılması, azərbaycanlı uşaqlara ana dilində təlim keçilməsi, ümumi icbari təhsilin tətbiqi ilə bağlı tələblərlə çıxış etmişdir.

İslahatların nəticəsi. XIX əsrin ikinci yarısında Rusiyanın Cənubi Qafqazda keçirdiyi islahatlar məhdud cəhətlərinə, müstəmləkə xüsusiyyətinə baxmayaraq, mühüm dəyişikliklərə səbəb oldu. Azərbaycanda yeni sosial-iqtisadi münasibətlərin yaranmasına, kapitalist sənayesinin inkişafına təkan verildi. Sənayedə və kənd təsərrüfatında gedən proseslər kapitalist cəmiyyətinə xas olan sosial təbəqələri – fəhlə sinfini, milli burjuaziyanı formalaşdırdı. Ölkənin iqtisadi cəhətdən inkişafi mədəniyyətin bütün sahələrində – təhsil, elm, incəsənət və memarlıqda yüksəlişə səbəb oldu. XIX əsrin ikinci yarısında Azərbaycanda Avropa təhsilli yeni ziyalı nəsli meydana gəldi. Məhz bu ziyalılar xalqın maariflənməsində, milli şüurun formalaşmasında mühüm rol oynadılar. Yeni ziyalı nəsli və milli burjuaziyanın

Bakı Texniki Kolleci

görkəmli nümayəndələri milli azadlıq hərəkatının önündə gedərək xalqı müstəqil dövlətçiliyin yaradılmasına səfərbər etdilər.

Kənd təsərrüfatının inkişafı. Kəndli islahatından sonra Azərbaycanda kənd təsərrüfatının bütün sahələrində əsaslı dəyişikliklər başladı. Torpağın açıq alqı-satqı obyektinə çevrilməsi, sahibkar kəndliləri arasında təbəqələşmənin sürətlənməsi ilə Azərbaycan kəndində yeni münasibətlər formalaşdı. Kapitalizm tədricən kənd təsərrüfatının bütün sahələrinə daxil olmaqda idi. İslahatdan sonra Azərbaycanda kənd təsərrüfatının əsas sahələri yenə də əkinçilik və maldarlıq idi. Əkinəyararlı torpaqların əksər hissəsində taxıl (dənli bitkilər) əkilirdi. Taxıl məhsullarının istehsalına görə daha çox Yelizavetpol quberniyası fərqlənirdi. XX əsrin əvvəllərində əmtəəlik taxılın çox hissəsi qolçomaq təsərrüfatlarının payına düşürdü. Maldarlıq da ənənəvi sahələrdən biri kimi fərqlənirdi. Bu sahədə əsas yeri köçmə-yaylaq maldarlığı tuturdu. Qoyunçuluq daha geniş yayılmışdı. Bu dövrdə yuna tələbat artdığı üçün zərif yunlu qoyun cinslərinin saxlanılmasına üstünlük verilirdi.

Kənd təsərrüfatında əsas yenilik texniki bitkilərin (pambıq, tütün və s.) becərilməsinin artması idi. Bu bitkilərin əkilməsinin genişlənməsi onlara tələbatın çoxalması və bu sahədə sənaye müəssisələrinin yaranması ilə bağlı idi. Rusiyada toxuculuq sənayesinin inkişafı pambığa ehtiyacı artırmışdı. Tütün becərilməsi XIX əsrin ortalarından genişlənmişdi. Əvvəllər yerli tütün növləri əkilsə də, sonradan Osmanlı dövlətindən gətirilən Trabzon, Samsun növlərinə üstünlük verilirdi. Tütün plantasiyalarının əsas hissəsi Zaqatala dairəsində, Şəki və Quba qəzalarında cəmləşmişdi.

XIX əsrin son onilliklərindən başlayaraq şərab istehsal edən müəssisələrin yaranması üzümçülük təsərrüfatının inkişafına səbəb oldu. Artıq XX əsrdə üzümçülük sənaye bağçılığının əsas sahələrindən birinə çevrilmişdi. Yelizavetpol

Bakı Texniki Kolleci

quberniyasında, Şamaxı və Göyçay qəzalarında böyük üzüm bağları salınmışdı. Orta əsrlər dövründə Azərbaycanın bir çox bölgələrində mövcud olan ipəkçilik bu dövrdə “Qafqaz Lionu” adlandırılan Şəkidə geniş yayılmışdı. Burada istehsal olunan xam ipək yüksək keyfiyyəti ilə seçilirdi. Azərbaycan ipəyi ipəktoxuma sənayesində istifadə edilmək üçün Rusiyaya, həmçinin Lion, Marsel, Milan şəhərlərinə ixrac edilirdi. Texniki bitkiçiliyin daha bir sahəsi yeyinti sənayesində və əczaçılıqda istifadə edilən biyan kökü ilə bağlı idi. Kəndlilərin yığdığı bu bitki xarici şirkətlər tərəfindən yaxşı alınırdı. Rusiya hakim dairələri və rus burjuaziyası da texniki bitki növlərinin əkinçiliyinin genişlənməsində maraqlı idilər. Rusiya inkişaf etməkdə olan sənayesinin xammal ehtiyacını Azərbaycandan əldə etməyə çalışırdı. Buna görə də Azərbaycanda xammalı əmtəəyə çevirə biləcək yerli sənayenin yaranmasına imkan vermirdi.

## Kənddə ictimai təbəqələşmənin güclənməsi. XX əsrin əvvəllərində yeni aqrar qanunlar.

XIX əsrin 80–90-cı illərində sahibkar kəndliləri arasında təbəqələşmə güclənmişdi. Kəndli islahatından sonra aztorpaqlı kəndlilərin vəziyyəti ağırlaşmışdı. Torpaqlarını satın ala bilməyən bu təbəqə hələ də malcəhət və bəhrə vergilərini ödəməyə məcbur idi. “Müvəqqəti mükəlləfiyyətli” sayılan kəndlilərin bir hissəsi səpin-biçin işlərini qurtaran kimi öz kəndində, yaxud qonşu bölgələrdə muzdurluq edirdi. Digərləri isə şəhərlərdə yaranan fabrik və zavodlara kəsbkarlığa, mövsümi işləməyə gedirdilər. İslahatdan sonra torpaqlarını ala bilənlər varlanıb qolçomaqlara kənd burjuaziyasına çevrilmişdilər. Onlar sayca az olsalar da, böyük torpaq sahələrinə malik idilər. Qolçomaqlar öz torpaqlarında aztorpaqlı kəndlilərin əməyindən istifadə edir, yəni muzdur saxlayır, görülən işə görə əməkhaqqı ödəyirdilər. Sahibkar kəndlilərindən sayca çox olan dövlət kəndlilərinin də vəziyyəti ağır idi. 1853-cü ildə dövlət kəndlilərinin köçmək hüququnun ləğv edilməsi, 1870-

Bakı Texniki Kolleci

ci il islahatının onlara aid olmaması bu kəndliləri hüquqsuz və torpaqsız vəziyyətə salmışdı. Çar Rusiyasında, zadəgan övladları istisna olmaqla, müsəlmanlar hərbi xidmətə çağırılmırdılar. Rusiya müsəlmanların hərbi işi bilməsini istəmirdi. Bu səbəbdən də 1887-ci ildə hərbi xidmət əvəzinə kəndlilərin üzərinə yeni hərbi vergi adlanan əlavə mükəlləfiyyət qoyuldu. Ağır vergilər, mülkədarların dövlət torpaqlarını özbaşına ələ keçirməsi, hökumətin buna göz yumması dövlət kəndlilərinin vəziyyətini dözülməz etdi. Dövlət torpaqlarında yaşayan kəndlilərin sayca çox olmasına baxmayaraq, Rusiya hökuməti burada torpaq islahatının keçirilməsini gecikdirirdi. Buna görə də kapitalist münasibətlərinin yaranması ləngiyirdi. XIX əsrin sonlarında kəndli çıxışlarının artması, qaçaq hərəkatının güclənməsi Rusiya hökumətini dövlət kəndliləri üçün də islahat keçirməyə məcbur etdi. 1900-cü il mayın 1-də çar hökuməti "Cənubi Qafqazda dövlət kəndlilərinin torpaq quruluşu haqqında" qanun verdi. Bu qanuna görə, dövlət kəndliləri icma torpaqlarından nəsli istifadə hüququ alırdılar. 1870-ci il islahatında olduğu kimi, bu qanunda da torpaqlar kəndlilərin mülkiyyətinə birbaşa keçmirdi. Bu qanuna əlavə edilən 1903-cü il Əsasnaməsinə görə, kəndlilərin nəsli istifadəsinə verilən torpaqların dəqiq sahələri müəyyən edilirdi. Əsasnamədə kəndlilərə əlavə torpaq paylarının verilməsi, çəmən, otlaq və meşələrdən pay ayrılması yenilik idi. Lakin qanunun tətbiqindən sonra kəndlilərin vəziyyəti yaxşılaşmaq əvəzinə daha da pisləşdi. Çünki əkinə yararlı olmayan torpaqların pay torpaqlarına əlavə edilməsi nəticəsində vergi artırıldı. 1912-ci ildə verilən "Torpaqların məcburi satın alınması qanunu" yenə də dövlət kəndlilərinə aid edilmədi. Rusiya imperiyası dağılana qədər dövlət kəndliləri xüsusi torpaq mülkiyyətçisi ola bilmədilər. 1913-cü ildə qanun 1870-ci il islahatının keçirilmədiyi Zaqatala dairəsinin kəndlilərinə də şamil edildi. 1912–1913-cü illərin aqrar qanunları kənd təsərrüfatının inkişafına təkan verdi. Azərbaycan kəndlərində sosial təbəqələşmə dərinləşdi və kapitalist münasibətləri gücləndi.

Bakı Texniki Kolleci

Sənayenin inkişafı. Neft sənayesi. XIX əsrin ortalarına qədər Azərbaycanda feodal-asılı münasibətlərlə yanaşı, Rusiyanın müəyyən sahələrdə yaratdığı iltizam sistemi, məcburi əməyin tətbiq edilməsi də kapitalist münasibətlərinin inkişafına mane olurdu. 1872-ci ildə hökumət neft sənayesində iltizam sistemini ləğv etdi. Bundan sonra neft yataqlarının hərrac yolu ilə satışa çıxarılması bu sahənin böyük sürətlə inkişaf etməsi ilə nəticələndi. Azərbaycanda neft sənayesinin sürətli inkişafının əsas səbəbləri aşağıdakılar idi:

1. XIX əsrin 60-cı illərindən başlayaraq Rusiyada və dünyada neftdən sənaye miqyasında istifadə olunması;

2. Azərabycanda ucuz işçi qüvvəsinin çoxluğu;

3. Neft ehtiyatlarının bolluğu, Azərbaycan neftinin yüksək keyfiyyətli olması;

4. Rusiyanın özündə neft yataqlarının aşkar edilməməsi.

İltizam sisteminin ləğvindən sonra neft sənayesinə kapital qoyuluşu artdı. Rusiya hökuməti bu sahənin böyük gəlir gətirəcəyini anladığından neft verən torpaqların rus sənayeçilərinə məxsus olmasına çalışırdı. Bəzi hallarda çar hökuməti neftli torpaqları istefaya çıxan məmurlara və hərbçilərə bağışlayırdı. Torpaqların hərrac yolu ilə satılması azərbaycanlı iş adamlarının da neft sənayeçilərinin cərgəsinə daxil olmasına imkan verdi. Onların arasında Hacı Zeynalabdin Tağıyev, Musa Nağıyev, Murtuza Muxtarov və Şəmsi Əsədullayev kimi məşhur neft sahibkarları da var idi.



Hacı Zeynalabdin Tağıyev

Çar hökumətinin xarici kapitalın ölkəyə daxil olmasına imkan verməsi neft sənayesinə də kapital qoyuluşunu artırdı. 1879-cu ildə İsveç mənşəli Nobellər "Nobel qardaşları şirkəti"ni yaratdılar. XIX əsrin 80-ci illərindən Rotşildin

Bakı Texniki Kolleci

simasında fransız kapitalı, 90-cı illərdən isə ingilis kapitalistləri Bakı neft sənayesinə daxil oldu. Neft sənayesinə kapital qoyuluşunun artması neft çıxarılması və daşınma vasitələrinin təkmilləşdirilməsinə səbəb oldu. Neft işində bir-birinin ardınca yeni üsul və texniki vasitələr tətbiq olunmağa başlandı. Neft çıxarılmasında əvvəlcə buruqqazma, 1873-cü  ildən fontan, 70-ci illərin sonlarından zərbə üsulundan və buxar mühərriklərindən istifadə edildi. Tezliklə Bakıda neft sənayesi üçün lazım olan avadanlıqlar istehsal edən mexaniki zavodlar meydana gəldi, əl əməyinin texniki yeniliklərlə əvəz olunması sürətləndi.  Azərbaycanda neft sənayesinin manufaktura mərhələsindən fabrik-zavod mərhələsinə keçməsi sənaye-texniki inqilab idi. Neft sahəsində bir çox yeniliklər ilk dəfə Azərbaycanda tətbiq olunmuşdur.

*Mexaniki qazma-buruq üsulu ilə neft quyusu dünyada ilk dəfə **1848**-ci ildə Bakıda qazılmışdır.*



*Neftayırma prosesində soyuducu sistemi dünyada ilk dəfə Cavad Məlikov **1863**-cü ildə Bakıdakı ağ neft zavodunda yaratmışdır.*



*Neft mədənindən neftayırma zavoduna boru kəməri ilk dəfə **1878**-ci ildə Bakıda çəkilmişdir.*



*Neft daşınmasında tanker tipli gəmidən dünyada ilk dəfə **1878**-ci ildə Bakıda istifadə edilmişdir.*



*Dəmir yolu ilə neft daşınmasında vaqon-sisternlər **1880**-ci ildə Bakıda tətbiq edilmişdir.*



Neft sahəsində edilən texniki yeniliklər Bakını dünyanın neft sənayesi mərkəzinə, Cənubi Qafqazda isə əsas sənaye şəhərinə çevirdi. XIX əsrin sonlarında neft çıxarılmasında Bakı ABŞ-ı qabaqlayaraq dünyada birinci yerə çıxdı. Bakıda sənaye kapitalizminin əsas təbəqələri sayılan burjuaziya və çoxmillətli fəhlə sinfi formalaşdı. Neft sənayesində yerli sahibkarlar milli burjuaziyanın nümayəndələri önəmli yer tuturdular.Onlar da şirkət açır, emal sənayesi yaradır, xarici sahibkarlarla rəqabət aparırdılar.XIX əsrin sonlarında neft sənayesi inhisar mərhələsinə qədəm qoydu. 1893-cü ildə Bakı neft emalı zavodlarının sahibkarları birləşərək Bakı Ağ Neft Zavod Sahibləri İttifaqını yaratdılar. Bu inhisar birliyi Rokfellerə məxsus "Standart Oyl" şirkəti ilə saziş bağlayaraq dünya ağ neft bazarını bölüşdürməyə nail oldu.

Sənayenin digər sahələri. Azərbaycanda sənayenin inkişafı XIX əsrin 60-cı illərindən başladı. Bu dövrdən etibarən muzdlu əməyə əsaslanan, buxar mühərrikləri ilə təchiz edilmiş fabrik-zavod istehsalı yarandı. İlk vaxtlarda müxtəlif sahələrə kapital yatırıb müəssisə açanlar rus və xarici kapitalistlər idi. 1861-ci ildə rus kapitalistləri Şəkidə ipək fabriki yaratdılar. Bu fabrik Avropada ipəkçilik sahəsində ən böyük müəssisə hesab edilirdi. 1865-ci ildə Gədəbəydə alman kapitalistlərinin "Simens qardaşları" şirkətinə məxsus iri misəritmə zavodu fəaliyyətə başladı. Alman texnikası əsasında yaradılmış bu zavod həmin dövrdə Rusiyada ən böyük müəssisə sayılırdı. "Simenslər" 1883-cü ildə daha bir müəssisə – Qalakənd misəritmə-missaflaşdırma zavodu açdı. Həmin zavod Rusiya imperiyasında misi saflaşdıran ilk müəssisə oldu.

XIX əsrin ikinci yarısında aparılan islahatlardan sonra azərbaycanlı sahibkarların da sənaye istehsalında fəaliyyəti gücləndi. Onlar daha çox kənd təsərrüfatı ilə bağlı olan yüngül və yeyinti sənayesinə üstünlük verirdilər. Yüngül sənaye, əsasən, ölkənin şimal-qərb – Şəki-Zaqatala, cənub-qərb – Qaradağ-



Bakı Texniki Kolleci

Naxçıvan ərazilərində yayılmışdı. Burada ipək emalı sahəsində kapitalist sənaye istehsalı daha erkən başlamışdı. Sahibkar Qasım Babayevin Şəkidə açdığı fabrikdə istehsal olunan ipək beynəlxalq sərgilərdə dəfələrlə qızıl medala layiq görülmüşdür. İpəkçiliyin mərkəzi Şəki olsa da, 1880–90-cı illərdə Şuşa, Cəbrayıl və Naxçıvan qəzalarında da ipək emalı müəssisələri yarandı. Bu qəzalardakı müəssisələr azərbaycanlı sahibkarlara məxsus idi Pambığın sənaye əhəmiyyətli məhsula çevrilməsi  Azərbaycanda bu sahədə emal müəssisələrinin formalaşmasına təkan verdi. İlk pambıq təmizləmə zavodu Naxçıvanda işə salındı. Çar hökuməti Azərbaycanda xammalı hazır məhsula çevirə biləcək müəssisələrin yaradılmasına icazə vermirdi. Müstəmləkə iqtisadiyyatına xas olan birtərəfliliyi aradan götürə bilən ilk sahibkar H.Z.Tağıyev idi. O, böyük çətinliklə Rusiya hökumətinin müqavimətini qırıb 1900-cü ildə Bakıda ilk toxuculuq fabriki açmağa nail oldu.Xüsusi layihə əsasında yaradılmış bu müəssisədə fəhlələr pulsuz evlə təmin edilirdilər. Bundan əlavə, onlar üçün xəstəxana və məktəb də tikilmişdi.

Azərbaycanlı sahibkarların üstünlük təşkil etdiyi sahə balıqçılıq sənayesi idi. 1880-ci ildə bu sahədə iltizamın ləğvindən sonra ona kapital qoyuluşu artdı. Azərbaycanlı kapitalistlər balıq sənayeçilərinin 70%-ni təşkil edirdilər. Yerli xammala əsaslanan ilk tütün fabriki isə Şəkidə açılmışdı. Bununla belə, ən iri tütün fabrikləri Bakıda yerləşirdi. Rusiyada şərab məhsullarına tələbatın yüksəlməsi Azərbaycanda üzümçülüyün və onunla bağlı olan şərabçılıq müəssisələrinin artmasına səbəb oldu. 1870-ci ildə Yelizavetpol quberniyasında şərab istehsalı ilə məşğul olan iri kapitalist müəssisələri meydana gəldi. İqtisadiyyatda baş verən müsbət dəyişikliklər şəhərlərin inkişafına, nəqliyyat və rabitə sahəsində yeniliklərə təkan verdi. Azad kapitala – pula tələbat artdığından şəhərlərdə, xüsusən Bakıda bank-kredit müəssisələrinin sayı da sürətlə çoxalmaqda idi. Bu dövrdə ticarət sürətlə genişlənir, tacirlərin sayı, ticarət kapitalının həcmi günbəgün yüksəlirdi. Azərbaycan

Bakı Texniki Kolleci

üçün yeni sayılan yarmarka ticarəti, Cənubi Qafqazda ilk birja məhz Bakıda yarandı. Bakının işıqlandırılmasında əvvəllər qaz lampalarından istifadə olunurdu. XIX əsrin sonlarında “Qafqaz və Merkuri” cəmiyyətinə məxsus elektrik stansiyasının tikilməsi şəhərin işıqlandırılmasını yaxşılaşdırdı.

Sənayenin inkişafı ilə nəqliyyat və rabitə vasitələri də yeniləndi. 1883-cü ildə Bakı–Tiflis, 1900-cü ildə Biləcəri (Bakı) – Petrovsk (Mahaçqala) dəmir yollarının çəkilməsi ticarət əlaqələrinin genişlənməsinə, ölkə daxilində dəmir yolu üstündə yerləşən yaşayış məntəqələrinin və şəhərlərin inkişafına gətirib çıxardı. Neft sənayesinin sürətli inkişafı Bakı şəhərini Xəzər dənizində ən böyük liman şəhərinə çevirdi. XIX əsrin 60-cı illərində teleqraf xətlərinin çəkilməsinə başlandı. Cənubi Qafqazın mühüm şəhərləri – Bakı, Tiflis, Naxçıvan, İrəvan və Gəncə arasında teleqraf əlaqəsi quruldu. Bakıda 1886-cı ildə ilk mərkəzləşdirilmiş telefon stansiyası istifadəyə verildi.

**Millətin formalaşması. Milli oyanış.** Rusiya işğalı Azərbaycan xalqını dil və din etibarilə özündən fərqlənən bir dövlətlə üz-üzə qoydu. Rusiya yerli əhaliyə mənfi münasibət bəsləyən müstəmləkəçi imperiya olduğunu çox tez bir zamanda göstərməyə başladı. Azərbaycan xalqı çox ağır, indiyədək görmədiyi milli və dini zülmə məruz qaldı. İşğalın ilk vaxtlarından Rusiya açıq şəkildə milli və dini ayrı-seçkilik siyasəti yeridirdi. Azərbaycan xalqının əsrlər ərzində formalaşmış mədəni və mənəvi dəyərləri, dili və adət-ənənələri inkar edilirdi. Yerli əhalinin dilinin hətta ikinci dil kimi işlədilməsinə belə yol verilmirdi. Dövlət idarəçiliyi yalnız rus dilində aparılırdı. Xalqa tarixi kimliyini unutdurmaq üçün rəsmi sənədlərdə Azərbaycan türkləri “müsəlman” və “tatar” adlandırılırdı. Bütün təzyiqlərə, zülmə baxmayaraq, xalq öz adət-ənənələrini, millətin təşəkkülündə mühüm rola malik milli dilini qoruyub saxlaya bildi. Rusiyanın yeritdiyi milli müstəmləkə zülmünə cavab olaraq öz milli-mənəvi keyfiyyətlərini nümayiş etdirdi. Əməksevərlik, mərdlik, milli

Bakı Texniki Kolleci

xarakterində olan qonaqpərvərlik, böyüklərə hörmət, yoldaşlığa, dostluğa sədaqətlilik kimi xarakterik xüsusiyyətlərinin olduğunu göstərdi.

XIX əsrin ikinci yarısında Şimali Azərbaycanda kapitalist cəmiyyətinə xas olan əlamətlərin meydana çıxması ölkədə yeni sosial-iqtisadi münasibətlər yaratdı. Bölgələrin müəyyən təsərrüfat sahələri üzrə ixtisaslaşması əlaqələri möhkəmləndirərək iqtisadi həyat birliyi üçün zəmin formalaşdırdı. Kapitalist münasibətləri şəhərlərdə burjuaziya və fəhlə siniflərinin yaranmasına, kəndlərdə yeni sosial təbəqələrin kənd burjuaziyası olan qolçomaqların və kənd fəhlələrinin muzdurların meydana çıxmasına səbəb oldu. Ölkəyə külli miqdarda kapitalın gəlməsi mədəniyyətin elm, təhsil və incəsənətin inkişafına, yeni ziyalı nəslinin formalaşmasına təkan verdi. Bütün bunlar XIX əsrin ikinci yarısında Azərbaycan xalqının millətə çevrilməsi prosesinin başlandığını göstərirdi. Dünyanın bir sıra xalqlarında XIX əsrin ikinci yarısı və sonlarında gedən bu prosesin Azərbaycanda özünəməxsus forması müşahidə edildi. Ölkənin tarixi torpaqları ikiyə bölündüyündən ərazi bütövlüyü pozulmuşdu. Digər tərəfdən, Şimali Azərbaycan müstəmləkə vəziyyətində idi. Müstəqil dövləti, öz milli hakimiyyəti olan xalqlarda bu proses, adətən, dövlət səviyyəsində tənzimlənir və məqsədyönlü şəkildə aparılır. Müstəmləkə vəziyyətində olan Azərbaycanda isə bu işdə milli burjuaziya ilə yanaşı, özünün bütün qüvvə və vəsaitini sərf edən maarifpərvər, vətənpərvər ziyalıların fəaliyyəti xüsusilə qeyd olunmalıdır. XIX əsrin ikinci yarısında Azərbaycanda Avropa təhsili və mədəniyyətinin təsiri altında yeni ziyalı nəsli formalaşmışdı. Onlar demokratiya, insan hüquq və azadlıqları anlayışları ilə yaxından tanış idilər. Mirzə Fətəli Axundzadə, Əhməd bəy Ağayev, Məhəmməd ağa Şahtaxtinski, Əlimərdan bəy Topçubaşov kimi demokratik, vətənpərvər ziyalılar xalqın müstəmləkə zülmündən azad olması, mübarizəyə səfərbər edilməsi üçün, ilk növbədə, onun maarifləndirilməsinin, milli şüurunun oyadılmasının, milli dilinin inkişaf

etdirilməsinin vacibliyini anlayır və fəaliyyətlərini bu istiqamətə yönəldirdilər. Həsən bəy Zərdabinin böyük çətinliklə Rusiya hökumətinin razılığını alaraq Azərbaycan dilində ilk qəzet olan "Əkinçi"ni nəşr etdirməsi mətbuat və kitab çapı işinə təkan verdi. M.F.Axundzadənin pyesləri, Ə.Haqverdiyev, N.Vəzirov, C.Məmmədquluzadənin əsərləri ədəbi dillə xalq danışıq dilini yaxınlaşdırdı və milli dilin inkişafına böyük töhfə oldu.


Mirzə Fətəli Axundzadə

M.F.Axundzadə ilk dəfə "millət" anlayışından istifadə etdikdən sonra "Azərbaycan milləti" ifadəsi ictimai fikirdə möhkəmləndi. XIX əsrin 80-ci illərindən nəşr olunan "Kəşkül" qəzetində 1891-ci ildə ilk dəfə "Azərbaycan milləti" ifadəsi gündəmə gəldi. H.Z.Tağıyevin naşirliyini öz üzərinə götürdüyü "Kaspi" qəzetinin ətrafında Ə.Ağayev, Ə.Topçubaşov, H.Zərdabi, Ə.Hüseynzadə və digər maarif pərvər ziyalılar toplaşdılar. M.Şahtaxtinski məhz həmin qəzetdə çap olunmuş "Zaqafqaziya müsəlmanlarını necə adlandırmalı?" məqaləsində bu türkdilli milləti azərbaycanlı, dilini isə Azərbaycan dili adlandırdı. Bu dövrdə milli burjuaziyanın görkəmli nümayəndələri olan H.Z.Tağıyev, M.Nağıyev, Ş.Əsədullayev də təhsil və xeyriyyəçilik sahəsində fəallıq göstərirdilər. Onlar məktəblərin açılmasına, istedadlı gənclərin Avropa və Rusiyanın ali məktəblərində təhsilinə maliyyə yardımı göstərir, mətbuata hamilik edirdilər. XIX əsrin sonlarında Şimali Azərbaycanda milli azadlıq hərəkatı başlandı. Hərəkatın birinci mərhələsində (1875–1904) ziyalılar öhdələrinə götürdükləri milli özünüdərki (milli kimliyi), milli şüuru oyatmaq, dili inkişaf etdirmək kimi çətin və məsuliyyətli məsələləri uğurla həll edə bildilər. Növbəti mərhələdə xalqı milli müstəqillik və dövlətçilik uğrunda mübarizəyə qaldırmaq üçün ümummilli ideya lazım idi. Bu milli ideyanı "Türkləşmək, islamlaşmaq və

Bakı Texniki Kol

müasirləşmək" Əli bəy Hüseynzadə hazırlasa da, onu siyasi doktrina şəklində həyata keçirən Məhəmməd Əmin Rəsulzadə oldu.

Şimali Azərbaycanda XIX əsrin ikinci yarısında həyata keçirilmiş burjua islahatları kapitalist münasibətlərinin inkişafına səbəb oldu. Yeni ictimai qrupların meydana gəlməsi, ali təhsilli ziyalıların sayının artması milli demokratik hərəkatın başlamasına təkan verdi. Bu hərəkat XX əsrin əvvəllərində partiya və təşkilatların yaranması ilə mühüm siyasi əhəmiyyət kəsb etdi.

Zaqatala üsyanı. Çar hökumətinin qərarı ilə Cənubi Qafqazda təhkimçilik, ilk növbədə, Gürcüstanda ləğv olunmağa başladı. Lakin hökumətin qeyri-mütəşəkkil addımları Azərbaycanda fərqli reaksiyalara və ziddiyyətlərə gətirib çıxardı. Belə narazılıqlardan biri 1863-cü ildə Zaqatalada meydana çıxdı. İslahatlara qədər müstəmləkəçilər Car-Balakəndə və Zaqatalada özünəməxsus siyasət aparırdılar. Bu siyasətin məqsədi bölgəni istədikləri kimi idarə etməkdən ibarət idi. Çar hökuməti 1863-cü ildə Gürcüstanda kəndli islahatının keçirilməsi qərarını verdikdən sonra Zaqatala dairəsinin kəndliləri arasında da eyni istiqamətli fəaliyyətin aparılacağını planlaşdırmışdı. Bu məqsədlə bölgəyə gələn hökumət komissiyasının qərarına əsasən ingiloylar və muğallar gəlirlərinin on qatı həcmində birdəfəlik vəsait verməklə keşkəl sahiblərinin asılılığından azad ola bilərdilər.

Torpaq sahiblərinin əsas gəlir mənbəyininəllərindən alınmasına yönələn bu qərar carlıların narazılığına səbəb oldu. Çar hökumətinin işğal etdiyi xalqların mənəviyyatına toxunması adi hal idi. Ruslar Zaqatalada xristianlaşdırma siyasəti aparırdılar. Balakəndə kilsə tikdirilməsi 1863-cü ilin iyununda Hacı Murtuzun rəhbərliyi ilə Zaqatala üsyanının başlanmasına bəhanə oldu.

Bakı Texniki Kolleci

Üsyanda, demək olar ki, əhalinin bütün zümrələri iştirak edirdilər. Bu hərəkatakəndlilərlə bərabər, keşkəl sahibləri, ruhanilər, yerli imtiyazlı şəxslər də qoşulmuşdular. Lakin Zaqatala qalasını ələ keçirmək istəyən üsyançılar məğlub oldular. Üsyanın məğlubolma səbəbləri onun local xarakter daşıması və qeyri-mütəşəkkilliyi idi. Üsyan rəhbərləri qarşıya qoyduqları məqsədləri planlı şəkildə həyata keçirmirdilər. Həmçinin rusların hərbi üstünlüyü də nəzərə alınmamışdı. Lakin üsyandan sonra çar hökuməti 1913-cü ilə qədər bu islahatı Zaqatala dairəsində keçirməkdən çəkindi.

"Xalq intiqamçıları". XIX əsrin 70-ci illərində Azərbaycanda aparılan kəndli islahatı gözlənilən nəticəni vermədi. Kənd əhalisi əvvəlki kimi mülkədarlara və dövlətə vergi verməkdə davam edirdi. İslahatlar kənddə sosial təbəqələşməni də gücləndirmişdi. Kənd əhalisi yoxsul, torpaqsız və işsiz kütləyə; məhz bu kəndlilərin hesabına varlanmış qolçomaq təbəqəsinə bölünürdü. Təsadüfi deyil ki, bu dövrdən etibarən kənd əhalisi arasında sosial narazılıqlar artmağa başladı. XIX əsrin sonlarında çarizmin milli müstəmləkəçilik siyasətinə qarşı narazılıq ən yüksək həddə çatdı. Kəndlilər vergi və mükəlləfiyyətləri ödəmir, bəy və ağaların evlərinə hücum edirdilər. Azərbaycanın bu dövr tarixində qaçaq hərəkatı mühüm yer tutur. Dağlara, gözdən uzaq yerlərə çəkilərək hüquq-mühafizə orqanlarından gizlənənlərə el arasında "qaçaq" deyirdilər. Bir tərəfdən Rusiyanın milli müstəmləkəçilik siyasəti, digər tərəfdən yerli feodal zülmü qaçaqları "xalq intiqamçıları"na çevirmişdi. Qaçaqlar xalqın mənafeyini qorumaqla əsil azadlıq mübarizəsi aparırdılar. Ona görə də xalq insanların ümid yerinə çevrilmiş Qaçaq Nəbi, Dəli Alı, Qaçaq Kərəm kimi qaçaq- qəhrəmanlara nəğmələr, dastanlar qoşur, onları vəsf edirdi. Lakin qaçaq hərəkatı kortəbii xarakter daşıyırdı, mütəşəkkil deyildim və bütün kəndliləri əhatə edə bilmirdi. Buna baxmayaraq, qaçaqçılıq hərəkatı Azərbaycan xalqının

Bakı Texniki Kolleci

müstəmləkəçiliyə, milli əsarətə, istismara və çarizmə qarşı müqavimət imkanlarını daha aydın nümayiş etdirirdi.

Fəhlə hərəkatı. Çar hökumətinin keçirdiyi islahatlar Azərbaycanın iri şəhərlərində sənaye müəssisələrinin sayını artırır, kənddə gedən sosial təbəqələşmə var-yoxdan çıxmış kəndliləri bir qarın çörək dalınca fabrik və zavodlara istiqamətləndirirdi. Azərbaycanın fəhlə sinfi məhz bu cür formalaşırdı. Sənaye müəssisələrinin çoxalması Rusiyanın ətraf bölgələrindən, hətta xarici ölkələrdən belə fəhlə axınını sürətləndirirdi. Bakı tədricən çoxmillətli şəhərə çevrilirdi.Fəhlələrin vəziyyəti olduqca acınacaqlı idi. XIX əsrin ikinci yarısında Bakı, Nuxa və Gədəbəydə iqtisadi tələblərlə çıxış edən fəhlə narazılıqları və tətillər baş verdi. 1895-ci ildə Bakıda tütün fabrikinin fəhlələri Azərbaycan tarixində ilk mütəşəkkil tətil keçirdilər. Bakıda başlamış tətil hərəkatı şəhərdə hərbi vəziyyətin elan olunması ilənəticələndi. Yalnız bundan sonra müəssisə rəhbərləri yeniyetmə fəhlələrin maaşını artırmağa razılıq verdilər. XX əsrin əvvəllərində dünyada baş verən iqtisadi böhran Azərbaycanda da öz əksini tapdı. Bu onsuz da ağır olan fəhlə həyatına böyük zərbə idi. Bir çox müəssisənin bağlanması minlərlə insanın işsiz qalmasına səbəb oldu. 1902-ci ilin aprelində Bakıda fəhlələrin ilk açıq siyasi nümayişi keçirildi. 1903-cü ildə Bibiheybətdən başlayan tətil bütün Bakını əhatə etdi. Fəhlələr bu çıxışlara rəhbərlik üçün Tətil komitəsi yaratdılar. Bu komitə sahibkarlara təqdim edilən tələbnamə hazırladı. Onların tələbləri, qismən də olsa, yerinə yetirildi. 1904-cü il dekabrın 13-də Balaxanı neft mədənlərində başlayan və tezliklə digər müəssisələri də əhatə edən daha böyük tətil dekabrın 30-da sahibkarlarla fəhlələr arasında müştərək müqavilnin bağlanması ilə bitdi. “Mazut konstitusiyası” adlanan müqavilədə sahibkarlar fəhlələrin bütün tələblərini qəbul etdilər.

Lakin onun fəaliyyəti qubernatorun əmri ilə 1906-cı ilin fevralında dayandırıldı. Təşkilat dağıdıldı, fəal üzvləri isə həbs olundu.

Bakı Texniki Kolleci

Milli demokratik hərəkat. İnqilabi hərəkatın güclənməsi qabaqcıl ziyalıların və mütərəqqi burjuaziyanın təfəkküründə milli təəssübkeşlik hisslərini artırmışdı. Bu şəxslərin əksəriyyəti Avropada və Rusiyanın elm ocaqlarında təhsil almış, qabaqcıl ideyalarla yaxından tanış olmuşdular. Onlara H.Zərdabi, Ə.Topçubaşov, M.Ə.Rəsulzadə, Ə.Hüseynzadə, Ü.Hacıbəy li, F.Köçərli, M.S.Ordubadi, C. Məm məd qulu zadə və digər maarifçi-demokratları misal göstərmək olar. "Milliyyət və hürriyyət", "məşrutə və müsavat" ideyaları bu ziyalıların əsas məramına çevrilmişdi. Onların əksəriyyəti öz düşüncələrində və çıxışlarında təkcə Azərbaycanın deyil, bütün Rusiya müsəlmanlarının qabaqcıl ideyalarını ifadə edirdilər.

I Rus inqilabı və Azərbaycan. 1905-ci il yanvarın 9-da Rusiyada baş verən "Qanlı bazar günü" ilə 1905–1907-ci illəri əhatə edən burjua-demokratik inqilabı başladı. Onun təsiri Bakıda da özünü göstərdi. Həmin ilin yayında ümumi tətil təşkil edildi, Tətil komitəsi yaradıldı. Lakin tətilçilərə qarşı qoşun yeridildi, fəal üzvlər həbs olundu. Milli-demokratik hərəkatı boğmaq üçün çar hökuməti Azərbaycanda milli qırğın siyasətinə əl atdı. Payız aylarında Azərbaycanın digər bölgələrində və müəssisələrində də mütəşəkkil tətillər keçirilməyə başlandı. Hər yerdə fəhlə komissiyaları yaradıldı. 1905-ci ilin noyabrında mədən və zavodlardan seçilmiş fəhlə nümayəndələri Azərbaycanda inqilabi hərəkatı idarə etmək üçün Bakı Fəhlə Deputatları Sovetini (Şurasını) təşkil etdilər. Milli demokratların fəaliyyətində milli


Məhəmməd Əmin Rəsulzadə

Bakı Texnik Kolleci

burjuaziyanın dəstəyi də böyük əhəmiyyət daşıyırdı. H.Z.Tağıyev, M.Nağıyev və M.Muxtarov kimi sahib karların maliyyə vəsaitləri demokratik ziyalıların fəaliyyətini daha da genişləndirmək üçün şərait yaradırdı. 1905–1906-cı illərdə məhz onların təşəbbüsü ilə xeyriyyə cəmiyyətləri formalaşdırıldı. “Nəşri-maarif”, “Nicat” cəmiyyətlərinin milli şüurun inkişafında rolu böyük oldu. Ziyalılar çox gözəl anlayırdılar ki, Azərbaycanda islahatların keçirilməsi, idarəçiliyin yenilənməsi, təhsilin genişlənməsi vacib məsələlərdir. 1905-ci ilin yazı və yayında çar hökumətinə təqdim edilmək üçün Ə.Topçubaşovun rəhbərliyi ilə xalqın ehtiyaclarını özündə əks etdirən ərz-hallar hazırlandı. Bu, Azərbaycanda müstəmləkəçilik siyasəti əleyhinə çıxan demokratların ilk proqram sənədi idi. Siyasi partiya və təşkilatlar. Bu dövrdə Azərbaycanda bir sıra siyasi partiyaların və təşkilatların yaranması prosesi başladı. Onların məqsədi xalqın faciələrinə biganə qalmayan qabaqcıl fikirli insanları birgə mübarizəyə səsləmək idi. 1903-cü ildə yaradılan Müsəlman Gənclik Təşkilatının təşəbbüskarı M.Ə.Rəsulzadə idi. 1904-cü ildə M.Mövsümovun və M.Ə.Rəsul zadənin rəhbərliyi ilə qurulmuş “Hümmət” təşkilatının sonrakı fəaliyyəti Rusiya Sosial-Demokrat Fəhlə Partiyasının məqsədlərinə xidmətlə bağlı olsa da, öz ətrafında çox sayda qabaqcıl insan toplaya bilmişdi. Şimali Azərbaycanda ilk milli partiya 1905-ci ildə Gəncədə yaradılmışdı. Ələkbər bəy Rəfibəylinin rəhbərlik etdiyi “Qeyrət” partiyası Rusiyanın federativ quruluşa malik olmasını və Azərbaycana muxtariyyət verilməsini tələb edirdi. Çarizmin milli qırğın siyasəti əhalinin müdafiəsinə qalxmış ziyalıları və sahibkarları daha sıx birləşməyə sövq edirdi.

Bakı Texniki Kolleci

Bu məqsəd 1906-cı ildə Ə.Ağayevin “Difai” (Müdafiə), 1907-ci ildə İ.Vəkilovun “Müdafiə” təşkilatlarının yaradılmasına səbəb oldu.



“Difai” partiyasının möhürü

“Müsavat” partiyası 1911-ci ildə fəaliyyətə başladı. Məmməd Əmin Rəsulzadə, Abbasqulu Kazımzadə və Tağı Nağıoğlu kimi qabaqcıl ziyalılar tərəfindən yaradılmışdı. 1912-ci ildə “Müsavat”ın proqramı çap edildi və tezliklə Ə.Hüseynzadənin “türkləşmək, islamlaşmaq, müasirləşmək” ideyası partiyanın əsas məramına çevrildi.“Difai” təşkilatı “İrşad”, “Müsavat” partiyası isə 1915-ci ildən “Açıq söz” qəzetini dərc etdirməyə başladı. Bu cür addımların atılması Azərbaycanın muxtariyyətini, eləcə də müstəqilliyini arzulamaq, bu istiqamətdə mübarizə aparmaq əzmini gücləndirirdi. Çar hökuməti tərəfindən azərbaycanlılara qarşı qırğın törədilməsi isə milli təəssübkeşlərin siyasi əqidəsini daha da mətinləşdirdi. Onların əksəriyyəti çarizmin müstəmləkə zülmünə qarşı açıq mübarizə aparmaqdan çəkinmirdi. Ümum-Rusiya müsəlmanlarının qurultayları. XX əsrin əvvəllərində baş verən iqtisadi və siyasi böhran Rusiyada inqilabi hərəkatı gücləndirdi. Qanlı bazar günü nəinki sadə rusların, həm də yerlərdə digər xalqların bir kasasını doldurdu. İnqilabın güclənməsindən narahat olan hökumət güzəştlərə getməyə məcbur qaldı. 1905-ci il oktyabrın 17-də çar “Manifest” imzaladı. “Manifest”ə görə bütün Rusiyada yaşayan əhaliyə şəxsiyyət toxunulmazlığı hüququ, fikir, söz, sərbəst toplaşmaq azadlığı verilirdi. Azərbaycanlı ziyalılar müsəlmanlara qarşı mövcud ayrı-seçkilikdən narazı idilər və onun aradan qaldırılması üçün çar Rusiyasına xüsusi tələbnamə göndərdilər. Azərbaycanlı demokratların bu tələbinə imperiyanın digər müsəlman xalqları da qoşul mağa çalışdı. Bu məqsədlə 1905-ci ilin avqustunda Nijni-Novqorod şəhərində Rusiyanın müxtəlif bölgələrində yaşayan müsəlmanların iştirakı ilə ÜmumRusiya Müsəlmanlarının I Qurultayı keçirildi.

Bakı Texniki Kolleci

Qurultayın təşkilində fəallıq göstərmiş və təşəbbüskarlardan biri olan Ə.Topçubaşov sədr müavini seçildi. Qurultay “Müsəlman İttifaqı” partiyasının yaradılması haqqında qərar verdi. Məqsəd Rusiya müsəlmanlarının fəaliyyətini birləşdirmək, millətlərə bərabər hüquqlar vermək, onların mədəni və təhsil səviyyəsini artırmaq idi.

1906-cı ilin yanvarında Peterburqda Müsəmanların II Qurultayı keçirildi. Qurultayda “Müsəlman İttifaqı” partiyasının proqramı qəbul edildi, Rusiyada yaşayan türkləri rus imperiyasına qarşı vahid cəbhədə birləşdirmək qərara alındı. Həmin ilin avqustunda Nijni-Novqorodda III Qurultay təşkil olundu. Burada da Rusiya Müsəlman İttifaqının Mərkəzi Komitəsinin yaradılması və Bakıda fəaliyyət göstərməli olduğu barədə qərar qəbul edildi. Yeni tipli məktəb və təhsil ocaqlarının açılması istiqamətində işlərin aparılması qərara alındı. 1907-ci ilin fevralında II Duma öz işinə baş ladı. Bu Dumaya Fətəli xan Xoyski, Xəlil bəy Xasməmmədov, Mustafa Mahmudov, Məhəmməd ağa Şahtaxtinski və Zeynal Zeynalov seçilmişdilər. Amma onun da ömrü uzun olmadı. Həmin ildə fəaliyyətə başlayan III Dövlət Dumasına isə çar hökumətinin qoyduğu məhdudiyyətlərə görə yalnız bir azərbaycanlı Xəlil bəy Xasməmmədov seçilə bildi. Duma 1912-ci ilədək fəaliyyətdə oldu. III Dövlət Duması Rusiyada yaşayan müsəlmanlara və türklərə qarşı qəbul etdiyi mürtəce qərarları ilə daha çox yadda qaldı. Təsadüfi deyil ki, sonrakı IV Dumada çox milyonlu Rusiya türklərindən yalnız 7 nəfər deputat seçilə bilmişdi. 1912-ci ilin dekabrından 1917-ci ilədək fəaliyyətdə olmuş Rusiya imperiyasının sonuncu IV Dövlət Dumasına seçkilərə isə Azərbaycandan yalnız bir deputat qatıla bilmişdi. Bu, Məmməd Yusif Cəfərov idi.

Dövlət Dumaları və azərbaycanlı deputatlar. 1905-ci ilin dekabrında çar Dövlət Dumasının çağırılması haqqında fərman verdi. Qanuna əsasən Qafqaz müsəlmanlarının da seçkilərdə müəyyən məhdudiyyətlərlə iştirak hüququ var idi.

Bakı Texniki Kolleci

I Dövlət Duması 1906-cı ilin aprel ayında fəaliyyətə başlasa da, Azərbaycanda seçkilər may ayında keçirildi. Əlimərdan bəy Topçubaşov, İsmayıl xan Ziyadxanlı, Əbdürrəhim bəy Haqverdiyev, Məmmədtağı Əliyev və Əsədulla bəy Muradxanov xalq tərəfindən seçildi. Dumada müsəlman fraksiyasına Ə.Topçubaşov rəhbərlik edirdi. Lakin Dumanın fəaliyyətindən narazı qalan çar tezliklə onu buraxdı.

Dumada azərbaycanlı deputatların fəallığı, xüsusən də Ə.Topçubaşovun fəaliyyəti çar hökumətini narazı salmışdı. Dumanın buraxılmasından dərhal sonra o, Vıborq şəhərində toplaşan bir sıra deputatlarla bərabər "Vıborq bəyannaməsi"ni imzaladı. Bu bəyan namə ilə əlaqədar Ə.Topçubaşov və İ.Ziyadxanlı həbs edildi.

1907-ci ilin fevralında II Duma öz işinə başladı. Bu Dumaya Fətəli xan Xoyski, Xəlil bəy Xasməmmədov, Mustafa Mahmudov, Məhəmməd ağa Şahtaxtinski və Zeynal Rusiya imperiyası azərbaycanlı deputatları Dumalardan uzaqlaşdırmağa çalışsa da, xalq artıq özünün yeni oyanış dövrünü keçirdi. Bu oyanış azadlıq hərəkatı dalğası iləsonralar müstəqil Azərbaycan dövlətinin yaranmasına yol açacaqdı.

Peterburqda 1905-ci il yanvar ayının 9-da baş vermiş "Qanlı bazar günü"nün əks-sədası Azərbaycana da gəlib çatdı. Bakıda və digər bölgələrdə həmrəylik əlaməti olaraq nümayiş və tətillər keçirilməyə başlandı. Hökumət oyanmış inqilabi hərəkatı yatırmaqda çətinlik çəkir, buna görə də müəyyən tədbirlər görməyə tələsirdi. Narahat olan çar hökuməti Azərbaycanda milli qırğın siyasəti aparmaq qərarına gəldi.

Milli qırğının başlanması. Bakı hadisələri. Milli zəmində baş verəcək münaqişələrin əsasını çar hökuməti hələ XIX əsrin əvvəllərində qoymuşdu. Ayrı-ayrı illərdə Azərbaycana kütləvi şəkildə erməni, rus, alman ailələri köçürülmüş, yerli kəndlilərin bərəkətli torpaqlarında yerləşdirilmiş, onlara müəyyən imtiyazlar verilmişdi. Yerli əhali ilə müqayisədə bu ailələrə qarşı əksər hallarda milli, dini ayrı-

Bakı Texniki Kolleci

seçkilik edilir və “parçala, hökmranlıq et” siyasəti yürüdülürdü. Bakı çoxmillətli sənaye şəhərinə çevrilmişdi. 1905-ci ilin əvvəllərində Bakıda milli qırğın həyata keçirmək üçün çar hökuməti xüsusi plan hazırladı. Bu planın reallaşdırılması isə qubernator M.Nakaşidzeyə tapşırıldı. Bu dövrdə ermənilərin “Daşnaksutyun” partiyası daha çox fəallıq göstərirdi. 1890-cı ildə Tiflisdə yaradılmış “Daşnaksutyun” partiyası türkləri erməni xalqının əzəli düşməni kimi qələmə verir, iki xalqı bir-birinə qarşı qoyurdu. Qırğınların təşkil olunmasında “Daşnaksutyun”un böyük rolu olmuşdur. 1905-ci ilin əvvəllərində daşnaklar Bakıda yaşayan millətlər arasında müsəl manların vəhşi olduqlarını iddia edən təbliğatlar aparır, qızışdırıcı hərəkətlərə yol verirdilər. Hamı dəhşətli bir hadisənin baş verəcəyini duyurdu. Fevralın 2-də bir neçə nəfər azərbaycanlı bir-birinin ardınca milli zəmində qətlə yetirildi. Mühafizə orqanlarının hadisəyə göz yumması isə azərbaycanlıların silaha əl atmasına şərait yaratmaq üçün qızışdırıcı planın bir hissəsi idi. Beləliklə, fevralın 6-da Bakıda qırğın başladı və ayın 9-dək davam etdi. Hökumət nümayəndələri tərəfindən silahlandırılmış daşnaklar yüzlərlə azərbaycanlının qətlinə bais oldular. Evlər qarət edildi, talanlar törədildi. Qubernator qırğının qarşısını almaq üçün heç bir tədbir görmədi. Bölgələrdə kütləvi qırğınların törədilməsi.

Tezliklə qırğın Azərbaycanın başqa bölgələrinə də yayıldı. 1883-cü ildə ləğv edilmiş Qafqaz canişinliyi 1905-ci ilin fevral ayında yenidən bərpa edildi. May ayında erməni dəstələri İrəvanda qırğın törətmək qərarına gəldi. Bu şəhərin əhalisinin böyük əksəriyyəti azərbaycanlılardan ibarət idi. Ermənilər İrəvanda və onun ətraf bölgələrində yaşayan azərbaycanlıları yurdlarından məhrum etmək istəyirdilər. Azərbaycanlıların rəşadətlə vuruşması və öz torpaqlarını cəsarətlə müdafiə etməsi nəticəsində ermənilərin planları puç oldu. Bir neçə aydan sonra onlar Naxçıvanda və Zəngəzurda da vəhşiliklər törətdilər. Bu hərəkətlər soyqırımı

Bakı Texniki Kolleci

xarakteri daşıyırdı. Naxçıvanın Cəhri kəndində bir ailənin tamamilə məhv edilməsi, kəndin yerlə-yeksan olunması başqa cür adlandırıla bilməzdi.



Həmidə xanım Cavanşir

Kütləvi qırğınlar törədən erməni dəstələri Cəbrayıl qəzasının kəndlərini talamağa başladı. Lakin azərbaycanlılar erməniləri Veysəlli, Qacar, Şeyxməli, Çəmənli, Xırmancıq kəndlərində darmadağın edərək bu hücumların qarşısını ala bildilər.

Şuşa faciəsi. Avqustda baş vermiş bu hadisə zamanı rus qarnizonuna arxalanan daşnak dəstələri Cənubi Azərbaycandan iş dalınca gəlmiş 17 fəhləni xaincəsinə qətlə yetirdi. Azğınlaşmış ermənilərin hücumlarına qarşı azərbaycanlılar mərdliklə müqavimət göstərdilər. Bu, Azərbaycan xalqının ağır günlərdə bir olduğunun bariz nümunəsi idi. Azərbaycanın hər yerindən, xüsusən də Bakıdan döyüş yerlərinə ərzaq və pul yardımları göndərilir, döyüşçü dəstələr yığılırdı. Tanınmış sahibkarlar H.Z.Tağıyev, M.Nağıyev və C.Məmmədquluzadənin həyat yoldaşı Həmidə xanım Cavanşir də yardım göstərənlər arasında idi. Heç nədən çəkinməyən Həmidə xanım döyüşlərin aparıldığı bölgələrə gedir, qırğına məruz qalan insanlara tibbi, maddi və ərzaq yardımları edirdi. Azərbaycan xalqının milli birliyi ermənilərin əsil məğlubiyyəti demək idi.

Azərbaycanlılarla tək bacara bilməyəcəyini dərk edən erməni quldurları rusların köməyinə ehtiyac duyurdular. Onlar Şuşada və ətraf kəndlərdə məruz qaldıqları məğlubiyyətdən sonra 1906-cı ilin əvvəllərində rüşvət müqabilində rus kazak dəstələri ilə birləşdilər. Lakin bu da ermənilərin Şuşanı ələ keçirmək kimi

məkrli planının reallaşmasına kömək etmədi. Bu döyüşlərdə Sultan bəy Sultanovun xidmətlərini xüsusi qeyd etmək lazımdır. Onun başçılığı ilə şəhərə daxil olan dəstələrin şücaəti nəticəsində birləşmiş erməni-kazak qüvvələri darmadağın edildi.

Göyçə və İrəvanda qırğınlar. Göyçə mahalının kəndləri də daşnak quldur dəstələrinin hücumlarına məruz qalırdı. Həmin mahalın Daşkənd kəndinin sakini Məşədi Qasım kişi erməni quldurlarına qarşı mübarizədə ad qazanmışdı. Erməni-daşnak vəhşiliklərini öz gözləri ilə görən Məşədi Qasım, sonralar laçınlı Sultan bəyin dəstəsinə qoşulmuş və Qarabağa erməni təcavüzünün qarşısının alınmasında da yaxından iştirak etmişdi. Ermənilərə qarşı qəhrəmanlıq göstərərək həlak olanlardan biri də Novruz Kazım oğlu idi. 1905-ci ildə erməni quldur dəstələri İrəvanın Qırxbulaq mahalının Gözəcik kəndinə hücum etmişdilər. Silahsız dinc əhali bu kənddə də qala bilməyib qonşu Mənkus kəndinə pənah aparmışdı. Lakin kəndin ağası əyalı ilə birlikdə şəhərə köçmüş, kənddə yalnız öz yurd-yuvasını tərk etməyərək Novruz Kazım oğlu adında bir qoca qalmışdı. O, sursatı qurtarana qədər erməni quldur dəstəsi ilə döyüşdü. Bu qəhrəman qoca əsir götürülmüş və bir erməni keşişi tərəfindən qətlə yetirilmişdi.

Azərbaycan partiyaları və milli qırğın siyasətinə qiymət. Azərbaycanın qabaqcıl ziyalıları və milli burjuaziya başa düşürdü ki, milli qırğın dövlətin planlı siyasətidir. Buna görə də xalq özü onun qarşısını almaq təşəbbüsü ilə çıxış etməyə başlamalıdır. Öz sosial statusundan asılı olmayaraq, bir çox könüllülər qırğınların törədildiyi bölgələrə getməkdən, əhaliyə maddi, ərzaq, tibbi və silah yardımı göstərməkdən çəkinmirdilər. Erməni daşnak hücumlarının gündən-günə artması, hökumətin isə onlara dəstək verməsi Azərbaycan ziyalılarının əməli fəliyyətə keçməsinə səbəb oldu. “Difai” (“Müdafiə”) partiyası Ə.Ağayevin başçılığı ilə tezliklə vahid milli təşkilata çevrildi. Onun Gəncə, Naxçıvan, Şuşa, Ağdam, hətta Qars və Vladiqafqazda belə şöbələri açıldı. Bu partiya öz məqsəd və məramlarını ifadə etmək

Bakı Texniki Kolleci

üçün "İrşad" adlı qəzet çap etdirirdi. Bu mətbuat orqanı milli qırğının əsas mahiyyətini, erməni fitnəkarlığını və çar hökumətinin niyyətlərini açıq şəkildə xalqa çatdırırdı. Təşkilat ermənilərə və onların havadarlarına Azərbaycan xalqının son damla qanına qədər mübarizə aparacağı xəbərdarlığını edirdi. Milli qırğın Azərbaycan xalqının yalnız özünə güvənməli olduğunu ortaya qoydu. Qırğın göstərdi ki, çarizmin əsas məqsədi "Parçala, hökmranlıq et" siyasəti yürüdərək xalqları özünə qarşı çıxışlardan ya yındırmaqdır. Ona görə də millətin siyasi cəhətdən təşkilatlanması XX əsrin əvvəllə rində ziyalıların qarşıya qoyduğu başlıca məqsədə çevrilmişdi.

Bakı Texniki Kolleci

# 5.Şimali Azərbaycan Birinci Dünya müharibəsi illərində. Bakı Sovetinin azərbaycanlılara qarşı soyqırım siyasəti

Dünyanın böyük dövlətlərinin hakim dairələrində on illərlə müzakirə olunan geniş işğalçılıq planları digər xalqların və ölkələrin bölüşdürülməsini, onların hüquqlarının tapdanmasını, sərvətlərinin talan edilməsini, sərhədlərinin dəyişdirilməsini nəzərdə tuturdu. Birinci dünya müharibəsi dünyanın əksər xalqlarının, o cümlədən azərbaycanlıların da tarixində mühüm dəyişikliklərin baş verməsinə səbəb oldu. Müharibənin ilk illərində çar Rusiyasının müstəmləkə əyaləti olan Şimali Azərbaycan son ilində artıq müstəqil milli dövlətə çevrilmişdi. Şimali Azərbaycan vuruşan böyük dövlətlərin hərbi-siyasi planlarında Antanta hərbi-siyasi ittifaqının üzvü qismində müharibəyə qoşulan, Rusiyanın müstəmləkə əyaləti olan Şimali Azərbaycan 1917-ci ilin sonlarına kimi Böyük Britaniya və Fransanın müharibə planlarında xüsusi yer almamışdı. Lakin zəngin faydalı xammal yataqlarına, təbii sərvətlərə malik olan və mühüm coğrafi-strateji mövqedə yerləşən Cənubi Qafqazın, xüsusilə Rusiyada hasil olan bütün neftin 83%-ni verən Bakının düşmən dövlətlərin nəzarətinə keçməməsi üçün Böyük Britaniya müharibənin sonlarında bölgədə fəal hərbi-siyasi tədbirlər həyata keçirmək məcburiyyətində qaldı. Bakını ələ keçirəcək istənilən dövlətin həm də Xəzər dənizi hövzəsində üstün mövqeyə sahib olacağı dəqiq idi.Müharibə ərəfəsində Cənubi Qafqazın milli qüvvələri ilə, xüsusilə gürcülərlə əlaqə yaratmış Almaniya siyasi və hərbi dairələri Rusiya ilə müharibənin başlanacağı təqdirdə yerli xalqların çarizm əleyhinə güclü üsyan qaldaracaqlarına ümid edirdilər. “Mühərriklərin müharibəsi”nin son aylarında Almaniya maye yanacağa tələbatının ödənilməsi məqsədilə Bakının ələ keçirilməsinə mühüm əhəmiyyət verməyə başladı.

Bakı Texniki Kolleci

Osmanlı dövləti də Qafqazda Rusiya əleyhinə çıxışların təşkil edilməsi üçün hələ müharibə ərəfəsində bölgəyə xüsusi qruplar göndərmişdi. 1918-ci ilin yazına kimi hərbi əməliyyatlardan kənarda qalan Şimali Azərbaycan sonradan Osmanlı, Almaniya, Rusiya və Böyük Britaniya dövlətlərinin rəqabət meydanına çevrildi.

Azərbaycanlıların müharibəyə münasibəti. Müharibənin ilk günlərində Rusiyanın bütün müsəlman əhalisi kimi azərbaycanlılar da təbəələri olduqları imperiyanın qalib gəlməsini arzulayırdılar. IV Dövlət Dumasının müsəlman deputatları adından bəyan edilən müraciətdə "müsəlmanların Rusiyanın şərəfi və bütövlüyü naminə mübarizə aparacaqları" fikri xüsusi olaraq vurğulanırdı. Osmanlı dövlətinin Rusiyaya qarşı hərbi əməliyyatlara başlamasından sonra azərbaycanlıların müharibəyə münasibətində qeyri-müəyyənlik yarandı. Osmanlı imperiyası türk və müsəlman xalqlarının başlıca istinadgahı olduğundan onun uğursuzluğu bütün türk-islam dünyası üçün arzu olunmaz idi. Bu səbəbdən 1915–1916-cı illərdə baş vermiş məşhur Çanaqqala döyüşlərində Şimali və Cənubi Azərbaycandan gəlmiş minlərlə könüllü Osmanlı ordusu sıralarında vuruşmuşdu. Osmanlı dini- siyasi dairələrinin elan etdiyi cihada qoşulmaqla təbəələri olduqları dövlətə qarşı xəyanət etməyin məsuliyyətini dərk edən Şimali Azərbaycanın müsəlman əhalisi Rusiya– Osmanlı hərbi qarşıdurmasının tez bir zamanda dayandırılmasını arzulayırdı. Lakin Rusiyanın Osmanlı imperiyasına qarşı müharibədə "erməni amili"ndən geniş istifadə etməsi, onun silahlandırdığı erməni quldur dəstələrinin müsəlman əhalisinə qarşı zorakılıqları azərbaycanlıları narahat edirdi. Şimali Azərbaycanın milli ziyalılarının əksəriyyəti Osmanlı və Almaniya imperiyalarının yardımı ilə Azərbaycanda müstəqil milli dövlətin yaradılacağını ümid edirdilər.

Azərbaycanlıların müharibədə iştirakı. Rusiya hökumətinin təşəbbüsü ilə 1874-cü ildə qəbul edilən hərbi qanuna əsasən ümumi hərbi mükəlləfiyyət yalnız slavyanlara şamil edilmişdi. Cənubi Qafqaz, Orta Asiya, Sibir xalqları hərbi xidmətdən azad



Bakı Texniki Kolleci

olunsalar da, onların ali silk nümayəndələrinin orduda zabit qismində iştirakına icazə verilirdi. Müharibənin ilk hərbi əməliyyatlarında verdiyi çoxsaylı itkilərdən sonra Rusiyanın ali hərbi-siyasi dairələri tərəfindən imperiyanın digər xalqlarının da müharibəyə cəlb edilməsi qərara alındı. Lakin Osmanlı dövlətinin Rusiyaya qarşı müharibəyə başlaması ilə imperiyanın müsəlman xalqlarına etimadsızlığı artdı. Buna görə də səfərbərliyə alınan müsəlmanlardan yalnız Qərb cəbhəsində Almaniya və Avstriya-Macarıstana qarşı döyüşlərdə istifadə edilməsinə qərar verildi.



Osmanlı şeyxülislamı müsəlmanları cihada çağırır. 14 noyabr 1914-cü il

Tatar süvari alayı. 1914-cü ilin avqustunda çar II Nikolayın fərmanı ilə Qafqaz Yerli Süvari Diviziyası ("Vəhşi diviziya") yaradıldı. Könüllülərdən təşkil edilmiş diviziyada azərbaycanlılardan ibarət hərbi hissə Tatar Süvari Alayı adlanırdı. Digər hərbi hissələrdən fərqli olaraq, qafqazlıların süvari alaylarında at, yəhər, geyim, soyuq silah və ləvazimat döyüşçülərin öz hesablarına təmin olunmalı idi. Tatar Süvari Alayının təşkilində Yelizavetpol quberniyasının tanınmış bəylərindən olan Fərrux bəy Vəzirov mühüm rol oynamışdı. Milli burjuaziya nümayəndələri alayın maliyyələşdirilməsində fəal iştirak edirdilər. Alay Yelizavetpol quberniyası və Tiflis quberniyasının Borçalı qəzasının könüllülərindən təşkil olunmuşdu. Cəbhəyə yola düşərkən Azərbaycan dilində "Andlı öhdəlik" qəbul edən və ona axıra qədər sadiq qalan alayda müharibə dövründə, bir dəfə də olsun, fərarilik halı baş vermədi. Döyüşən generallarımız. Birinci dünya müharibəsində Rusiya ordusunda 200 nəfərədək azərbaycanlı zabit iştirak edirdi. 1914-cü ilin sentyabrında general-leytenant Səməd bəy Mehmandarovun başçılıq etdiyi diviziyanın hissələri 3 gün

Bakı Texniki

ərzində heç bir yardım almadan alman qvardiya korpusunun hücumlarını dəf etmişdi. Diviziya rus korpusunu mühasirəyə almağa çalışan və sayca üstün Avstriya-Macarıstan qüvvələrinə qalib gələrək buna imkan verməmişdi. Döyüşlərdə general Mehmandarov ön sıralarda vuruşaraq dəfələrlə həyatını təhlükə altına atmışdı. O göstərdiyi şəxsi şücaətə görə çarın fərmanına əsasən brilyantlarla bəzədilmiş Georgi silahı ilə təltif olunmuşdu. yantlarla bəzədilmiş Birinci dünya müharibəsi dövründə rus ordusunda yalnız 8 nəfər bu silahla mükafatlandırılmışdı. Ordu komandanı general Mehmandarov Rusiya ilə yanaşı, Böyük Britaniya, Fransa və Rumıniyanın ali hərbi mükafatları ilə təltif edilmişdi. Lakin Rusiyada baş verən Fevral inqilabından sonra general Mehmandarov hərbi xidmətdən istefa vermiş di. Süvari qoşunları generalı və Rusiya İmperator Ordusunda çarın yeganə müsəlman yavəri (general-adyutant) olmuş Hüseynxan Naxçıvanski müharibənin ilk günlərindən Əlahiddə Süvari Korpusuna komandanlıq etmişdir. General-leytenant Əliağa Şıxlinski Dünya müharibəsi ərəfəsində Artilleriya zabitləri məktəbinin rəisi vəzifəsini icra edirdi. Onun döyüş şəraitində hədəfin dəqiq nişan alınması üçün təklif etdiyi "Şıxlinski üçbucağı" bütün hərbi dərsliklərə daxil edilmişdi. Artilleriya elminə verdiyi töhfələrə görə Rusiyanın və Fransanın ali hərbi təltiflərinə layiq görülən general müharibə başlananda Petroqradın artilleriya müdafiəsinin rəisi kimi fəaliyyət göstərmişdi.



H.Naxçıvanskinin başçılıq etdiyi Süvari Korpusu 1915-ci ildə Visla çayı sahillərində alman qoşunlarını məğlub etdi. Rusiya imperatorunun yavəri təyin olunduqdan sonra general Naxçıvanski həm də imperatorun özünə sadiq qüvvələrdən yaratdığı Qvardiya Süvari Korpusuna komandan təyin edilmiş, Qərb və Cənub-qərb cəbhələrində gedən döyüşlərdə fərqlənmişdir. Şəxsi şücaəti ilə fərqlənən general döyüşlərin birində yaralanmışdı.

Lakin inqilabi təbliğatın təsiri ilə döyüş qabiliyyətini itirməkdə olan rus ordusunda xidmətin çətinliyini dərk edərək öz xahişi ilə istefa vermişdir. Qafqazda general-mayor rütbəsinə layiq görülən yeganə hərbi topoqraf İbrahim ağa Vəkilov müharibə illərində döyüşən orduların qərargahlarında xidmət etmişdir. General-mayorlar Mirzə Kazım bəy və Mir Əsəd bəy Talışxanovlar müharibə illərində rus alaylarına komandanlıq etmişlər.

İlk azərbaycanlı hərbi təyyarəçi Fərrux ağa Qayıbov Qərb cəbhəsində vuruşan aviasiya hissəsində xidmət etmişdir. F.Qayıbovun zabit təyin olunduğu hərbi təyyarənin heyəti alman qoşunlarının mühüm strateji məntəqələrini bombardman etmək məqsədilə 1916-cı ildə həyata keçirilən əməliyyatda iştirak etmiş, düşmən təyyarələri ilə qeyri-bərabər döyüşə girmək məcburiyyətində qalmışdı. Heyət üzvləri döyüşdə almanların 4 təyyarəsindən 3-nü vurmağı bacarsalar da, sonda qəhrəmancasına həlak olmuşdular. Müharibənin Şimali Azərbaycan iqtisadiyyatına təsiri. Rusiyanın digər arxa cəbhə rayonlarından fərqli olaraq, Şimali Azərbaycan iqtisadiyyatı müharibənin daha ağır təsirlərinə məruz qaldı. İqtisadiyyat müharibə dövrünün tələblərinə uyğunlaşdırılmışdı. Nəqliyyat yolları ilə, əsasən, hərbi yüklər daşınırdı. Ənənəvi ticarət yolları bağlanmış, ölkəyə xammal gətirilməsi, demək olar ki, dayanmışdı. Kənd təsərrüfatında dənli və texniki bitkilərin əkini xeyli azalmışdı. Taxıl məhsulunun istehsalı, təqribən, 2 dəfə aşağı düşmüşdü. Qoşqu heyvanlarının ordu üçün müsadirə olunması nəticəsində Azərbaycanda kəndli təsərrüfatlarının

Bakı Texniki Kolleci

yarıdan çoxu iş heyvanlarından məhrum olmuşdu. 1915-ci il iyunun 15-də çarın fərmanı ilə Azərbaycan kəndlərində kişilərin 30%-nin arxa cəbhədə işlərə cəlb edilməsi kənd təsərrüfatında işçi qüvvəsinin kəskin şəkildə azalması ilə nəticələndi. Nəqliyyat problemləri səbəbindən Şimali Azərbaycanın Rusiyanın ərzaq istehsal edən başlıca rayonları ilə əlaqələrinin çətinləşməsi ölkəyə ərzağın gətirilməsində də ağır vəziyyət yaratmışdı. Rusiya imperiyasının mühüm sənaye mərkəzlərindən biri olan Bakıda zəruri ərzaq məhsullarının qiymətlərinin artması əhalinin yaşayışını xeyli ağırlaşdırmışdı. 1916-cı ilin əvvəllərində Bakıda möhtəkirlərin ərzaq məhsullarını süni şəkildə bahalaşdırmalarına qarşı qadınların güclü etiraz çıxışları baş verdi. Onlar bir sıra bazarları, dükanları, ərzaq anbarlarını, dəyirmanları ələ keçirib talan etdilər. Şəhərə böyük maddi ziyan vuruldu. Bakıya gətirilən əlavə qoşun hissələri bu çıxışı qəddarlıqla yatırdı. İlk dəfə Bakıda baş vermiş "Qadınların qiyamı"na bənzər çıxışlar daha sonra digər şəhərlərdə də oldu. Müharibə bütün Rusiya imperiyasında olduğu kimi, Şimali Azərbaycanda da sosial-iqtisadi ziddiyyətləri kəskinləşdirdi və mövcud siyasi quruluşa qarşı etiraz çıxışlarını gücləndirdi.



Fərrux ağa Qayıbov

**⁂Bakı Sovetinin azərbaycanlılara qarşı soyqırım siyasəti⁂** Cənubi Qafqazda 1917-ci ilin sonu 1918-ci ilin əvvəllərindən etibarən cərəyan edən hərbi-siyasi proseslərin təsiri ilə bölgə Rusiyanın mərkəzi hakimiyyətinin nəzarətindən çıxmağa

başladı. Yerli xalqlar arasında qarşılıqlı etimadsızlığın gücləndirilməsi sahəsində çarizmin on illərlə apardığı siyasət nəticəsində milli münaqişələr dərinləşdi. Bolşeviklər və erməni siyasi qüvvələri bölgədə yaranmış mürəkkəb şəraitdən Azərbaycanın milli maraqlarına qarşı məkrli planlarından istifadə etmək qərarına gəldilər. Bölgənin müsəlman əhalisinə qarşı qırğınların həyata keçirilməsi üçün bu qüvvələr bir cəbhədə birləşmişdi. Şimali Azərbaycanda milli hərəkatın genişlənməsi. Bakıda bolşeviklərin fəaliyyəti onların bütün Cənubi Qafqazda sovet hakimiyyətini zorla bərqərar etmək niyyətlərindən xəbər verirdi. Qafqaz cəbhəsindən evlərinə qayıtmaq istəyən rus ordusu əsgərlərinin bir çoxu müharibə dövrünün çətinlikləri və bolşevik təbliğatının təsiri altında Bakıda "ləngiməli" olurdu. Sovetin "inqilabi qüvvə" adı altında yaratdığı silahlı birləşmələrinin əksəriyyətini təşkil edən erməni və rus hərbçilərinin Azərbaycan xalqına qarşı nifrət dolu münasibəti gələcək faciələrin təməlini qoymaqda idi. Bölgənin müsəlman əhalisinə, o cümlədən Azərbaycan türklərinə qarşı 1917-ci ilin sonlarından etibarən erməni quldur dəstələrinin genişlənməkdə olan "etnik təmizləmə" fəaliyyəti insanlığa sığmayan cinayətlərlə müşayiət olunurdu. Erməni siyasi qüvvələri sovet Rusiyası dünya müharibəsindən çıxdıqdan sonra bütün səylərini Cənubi Qafqaza yönəltmişdilər. Təkcə 1918-ci ilin martına kimi İrəvan quberniyasında 200-ə yaxın müsəlman kəndi qarət olunaraq məhv edilmişdi. Quberniyada sayca çox olan müsəlmanların qovulub çıxarılması gələcəkdə burada erməni dövlətinin yaradılması üçün məqsədyönlü tədbir idi. Azərbaycanlıların erməni basqınları qarşısında silahsız qalmaları ilə əlaqədar üzləşdikləri faciələrə görə həm Komissarlıq, həm də daha sonra onu əvəz edən Seym məsuliyyət daşıyırdı. Azərbaycanlıların milli təşkilatlarını dövlət maraqlarına laqeydlikdə ittiham edən Rusiya partiyaları erməni siyasi qüvvələrini müdafiə edirdi. Bu isə Azərbaycanın müsəlman əhalisinə qarşı törədilmiş erməni vəhşilikləri haqqında məlumatın ölkə hüdudlarından kənara çatdırılmasına mane olurdu. Azərbaycanlıların milli muxtariyyətə meyilli olmaları,

milli siyasi qüvvələrin arxasınca getmələri bölgəni sovetləşdirmək istəyən bolşevikləri və bu torpaqlara göz dikən erməni quldurlarını hiddətləndirirdi. Davamlı erməni basqınlarından qurtulmağa çalışan ölkə əhalisi üzləşdikləri faciələrin tez bir zamanda bitməsi üçün milli siyasi qüvvələrdən daha təsirli və təcili tədbirlərin görülməsini tələb edirdilər. Bölgədə anarxiyanın hökm sürdüyü bir zamanda iqtisadiyyatda böhran daha da dərinləşir, aclıq, işsizlik və bahalıq artırdı. İnsanlarda inqilabi və demokratik ideyalara inamsızlıq hissləri güclənirdi. Azərbaycan əhalisinin müəyyən hissəsi ağır vəziyyətdən çıxmağın yeganə yolunu torpaqların Osmanlı dövlətinin tərkibinə qatılmasında görürdü. 1917-ci ilin dekabrında Komissarlığın qərarı ilə general-leytenant Əliağa Şıxlinskinin komandanlığı altında yaradılmış Müsəlman korpusu silah-sursat və təchizat problemləri ilə qarşılaşmışdı. Komissarlıq Qafqaz cəb həsində tərxis olunmuş iki rus diviziyasının hərbi əmlakının müsəlman korpusuna verilməsi haqqında qərar qəbul etsə də, onun icrası təmin olunmadı. Bolşevizm və şovinizm təbliğatının təsiri altında olan rus hərbi hissələri silahlarını azərbaycanlılara könüllü verməkdən imtina etdikdə bir çox hallarda onlara qarşı güc tətbiq olunması zərurəti yaranırdı. Bu hadisə ilə bağlı riyakar təbliğat aparan Bakı Sovetinin rəhbərləri Azərbaycanın xristian əhalisində müsəlmanların niyyəti ilə bağlı yanlış təsəvvür formalaşdırmağa çalışırdılar. Münaqişənin aradan qaldırılmasında Azərbaycanın siyasi xadimlərindən F.Xoyski, X.Xasməmmədov, Ş.Rüstəmbəyov və başqaları mühüm rol oynamış, həkim Rəfibəyov isə hətta yaralı rus əsgərlərinin müalicəsini təşkil etmişdi. Bu hadisədən sonra Bakıya gəlmiş rus əsgərlərinin Şəmkirdə baş vermiş hadisələr haqqında verdikləri məlumatlar Bakı Sovetinin müsəlman əhali ilə bağlı məkrli niyyətini həyata keçirmək üçün apardığı anti Azərbaycan təbliğatına böyük zərbə vurdu. Bakı Sovetinin anti-Azərbaycan qüvvələri – menşeviklər, eserlər, kadetlər Bakıda tam hakimiyyətə sahib olmağa can atan bolşevikləri Azərbaycan milli qüvvələrinə qarşı mübarizədə müdafiə edirdilər. 1918-ci il martın ortalarına kimi

Baki Texniki Kolleci

kiçik silahlı qüvvəyə malik olan bolşeviklər əlavə hərbi qüvvəyə ehtiyac duyurdular. Bu məqsədlə bolşeviklərlə daşnaklar arasında Azərbaycan milli hərəkatının əsas qüvvəsi olan "Müsavat"a qarşı hərbi-siyasi ittifaq bağlandı. Bakı Azərbaycanın iqtisadi inkişafında əvəzedilməz, tükənməz mənbə hesab edilirdi. Bu şəhər həm də Azərbaycan milli hərəkatının mərkəzi, bolşeviklərin isə öz hakimiyyətlərini Cənubi Qafqazda yaymaq üçün mühüm dayaq nöqtəsi idi. Mart hadisələri ərəfəsində burada azərbaycanlıların iri silahlı birləşmələri mövcud deyildi. Milli hərbi hissələrin qəzalardan Bakıya gətirilməsi də nəzərdə tutulmamışdı. 1918-ci ilin fevralında 1-ci Müsəlman Atıcı Alayının yaradılması məqsədilə bura gəlmiş general-mayor Xəlil bəy Talışinskinin rəhbərlik etdiyi zabitlər qrupunun sovetin qüvvələri tərəfindən həbs edilməsi şəhərin müsəlman əhalisinin kəskin etirazı ilə nəticələndi. Sonra zabitlər azad edilsələr də, müsəlman hərbi hissələrinin yaradılması işi xeyli çətinliklərlə üzləşdi. Şəhərin erməni əhalisi isə hadisələr ərəfəsində xeyli silah-sursat əldə etməyə müvəffəq oldu.

Bakıda mart soyqırımı. Erməni-bolşevik qüvvələri Bakı şəhərində müsəlman əhalisinə divan tutmaq üçün Müsəlman Süvari Alayının bir qrup əsgər və zabitinin "Evelina" sərnişin gəmisində Lənkərandan Bakıya gəlməsindən bəhanə kimi istifadə etdilər. Həmin qrup 1918-ci il martın 27-də görkəmli Azərbaycan xeyriyyəçisi H.Z.Tağıyevin faciəli şəkildə həlak olmuş oğlu, alayın zabiti Məhəmmədin dəfnində iştirak edirdi. Lakin alayın şəxsi heyəti Bakı Soveti qüvvələri tərəfindən tərk-silah edildi. Şəhərdə olan çoxsaylı erməni silahlılarına toxunulmadığı halda, azərbaycanlı hərbçilərə qarşı bu tədbirin həyata keçirilməsi müsəlmanların kəskin etirazına səbəb oldu. Martın 30-da Bakı Soveti təxribata əl ataraq şəhərin azərbaycanlı məhəllələrinə qarşı genişmiqyaslı əməliyyatlara başladı. Sovetin silahlı qüvvələrinə, əsasən, erməni zabitləri rəhbərlik etdiklərindən hərbi əməliyyatlar müsəlmanlara qarşı milli qırğın xarakteri aldı. Müsəlman məhəllələri dənizdən hərbi gəmilərdən açılan atəşlə,

Bakı Texniki Kolleci

havadan isə Rusiyadan gətirilmiş iki təyyarədən atılan bombalarla dəhşətli dağıntılara məruz qaldı. Lakin dinc müsəlman əhalisi arasında itkilərin artması daha çox erməni talançı qruplarının fəaliyyəti ilə bağlı idi. Sonralar AXC-nin bu hadisələrlə əlaqədar yaratdığı Fövqəladə Təhqiqat Komissiyası erməni-bolşevik qüvvələri tərəfindən Bakıda 12 min nəfər müsəlmanın qətlə yetirildiyini müəyyən etdi. Müsəlmanlara divan tutan erməni quldur dəstələrinin fəaliyyətinə, əsasən, erməni ziyalıları və din xadimləri başçılıq edirdi. Şəhəri tərk etməyə macal tapmayan dinc əhalinin qorunmasını zəruri səviyyədə təmin edə bilmədiklərinə, silahlanma və say etibarilə üstün olan düşmənə qarşı mütəşəkkil fəaliyyətin mümkün olmadığına görə müsəlmanların müdafiə dəstələri sovet qoşunları ilə mübarizədə geri çəkilməyə məcbur oldu. Martın 31-də şəhərin müsəlman əhalisi Bakı Sovetinin silahlı qüvvələrinə müqaviməti dayandırdı. Aprelin 1-də azərbaycanlı partiya və cəmiyyətlərin nümayəndələri Bakı Sovetinin tələblərini qəbul etməyə məcbur oldular. Lakin buna baxmayaraq, erməni quldurlarının müsəlmanlara qarşı zorakılıqları aprelin 2-də də davam etdi. Bakının müsəlman əhalisi tamamilə müdafiəsiz qalmamışdı. Şəhərdə yaradılan özünümüdafiə dəstələri qüvvələrini birləşdirib erməni quldurlarına layiqli cavab verirdilər. Təsadüfi deyil ki, erməni birləşmələri Bakıda geniş miqyaslı soyqırımı törətsələr də, bir sıra ətraf kəndlərə girə bilməmişdilər. Şəhərdə müsəlmanlara qarşı həyata keçirilən qırğınlara etirazını bildirən rus alayının əsgərlərinin və komandanlığının, Xəzər Hərbi Dəniz Donanmasının rus matroslarının qırğınların dərhal dayandırılması haqqında Bakı Sovetinə verdikləri tələbindən və əks halda erməni məhəllələrinin bombardman ediləcəyi xəbərdarlığından sonra şəhərdə erməni zorakılığına, əsasən, son qoyuldu.

Qırğınların miqyasının genişlənməsi. Azərbaycanın müsəlman əhalisinə qarşı erməni quldur dəstələri Bakı quberniyasının bütün ərazisinə yayılmışdı. Martın 30-da Bakıdakı məlum hadisələrə bir neçə saat qalmış Şamaxı qəzasında başlanan və

Bakı Texniki Kolleci

iyulun sonlarına kimi davam edən qırğınların nəticəsində müsəlman kəndləri talan edilərək viran qoyuldu, 20 min nəfərdən çox dinc sakin qətlə yetirildi. Müsəlmanlara qarşı aparılan talan və qırğınlarda sovet qoşunlarına qəzanın erməni əhalisi də yaxından yardım edirdi. Aprelin ortalarında Lənkəran qəzasına basqın edən erməni quldur dəstələri xeyli sayda yaşayış məntəqəsində qarətlər və qətllər törətmişdilər. Salyan qəzasında 2 min nəfər dinc müsəlman qətlə yetirilmişdi. 1918-ci ilin aprel-may aylarında erməni-daşnak silahlı dəstələri Quba qəzasında müsəlman kəndlərini dağıtmış, 4 mindən çox müsəlman öldürülmüşdü. İyunun əvvəllərində erməni-bolşevik quldur dəstələri Kürdəmirə və Göyçay qəzasına soxularaq dinc müsəlman əhalisinə divan tutmuşdu. Bakı quberniyasında sovet hakimiyyətinin bərqərar edilməsi adı altında müsəlman əhalisinə qarşı həyata keçirilən soyqırımını daşnaklar eyni vaxtda İrəvan quberniyasının Naxçıvan, Şərur, Üçmüədzin, Zəngəzur və digər qəzalarında da törətmişdilər. Beləliklə, Bakı şəhəri və quberniyanın bir çox qəzalarının müsəlman əhalisi daşnak-bolşevik quldur dəstələrinin zorakılığı qarşısında sovetin hakimiyyətini tanımalı oldu. Azərbaycanlıların milli iradəsini qırmağa, milli azadlıq ideyalarını boğmağa çalışan düşmən qüvvələr düşündüklərinin tam əksi ilə qarşılaşdı. Azərbaycanlıların Rusiya dövləti daxilində muxtariyyətə inamları sarsıldı, müstəqil dövlətin yaradılması istəyi daha da gücləndi.

Bakı Texniki Kolleci

# 6.Cənubi Azərbaycan XIX əsrdə

Türkmənçay müqaviləsi nəticəsində Azərbaycan torpaqları iki yerə bölündü. Bundan sonra Qacarlar dövlətinin mühüm hissəsi olan Cənubi Azərbaycanın sosial-iqtisadi, siyasi vəziyyəti fərqlənməyə və özünəməxsus şəkildə inkişaf etməyə başladı.Cənubi Azərbaycanın idarə olunması. XIX əsrdə Cənubi Azərbaycan Qacarlar dövlətinin dörd əyalətindən biri idi. İlk vaxtlar Qacarlar dövləti bəzi nüfuzlu xanların hakimiyyətini tanımaqla onları ayrı-ayrı xanlıqların hakimi təyin etdi və daxili müstəqilliklərini qəbul etməli oldu. Dövlət onların daxili işlərinə qarışmır, yalnız vergi və xüsusilə də silahlı qüvvə tələb edirdi. Qacarlar dövründə ordunun əsas hissəsi məhz Cənubi Azərbaycandan toplanan qüvvələrdən ibarət idi. Maku, Urmiya kimi xanlıqlar istisna edilməklə qalanları tədricən ləğv olunaraq vilayətlərə çevrildi. Əyalətdə vali vəzifəsindən tutmuş vilayət hakimlərinə qədər şəxslər mərkəzdən göndərildiyindən yerli feodallar Qacarlardan narazı qalırdılar. Fətəli şahın (1797–1834) vaxtından Cənubi Azərbaycan vəliəhdin əyləşdiyi yer hesab edilmişdir. Səltənət evi adlandırılan Təbrizdə isə Qacarların rəsmi vəliəhdləri otururdu. Bu da Azərbaycanın, xüsusilə Təbriz şəhərinin siyasi əhəmiyyətini göstərirdi. Vəliəhd burada oturduğu və Təbriz, bir növ, ikinci paytaxt olduğu üçün xarici diplomatik nümayəndələrin iqamətgahları da burada yerləşirdi. Əyalətin idarəsi rəsmən vəliəhdin ixtiyarında olsa da, əslində, onu şahzadələrdən seçilən vali idarə edirdi. Əsasən, şahın və yaxınlarının qohumlarından təyin olunan rəsmi şəxslər vəzifələrinə gəlir mənbəyi kimi baxaraq xalqı soyurdular. XIX əsrdə iqtisadi vəziyyət. XIX əsrin 30–60-cı illərində Cənubi Azərbaycan əhalisinin əsas məşğuliyyəti kənd təsərrüfatı əkinçilik və maldarlıq idi. Təkcə kənd əhalisi deyil, şəhər əhalisinin də bir hissəsi əkinçiliyin müxtəlif sahələri ilə məşğul olurdu. Cənubi Azərbaycanda təbii, qismən də süni suvarmadan istifadə edilirdi. Bu əyalət Qacarlar dövlətinin ən məhsuldar ərazisi hesab edilir və buradan taxıl, pambıq və quru meyvə

Bakı Texniki Kolleci

ixrac olunurdu. XIX əsrin 50–70-ci illərinə qədər Cənubi Azərbaycan İranın “taxılçılıq və heyvandarlıq bazası” idi. Onun iqtisadi həyatda belə bir mövqeyə malik olması burada yerli tələbatı ödəyən və xarici bazarlar üçün də mal ixrac edən müxtəlif sənətkarlıq sahələrinin formalaşmasına geniş imkanlar açırdı. Şəhərlərdə ayaqqabı, saxsı və ya mis qab-qacaq, digər məişət əşyalarının, təsərrüfat alətlərinin istehsalı xeyli inkişaf etmişdi. Lakin İngiltərə və Rusiya dövlətlərinin İranda əldə etdikləri imtiyazlar nəticəsində Cənubi Azərbaycan sənətkarlığının bir çox sahələrinə böyük ziyan dəydi. Belə ki xarici sənaye mallarının ölkəyə geniş miqdarda və maneəsiz axını ilə bağlı buradakı bir sıra emalatxana və sexlər rəqabətə davam gətirməyərək öz fəaliyyətlərini dayandırmalı oldu. Əsrin sonlarına qədər Azərbaycan şəhərlərində emalatxana quruluşu hələ də qalırdı. Emalatxanalarda, adətən, 3-4 sənətkar işləyirdi. XIX əsrin sonlarında Cənubi Azərbaycanın təsərrüfat həyatında yeniliklər nəzərə çarpmağa başladı. Bunun da bir sıra səb əbləri var idi. İlk növbədə, xarici kapitalın sürətli axını Cənubi Azərbaycanda təsərrüfatın inkişafına müəyyən təsir göstərirdi. Burada iqtisadiyyat müstəmləkə və asılı ölkələrə xas bir sıra xüsusiyyətlər kəsb edirdi. İran və onun bir hissəsi olan Azərbaycan İngiltərə və Rusiyanın sənaye mallarının satış bazarına, həm də xammal bazasına çevrilmişdi. Xarici bazarda, o cümlədən Rusiyada pambıq, boyaq mad dələri, yun, göndəri kimi məhsullara, həmçinin ayrı-ayrı sənətkarlıq mallarına tələbatın artması qeyd edilən sahələrin inkişafına təkan verdi.



Qacarların pul vahidi

Bakı Texniki Kolleci

XIX əsrin son rübündə əsas sənətkarlıq sahəsi xalçaçılıq idi. Xalça istehsalı sənayedə kapitalist münasibətlərinin inkişaf etdiyi əsas sahə idi. Təbriz, Marağa, Xalxal və bəzi şəhərlərdə istehsal edilən yun və ipək yaylıqlar, şal, yun, ipək, pambıq parçalar həm yerli əhalinin, həm də İranın başqa əyalətlərinin tələbatını ödəyir və xaricə ixrac olunurdu.

Sosial vəziyyət. Aqrar münasibətlər. Vergi sistemi. XIX əsrin sonlarında Cənubi Azərbaycan əhalisinin sayı 2 milyon nəfərə çatırdı. Əhalinin 0,5 mln. nəfərini şəhərdə yaşayanlar təşkil edirdi. Yerdə qalan hissə kəndlərdə məskunlaşmışdı və ya yarımköçəri həyat sürürdü. Əhalinin yuxarı təbəqəsi xanlardan, mülkədarlardan, ruhanilərdən ibarət idi. Kəndlilər və sənətkarlar ağır istismara məruz qalır, vergi və mükəllə fiyyətlərdən əziyyət çəkirdilər. Kəndlilərinçox hissəsi torpaqsız olduğundan ağır şərtlərlə torpaq icarəyə götürərək yardarlara çevrilirdilər. Şəhərlərdə sayı artan tacirlər varlandıqca mülklər alır, özlərini mülkədarlara bənzədirdi. Feodal zülmündən və yoxsulluqdan təngə gələn əhali doğma yurdlarını tərk edərək qonşu dövlətlərə, əsasən də Rusiyaya kəsbkarlığa gedirdi. XIX əsrdə Cənubi Azərbaycanda mövcud olan əsas torpaq mülkiyyət formaları bunlar idi. Xalisə dövlətə məxsus torpaqlardır. İcarəyə verilir və ya məmurlar tərəfindən idarə edilirdi. Bu torpaqların idarə edilməsi yarıtmaz halda olduğundan 1886-cı ildə on ların satılması haqqında fərman verilmişdi. Mülk və ya ərbabi feodallara məxsus olub, irsi xarakter daşıyırdı. Bütün İranda əkinə yararlı torpaqların 66%-ni təşkil edirdi. Tiyul hərbi və ya mülki xidmət müqabilində verilən torpaqlar idi. Şərti xarakter daşıyırdı. Vəqf dini idarələrə, mədrəsələrə, ruhanilərə bağışlanan torpaqlardır. İlati ayrı-ayrı tayfalara xidmət müqabilində verilən, əsasən, otlaqlardan ibarət torpaq lardır. Tədricən tayfa başçılarının əlinə keçirdi. Xırdamalik kəndlilərin və ya kiçik mülkə darların əlində olan cüzi torpaq payları olub, əsasən, Urmiya ərazisində geniş yayılmışdı. Böyük torpaq sahələri iri mülkədarların əlində toplanmışdı. Onlar öz mülklərində istədikləri

Bakı Texniki Kolleci

kimi vergi toplayır, kəndliləri istismar edirdilər. XIX əsrin sonlarına yaxın əhalidən 20 adda vergi yığılır və ya mükəllə fiyyət tələb edilirdi. Yığılan vergilərə misal olaraq qapıpulu (otlaqlara görə), başpulu (hər baş mal-qaraya görə) və digərlərini göstərmək olar. Dövlətin topladığı əsas vergi torpaqpulu idi. Sabit olan bu vergi kəndlilərin əldə etdiyi məhsulun 10%-nə bərabər hesablanırdı.

Xalq hərəkatı. Feodal quruluşunun böhranı və xarici kapitalın ölkəyə müdaxiləsi ilə əlaqədar sosial ziddiyyətlərin kəskinləşməsi XIX əsrin ortalarında antifeodal xalq üsyanlarına səbəb oldu. Onlardan ən güclüsü 1848–1852-ci illərdə baş verən Babilər üsyanıdır. Babilik Seyyid Əli Məhəmmədin adı ilə bağlı dini təlimdir. O, əvvəlcə Bab (ərəbcə "qapı" deməkdir) ləqəbini götürmüş, sonra isə özünün xilaskar olduğunu bəyan etmişdi. 1850-ci ildə Zəncanda babilər üsyana qalxdılar. Vuruşlarda onların ailə üzvləri də iştirak edirdi. Əsas etibarilə kəndli və sənətkarlardan ibarət olan babilərin arasında çoxlu tacir və xırda ruhanilər də var idi. Şah hökuməti tərəfindən üsyanı yatırmaq üçün göndərilən qoşun dəstələri Zəncanı mühsirəyə alsa da, ciddi müqavimətə rastgələrək geri çəkilməli oldu. Üsyan başçılarından biri Qəzvindən olan Zərrintac idi. Xalq arasında onu Tahirə də adlandırırdılar. 1848-ci ildən 1852-ci ilə qədər babilərin on üsyanından üçünə Tahirə başçılıq etmişdi. Dekabr ayında 30 minlik şah qoşunu və feodal dəstələri Zəncanı yenidən mühasirəyə alaraq hər tərəfdən hücuma keçdilər.Üsyançıların çoxu həlak oldu. 1850-ci il dekabrın sonunda Zəncan üsyanı yatırıldı. 1891-ci ilin martında Nəsirəddin şah Qacar bütün İranda tütün almaq, satmaq və emal etmək üçün ingilislərlə müqavilə imzaladı və şirkət bunun müqabilində əldə edəcəyi qazancdan İran hökumətinə ildə cüzi bir məbləğ ödəməyi öhdəsinə götürdü. Buna cavab olaraq, Təbriz əhalisinin böyük əksəriyyətinin imzası ilə şaha göndərilən tələbnamədə tütün və tənbəki inhisarının ləğv edilməsi tələb olundu. Təbriz bazarı bağlandı, 20 min adam silahlanaraq hazır vəziyyətdə dayandı. Təbrizin ardınca bir sıra şəhərlərdə şirkətə

Bakı Texniki Kolleci

qarşı kəskin çıxışlar baş verdi. Tehranın özündə əhali inhisarın ləğv ediməsi tələbi ilə 1892-ci ildə şah sarayına hücum etdi. Bütün bunlar şahı şirkətin başçısı Talbotla bağlanmış müqavilәni ləğv etməyə məcbur etdi. Qacarlar dövlətində ilk antiimperialist çıxış olan bu hərəkatda Cənubi Azərbaycanın ticarət burjuaziyası, sənətkarlar, ruhanilər, digər təbəqələrin nümayəndələri nəinki iştirak edirdilər, həm də aparıcı rol oynayırdılar. Bu dövrdə Cənubi Azərbaycanda mövcud olan ən əsas problemlərdən biri iri feodalların, xüsusilə də iri ruhanilərin taxıl möhtəkirliyi ilə məşğul olması idi. Ərzaq məhsullarının qıtlığı və bahalığı xalqın səbir kasasını doldurmuşdu. 1898-ci ildə Təbrizdə buna qarşı çıxışlar baş qaldırdı. Üsyana Zeynəb paşa adlı bir qadın başçılıq edirdi. Üsyançılar ərzaq anbarlarını dağıdaraq kasıblara taxıl paylayırdılar. Bu çıxışdan qorxuya düşən möhtəkirlər anbarlarını açıb ərzaq məhsullarını ucuz qiymətə əhaliyə satmağa məcbur oldular.



Təbriz xalçası

# 7. Cənubi Azərbaycan XX əsrin əvvəllərində. Məşrutə hərəkatı. Cənubi Azərbaycan 1917-1920-ci illərdə

Dünya ölkələri arasında ziddiyyət XX əsrin əvvəllərində son dərəcə kəskinləşmişdi. Təbii sərvətləri və torpaqları yenidən bölüşdürməyə cəhd edən imperialist dövlətlərin planlarında Cənubi Azərbaycan xüsusi yer tuturdu. Belə bir şəraitdə Cənubi Azərbaycan əhalisi arasında milli özünüdərk hissi yüksəlir və mübarizə əzmi sürətlə artırdı. Sosial-iqtisadi vəziyyət. XX əsrin əvvəllərində Qacarlar sülaləsinin (1796–1925) hakimiyyəti altında olan Cənubi Azərbaycanda gərgin sosial-iqtisadi böhran yaşanırdı. Qacarların Rusiya və İngiltərə kimi dövlətlərin yarımmüstəmləkəsinə çevrilməsi, şahın və onun məmurlarının özbaşınalığı, dalbadal baş verən qıtlıq, hakim dairələrdəki rüşvətxorluq ölkədə geniş xalq kütlələrinin vəziyyətini ağırlaşdırmışdı. Boşalmış xəzinəni doldurmaq üçün kəndli və sənətkarlardan, həmçinin tacirlərdən alınan vergi qanunsuz şəkildə artırılırdı. Əldə olunan gəlirlər isə şahın və onun yaxınlarının ehtiyaclarına sərf edilirdi. Əhalinin bütün zümrələri hökumətdən narazı idi. Var-yoxdan çıxan və feodal istismarından əziyyət çəkən kəndlilər güzəran dalınca qonşu ölkələrə üz tuturdular. İnqilab ərəfəsində qazanc üçün təkcə Rusiyaya 300 min kəsbkar getmişdi. Xaricdən sənaye mallarının axını nəticəsində müflisləşən sənətkar və tacirlər şəhər əhalisinin ən çox narazı qalan hissəsi idi. Bütün gəlirli sahələrin xaricilərə icarəyə verilməsi, hətta dövlət vəzifələrinin də əcnəbilərə həvalə olunması yeni yaranan burjuaziyanı qıcıqlandırırdı. Qacarlar dövlətinin müxtəlif yerlərində yaranan gizli cəmiyyətlər ölkədə şah idarəçiliyinin dəyişməsini, ədalətli idarə üsulunun, qanunverici orqanın yaradılmasını arzulayır, müxtəlif tələblər irəli sürürdü. Xalq kütləlrinin rəğbətini qazanmağa çalışan ruhanilərin mütərəqqi təbəqəsi də bu işdə fəal rol oynayırdı. Cənubi Azərbaycanın Təbriz,Zəncan, Ərdəbil şəhərləri narazılıq

Bakı Texniki Kolleci

mərkəzinə çevrilmişdi. Bu dövrdə Cənubi Azərbaycanda demokratik fikrin yayılmasında, milli siyasi şüurun oyanmasında, xarici imperializmə və yerli feodal zülmünə qarşı mübarizənin güclənməsində bir sıra başqa amillərin də böyük təsiri var idi. Belə ki 1904-cü ilin dekabrında Bakıda baş verən və qələbə ilə nəticələnən fəhlə tətilləri, Rusiyada 1905–1907-ci illərdə olan burjua demokratik inqilabı Cənubi Azərbaycanın da siyasi mühitinə təsir göstərməklə orada həyəcan və çıxışların güclənməsinə, inqilabi hərəkatın başlanmasına təkan verdi.

**Məşrutə (Konstitusiya) hərəkatı.** İranda bütün bu həyəcan və etirazların siyasi partlayışa çevrilməsi bir qığılcıma bənd idi. 1905-ci il dekabrında Tehranda Baş nazir Eynüddövlənin qəndin qiymətinin bahalaşmasını bəhanə edərək paytaxtda 17 taciri həbs etdirib döydürməsi, onların dükanlarının qarət olunması qığılcım rolunu oynadı. Tehranla yanaşı, Təbriz, Ərdəbil, Xoy, Zəncan və Cənubi Azərbaycanın digər şəhərlərində də bazar və dükanlar bağlandı, etiraz nümayişləri, çıxışlar başlandı. Yüzlərlə adam müqəddəs yerlərdə bəstə oturdu. Arası kəsilməyən çıxışlar nəticəsində qorxuya düşən şah hökuməti inqilabçıların tələblərinə əməl etməyə məcbur oldu. 1906-cı ilin avqustunda Müzəffərəddin şah Konstitusiya qəbul edilməsi haqqında fərman verdi. Bunun ardınca məclisə seçkilər keçiriləcəyi elan olundu. Təbriz şəhərində seçkili orqanlar  əncümənlər yaradıldı. Əncümən qanunverici hakimiyyət orqanı idi. Bütün qərar və sərəncamlar onun tərəfindən verilirdi. Çörək bolluğu, ucuzluq və gözlənilən hücumlara qarşı taxıl ehtiyatı yaratmaq üçün xüsusi komissiya təşkil olundu. Komissiya şəhərdəki taxıl anbarlarını möhürlədi və kəndlərdən buğda-arpa gətirilməsini təşkil etdi. Hər gün əncümənin təyin etdiyi qiymətə çörəkçilərə verilən

Etirazçıların tələbləri bunlar idi:

1. Konstitusiyanın *(Məşrutənin)* qəbulu
2. Məclisin, yəni parlamentin çağırılması
3. Xarici məmurların ölkədən qovulması

Bakı Texniki Kollec

taxıldan bişirilən çörək əhaliyə ucuz satılırdı. Şəhəri müdafiə etmək məqsədilə varlıların üzərinə "Müharibə xərci" adlanan vergi qoyulmuşdu. Təbməhəbbətlə "Sərdari- milli", onun yaxın köməkçisi Bağırxanı "Salari- milli" adlandırırdı. Üsyançılar Təbrizi əks-inqilabçılardan təmizlədilər. Şəhərdə qayda-qanun yaradıldı, xalqın nifrət etdiyi şah məmurları, o cümlədən vali qovuldu. İran inqilabçılarına gizli yolla göstərilən köməyin artmasının bir səbəbi də şah hökumətinin xaricdə olan dövlət məmurlarının bir çoxunun inqilaba rəğbət bəsləməsi və əncümənlərə üzv yazılması idi. Belələrinə misal olaraq Yelizavetpol, Bakı, Aşqabad və Tiflisdəki konsulları göstərmək olar. Dünyanın müxtəlif yerlərindən üsyançılara maddi və mənəvi dəstək gəlirdi. İnqilaba ilk yardımı qonşu ölkələrə müvəqqəti iş üçün getmiş Qacarlar dövlətinin təbəələri göstərdilər. Bunlar başlıca olaraq Qafqaz, Mərkəzi Asiya və Volqaboyunun sənaye mərkəzlərində, limanlarında, müxtəlif nəqliyyat işlərində, eləcə də kənd təsərrüfatı sahəsində çalışan, böyük əksəriyyəti Cənubi Azərbaycandan gəlmiş fəhlələrdən ibarət idi. Başda məşhur xeyriyyəçi Hacı Zeynalabdin Tağıyev olmaqla, Azərbaycan milli burjuaziyasının ən görkəmli nümayəndələrinin İran inqilabçılarına hərtərəfli yardımı xüsusi qeyd edilməlidir. Həmin dövrdə nəşr olunan "İrşad", "Tazə həyat" qəzetləri və "Molla Nəsrəddin" jurnalı İran inqilabına mənəvi dəstək olur, Səttarxan, Bağırxan, Hüseynxan haqqında məqalələr çap edirdilər. Üsyanın genişlənməsi imperialist dövlətləri, xüsusilə Rusiya və İngiltərəni narahat edirdi. Fədailəri tərk-silah etmək məqsədilə Səttarxan və Bağırxan 1910-cu ilin mart ayında Tehranın rəsmi dairələri tərəfindən paytaxta dəvət olundu. Şaha inanan və artıq qan tökülməsinə yol vermək istəməyən Səttarxan dəvəti qəbul edib Tehrana gəldi. Əldə olunan razılığa baxmayaraq, onun adamlarına xəyanətkarcasına hücum edildi. Ağır yaralanan Səttarxana geri qayıtmağa icazə verilmədi. Bu xəyanət Azərbaycan xalqının dərin hiddətinə səbəb oldu, lakin çar Rusiyasının Cənubi Azərbaycanda olan qoşunları əhalinin fəal çıxışına imkan vermədi. Xarici təbəələri qorumaq bəhanəsi ilə əks-inqilabi qüvvələr Təbriz üzərinə



Bakı Texniki Kolleci

hücumabaşladılar. Təbrizdə şiddətli vuruşmalar dekabrın əvvəllərinədək davam etdi. Üsyan qan içində boğuldu. Beləliklə, 1905–1911-ci illər Məşrutə inqilabının ən gərgin anlarında kütləsinin mübarizəsinə İran Demokrat Partiyasının Təbriz təşkilatı başçılıq edirdi. Fevral burjua inqilabından sonra rus ordusu Cənubi Azərbaycanı tərk etdi. Mərkəzi hökumətin gücsüzlüyündən istifadə edən erməni, aysor dəstələri ruslardan və ingilislər dən aldıqları silahlarla müsəlman əhaliyə qarşı soyqırımı törədərək minlərlə dinc adamı məhv etdi. Belə soyqırımların ən dəhşətlisi 1918-ci ilin mart ayında Urmiya şəhərində baş verdi və tarixə "Urmu bəlası" kimi daxil oldu. Müharibə onsuz da bərbad olan iqtisadiyyata ağır zərbə vurdu. Həmin illərdə İranda olmuş ingilis generalı Dens tervilin verdiyi məlumata görə, burada müharibə zamanı bir xalvar buğdanın qiyməti 12 tüməndən 230 tümənə qalxmışdı. Başqa sözlə, təxminən 20 dəfə artmışdı. Bütün bunlar isə əhalinin narazılığına səbəb olmuşdu.

Şimali Azərbaycanın Rusiya tərəfindən işğal edilməsi, xalqın iki dövlət arasında bölünməsi, digər sahələrdə olduğu kimi, mədəniyyətə də öz təsirini göstərdi. Rusiya müstəmləkə siyasətinə uyğun olaraq, Azərbaycanda elm və təhsilin səviyyəsinin yüksəlməsini istəmir, müxtəlif bəhanələrlə mədəni inkişafı ləngitməyə çalışırdı. Buna baxmayaraq, XIX əsrin ikinci yarısında mədəniyyətin bütün sahələrində irəliləyiş və yeniliklər baş verdi. Maarifpərvər, vətənpərvər ziyalıların fəaliyyəti nəticəsində Azərbaycanda təhsil, elm və incəsənət sahələrində mühüm nailiyyətlər əldə edildi. Təhsil. Şimali Azərbaycan Rusiya tərəfindən işğal edildikdən sonra çar hökuməti ölkədə öz iqtisadi və siyasi maraqlarına cavab verən təhsil sistemi yaratmağa başladı. Bu hökumətin məktəb siyasətinin əsasında irticaçı "pravoslavlıq, mütləqiyyət və xalqçılıq" prinsipi dayanırdı. Ruslaşdırma siyasətinin tərkib hissəsi olan təhsil sahəsində çar hökumətinin əsas məqsədi imperiyaya sədaqətli, rus əqidəli məmurlar hazırlamaq idi. Cənubi Qafqaz məktəbləri haqqında 1829-cu ildə verilən Əsasnamə ilə ibtidai dövlət məktəblərinin yaradılmasına

Bakı Texniki Kolleci

başlandı. Əsasnaməyə uyğun olaraq, 1830-cu ildə Şuşada ilk qəza məktəbi yaradıldı. Beləliklə, imperiya məqsədlərinə xidmət etsə də, Azərbaycanda Avropa tipli dünyəvi məktəbin yaranması mütərəqqi hadisə idi. Qəza məktəbləri gələcəkdə Cənubi Qafqazın idarə olunması üçün kadrlar hazırlanmasını nəzərdə tuturdu. Bu məktəblərdə təhsil rus dilində aparılsa da, Azərbaycan dilində tədris edilirdi. Çünki Rusiya Qafqazda əsas ünsiyyət vasitəsinin Azərbaycan dili olduğunu bilirdi. Hətta Azərbaycan dilində dərsliklər də hazırlanmışdı. İlk vaxtlar qəza məktəblərində azərbaycanlı uşaqların sayı az idi. Rusiya hökuməti din xadimlərinin xalq arasında xüsusi hörmətə və nüfuza malik olduğunu da bilirdi. Buna görə də 1849-cu ildə Gəncə, Şuşa, Şamaxı və Bakıda rus hökumətinə sadiq olacaq ruhani şəxslərin hazırlanması üçün müsəlman məktəbləri yaratmağa başladı. Şimali Azərbaycanda ibtidai təhsil verən digər təhsil müəssisələri məscidlərin nəzdində yerləşən məktəblər mollaxana və mədrəsələr idi. Belə məktəblərdə zümrə fərqi qoyulmadığından müxtəlif təbəqələrdən olan oğlan uşaqları bir yerdə oxuyurdular.

Mollaxana təhsili alanların içərisindən M.F.Axundzadə, S.Ə.Şirvani, M.Ə.Sabir kimi şəxsiyyətlər çıxmışdır.XIX əsrin ikinci yarısında aparılan islahatlar, iqtisadiyyatın yüksəlişi təhsil sisteminin də yenilənməsini tələb edirdi. 1872-ci il Əsas naməsi ilə Şimali Azərbaycanda bütün qəza məktəbləri altıillik təhsil müddəti olan pullu şəhər məktəblərinə çevrildi. 1874-cü ildə ibtidai məktəblər haqqında verilən Əsasnamənin nəticəsində Azərbaycanda kənd əhalisi üçün məktəblər yaradıldı. Kəndli uşaqlarının oxuması nəzərdə tutulan bu məktəblərdə təhsil yalnız rus dilində aparılırdı. Xalq məktəbləri kimi tanınan bu təhsil müəssisələri kənd cəmiyyətlərinin vəsaiti hesabına fəaliyyət göstərirdi. 1865-ci ildə çar hökuməti tərəfindən Bakıda orta təhsil verən rusdilli ilk gimnaziya açıldı. 1874-cü ildə Bakıda ilk qız gimnaziyası fəaliyyətə başladı. Beləliklə, qızlar da orta təhsilə cəlb olundular.

Bakı Texniki Kolleci

Orta məktəblərdə təhsil pullu idi. İbtidai və orta məktəblərin sayının artması müəllim kadrlarına ehtiyacı artırırdı. 1876-cı ildə Gürcüstanın Qori şəhərində Cənubi Qafqaz

səyləri nəticəsində 1879-cu ildə onun Azərbaycan şöbəsinin açılması müəllim çatışmazlığı problemini müəyyən qədər azaltdı. Seminariyanın Azərbaycan şöbəsinin məzunları arasında Üzeyir Hacıbəyli, Nəriman Nərimanov və Cəlil Məmmədquluzadə kimi nadir şəxsiyyətlər olmuşdur. 1881-ci ildə İrəvan Müəllimlər seminariyasının açılması da Azərbaycanda təhsilin sonrakı inkişafında mühüm rol oynamışdır. XIX əsrin ikinci yarısı Azərbaycanın mədəniyyət tarixində yeni ziyalı nəslinin meydana gəlməsi ilə əlamətdardır. Avropanın və Rusiyanın ali məktəblərini bitirmiş bu gənclər xalqın maariflənməsi, milli məktəblərin təkmilləşdirilməsi, yeni tipli dünyəvi təhsil müəssisələrinin yaradılması üçün böyük fədakarlıq göstərirdilər. Onların arasında Həsən bəy Zərdabi, Ağa bəy Yadigarov, Əlimərdan bəy Topçubaşov, Səməd bəy Mehmandarov, Əliağa Şıxlinski və digər görkəmli şəxslər Azərbaycan tarixinin sonrakı dövrlərində də həqiqi ziyalı və vətənpərvər olduqlarını göstərdilər.  Milli burjuaziyanın görkəmli nümayəndələri bu dövrdə müsəlmanlar üçün dünyəvi məktəb yaradılması uğrunda gedən hərəkata başçılıq edirdilər. Fəhlə təbəqəsi içindən çıxmış H.Z.Tağıyev, M.Nağıyev,  M.Muxtarov təhsilin vacibliyini və əhəmiyyətini öz şəxsi həyatlarının timsalında bilirdilər. Milli burjuaziya nümayəndələri həmçinin çarizmin Azərbaycanda təhsil sahəsində yürütdüyü ruslaşdırma siyasətinə qarşı mübarizə aparırdılar. Məhz Avropa təfəkkürlü milli ziyalıların və tərəqqipərvər milli burjuaziyanın vəhdətdə olması Azərbaycanda təhsil və mədəniyyətin inkişafına şərait yaratdı. “Üsuli-cədid” (yeni üsul) adını almış yeni tipli məktəblərdən birini Azərbaycan şairi Seyid Əzim Şirvani ilk dəfə 1869-cu ildə Şamaxıda açmağa nail oldu. Bundan sonra Mir Möhsün Nəvvab Şuşada, Məmməd Tağı Sidqi Naxçıvanda və Mirzə Həsən Rüşdiyyə Təbrizdə “üsuli-cədid” məktəbləri yaratdılar. Bu məktəblərin əvvəlkilərdən əsas fərqi “Quran”ın oxunmasında heca

Bakı Texniki Kolleci

üsulunda nsəs üsuluna keçilməsi, bədən cəzalarının ləğv olunması idi.Azərbaycanın təhsil tarixində, xalqın maariflənməsində rus-Azərbaycan məktəbləri xüsusi yer tutur. Bu məktəblər ana dilində təlimi təhsilin ən mühüm əsası hesab edən mütərəqqi Azərbaycan ziyalılarının təşəbbüsü və inadkarlığı nəticəsində yaradılmışdır. Bakıda 1887-ci ildə Sultan Məcid Qənizadə və Həbib bəy Mahmudbəyov ilk rus-tatar (Azərbaycan) məktəbini açdılar. Əsas məqsədi azərbaycanlı şagirdləri orta məktəbə hazırlamaq olan bu tədris müəssisəsində Azərbaycan dili məcburi fənn kimi keçilirdi. XX əsrin əvvəllərində qızlar üçün də rus-Azərbaycan məktəbləri meydana çıxmağa başladı. 1901-ci ildə H.Z.Tağıyevin öz puluna tikdirdiyi binada azərbaycanlı qızlar üçün pansion tipli ilk məktəb açması böyük əks-sədaya səbəb oldu. Qız məktəbinin ilk müdiri Hənifə xanım Zərdabi olmuşdur. XX əsrin əvvəllərində təhsil sahəsində yeni mərhələ başladı. Bu dövrdə Rusiya imperiyasının ictimai-iqtisadi və siyasi həyatında baş verən dəyişikliklər fonunda Azərbaycan milli azadlıq hərəkatı müstəqillik uğrunda mübarizə mərhələsinə daxil olurdu. Belə şəraitdə Azərbaycan ziyalıları H.Zərdabi,N.Nərimanov, S.M.Qənizadə, F.Köçərli, A.Şaiq, C.Məmmədquluzadə, M.Ə.Sabir və başqaları Rusiyanın təhsil sahəsində yürütdüyü müstəmləkə siyasətini tənqid atəşinə tutur, mütərəqqi pedaqoji prinsiplər əsasında yeni məktəblər yaradılmasını, icbari və pulsuz təhsilə keçilməsini tələb edirdilər. Azərbaycan müəllimlərinin 1906-cı ildə baş tutan I Qurultayında təhsilin ana dilində aparılması, icbari ibtidai təhsilə keçilməsi barədə təkliflər irəli sürülmüşdü. Bu dövrdə azərbaycanlı müəllimlərə ehtiyac artırdı. Artıq Qori Müəllimlər Seminariyası bu ehtiyacı ödəyə bilmirdi. Azərbaycan ziyalılarının böyük səyi nəticəsində Gəncə və Bakıda Müəllimlər Seminariyası fəaliyyətə başladı. Məktəblərin sayca çoxalması, təhsilin genişlənməsi kitabxanalara tələbatı artırmışdı. İlk kitabxana-qiraət xanalar məktəblərin nəzdində yerləşirdi. Məktəblərlə yanaşı, ictimai və xüsusi kitab xanalar da fəaliyyət göstərirdi, amma bu kitabxanalar rus dilində kitablarla təchiz edilmişdi. 1894-cü ildə N.Nərimanov Bakıda ilk

Bakı Texniki Kolleci

Azərbaycan qiraətxanası yaratdı.Cənubi Azərbaycanda təhsil. Qacarlar dövlətinin tərkibində qalan Cənubi Azərbaycanda mədəniyyət və təhsil sahəsində əsaslı dəyişikliklər ləng gedirdi. Təhsil, əvvəllər olduğu kimi, yenə də məktəb və mədrəsələrdə cəmlənmişdi. XIX əsrin ikinci yarısında yaradılan Təbriz Dövlət Mədrəsəsi təhsil sahəsində mühüm yenilik sayılırdı. Dövlətin təsis etdiyi bu yeni tipli məktəb proqramına ilk dəfə olaraq həndəsə, tibb, hərbi dərslərlə yanaşı, fransız dili də daxil edilmişdi. Cənubi



Abbasqulu ağa Bakıxanov

Azərbaycanda təhsil sahəsində H.Rüşdiyyənin böyük əməyi olmuşdur. O, “Vətən dili”, “Ana dili” dərslikləri hazırlamışdır.Elm. XIX əsr elm xadimləri arasında böyük mütəfəkkir, elmin müxtəlif sahələri üzrə qiymətli əsərlər yaradan Abbasqulu ağa Bakıxanov (1794–1847) xüsusi yer tutur. Onun Azərbaycan tarixinə verdiyi ən böyük töhfə “Gülüstani-İrəm” əsəridir. Bakıxanov tədqiqat apararaq mənbələr əsasında Azərbaycan tarixini bütöv şəkildə əhatə edən bir əsər yaratmışdır. “Gülüstani-İrəm” bu tarixin ən qədim zamanlarından 1813-cü ildə bağlanan Gülüstan müqaviləsinə qədərki dövrünü əhatə edir. A.Bakıxanov əsərin giriş hissəsində yazırdı: “Tarix bizi xalqın təhsil dərəcəsi və onun əxlaqı ilə, birgə yaşayışın faydası ilə tanış edir və buna görə də onu ali mənəvi elmlərdən biri hesab etmək lazımdır”.XIX əsrdə ayrı-ayrı xanların və xanlıqların tarixinə həsr olunmuş bir sıra salnamə əsərlər yazılmışdır. Onların arasında Mirzə Adıgözəl bəyin “Qarabağnamə”, Mirzə Camal Cavanşirin “Qarabağ tarixi”, Kərim ağa Fatehin “Şəki xanlarının müxtəsər tarixi”, İskəndər bəy Hacınskinin “Qubalı Fətəli xanın həyatı” əsərləri xanlıqlar dövrünün öyrənilməsi üçün mühüm mənbə hesab edilir.

Bakı Texniki K

XIX əsrin birinci yarısında coğrafiya sahəsində yeni əsərlər yaradılmışdı. Bu dövrün ən məşhur coğrafiyaçı alimi coğrafiyaşünas-səyyah Hacı Zeynalabdin Şirvani olmuşdur. Onun "Səyahət bağı" və digər əsərlərində Yaxın və Orta Şərq, Hindistan,

Şimali Afrikanın coğrafiyası, etnoqrafiyası, tarixi, sosial-mədəni həyatı haqqında öz həmvətənlərinə qiymətli məlumatlar çatdırılmışdır. A.Bakıxanov bu sahədə də öz sözünü demişdir. O, "Ümumi coğrafiya" və natamam qalan "Kəşfül-Qəraib" əsərlərinin müəllifidir. Rusiyada şərqşünaslıq elminin təşəkkülü və inkişafinda azərbaycanlı alimlərin mühüm xidməti və əməyi olmuşdur. A.Bakıxanovun "Qanuni-Qüdsi" əsəri hökumət mükafatına layiq görülmüş və Rusiyada fars dilinin tədrisində istifadə edilmişdir. Rus şərqşünaslığının inkişafında Mirzə Cəfər Topçubaşov və Mirzə Kazım bəyin müstəsna xidmətləri olmuşdur. Şərqşünaslıq elminə verdikləri töhfələrə görə hər iki alim təkcə Rusiyada deyil, Avropada da tanınmışdı. Hər ikisi Böyük Britaniya Kral Cəmiyyətinin həqiqi üzvü seçilmişdi. Mirzə Kazım bəyin əsərləri alman, fransız və ingilis dillərinə tərcümə edilmişdir. Onun vəfatı münasibətilə yazılmış nekroloqda deyilirdi: "Nə qədər ki Şərq haqqında məlumatlar işlənəcək bu isə heç vaxt dayandırılmayacaq Kazım bəyin adı hörmətlə çəkiləcək". XIX əsrin ikinci yarısı -XX əsrin əvvəllərində müxtəlif elm sahələrində alimlik dərəcəsinə yüksələnlər Rusiyanın və Avropanın ali məktəblərinin məzunları idilər. Bu alimlərin arasında Azərbaycanda neft kimyası üzrə ilk elmi laboratoriya yaratmış Mövsüm bəy Xanlarov öz istedadı ilə seçilirdi. O, Almaniyada ali təhsil almış, kimya doktoru dərəcəsinə yüksəlmişdi. Xalqın maariflənməsində, mədəniyyətin və ictimai fikrin inkişafında əvəzsiz xidməti olan Həsən bəy Zərdabi Moskva Universitetinin təbiət elmləri şöbəsini bitirmişdi. Azərbaycana qayıtdıqdan sonra ictimai fəaliyyətlə yanaşı, biologiya, kənd təsərrüfatı və təbiət biliklərinin yayılması istiqamətində də çalışmışdır. XX əsrdə Azərbaycanda ziyalıların alimlərin yeni nəsli meydana gəldi. Şərqşünas alim kimi Avropada məşhurlaşan

Bakı Texniki Kolleci

Əhməd bəy Ağayev Fransanın Sorbonna Universitetində təhsil almışdı. Coğrafiya elminin inkişafında böyük xidməti olan İbrahim ağa Vəkilov hərbi topoqrafiya üzrə görkəmli mütəxəssis idi. Bu dövrdə Qafur Rəşad Mirzəzadənin “Qafqaz coğrafiyasına dair” kitabı nəşr olunmuşdu. Tanınmış mütəfəkkirlər Əli bəy Hüseynzadə dünya ədəbiyyatının, fəlsəfə və müxtəlif dillərin bilicisi idi. XX əsrin əvvəlləri ədəbiyyatşünaslıq elminin “Azərbaycan ədəbiyyatı tarixi” adlı yeni sahəsi yarandı. Onun əsasını görkəmli alim Firidun bəy Köçərli qoymuşdur.

**Mətbuat.** XIX əsrin ikinci yarısında Şimali Azərbaycanın mədəni həyatının ən mühüm hadisəsi milli mətbuatın yaranması idi. Bu yolda böyük zəhmət çəkən Həsən bəy Zərdabi 1875-ci il iyulun 22-də Azərbaycanda milli mətbuatın təməl daşını qoyan “Əkinçi” qəzetinin ilk nömrəsini çap etdirmişdir. Bu qəzet Şərq dünyasında Avropa üsulunda dərc olunan ilk mətbuat orqanlarından biri idi. 1875–1877-ci illərdə işıq üzü görən “Əkinçi” milli mətbuatın təməl prinsiplərini müəyyən etdi. Xalqı maarifləndirmək, məktəblərdə yeni təlim və tərbiyə üsullarının tətbiq edilməsinə nail olmaq, milli dilin və mədəniyyətin inkişafına çalışmaq, demokratik ideyaları təbliğ etmək qəzetin əsas məqsədi idi. 1877-ci ildə Rusiyanın Osmanlı dövləti ilə müharibəyə başlamasından sonra qəzetdə siyasi məsələlərə toxunulmasından qorxan çar hökuməti onun bağlanması barəsində fərman verdi. “Əkinçi”nin nəşri dayandırılsa da, əsasını qoyduğu ideyalar davam etdirildi. 1879-cu ildə “Ziya” adlı həftəlik qəzet nəşrə başladı. Bir il sonra bu qəzet “Ziyayi-Qafqaziyyə” adı altında çıxırdı. Tiflisdə nəşr olunan qəzetin redaktoru Səid Əfəndi Ünsizadə idi. Onun qardaşı Cəlal Ünsizadə 1883-cü ildə “Kəşkül” qəzetini nəşr etməyə başladı. “Kəşkül” “Əkinçi”nin müəyyənləşdirdiyi istiqaməti davam etdirdi.

Ü.Hacıbəyli və b. səyləri nəticəsində qəzet və jurnalların sayı artdı. Bu dövrdə çıxan “Həyat”, “İrşad”, “Füyuzat”, “İşıq” (qadın jurnalı) kimi qəzet və jurnallar ziyalıların və milli burjuaziya nümayəndələrinin yaratdığı cəmiyyətlər (“Müsəlman

Bakı Texniki Kolleci

cəmiyyəti-xeyriyyəsi”) xalqın maariflənməsində, milli şüurun və azadlıq hərəkatının güclənməsində böyük rol oynadı. Bu dövrün ən mühüm hadisəsi C.Məmmədquluzadənin redaktoru olduğu “Molla Nəsrəddin” jurnalının 1906-cı ildə nəşrə başlaması oldu. Jurnal Azərbaycanda, Rusiyanın türkdilli xalqları arasında, həmçinin Yaxın Şərqdə satirik mətbuatın əsasını qoydu. O, Azərbaycanda demokratik fikrin inkişafında mühüm rol oynadı. Ədəbiyyat. XIX əsrin birinci yarısında Azərbaycan ədəbiyyatında çoxəsrlik tarixə malik ədəbi ənənələr davam etdirilir, qədim Şərq ədəbiyyatına bağlı olan klassik romantik poeziya üstünlük təşkil edirdi. Bununla belə, ölkədə baş verən ictimai-siyasi hadisələr ədəbiyyata öz təsirini göstərirdi. Əsərlərdə daha çox humanist düşüncələr təşəkkül tapır, yenicə formalaşmağa başlayan maarifçilik ideyaları görünürdü. Bu xüsusiyyətlər, əsasən, A.Bakıxanovun və M.Ş.Vazehin yaradıcılığında hiss olunurdu. XIX əsrin birinci yarısında Azərbaycan ədəbiyyatında satirik şeirin əsası qoyulmuşdur və onun ən görkəmli nümayəndəsi Qasım bəy Zakir idi. Bu dövrdə lirik poeziyanın digər görkəmli nümayəndəsi kimi Mirzə Şəfi Vazehin adı xüsusilə qeyd edilməlidir.

XX əsrin əvvəllərindən Azərbaycan mətbuatının yeni dövrü başladı. 1903-cü ildən M.Şahtaxtinskinin redaktəsi altında nəşr edilən “Şərqi-Rus” qəzeti tez bir zamanda geniş oxucu kütləsi qazandı. 1905–1907-ci illər inqilabı dövründə milli burjuaziyanın (H.Z.Tağıyev, M.Muxtarov) və görkəmli ziyalıların (Ə.Hüseynzadə, Ə.Ağayev, XIX əsrdə Azərbaycanda dramaturgiyanın əsasını qoymuş Mirzə Fətəli Axundzadə həm də maarifçi və ictimai xadim idi. Onun “Aldanmış kəvakib” povesti Azərbaycanda realist nəsrin ilk nümunəsi sayılır. XIX əsrin sonlarında “Mirzə Fətəli məktəbi”nin davamçıları olan Nəcəf bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev, Nəriman Nərimanov milli dramaturgiyanı yeni əsərlərlə zənginləşdirdilər. XX əsrin əvvəllərində ədəbiyyatda tənqidi-realist nəsrin ən görkəmli nümayəndəsi Cəlil Məmmədquluzadə hesab edilir. O, Azərbaycan ədəbiyyatında realist hekayəçiliyin



Bakı Texniki Kolleci

əsasını qoymuşdur. Bu dövrdə satirik poeziyanın inkişafında Mirzə Ələkbər Sabirin rolu çox böyükdür.

İncəsənət. Memarlıq. XIX əsrdə milli musiqinin ənənəvi janrları olan aşıq və muğam sənəti inkişaf edirdi. İstedadına görə fərqlənən Aşıq Ələsgərin yaradıcılığı aşıq şeiri ənənələrinin davam etdirilməsi istiqamətində əhəmiyyətli mərhələ idi. Bu dövrdə muğam sənətinin görkəmli ifaçıları Hacı Hüsü, Xarrat Qulu, Cabbar Qaryağdıoğlu bütün Qafqazda ən məşhur xanəndələr kimi tanınırdılar. Təsviri sənətin görkəmli nümayəndəsi Mirzə Qədim İrəvani portret ustası kimişöhrət tapmışdı. O, İrəvanda Xan sarayının bərpasında çalışmış, binanın divarlarını "Oturan qadın", "Abbas Mirzə" portretləri ilə bəzəmişdi. XIX əsr incəsənət tarixinin ən böyük nailiyyəti teatrın yaranması idi. 1873-cü ildə Bakı Realni məktəbində M.F.Axundzadənin "Sərgüzəşti-vəziri-xani-Lənkəran" əsərinin tamaşaya qoyulması ilə Azərbaycanda milli teatrın əsası qoyuldu. 1883-cü ildə H.Z.Tağıyev daha bir xeyirli iş görərək teatr binası tikdirib onu azərbaycanlı aktyorların ixtiyarına verdi. Kapitalist münasibətlərinin inkişafı nəticəsində Bakıda əhali sürətlə artır, şəhər getdikcə böyüyürdü. Qala divarlarından kənarda Çəmbərəkənd, Dağlı məhəlləsi, Quba meydanı adlandırılan yeni məhəllələr yaranırdı. Kortəbii tikilən bu məhəllələrin sakinlərinin çoxu Bakının kəndlərindən, Xızıdan və yaxın ərazilərdən iş tapmaq üçün şəhərə üz tutanlar idi. Yaranmış vəziyyət quberniya mərkəzi olan Bakının yeni planlaşdırılmasını tələb edirdi. Bu işi Bakının ilk memarlarından sayılan Qasım bəy Hacıbababəyov həyata keçirdi. O, relyefi, yerin topoqrafiyasını nəzərə alaraq şəhərin yuxarı hissəsini terraslara bölüb küçələri pilləvari şəkildə planlaşdırmışdı. Qasım bəyin layihəsinə Avropadan gələn memarlar heyran qalmışdılar. Bu dövrün digər görkəmli memarı Zivər bəy Əhmədbəyov olmuşdur. Bakıda varlı adamların, milyonçuların artması şəhərdə bir-birindən gözəl binaların inşa edilməsinə gətirib çıxardı. Avropadan Bakıya dəvət edilmiş memarlar milli və

Avropa arxitekturasını uzlaşdıraraq bir-birindən gözəl memarlıq inciləri yaratdılar. XX əsrin əvvəllərində Azərbaycanda incəsənətin yeni janrları meydana gəldi. Dahi bəstəkar Üzeyir bəy Hacıbəylinin 1908-ci ildə səhnəyə qoyduğu "Leyli və Məcnun" operası müsəlman dünyasında ilk opera oldu. 1916-cı ildə ilk peşəkar aktyor olan Hüseyn Ərəblinskinin yaxından iştirakı ilə "Neft və milyonlar səltənətində" adlı ilk Azərbaycan bədii filmi çəkildi.

## ⁂Cənubi Azərbaycan 1917-1920-ci illərdə⁂

Narazılıqların artmasının səbəbləri. 1917-ci ildə Rusiyada Fevral burjua-demokratik inqilabı qələbə çaldığı və çarizmin devrildiyi vaxt Cənubi Azərbaycan rus qoşunlarının işğalı altında idi. Buradakı demokratik qüvvələrin həm İran irticasının, həm də işğalçıların təzyiqi altında olması acı həqiqətlərdən biri idi. Odur ki Rusiyada çarizmin devrilməsi xəbəri İrandakı rus əsgərlərində inqilabi coşqunluq yaratmaqla yanaşı, Cənubi Azərbaycana da böyük ruh yüksəkliyi və ümidlər gətirdi. İran irticasının dayağı olan çarizmin süqutu, burada bütün demokratik qüvvələr tərəfindən Tehran hakimiyyətinin yerlərdə, o cümlədən Cənubi Azərbaycanda zəifləməsi kimi qəbul edildi. Cənubi Azərbaycanda əhalinin çıxışlarına əsas siyasi orqan olan İran Demokratik Firqəsinin (Partiyasının) (İDP) Əyalət Komitəsi istiqamət verirdi. Fevral inqilabı baş verərkən Azərbaycan Əyalət Komitəsi İDP-nin nəzərəçarpacaq dərəcədə fəaliyyət göstərən yeganə təşkilatı idi. Komitəyə Şeyx Məhəmməd Xiyabani başçılıq edirdi. Fevral inqilabının qələbəsi xəbəri İDP-nin Azərbaycan Əyalət Komitəsinin işini də canlandırdı. Azərbaycan Əyalət Komitəsi təşkilatın mətbuat orqanı kimi "Təcəddüd" qəzetini nəşr etməyə başladı. Qəzetin ilk nömrəsi 1917-ci il aprelin 9-da çıxdı. Bu mətbuat orqanı fars dilində nəşr edilir, nüsxələri Tehrana və ölkənin başqa şəhərlərinə də göndərilirdi. 1917-ci il avqustun 24-də Təbrizdə İDP-nin Əyalət Komitəsinin konfransı açıldı. Konfrans Azərbaycan Demokratik Partiyasının aradıldığını elan etdi. Xiyabani başda olmaqla onun

Bakı Texniki Kolleci

Mərkəzi Komitəsi seçildi. ADP Azərbaycanın vəziyyətini yaxşılaşdırmaq üçün müəyyən tədbirlər görmək məcburiyyətində idi. İlk növbədə, başıpozuqluq, möhtəkirlik və aclıqla mübarizə məqsədilə bəzi qurumlar yaradıldı. Bu qurumlar aşağıdakılar idi:

1. Ərzaq komissiyası imkanlı adamlardan taxıl alıb çörək bişirtdirir və onu çox ucuz qiymətə əhaliyə satırdı.

2. Məhəllə komissiyası yaşlı insanlardan təşkil olunmuşdu və məhəllələrdəki yoxsul ailələri müəyyənləşdirib onlara çörək çatdırılmasında Ərzaq komissiyasına yardım edirdi.

3. Yoxsullar evi yoxsul, kimsəsiz və qoca adamların yerləşdirilməsi üçün nəzərdə tutulmuşdu.

4. Yardım (İanə) komissiyası yoxsullar üçün yardım toplamaqla məşğul olur, bu məqsədlə varlılardan pul (ianə) toplayırdı.

Xiyabani şəxsən özü bu qurumların işinə nəzarət edir və vəzifəsini pis yerinə yetirən şəxslərin adlarını "Təcəddüd" qəzetində nəşr etdirir, eyni zamanda ADP-nin iclaslarında onları ifşa edirdi. "Təcəddüd" qəzetində bütün qurumların statistik hesabatları da dərc olunurdu. Xiyabani rəsmən iqtidarda olmasa da, Cənubi Azərbaycanda hər şeyi nəzarətdə saxlayırdı. ADP-də əhalinin, demək olar ki, bütün sosial təbəqələri təmsil olunmuşdu. Buraya orta və xırda burjuaziyanın, orta mülkədarların, ziyalıların və ruhanilərin aşağı zümrələrinin nümayəndələri, fəhlə və kəndlilər də daxil idi. Demokratlar əhalini xarici işğalçıların ölkədən qovulması və Cənubi Azərbaycana muxtariyyət verilməsi uğrunda mübarizəyə çağırırdılar. Bunun sayəsində də Cənubi Azərbaycanda mübarizə əhvali-ruhiyyəsi getdikcə artırdı. Təbriz, Urmiya və Ərdəbildə dövlət məmurlarının özbaşınalığına qarşı həyəcan və çıxışlar baş qaldırmışdı. Təbrizdə vəziyyət xüsusilə kəskin idi. Burada 1917-ci il

Bakı Texniki Kolleci

iyunun 17-də başlanmış çıxışlar əhalini qarət edən vali Sərdar Rəşidə qarşı çevrildi. Sərdar Rəşidin şəhərdən qovulması təkidlə tələb edildi. Vəliəhd Məhəmməd Həsən Mirzə Sərdar Rəşidin istefaya çıxması haqqında fərmana qol çəkməyə məcbur oldu.

Siyasi fəallığın artması. 1917-ci ilin yayından sonra ADP-nin fəaliyyətində və onun başçısı Şeyx Məhəmməd Xiyabaninin dünyagörüşündə, siyasi baxışlarında yeni bir mərhələ başlandı. Bu mərhələdə siyasi partiya başçısı kimi yetkinləşmiş Xiyabani o dövrdəki İran şəraiti üçün milli demokratik inqilabın tələblərinə cavab verən mövqedən çıxış edirdi. O özünün bu siyasi-nəzəri plat formasını “təcəddüd”, yəni “yeniləşmə məsləyi” adlandırırdı. Artıq ADP-nin fəaliyyət dairəsi xeyli genişlənmiş, partiya Cənubi Azərbaycanda yetişən xalq hərəkatının rəhbər təşkilatı kimi formalaşmışdı.Tezliklə Cənubi Azərbaycanın bütün şəhərlərində partiyanın yerli təşkilatları yaranmağa başladı. Partiyanın ən güclü təşkilatlarından biri Bakıda təşkil olunmuşdu. Bu təşkilat “Azərbaycan” adlı qəzet nəşr edirdi.



*Baş nazir Mirzə Həsən xan Vüsuqüddövlə*

1917-ci ilin noyabr və dekabr aylarında Təbriz, Ərdəbil, Xoy, Urmiya, Sərab, Zəncan və b. şəhərlərdə keçirilən izdihamlı mitinqlərdə əhali ingilislərin əlində oyuncağa çevrilmiş Vüsuqüddövlə hökumətinin istefa verməsini, demokratik hökumət təşkil olunmasını tələb edirdi. Təbriz və digər şəhərlərdə keçirilən mitinqlərin çoxunun təşkilatçısı ADP idi.Cənubi Azərbaycanı bürüyən və İranın başqa yerlərində də genişlənən çıxışlar nəticəsində müvəffəqiyyətlər qazanıldı, o cümlədən Vüsuqüddövlə və onun əlaltıları 1917-ci ilin sonunda istefa verməyə məcbur oldular.

Bakı Texniki Kolleci

İngiltərə–İran münasibətləri. 1918-ci ilin əvvəllərində Rusiya öz qoşunlarını İrandan çıxardı. İngiltərə hərbi komandanlığı isə, əksinə, müstəmləkə siyasətini gücləndirməklə İrandan Osmanlı dövlətinə qarşı hücum meydanı kimi istifadə etməyi planlaşdırırdı. 1918-ci ilin yanvarında ingilislər general Denstervilin komandanlığı altında İrana xüsusi hərbi dəstə göndərdi. Bu dəstə Ənzəli və Rəşti, sonra isə Bakını işğal etməli idi. İngilislər Cənubi Azərbaycanda öz planlarını həyata keçirmək üçün ən təcrübəli məmurlarını göndərirdilər. 1918-ci ilin noyabrında Birinci Dünya müharibəsində məğlub olan Osmanlı dövləti Cənubi Azərbaycanda yerləşdirdiyi ordusunu buradan çıxartdıqdan sonra ingilislər İranın şimal-qərbini də ələ keçirdilər. 1919-cu il avqustun 9-da ingilislərin İran hökuməti ilə bağladığı saziş isə Cənubi Azərbaycanda genişlənən milli azadlıq hərəkatının yeni pilləyə qalxmasına təkan verdi, əyalətdə ingilislər və şah hökumətinə qarşı mübarizə şiddətləndi. Ş.M.Xiyabani bütün çıxışlarında xalqı birliyə və açıq mübarizəyə çağırırdı. Hərəkata başçılıq edən ADP-nin bu dövrdəki fəaliyyəti üçün səciyyəvi cəhət o idi ki, partiya tədricən passiv mübarizə mövqeyindən uzaqlaşır, öz tələblərini hökumətə qəti şəkildə bildirir, xalqı daha ciddi mübarizəyə səsləyirdi. Belə ki partiyanın proqramında nəzərdə tutulan taktika dəyişilmişdi. Bu səbəbdən də dinc çıxışlarla yanaşı, silahlı üsyana hazırlaşmaq planı 1920-ci ilin yazında daha böyük inamla həyata keçirilməyə başlandı. Xiyabaninin aşağıdakı sözləri bu planı aydınlığı ilə açıqlayır: “Ağıllı bir xalq teleqrafxanaya toplaşıb öz qulluqçu və nökərlərindən ədalət və azadlıq istəməz... Bu, dilənçilikdir, bu, zillət və əsarətdir. Bu, qəhrəman və diri xalqa yaraşmaz”. Xiyabaninin bu sözləri partiyada təkamüldən xəbər verir, inqilabi çağırışa qəti dönüş yarandığını göstərirdi. O, İranın demokratikləşməsini və onun tərkibində Cənubi Azərbaycana geniş muxtariyyət verilməsini tələb edirdi.

Üsyanın başlaması və qələbəsi. 1920-ci il aprelin ilk günlərində ADP-nin üzvlərindən bir neçəsinin həbs edilməsi üsyanın başlamasına təkan verdi. Aprelin 7-

Bakı Texniki Kolleci

nə keçən gecəni “Təcəddüd” qəzetinin yerləşdiyi redaksiya binasında keçirən ADP rəhbərliyi silahlı üsyan planını hazırladı. Üsyanın başlaması ilə Cənubi Azərbaycandakı milli azadlıq hərəkatı yeni mərhələyə daxil oldu. Hərəkat silahlı üsyan xarakteri aldı. Üsyana rəhbərlik etmək üçün İctimai İdarə Heyəti (İİH) təşkil olundu. Heyətə Ş.M.Xiyabani başçılıq edirdi. İİH-nin rəhbərliyi altında üsyançılar iki gün müddətində, demək olar ki, bütün dövlət idarələrini ələ keçirdilər. Silahlı üsyan qan tökülmədən qələbə çaldı.



*“Təcəddüd” qəzeti*

İİH milli azadlıq və demokratik hüquqlar uğrunda mübarizə apardığını Təbrizdəki xarici dövlət konsulluqlarına rəsmən bildirdi. İİH öz fəaliyyətinə, ilk növbədə, Tehrandan göndərilmiş dövlət məmurlarını və hərbi qulluqçuları idarə işlərindən kənar edərək Təbrizdən qovmaqla başladı. Azərbaycan əyalətinə vali göndərilən və Təbrizə gəlməyə cəsarət etməyən Eynüddövlə üsyanın başlanmasından sonra Tehrandan verilən göstərişə əsasən Miyanədən çıxaraq Təbrizə tərəf hərəkət etdi. Ş.M.Xiyabaninin təklifi ilə Azərbaycan adı “Azadıstan”la əvəz olundu. Demokratların tələblərini sözdə qəbul etmiş Eynüddövlə üsyanı yatırmaq haqqında mərkəzin göstərişini həyata keçirmək məqsədilə dərhal bir sıra tədbirlər görməyə başladı və ilk növbədə, Tehrandan külli miqdarda pul tələb etdi. O eyni zamanda üsyanın bir sıra iştirakçıları ilə gizli danışıqlara başlamaqla onları parçalamağa nail olmaq istəyirdi. Hərəkat öz hüdudlarını genişləndirməkdə davam edirdi. Təbrizdə başlamış üsyan tədricən Cənubi Azərbaycanın başqa mahal və şəhərlərini də əhatə edirdi. Bu hərəkatların çoxuna, bir qayda olaraq, ADP-nin yerli təşkilatları başçılıq edirdi. Artıq iyunun əvvəllərinə doğru üsyan Cənubi Azərbaycan çərçivəsində geniş bir ərazini – Zəncan, Marağa, Əhər, Xoy, Ərdəbil və s. əhatə edirdi. Təbriz üsyanı dövründə ingilislərə və daxili irticaya qarşı etiraz hərəkatı bütün İranı bürümüşdü. Uzaq və yaxınlığından asılı olmayaraq, İranın mühüm məntəqələrində Təbriz üsyanına qarşı açıq hüsnrəğbət və həmrəylik güclü idi. Denikin ordusunun

Bakı Texniki Kolle

qalıqlarını təqib etmək bəhanəsi ilə İranın Ənzəli limanına qoşun yeridən Sovet Rusiyasının İran kommunistləri ilə əlaqə yaradaraq Gilanda Sovet hakimiyyətini elan etməsi ADP-nin mövqeyini gücləndirdi. Gilan Respublikası ilə əlaqələr yaradılsa da, burada güclü təsirə malik olan rus-bolşevik qüvvələrin yardımı rədd edilmişdi. Ş.M.Xiyabaniyə başqa köməklər də təklif olunmuşdu. Bunlardan İrəvan quberniyasında daşnaklara qarşı fəaliyyət göstərən və sovet ordusu Azərbaycanı işğal etdikdən sonra Məréndə çəkilməyə məcbur olan Abbasqulu bəy Şadlinskinin yardım təklifini göstərmək mümkündür. Həmçinin Mustafa Kamal Atatürk də Xiyabaniyə hərbi kömək təklif etmişdi.

Milli hökumətin yaradılması. 1920-ci il iyunun 23-də ADP müvəqqəti hakimiyyət orqanı kimi fəaliyyət göstərən İİH əsasında Milli hökumət yaratmağı qərara aldı. Mərkəzi dövlətin nümayəndəsi kimi bütün fəaliyyəti tamamilə iflic edilmiş vali Eynüddövlə də Təbrizi tərk etməkdən başqa çıxış yolu gör məyərək əhatəsindəki məmurlarla birlikdə şəhərdən çıxdı. Beləliklə, Təbrizdə mərkəzdən göndərilmiş bir nəfər də məmur qalmadı. MH-nin Alaqapıya (valinin oturduğu bina) köçməsi Təbriz əhalisinin ümumi bayramına çevrildi. Milli hökumət kənd təsərrüfatı, maarif, maliyyə, səhiyyə, ədliyyə və s. sahələrdə islahatlar və başqa tədbirlər həyata keçirməyə başladı. Milli müdafiə qüvvələrinin təşkili üçün də layihə hazırlandı. Bu layihəyə əsasən şəhər əhalisindən və Təbrizə gəlmiş kəndlilərdən gələcəkdə ümumi sayı 12 minə çatdırılacaq qoşun hissəsi–milli qvardiyanın yaradılmasına başlanıldı. Hökumət şəhər əhalisindən yeni jandarm və polis dəstələri təşkil edərək nizam- intizam yaratdı. Bu qüvvələr Milli hökumətin əsas dayağı idi. Təbrizdə xalça fabriki tikilməsinə başlanılmış, şəkər zavodu, toxuculuq və dəri fabriklərinin yaradılması, kənd təsərrüfatı bankının və milli bankın açılması, pul islahatının, şəhər əncüməninə seçkilərin keçirilməsi və s. planlaşdırılmışdı. Milli hökumətin mühüm sahələr-maarif, mədəniyyət, səhiyyə, ədliyyə, vəqf, hərbi işlər və



Bakı Texniki Kolleci

s. üzrə idarə və nazirlikləri yaradılmışdı. Əhalinin savadlanmasına xüsusi diqqət yetirilir, şəhər və kəndlərdə pulsuz məktəblər açılırdı. Təbrizdə pulsuz qız məktəbinin təşkili bütün İran üçün nadir hadisə oldu. İdarə və müəssisələrdə "Azadıstan" adı yazılmış yeni lövhələr vurulsa da, onların üzərində İran dövlətinin gerbi saxlanılmışdı. Milli hökumətin süqutu. İngilislər özləri üçün "təhlükəli" hesab etdikləri Cənubi Azərbaycandakı hərəkata qarşı planlar hazırlayırdılar. Vali Eynüddövlə vasitəsilə MH rəhbərliyi altında aparılan danışıqlar, general Edmondun köməkliyi ilə üsyana qarşı görülən tədbirlər, o cümlədən demokratların mühafizəkar qrupunun Təbrizdə qiyamı, bölgələrdə isə feodal dəstələrin üsyan tərəfdarları üzərinə hücumu baş tutmadıqda onlar yeni planlar cızmağa başladılar. Danışıqlarla üsyançılara təsir edə bilməyəcəyini görən İranın yeni Baş naziri Müşirüddövlə ingilislərin yaxından köməyi və bilavasitə rəhbərliyi ilə üsyançılara qarşı hücuma hazırlaşmaq qərarına gəldi. Hücumu təşkil etmək üçün Hidayət Müxbirüssəltənə sentyabrın ilk günlərində vali sifəti ilə Təbrizə daxil oldu. Müxbirüssəltənə Baş nazirin məktubunu Xiyabaniyə çatdırıb onunla "danışıqlara" başladı. Danışıq davam etdiyi müddətdə isə Müxbirüssəltənə Təbrizin kənarında düşərgə saldı və MH tərəfindən tərk-silah edilməmiş İranın kazak briqadası qarnizonunun komanda heyətini öz tərəfinə çəkərək şəhərə birgə hücum planı hazırladı. Marağadakı kazak süvari dəstələri də Təbrizə çağırıldı. Müxbirüssəltənə eyni zamanda MH-nin silahlı qüvvələrini Təbrizdən uzaqlaşdırmaq üçün jandarm dəstəsinin rəhbəri Mir Hüseyn Haşımini ələ ala bildi. Mayor Haşımi şəhər ətrafındakı quldur dəstələri ilə mübarizə aparmaq bəhanəsi ilə silahlı qüvvələri MH-nin razılığını almadan şəhərdən çıxardı. Əks-inqilabi qüvvələr sübh çağı üsyançıların mərkəzini qəflətən bombalayaraq hücuma keçdilər. ADP-nin silahlı üzvlərinin ciddi müqavimətinə baxmayaraq, əks-inqilabi qüvvələr 1920-ci il sentyabrın 12-də Alaqapını ələ keçirdilər, sentyabrın 14-də isə "Təcəddüd" qəzetinin binasını dağıtdılar. Əks-inqilabi qüvvələrin sayca çox olmasına baxmayaraq, üsyançılar sentyabrın 14-dək son damla qanlarına qədər

Bakı Texniki Kolleci

qəhrəmancasına vuruşdular. İrticaçılar onlara amansız divan tutdular. Sentyabrın 14-də, başqa demokratlar kimi, Xiyabani də qəhrəmancasına həlak oldu. İran irticasının başçısı Müşirüddövlə isə Cənubi Azərbaycanda xalq hərəkatının yatırılmasındakı "xidmətlərinə" görə şah tərəfindən birinci dərəcəli "Taci-Kəyan" nişanı ilə təltif edildi.Bir sıra məhdudiyyətlərinə və nöqsanlarına, üsyan zamanı buraxılan səhvlərə baxmayaraq, Şeyx Məhəmməd Xiyabaninin başçılığı ilə həyata keçirilmiş 1920-ci il Təbriz üsyanı və bütün hərəkat Cənubi Azərbaycanda və bütövlukdə İran tarixində parlaq bir dövrü təşkil edir. Üsyan məğlub edilsə də, bu hərəkat Cənubi Azərbaycan türklərinin İranda əcnəbi ağalığına, irtica özbaşınalığına qarşı mübarizəsində mühüm bir səhifə oldu. Üsyan nəticəsində əvvəlki hökumət istefa verdi və İranda Müşirüddövlənin başçılığı ilə yeni dövlət kabineti təşkil edildi. İngilislərə qarşı mübarizənin ən kəskin vaxtında hakimiyyət başına gələn Müşirüddövlə xalqın nifrət və qəzəbindən qorxaraq 1919-cu il İngiltərə-İran sazişinin həyata keçirilməsinin məclis tərəfindən təsdiq olunanadək təxirə salındığını elan etdi və bu qərar 1921-ci ildə sazişin ləğvi ilə nəticələndi. İran türklərinin öz milli varlığı və demokratiya uğrunda mübarizəsi tarixində Ş.M.Xiyabaninin rəhbərliyi ilə baş vermiş hərəkatın rolu və əhəmiyyəti böyükdür. Təbrizdəki üsyana və bütün hərəkata başçılıq etmiş Ş.M.Xiyabani şəxsiyyəti isə Cənubi Azərbaycanda XX əsrin əvvəllərindən formalaşan milli şüurun inikşafı prosesində xüsusi bir səhifə – mərhələ təşkil edir. Ş.M.Xiyabani İranda müstəqillik və demokratik azadlıqlar uğrunda mübarizə aparmış ictimai-siyasi xadimlər içərisində xüsusi yer tutur.


*Baş nazir Müşirüddövlə*

Bakı Texniki Kolleci

# 8. Azərbaycan Xalq Cümhuriyyətinin yaranması. Daxili və xarici siyasəti

*Azərbaycan Xalq Cümhuriyyəti* müsəlman-türk dünyasında Qərb demokrtik siyasi sisteminə əsaslanan ilk milli dövlət idi. Dövlət quruculuğu milli siyasi qüvvələrin fədakar səyləri və əhalinin yaxından iştirakı ilə baş vermişdi. AXC-nin hakimiyyət orqanları qarşısında müstəmləkə əsarəti dövründən yığılıb qalmış, həmçinin müharibənin ağır nəticələri ilə bağlı yaranmış mürəkkəb problemlərin aradan qaldırılması kimi vacib vəzifə qoyulmuşdu. Cümhuriyyətin bu sahədə həyata keçirdiyi tədbirlər Azərbaycan tarixində yüzlərlə "ilk"lərin meydana çıxmasına səbəb oldu. Dövlət quruculuğu. "İstiqlal Bəyannaməsi" AXC-nin dövlət quruluşunu parlamentli respublika kimi təsbit etmişdi. Qanunverici orqan funksiyasını ilk dövrlərdə Müvəqqəti Milli Şura yerinə yetirirdi. Milli Şuradakı mövcud siyasi qüvvələr Azərbaycanın yalnız müsəlman əhalisini təmsil edirdi. İyunun 17-də fəaliyyətini dayandırmalı olan Milli Şura hökumətin qarşısında 6 aydan gec olmayaraq ümumi, birbaşa və gizli səsvermə əsasında Müəssislər Məclisinin çağırılması vəzifəsini qoymuşdu.  Osmanlı qoşunları Şimali Azərbaycanı tərk etdikdən sonra Bakıya gəlişi gözlənilən Antanta qüvvələrinin AXC-ni tanımaqdan imtina etməsi Azərbaycanın müstəqilliyini yenidən təhlükə altına  aldı. Belə bir vəziyyətdə ölkənin bütün əhalisini təmsil edəcək qanunverici orqanın təxirə salınmadan çağırılmasına böyük ehtiyac var idi. Mudros barışığından sonra 1918-ci ilin noyabrında fəaliyyətini bərpa edən Milli Şura özünü yenidən respublikanın yeganə qanunverici orqanı elan etdi. Noyabrın 20-dəqəbul edilmiş "Azərbaycan parlamentinin yaradılması haqqında" Qanun seçki əsasında və ölkədə yaşayan bütün millətlərin təmsil olunduğu bir palatalı parlamentin yaradılmasını nəzərdə tuturdu. Parlamentin yaradılması haqqında qanuna görə milli azlıqlara böyük

Bakı Texniki Kolleci

güzəştlər edilirdi. Rus və erməni milli şuraları müxtəlif bəhanələrlə əvvəlcə Azərbaycan Parlamentini tanımayacağını bildirsə də, Bakıdakı Antanta hərbi komandanlığının təmsilçisi general Tomson dekabrın sonlarında parlamentə və hökumətə müsbət münasibətini bəyan etdikdən sonra onun işində iştirak etməyə məcbur oldu. 1918-ci il dekabrın 7-də fəaliyyətə başlayan AXC Parlamenti xalqın demokratik hakimiyyət prinsiplərinə verdiyi böyük dəyərin təzahürü idi. Parlamentin sədri vəzifəsinə o zaman İstanbulda Azərbaycanın fövqəladə və səlahiyyətli səfiri qismində fəaliyyət göstərən Əlimərdan bəy Topçubaşov seçildi. Lakin məlum səbəblərə görə bu vəzifəni onun müavinləri – 1920-ci ilin fevralına kimi Həsən bəy Ağayev, daha sonra isə Məmmədyusif Cəfərov icra etməli oldular. Parlamentin fəaliyyətə başlaması münasibətilə siyasi məhbuslara amnistiya elan edildi. Parlamentin ilk müzakirə etdiyi məsələlərdən biri hökumətin hesabatının dinlənilməsi və yeni hökumətin təşkil olunması idi. 1918-ci il dekabrın 26-da F.Xoyskinin rəhbərliyi ilə yeni koalisiya hökuməti təşkil edildi. Hökumət Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsini, ərzaq, nəqliyyat, aqrar, maliyyə və ordu sahələrində təxirə salınmaz islahatların keçirilməsini nəzərdə tutan bəyannamə ilə çıxış etdi. General Tomson bu hökuməti Azərbaycan hüdudlarında yeganə qanuni hakimiyyət orqanı kimi tanımaqla AXC-nin beynəlxalq aləmdə tanınması istiqamətində mühüm qərar qəbul etdi. Tomsonun bu bəyanatına baxmayaraq, ingilis komandanlığı Bakıda yaratdığı general-qubernatorluq va sitəsilə AXC hökumətinin daxili işlərinə kobud müdaxilələrə yol verirdi. Parlament və hökumətin fəaliyyətlərini çətinləşdirən amillərdən biri burada təmsil olunan parti yaların arasında kəskin fikir ayrılıqlarının mövcudluğu idi. Parlamentdə bir neçə fraksiya və qrup fəaliyyət göstərirdi ("Müsavat" və bitərəflər, "İttihad",

Bakı Texniki Kolleci

“Əhrar”, sosia listlər, “Slavyan-rus” cəmiyyəti və s.). Lakin buna baxmayaraq, fəaliyyət göstərdiyi müddət ərzində AXC parlamenti 230-a yaxın qanun qəbul etdi.

1918-ci il iyunun 27-də türk (Azərbaycan) dili dövlət dili elan olundu. 1919-cu ilin avqustunda “Vətəndaşlıq haqqında” Qanun qəbul edildi. 1919-cu ilin iyulunda qəbul edilmiş Müəssislər Məclisinə seçkilər haqqında əsasnaməyə görə 20 yaşına çatmış bütün vətəndaşlara seçkilərdə iştirak etmək hüququ verilirdi. Lakin 1920-ci ilin aprelində ölkənin sovet Rusiyası tərəfindən işğal edilməsi ilə əlaqədar seçkilərin keçirilməsi baş tutmadı. AXC hökuməti – Nazirlər şurası. Ali icra orqanı funksiyasını hökumət yerinə yetirirdi. AXC-nin ilk hökuməti Milli Şura qarşısında məsuliyyət daşısa da, ikinci hökumət Şuranın qanunverici səlahiyyətlərini də həyata keçirməli oldu. 1918-ci ilin yayında ölkə ərazisində hərbi vəziyyət tətbiq edildi, ilk dövlət bayrağı qəbul olundu, ümumi hərbi mükəlləfiyyət tətbiq edildi. Bütövlükdə AXC-nin mövcud olduğu beş hökumət kabineti təşkil edilmişdi. Onlardan ilk üçünə Fətəli xan Xoyski, son ikisinə isə Nəsib bəy Yusifbəyli başçılıq etmişdir. AXC-nin ərazisi 114.000 km² (onun 97.000 km²-i mübahisəsiz ərazi) idi.

⁂*Qarabağ general-qubernatorluğu.*⁂ Qarabağda məskunlaşmış erməni əhalisi də Ermənistandan aldığı yardımın sayəsində fəallaşmışdı. Onların məqsədi əhalinin əksəriyyətini müsəlmanların təşkil etməsinə baxmayaraq, buranı zorla Ermənistana birləşdirməkidi. Qafqaz İslam Ordusu bu dövrdə bütün səylərini Bakının azad edilməsinə yönəltdiyindən Qarabağda erməni quldur dəstələrinin müsəlman əhalisinə qarşı qırğınları geniş miqyas almışdı. Bakının azad edilməsindən dərhal sonra AXC hökuməti Qarabağda sabitliyin yaradılması və erməni quldur dəstələrinin tərk-silah edilməsi üçün Qafqaz İslam Ordusunun bir hissəsini buraya göndərdi. Qarabağda AXC- nin hakimiyyəti bərqərar oldu. Osmanlı qoşunlarının Şimali Azərbaycanı tərk etməsi ilə Ermənistan tərəfindən yardım alan quldur

dəstələri yenidən fəallaşdı. Bu dəfə onlara qarşı mübarizəni AXC ordusu aparmalı oldu. 1919-cu ilin yanvarında AXC hökuməti Qarabağın azərbaycanlı əhalisini erməni quldur dəstələrinin vəhşiliklərindən qorumaq üçün Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur qəzalarını əhatə edən Qarabağda general- qubernatorluq təsis olunması haqqın da qərar qəbul etdi. Bu vəzifəyə milli azadlıq hərəkatının görkəmli xadimlərindən biri, AXC-nin ilk hökumətində hərbi nazir olmuş Xosrov bəy Sultanov təyin edildi. Ermənistan hakimiyyətinin Qarabağda bu vəzifənin təsis edilməsinə və ermənilərin düşməni adlandırdığı X.Sultanovun bu vəzifəyə təyin olunmasına etirazı bir nəticə vermədi. Qarabağda AXC hakimiyyətinə qarşı pozucu fəaliyyət aparan erməni Milli Şurasının fəal üzvləri general Tomsonun yardımı ilə ölkə hüdudlarından çıxarıldı. Ertəsi gün Şuşanın erməni əhalisi separatçıların fitnəkarlığına görə X.Sultanova məktub yazaraq onun şəxsində Şuşanın müsəlman əhalisindən üzr istədi. Avqustda Qarabağın erməni əhalisi AXC hakimiyyətinə tabe olduğu haqqında hökumətlə saziş imzalamaq məcburiyytində qaldı. 1919-cu ilin payızında Zəngəzurda müsəlman əhalisinin erməni basqınlarından müdafiəsinin gücləndirilməsi nəticəsində Ermənistan Respublikası bir müddət qəzanın işğalından əl çəkməli oldu. Azərbaycan Xalq Cümhuriyyəti və Ermənistan Respublikası arasında 1919-cu ilin noyabrında Tiflisdə imzalanmış sazişə əsasən hər iki tərəf qoşun hissələrini Zəngəzurdan çıxarmalı idi. Lakin saziş imzalandıqdan bir neçə gün sonra Ermənistan onun şərtlərini pozaraq öz qoşununu Zəngəzura göndərdi.

### ⁂ *Naxçıvan general-qubernatorluğu.*⁂

Erməni silahlı qüvvələri tərəfindən Naxçıvanın müsəlman əhalisinə qarşı qırğınların miqyası genişlənməkdə idi. Batum müqaviləsi əsasında 1918-ci ilin iyununda Naxçıvana gəlmiş Osmanlı qoşunları bölgənin müdafiəsini möhkəmləndirdi. Lakin Osmanlı hərbi qüvvələri Mudros barışığına əsasən Naxçıvanı tərk etdikdən sonra erməni quldur dəstələri yenidən fəallaşdılar. Bölgənin dinc müsəlman əhalisinə qarşı



Bakı Texniki Kolleci

vəhşilikləri yenidən artdı. 1918-ci ilin noyabrında bölgənin müdafiəsini təmin etmək və onun Ermənistan tərəfindən işğalına yol verməmək üçün mərkəzi Naxçıvan şəhəri olan Araz-Türk Respublikası (ATR) yaradıldı. 1919-cu ilin fevralında ATR-in "Cənub-Qərbi Azərbaycan" adı altında AXC-yə birləşməsi xahişini təmin edən hökumət Bəhram xan Naxçıvanskinin rəhbərliyi altında Naxçıvan, Ordubad, Şərur-Dərələyəz və Vedibasar ərazisini əhatə edən Naxçıvan general-qubernatorluğu yaradılmasını qərara aldı. Lakin Cənubi Qafqazda ingilis komandanlığının Naxçıvan məsələsində ermənipərəstmövqeyi 1919-cu ilin mart-iyul aylarında brada erməni idarəçiliyinin fəaliyyət göstərməsinə şərait yaratdı. Bu işğal rejimi AXC-nin güclü diplomatik təzyiqi və yerli əhalinin qətiyyəti sayəsində ləğv edildi.1919-cu ilin avqustunda Naxçıvan şəhərində Səməd bəy Cəmillinskinin başçılığı ilə general-qubernatorluq fəaliyyətə başladı.

⁂*Milli Ordunun yaradılması.*⁂ Mürəkkəb daxili və xarici şərait Azərbaycan Milli Ordusunun yaradılmasının sürətləndirilməsini tələb edirdi. AXC hökumətinin 1918-ci il 26 iyun tarixli qərarı ilə, əsasən, azərbaycanlılardan ibarət olan Müsəlman Korpusu Əlahiddə Azərbaycan Korpusu adlandırıldı, bununla da Cümhuriyyət ordusunun əsası qoyuldu. Bu işi sürətləndirmək məqsədilə 1918-ci il noyabrın 1-də F.Xoyskinin rəhbərliyi altında hərbi nazirlik yaradıldı. Lakin ordu quruculuğu onun müavini, daha sonra isə Hərbi nazir vəzifəsini icra edən general Səməd bəy Mehmandarova tapşırıldı. Pərakəndə fəaliyyət göstərən milli hərbi hissələrin idarə olunmasını mərkəzləşdirmək məqsədilə Baş Qərargah formalaşdırıldı. AXC parlamenti ordu quruculuğuna xüsusi diqqət yetirirdi. Belə ki 1919-cu ildə dövlət büdcəsinin təqribən, 1/3-i hərbi xərclərə ayrılmışdı. Ordunun şəxsi heyətinin hərbi bacarıqlarının artırılmasına, peşəkar milli zabit kadrlarının hazırlanmasına, nizam-intizamın gücləndirilməsinə, ordunun silah- sursatla tam təmin olunmasına böyük əhmiyyət verilirdi. Orduda Azərbaycan dilinin öyrədilməsi, savadsızlığın aradan

qaldırılması istiqamətində mühüm işlər görülürdü. Hərbi qulluqçuların geyim formasının milli üslubda hazırlanması döyüşçülərin milli ruhunun gücləndirilməsində əhəmiyyətli addım oldu. 1919-cu ilin iyununda imzalanmış Azərbaycan-Gürcüstan hərbi-müdafiə və hərbi-texniki əməkdaşlıq haqqında sazişlərin də Milli Ordunun formalaşdırılmasında mühüm əhəmiyyəti var idi. Ölkənin xarici təhdidlərdən təhlükəsizliyini təmin etmək məqsədilə 1919-cu ilin iyununda Baş Qərargahın nəzdində Əks-inqilabla Mübarizə Təşkilatı yaradıldı. Lənkəran bölgəsində 1919-cu ilin mayında bolşeviklər sovet hakimiyyətinin qurulduğunu və Muğan Sovet Respublikasının yaradıldığını elan etdilər. Sovet Rusiyası separatçılara silah-sursat və pulla yardım edirdi. AXC ordusunun əsas hissələri bu zaman Qarabağın dağlıq ərazisində erməni separatçılarına qarşı mübarizə aparırdı. Digər qismi isə şimaldan gələn təhlükə ilə bağlı sərhədlərin müdafiəsinə göndərilmişdi. Buna görə də yalnız 1919-cu ilin avqustunda bölgəyə gələn Milli Ordu hissələri separat Muğan Sovet Respublikasını ləğv etdi. 1919-cu ilin avqustunda Azərbaycanı tərk edən ingilis hərbi qüvvələri bütün ləvazimatını və Xəzər hərbi donanmasını sovet hökumətinə qarşı mübarizə adı altında ağqvardiyaçılara verdi. AXC hökumətinin öz dəniz sərhədlərini müdafiə etmək məqsədilə ingilis komandanlığına yardım müraciətləri qismən təmin olundu. Bakı şəhərinin liman idarəçiliyi, hərbi ləvazimatın və sursatın bir hissəsi, bir neçə hərbi gəmi AXC hökumətinə verildi. Bunların əsasında Xəzərdə Azərbaycanın hərbi donanması yaradıldı.

Sosial-iqtisadi siyasət. AXC-nin siyasi lider ləri hesab edirdilər ki, demokratik cəmiyyət insanlar arasında siyasi bərabərliyi təmin etməklə yanaşı, sosial ədalətsizliyi də aradan qaldırmalıdır. AXC-nin iqtisadi siyasətinin əsas prinsiplərindən biri müxtəlif mülkiyyət formalarının inkişafı üçün bərabər imkanların yaradılması idi. Xüsusi mülkiyyətin toxunulmazlığının azad



Bakı Texniki Kolleci

sahibkarlığın inkişafı üçün vacib olduğu fikrini qəbul edən AXC hökumətləri eyni zamanda da onun miqyasının ifrat dərəcədə artmasına qarşı idi. 1918-ci ilin iyununda hökumət ölkənin ərzaq təhlükəsizliyini təmin etmək məqsədilə ərzaq və bəzi xammal məhsullarının xaricə çıxarılmasına müvəqqəti qadağa qoydu. 1919-cu ildə Dövlət Bankı fəaliyyətə başladı. Artan inflyasiya şəraitində milli pul vahidlərinin möhkəmləndirilməsi və onların alıcılıq qabiliyyətinin qorunub saxlanılması hökumətlərin başlıca vəzifələrindən biri idi. Qiymətli metalların ölkədən xaricə daşın masına görə məsuliyyət müəyyən edildi. Daxili bazarın qorunması üçün xaricdən gə tirilən bir sıra mallara qoyulan gömrük rüsumu artırıldı. Eyni zamanda ölkədən məhsulların xaricə azad şəkildə ixracı üçün zəruri qanunlar qəbul edildi. Xarici kapitalın ölkə iqtisadiyyatında iştirakını artırmaq məqsədilə tədbirlər həyata keçirildi. 1919-cu ilin dekabrında parlamentdə AXC-nin yeni hökumətinin başçısı qismində çıxış edən N.Yusifbəyli Azərbaycanın azad və müstəqil yaşamasının əsas şərti kimi güclü iqtisadiyyatın yaradılmasının zəruriliyini qeyd etdi. Azərbaycan neftinin xarici bazarlarda satışının kəskin azalması səbəbindən neft sənayesində böhran dərinləşməkdə idi. AXC-nin IV hökuməti, əvvəlki hökumətlərdən fərqli olaraq, Bakı neftinin əsas istehlakçısı kimi daim bu məhsula ehtiyac duyan və onun əsas bazarı hesab olunan Rusiya ilə münasibətləri bərpa etməyi nəzərdə tutmuşdu. Bakı-Batum neft kəmərindən AXC hökuməti Versal sülh müqaviləsinin 89-cu maddəsinə əsasən istifadə etmək imkanı qazandı. Sənayenin inkişafına yardım tədbirləri ilə yanaşı, fəhlələrin problemləri ilə bağlı zəruri işlərin tam görülməməsi, eyni zamanda aqrar islahatın ləngidilməsi AXC hakimiyyətinin sosial dayaqlarını zəiflədirdi. Şimali Azərbaycan kəndlərində bütün təsərrüfatların əksəriyyəti dövlətə məxsus idi. Kəndlilərin yarıdan çoxunu kasıblar təşkil edirdilər. 1919-cu ildə aqrar islahat barəsində qanun layihəsinin hazırlanması üçün parlament komissiyası yaradıldı. Komissiyanın hazırladığı layihədə bütün torpaqlar dövlət mülkiyyəti elan edilir, mülkədarların ixtiyarında müəyyən olunmuş

Bakı Texniki Kolleci

miqdarda torpaq sahəsinin saxlanılması nəzərdə tutulurdu. "Müsavat"ın parlamentə təqdim etdiyi aqrar islahat layihəsinin müzakirəsi siyasi çəkişmələr və hökumət böhranı ilə əlaqədar baş tutmadı. Azərbaycanın müstəqilliyinə düşmən olan siyasi qüvvələr isə təbliğatlarında aqrar məsələnin həll olunmaması faktından yararlandılar. AXC hökuməti sosial sahədə mühüm tədbirlər həyata keçirdi. İnflyasiya ilə əlaqədar bir neçə dəfə əhalinin müxtəlif təbəqələrinin maaşının artırılması haqqında qərarlar qəbul edildi. Hökumət kasıb ailələrdən olan uşaqlara yardım edilməsi ilə bağlı qərar da vermişdi. AXC hökumətlərinin sosial siyasətlərində qaçqın və məcburi köçkünlərin problemlərinin həlli əsas yerlərdən birini tuturdu. 1918-1920-ci illərdə erməni quldur dəstələrinin törətdikləri vəhşiliklər səbəbindən İrəvan, Zəngəzur, Şuşa və Şamaxıdan 300 min nəfərdən çox azərbaycanlı yurd-yuvalarından qovulmuşdu. Hökumət tərəfindən onlara ərzaq, pul və zəruri istehlak malları verilirdi.

*Mədəni quruculuq tədbirləri.* Xalq maarifi sahəsində ən başlıca vəzifələrdən biri təhsil sisteminin yenidən qurulması və milli kadrların hazırlanması idi. Təhsil sisteminin milli zəmin əsasında yenidən qurulmasındaavqustun 28-də məktəblərin milliləşdirilməsi haqqında qərarın qəbul edilməsinin mühüm əhəmiyyəti var idi. İbtidai məktəblərdə şagirdlərin ana dilində təhsil alması ilə yanaşı, dövlət dili kimi türk (Azərbaycan) dilinin tədrisi məcburi hesab olunurdu. Orta təhsil müəssisələrində isə tədris dövlət dilində aparılmalı idi. Təhsil müəssisələrində, dövlət idarələrində, orduda, məhkəmələrdə dövlət dilindən istifadə mühüm əhəmiyyət kəsb edirdi. Bununla yanaşı, milli kadrların hazırlanmasına qədər dövlət idarələrində rus dilindən istifadəyə də icazə verilirdi. Ölkədə müəllim kadrları hazırlamaq üçün qısa müddətli kurslar təşkil



Bakı Dövlət Universitetinin ilk binası. 1919-cu il

Bakı Texniki Kolleci

edildi. AXC hökumətinin  qərarı ilə Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinin bazasında Qazax Müəllimlər Seminariyası yaradıldı. Ali təhsilin təşkili və ali təhsilli kadrların hazırlanması məqsədilə müxtəlif yönümlü ali təhsil müəssisələrinin yaradılması nəzərdə tutulsa da, yalnız bir universitetin açılması mümkün oldu. 1919-cu il sentyabrın 1-də Parlament Bakı Dövlət Universitetinin təsis edilməsi haqqında qanun və 100 nəfər azərbaycanlı gəncin dövlət hesabına xarici ölkələrin (Almaniya, Fransa, Osmanlı, İtaliya, Böyük Britaniya, Rusiya) ali məktəblərində təhsil alması üçün göndərilmələri haqqında qərar qəbul etdi. Rusiyadakı vəziyyətlə əlaqədar nəzərdə tutulmuş 13 nəfəri oraya göndərmək mümkün olmadı. Mədəni sahədə keçirilməsi nəzərdə tutulan islahatlardan biri də əlifba ilə bağlı idi. 1919-cu ildə AXC hökumətinin qərarı ilə yradılmış Əlifba İslahatı Komissiyası latın əlifbasına keçilməsi haqqında təqdim olunan  layihəni bəyənsə də, sovet Rusiyasının ölkəni işğal etməsi səbəbindən islahatıaxıra kimi həyata keçirə bilmədi. AXC dövründə 100-ə qədər qəzet və jurnal dərc edilirdi ki, onların da əksəriyyəti türk (Azərbaycan) dilində idi. Məsələn, "İstiqlal", "Azərbaycan", "Qurtuluş", "Mədəniyyət" və başqalarını göstərmək olar. Hökumətin 1918-ci ilin noyabrında qəbul etdiyi qərara əsasən senzura ləğv edilmişdi. BDU-nun nəzdində yaradılmış "Müsəlman Şərqini öyrənən cəmiyyət" Azərbaycan tarixinin, mədəniyyətinin, ədəbiyyatının öyrənilməsi və təbliğ edilməsində mühüm işlər görürdü. "Türk ocağı" cəmiyyətinin məqsədləri türk xalqları arasında mədəni əlaqələri inkişaf etdirmək, onları bir-birinə yaxınlaşdırmaq, qarşılıqlı yardımı daha da möhkəmləndirmək idi. Parlamentin binasında açılmış "İstiqlal" muzeyində Azərbaycanın azadlıq və istiqlalına dair sənədlər, materiallar, arxeoloji tapıntılar, silahlar, rəsm əsərləri, xalçalar və s. toplanmışdı. AXC hökuməti əhalinin maarifləndirilməsi sahəsində dövlət və kütləvi xalq kitabxanalarının açılmasına mühüm əhəmiyyət verirdi. Bakıda fəhlələr arasında mədəni-maarif işlərinin aparılması məqsədilə "xalq evləri" təşkil edilmişdi. AXC-nin yaranması ilə milli



Bakı Texniki Kolleci

teatrın fəaliyyətində canlanma baş verdi, Dövlət Teatrı təşkil olundu. Onun səhnəsində ilk tamaşaya qoyulan əsər N.Nərimanovun "Nadir şah" faciəsi idi. Azərbaycan teatrının repertuarında müstəqillik uğrunda mübarizə tarixinə həsr edilmiş dram əsərləri mühüm yer tuturdu.

Xarici siyasət. "İstiqlal Bəyannaməsi"ndə AXC-nin xarici siyasətinin əsas prinsipi kimi beynəlxalq birliyin bütün üzvləri ilə bərabərhüquqlu, qarşılıqlı faydalı əlaqələrin qurulması, həmsərhəd dövlətlərlə qonşuluq münasibətlərinin yaradılması nəzərdə tutulmuşdu. AXC-nin qurulduğu ilk dövrlərdə xarici siyasətin qarşısında, ilk növbədə, dövlətin suverenliyinin qorunması və ərazi bütövlüyünün təmin olunması vəzifələri dururdu. Bu zaman əvvəlcə Osmanlı, daha sonra Böyük Britaniya dövlətlərinin Azərbaycandakı hərbi nümayən dələri ilə AXC hökumətlərinin normal münasibətlərinin yaradılması vacib idi. Beynəlxalq vəziyyətin sürətlə dəyişməsi AXC hökumətlərindən çevik xarici siyastin yürüdülməsini tələb edirdi. Birinci dünya müharibəsinin başa çatmasından sonra keçirilən sülh konfransında AXC-nin başlıca məqsədi beynəlxalq birliyin bərabərhüquqlu üzvü kimi tanınması və Millətlər Cəmiyyətinə üzv qəbul olunması idi. Mövcudluğunun ilk aylarında (1918-ci il may–oktyabr) xarici siyasətində Osmanlı dövlətinə meyil edən AXC 1918-ci ilin noyabr ayından Qərb dövlətləri, xüsusilə Böyük Britaniya ilə yaxınlaşmalı oldu. 1920-ci ilin yanvarında müstəqilliyinin de-fakto tanınmasından sonra AXC xarici siyasətini keyfiyyətcə yeni, daha geniş miqyasda yürütməyə başladı. Osmanlı dövlətinin AXC-nin təşəkkülünə, Azərbaycanın müsəlman əhalisinin fiziki cəhətdən məhv edilməsinə və ölkə ərazisinin erməni qəsbkarları tərəfindən ələ keçirilməməsi üçün göstərdiyi yardım misilsiz əhəmiyyətə malikdir. Konstitusiyalı monarxiya olan Osmanlı dövlətinin respublika quruluşuna üstünlük vermiş Azərbaycan xalqına yardımı dünya tarixində nadir hadisələrdən biri sayıla bilər.

Bakı Texniki Kolleci

1918-ci il noyabrın 4-də Mudros barışığının AXC ilə bağlı maddəsinə görə Ə.Topçubaşovun Osmanlı dövlətinə etiraz etməsi iki dövlət arasında razılaşdırılmış addım idi. Bu sənəd AXC-nin Osmanlı dövlətinin siyasəti ilə razılaşmadığını, Azərbaycan dövlətinin milli dövlət maraqlarını bütün gücü ilə qorumağa hazır olduğunu Antanta dövlətlərinə nümayiş etdirməli idi. Böyük Britaniya qoşunları AXC ərazisinə 1918-ci ildə iki dəfə daxil olmuşdu. General Denstervilin qoşunundan fərqli olaraq, noyabrda Bakıya gələn ingilis qüvvələri AXC hakimiyyəti ilə əməkdaşlığa üstünlük vedilər. 1919-cu ilin yazında AXC hökuməti yaranmış mürəkkəb beynəlxalq şəraitdə ingilis qoşunlarının qalmasını ölkənin müdafiəsində mühüm amil hesab edir və buna görə də onların Azərbaycanı tərk etməsini narahatlıqla qarşılayırdı. Paris sülh konfransında Qərb dövlətlərinin Qafqazda himayəçiliyiməsələsinin müzakirəsində AXC hökuməti Böyük Britaniyaya üstünlük verirdi. 1919-cu ilin avqustunda ingilis qoşunlarının Şimali Azərbaycanı tərk etməsindən bir müddət sonra Paris sülh konfransında İtaliyaya AXC üzərində himayəçilik təklif edildi. İtaliyanın AXC ilə bağlı böyük iqtisadi maraqları olsa da, onu xarici təcavüzdən qorumaq üçün burada kifayət qədər hərbi qüvvəsi yox idi. AXC hökuməti İtaliya ilə iqtisadi və siyasi əlaqələri gücləndirmək məqsədilə nümayəndə heyətini Romaya göndərmişdi. 1920-ci ilin fevralında İtaliya hökuməti ilə AXC ordusunun və hərbi donanmasının silah-sursat, hərbi ləvazimat, hərbi texnika və geyimlə təchiz olunması barəsində saziş imzalandı. 1920-ci ilin yanvarından etibarən AXC hökuməti daha genişmiqyaslı xarici siyasət yürütməyi planlaşdırırdı. Bu məqsədlə parlament Fransa, Böyük Britaniya, İtaliya, İsveçrə, Almaniya, ABŞ, Polşa və sovet Rusiya sında diplomatik nümayəndəliklərin yaradılması barədə qanun qəbul etdi. Qanuna əsasən Paris sülh konfransında iştirak edən AXC sülh nümayəndəliyi fəaliyyətini dayandırdı. Qonşu dövlətlərlə münasibətlər. Təşəkkülünün ilk günlərindən etibarən AXC-nin xarici siyasətində qonşu dövlətlərlə dostluq və qarşılıqlı anlaşma prinsipləri zəminində münasibətlərin



Bakı Texniki Kolleci

qurulmasına, mübahisəli məsələlərin həllində zorakılıqdan imtina edilməsinə, qarşılıqlı etimadın yaradılmasına mühüm əhəmiyyət verilirdi. Bu prinsipə bölgənin digər dövlətlərinin də riayət etməsi Paris sülh konfransında Qafqazın yeni yaranmış milli dövlətlərinin tanınmasına mühüm yardım etmiş olardı. 1918-ci ilin mayında Cənubi Qafqazda yeni yaranmış 3 milli dövlətin hüdudlarının dəqiqləşdirilməsinin mürəkkəbliyi səbəbindən onların arasında mübahisəli ərazilər problemi meydana çıxdı. AXC-nin Rusiya, Gürcüstan və Ermənistanla mübahisəli əraziləri var idi. Əksər hallarda bu problemin ikitərəfli danışıqlar yolu ilə həlli mümkün olmadığı üçün sərhəd toqquşmalarına səbəb olurdu. Bu isə milli dövlətlərin istiqlaliyyətinin möhkəmlənməsinə və iqtisadiyyatının sabit inkişafına ciddi maneçilik törədirdi. Ermənistanın bir dövlət kimi təşəkkül tap ması üçün siyasi-inzibati mərkəzə ehtiyacı var idi. Ermənilərin belə bir mərkəz kimi nəzərdə tutduğu Gümrü (Aleksandropol) şəhəri Osmanlı qoşunlarının nəzarəti altında idi və komandanlıq bunu hərbi zərurət kimi izah edirdi. Azərbaycan Milli Şurasının 1918-ci il mayın 29-da keçirilən iclasında iştirak edənlərin əksəriyyəti İrəvan şəhərinin Ermənistana paytaxt qismində verilməsi haqqında qərarı "qaçılmaz acı bir həqiqət" və "tarixi zərurət" kimi qiymətləndirdi. Milli Şuranın üzvləri vətənin bir hissəsinin itirilməsi faktının ölkə əhalisində hakimiyyətə qarşı müəyyən inamsızlıq yarada biləcəyini dərk etsə də, Osmanlı dövlətinin göstərdiyi yardımın AXC-nin təşəkkülü üçün həyati vacib məsələ olduğuna əmin idi. Gürcüstan ilə ərazi mübahisələri olsa da, AXC bu mübahisələri danışıqlar yolu ilə həll etməyə çalışırdı. Xüsusilə müsəlman əhalisinin çoxluq təşkil etdiyi Borçalı, Ahalkələk və Lori əraziləri mübahisəli ərazilər kimi qəbul edilirdi. Gürcüstanın da AXC-yə ərazi iddiaları var idi. Buna baxmayaraq, hər iki Qafqaz dövləti həlledici məqamlarda birbiri ilə ortaq məxrəcə gələ bilir, diplomatik münasibətlər saxlayırdı. Gürcüstanın Bakıda, AXC-nin isə Tiflisdə səfirlikləri fəaliyyət göstərirdi. 1919-cu ildə çar generalı Denikin "vahid və bölünməz Rusiya" şüarı ilə Dağlı Respublikasını süquta uğradıb Cənubi Qafqazın

Bakı Texniki Kolleci

müstəqil dövlətlərini təhdid edəndə AXC  və Gürcüstan hökumətləri Denikin təhlükəsinə qarşı birgə mübarizə aparmaq üçün müqavilə imzalayıb ittifaq yarada bildi.  1919-cu ilin iyunun 16-da bağlanan hərbi-müdafiə paktına görə AXC və Gürcüstan dövlətləri təcavüzkara qarşı üç il ərzində qarşılıqlı surətdə əməkdaşlıq etməli idi. Ermənistan isə nəinki ona təklif edilən bu pakta qoşuldu, əksinə, hakimiyyətdə olan daşnak hökuməti Denikinlə sövdələşməyə getməyə üstünlük verdi. Ümumiyyətlə, daşnak hökuməti özünün mövcudluğu dövründə hər iki qonşu dövlətlə  AXC və Gürcüstanla, eyni zamanda Türkiyə ilə də müharibələr aparmış, Cənubi Qafqaz dövlətlərinin birliyi yolunda başlıca maneəyə çevrilmişdi. Rusiyanın parçalanması ilə təkcə Cənubi Qafqazda deyil, onun şimalında da müstəqil dövlətlər yaranmışdı. Onlardan biri AXC ilə sərhəddə yerləşən Dağlı Respublikası idi. İlk vaxtlar ərazi mübahisələri olsa da, sonralar bu iki müsəlman dövləti arasında mehriban qonşuluq münasibətləri yaranmışdı. Hətta Dağlı Respublikasının AXC ilə konfederasiya yaratmaq təklifləri də səslənirdi. Lakin 1919-cu ilin əvvəllərində bolşeviklərə qarşı mübarizə aparan general Denikin Dağlı Respublikasının varlığına son qoydu. Bu Respublikanın qurucularından biri olan Rəşid bəy Kaplanov AXC hökumətində nazir kimi çalışmışdı. AXC yarandıqdan sonra Qacarlar dövləti ilk vaxtlar onu tanımaq istəməmişdi. Qacarların diplomatları Rusiya imperiyası dağıldğına görə Türkmənçay müqaviləsini qüvvədən düşmüş hesab edir və bütün Cənubi Qafqazınonlara qaytarılması iddiasını irəli sürürdülər. Lakin AXC nümayəndələrinin Qacarlar ilə apardığı danışıqlar tezliklə öz nəticəsini verdi. Böyük Britaniyanın da səyləri nəticəsində ərazi iddialarından geri çəkilən Qacarlar dövləti 1920-ci ilin martında AXC ilə dostluq haqqında müqavilə imzaladı. Müqavilədə hər iki dövlətin  müxtəlif sahələrdə əməkdaşlıq etməsi və qarşılıqlı surətdə səfirliklərin yaradılması nəzərdə tutulurdu. Azərbaycan nümayəndə heyəti Paris sülh konfransında. AXC Paris sülh konfransında iştirak üçün rəsmi dəvət almasa da, ingilis komandanlığının və hökumətinin rəsmilərinin bununla bağlı bəyanatlarında

Azərbaycan dövlətinin konfransda iştirak edəcəyi bildirilmişdi. 1918-ci il dekabrın 28-də AXC hökuməti Paris sülh konfransına göndəriləcək nümayəndə heyətinin tərkibini müəyyənləşdirdi. Heyət sülh konfransında iştirakla yanaşı, Avropa və Amerika dövlətlərinə AXC haqqında ətraflı məlumat təqdim etməli idi. Fransa hökuməti tərəfindən AXC nümayəndələrinə viza verilməsində əngəllərin yaradılması səbəbindən onlar Parisə sülh konfransı başladıqdan 4 ay sonra gedə bildilər. AXC konfransda iştirak edən dövlətlərin dördüncü qrupuna (yeni yaranmış dövlətlər və bitərəf ölkələrə) aid olduğundan bilavasitə konfransın iclaslarında iştirak etmək hüququna malik deyildi. Buna baxmayaraq, nümayəndə heyətinin üzvləri konfransa gəlmiş digər dövlətlərin nümayəndələri ilə görüşlər keçirir, dünya ictimaiyyətinə AXC ilə bağlı məlumatları çatdırmağa çalışırdılar. Onların apardığı geniş təbliğat erməni dairələrinin AXC ilə bağlı Qərb ölkələrində yaratdığı mənfi təsəvvürü, əsasən, dəyişə bildi. Ə.Topçubaşovun rəhbərlik etdiyi nümayəndə heyəti 1919-cu ilin iyununda "Qafqaz Azərbaycanı Cümhuriyyətinin Paris sülh konfransına memorandumu" adlı sənədi ingilis və fransız dillərində çap edərək konfransın katibliyinə təqdim etdi. Sənəddənümayəndə heyətinin sülh konfransı tərəfindən AXC-nin müstəqilliyinin tanınacağına ümidvar olduğu qeyd edilirdi: "...Biz Qafqazda artıq de-fakto mövcud olan dövlətlərin tanınması məsələsini müdafiə edirik. Onlardan biri də müstəqil Azərbaycan Cümhuriyyətidir. Biz bu memoranduma belə bir inamla yekun vururuq ki, xalqımızın maddi qüdrəti və mənəvi keyfiyyətləri, onun əxlaqi sərvətləri, əməyə və təhsilə olan məhəbbəti, qayda-qanuna və dövlət prinsiplərinə hörməti Azərbaycanın müstəqil cümhuriyyət şəklində bundan sonrakı suveren mövcudluğuna ən yaxşı zəmanətdir". ABŞ prezidenti V.Vilson 1919-cu il mayın əvvəllərində AXC nümayəndələrinin konfransın işində iştirakının əleyhinə çıxış etdiyi halda, mayın 28-də heyətin başçısı Ə.Topçubaşovla görüşmək qərarına gəldi. AXC barəsində hazırlanmış bütün sənədlər V.Vilsona təqdim olundu, Azərbaycanın bir daha Rusiya tərkibinə

Bakı Texniki Kolleci

qatılmayacağı və müstəqilliyini müdafiə edəcəyi bildirildi, ABŞ-dən AXC-yə siyasi və iqtisadi sahədə yardım göstərilməsi ilə bağlı xahiş edildi. AXC nümayəndələri konfransda Gürcüstan,Latviya, Estoniya, Belorusiya, Ukrayna və Şimali Qafqaz nümayəndələri ilə sıx əməkdaşlıq edirdilər. Onlar birlikdə Antanta dövlətlərinin vahid Rusiyanın bərpasına yönəlmiş siyasi addımlarının əleyhinə çıxırdılar. 1919-cu ilin sonlarında sovet Rusiyasının hərbi qüvvələrinin hərbi-siyasi rəqiblərini əzərək Qafqaza doğru irəliləməsi sülh konfransının aparıcı dövlətlərini narahat etməyə başladı. Müharibə zamanı Yaxın və Orta Şərqdə yeni mövqelər əldə etmiş Böyük Britaniya sovet təhlükəsi haqqında daha çox düşünürdü. 1919-cu ilin noyabrından etibarən ingilis dövlət xadimləri Azərbaycan və Gürcüstan respublikalarının müstəqilliklərinin sülh konfransı tərəfindən tanınmasının mümkünlüyü qənaətinə gəldilər. 1920-ci il yanvarın 11-də sülh konfransının Ali şurası bununla bağlı müvafiq qərar qəbul etdi: “Müttəfiq və birləşmiş dövlətlər Azərbaycan və Gürcüstan hökumətlərini de-fakto səviyyəsində birgə tanıyır”. Azərbaycan tarixinin ən şanlı səhifələrindən birini yazan  AXC-nin sülh nümayəndə heyəti vətənin müdafiəsinin gücləndirilməsində Antanta dövlətlərindən yardım göstərməsini xahiş etsə də, buna nail ola bilmədi.  Sovet Rusiyasının beynəlxalq hüququn normalarına riayət edəcəyinə və sülh konfransı tərəfindən müstəqilliyi de-fakto tanınmış Cənubi Qafqaz respublikalarının suverenliyinə hörmətlə yanaşacağına ümid etmək sadəlövhlük olardı. Paris sülh konfransının Ali Şurası tərəfindən Azərbaycanın müstəqilliyinin tanınmasından sonra Belçika, İsveçrə, Hollandiya, Çexoslovakiya, Finlandiya və digər dövlətlər Bakıda öz diplomatik nümayəndəliyini açmağa başladı.

Bakı Texniki Kolleci

## 9.Azərbaycan Xalq Cümhuriyyətinin süqutu. Bolşevik istilası və onun nəticələri

*AXC – sovet Rusiyası münasibətləri.* Paris sülh konfransının Ali Şurası Azərbaycan və Gürcüstan respublikalarının müdafiəsinə yardım məqsədilə qoşun göndərilməsi əvəzinə, yalnız silah və hərbi sursat göndərmək haqqında qərar qəbul etməsi sovet Rusiyasının AXC-yə qarşı təcavüz niyyətinin gerçəkləşməsinə əlverişli şərait yaratdı. Çünki 1919-cu ilin sonlarından etibarən sovet Rusiyasını narahat edən məsələlərdən biri Antanta dövlətlərinin Qafqaz respublikalarının müdafiəsinə hərbi hissələrini göndərməsi ehtimalı ilə bağlı idi. 1920-ci ilin fevralında Şimali Qafqazda Deni kinin ağqvardiyaçı qüvvələri sovet Rusiyası orduları tərəfindən darmadağın edildi. AXC-nin şimal sərhədlərinə kimi gəlib çıxmış sovet Rusiyasının niyyəti keçmiş Rusiya imperiyasının sərhədlərini bərpa etmək idi. Sovet hökuməti özünün beynəlxalq aləmdə təqdim etməyə çalışdığı sülhsevər və demokratik dövlət obrazına zərər verməmək üçün bunu açıq müdaxilə yolu ilə etmək dən çəkinirdi. Bu məqsədlə diplomatik təzyiq vasitələrindən istifadə olunmasına qərar verən sovet Rusiyası 1920-ci ilin yanvar-mart aylarında AXC hökuməti ilə nota mübadiləsi apardı. Əvvəlcə sovet Rusiyası amiranə və hədələyici formada AXC-yə Şimali Qafqazdakı ağqvardiyaçı qüvvələrə qarşı birgə mübarizə aparmağı təklif edir, həmin qüvvələrin Azərbaycan dövləti üçün də təhlükə olduğunu söyləyirdi. AXC isə bunu Rusiyanın daxili işi hesab edərək proseslərə qarışmamağa üstünlük verdiyini və Rusiya ilə müstəqil dövlət kimi qarşılıqlı münasibət qurmaq üçün danışıqlara başlamağa hazır olduğunu bildirirdi. Sovet Rusiyasının növbəti notasında AXC-nin müstəqilliyinin tanınması üçün danışıqlara xeyli vaxt tələb olunduğu qeyd edilir, ağqvardiyaçılara qarşı ittifaq barəsində təklif yenidən təkrarlanırdı. Cavab notasında AXC-nin xalqların öz müqəddəratını azad müəyyən etməsi prinsipi əsasında təşəkkül tapdığı, bu prinsipə sovet Rusiyasının da tərəfdar olduğu və bunun tanınması üçün uzunmüddətli danışıqların aparılması fikri ilə razılaşmadığı qeyd edilirdi. Bu dövrdə

Bakı Texniki Kolleci

AXC-nin siyasi dairələrində sovet Rusiyası ilə siyasi və iqtisadi əlaqələrin qurulmasının vacibliyi bildirilirdi. Rusiya ilə iqtisadi əlaqələrin bərpası AXC-nin iqtisadi inkişaf maraqlarına cavab verən mühüm addım ola bilərdi. Təsərrüfatı dağıdılmış və iqtisadi tənəzzül dövrünü yaşayan sovet Rusiyası üçün də bərpa işlərinin aparılmasında Bakı nefti həlledici amilə çevrilmişdi. Lakin sovet Rusiyası AXC ilə normal iqtisadi münasibətlərin yaradılması yolu ilə neft və neft məhsullarının alınması haqqında düşünmürdü, bu sərvəti tez bir zamanda qəsb etməyə qərar vermişdi. AXC hökumətinin nota mübadiləsində qətiyyətli mövqeyini görən sovet Rusiyası ona qarşı hərbi müdaxilə planının hazırlanmasına başladı və işğal prosesində yerli kommunistlərdən yararlanmaq məqsədilə 1920-ci ilin fevralında burada Azərbaycan Kommunist (bolşevik) Partiyasını yaratdı. Planlaşdırılan işğalı Azərbaycanın siyasi qüvvələrinin hakimiyyət uğrunda mübarizəsi kimi qələmə vermək istəyən sovet Rusiyası 1918-ci ildən fərqli olaraq, yerli kommunistlərə rəhbərliyi azərbaycanlılara həvalə etdi. Azərbaycanda geniş sosial dayaqları olmayan yerli kommunistlərin isə hakimiyyəti ələ keçirmək üçün kifayət qədər qüvvəsi yox idi və onlar sovet Rusiyasının müdaxiləsinə ümid edirdilər.

Yeni daşnak-bolşevik ittifaqı. AXC-nin şimal sərhədlərində ağqvardiyaçıların təcavüzü ehtimalına qarşı güclü müdafiə-istehkam sistemi yaradılmış və xüsusi qoşun hissələri yerləşdirilmişdi. Onların müqaviməti sovet təcavüzünə ciddi maneə yarada bilərdi. AXC-nin şimal sərhədlərinin müdafiəsinin zəiflədilməsi məqsədilə sovet hökuməti ermənilərin xəyanətkar xislətindən istifadə etməyi qərara aldı. Belə ki sovet Rusiyasının AXC-yə müdaxiləsi ərəfəsində Ermənistan Azərbaycan ərazisi hesabına öz iddialarının təmin olunması şərtilə sovet hökumətinə yardımını təklif edirdi. 1920-ci il martın 22-nə keçən gecə Qarabağda separatçı erməni qüvvələri Ermənistanın yardımı ilə Şuşa, Xankəndi, Əsgəran, Xocalı və Tərtərdə yerləşən



Bakı Texniki Kolleci

Azərbaycan Milli Ordu hissələrinə eyni vaxtda hücum etdilər. Milli Ordumuzun Əsgəranda yerləşən 50 nəfərlik dəstəsi sayca dəfələrlə çox olan erməni quldurları ilə qəhrəmancasına vuruşaraq sona kimi döyüş meydanını tərk etmədi. Düşmən buranı ələ keçirsə də, digər istiqamətlərdə uğursuzluğa düçar oldu. AXC hökuməti Qarabağda erməni silahlı qüvvələrinin basqınlarının artmasının yaratdığı təhlükəni nəzərə alaraq ölkənin şimal sərhədlərində yerləşdirilmiş Milli Ordu hissələrinin böyük bir qismini Qarabağa göndərməli oldu. Aprelin 2-də Əsgəran yaxınlığında başverən döyüşdə Milli Ordumuzun hissələri erməni dəstələrini ağır məğlubiyyətə uğradaraq Əsgəran və Xocalını azad etdi. Düşmənin bir sıra mühüm dayaq məntəqələrini ələ keçirən Azərbaycan ordusu Şuşa yaxınlığında baş verən döyüşlərdə erməni dəstələrinin Qarabağda ən güclü dayaq nöqtəsi olan Keşiş kəndini də ələ keçirdi. Ermənistanın ordu hissələrinin Qazax və Naxçıvana basqınlarının artması ilə bağlı AXC hökuməti Milli Ordunun müəyyən hissəsini ölkənin qərb sərhədlərinin müdafiəsinə göndərməyə məcbur oldu. Hökumətin ölkə daxilində pozuculuq fəaliyyəti aparan siyasi qüvvələrə qarşı sərt tədbirlərindən narazı olan sosialist nazirlərin hökuməti tərk etməsi nəticəsində 1920-ci il martın 30-da N.Yusifbəylinin hökuməti istefa verdi. Hökumətin təşkili M.H.Hacınskiyə tapşırıldı. Sosialistlərin və "Müsavat" partiyasının bir hissəsinin hökumətə daxil olmaqdan imtina etməsindən sonra M.H.Hacınski kommunistlərin hökumətdə təmsil olunmasına səy göstərdi. Lakin bu zaman silahlı üsyana fəal hazırlaşan kommunistlər onun təklifini qəbul etmədilər. M.H.Hacınski aprelin 22-nə kimi davam edən siyasi məsləhətləşmələrin uğursuzluğu ilə əlaqədar hökumətin təşkilindən imtina etdi. Bununla da AXC-də işğal ərəfəsində hökumət böhranı daha da dərinləşmiş oldu. Sovet Rusiyasının müdaxiləsi təhlükəsinin artdığı bir şəraitdə AXC hökuməti hərbi yardım barəsində Gürcüstan hökumətinə müraciət etdi. Qarşı tərəf yardım müqabilində Batum şəhəri və Batum vilayəti ilə bağlı qaldırdığı iddianın AXC hökuməti tərəfindən tanınmasını tələb etdi. AXC hökumətinin bu şərti

Bakı Texniki Kolleci

qəbul etməsinə baxmayaraq, Gürcüstan hökuməti hərbi yardım göstərmədi. Mustafa Kamal paşanın başçılığı ilə Antanta müdaxiləçilərinə qarşı gərgin mübarizə aparan Türkiyə milli azadlıq qüvvələri sovet Rusiyası ilə sıx siyasi, hərbi və iqtisadi əlaqələr qurduğundan AXC-nin bu ölkədən də yardım alması mümkün deyildi.

AXC-yə hücum hazırlıqlarını tamamlayan sovet Rusiyasının XI ordusunun komandanlığı Bakının işğalı məqsədilə 1920-ci il aprelin 21-də əməliyyata başlamaq haqqında əmr verdi. Bir neçə gün sonra isə verilən yeni əmrdə artıq bütün Azərbaycanın işğalı nəzərdə tutulurdu. Aprelin 26-dan 27-nə keçən gecə XI ordunun hissələri AXC hüdudlarına soxuldu. Bir neçə saatlıq döyüşlərdən sonra Yalama və Xudat stansiyalarını ələ keçirən müdaxiləçilərin zirehli qatarları Bakıya doğru irəlilədi. Rusiyanın təcavüzü haqqında xəbər alan hərbi nazir S.Mehmandarov aprelin 27-də Qazax və Gəncədə olan Milli Ordu hissələrinin Bakının müdafiəsinə cəlb edilməsinə çalışsa da, sovet qoşunlarının Bakıya daxil olması və şəhərə giriş yollarına nəzarət etməsi buna imkan vermədi. AXC-nin hərbi donanması kommunistlərin tərəfinə keçmişdi. Aprelin 27-də Bakıda yerli kommunistlərin silahlı dəstələri, buradakı bəzi türk zabit və əsgərləri silahlı çevriliş edərək mühüm məntəqələri ələ keçirdi. Parlamentin sonuncu iclasında hakimiyyətin yerli kommunistlərə təhvil verilməsi haqqında qərar qəbul edildi. Bununla da Azərbaycanın dövlətçilik tarixinin şanlı səhifəsini yazan AXC yadelli qüvvənin işğalı nəticəsində süqut etdi. 1920-ci ilin aprelində keçirilən San-Remo konfransında AXC nümayəndələri sovet Rusiyasının  AXC-yə təcavüzü ilə əlaqədar məlumat verərək ölkənin müstəqilliyinin bərpa olunmasına yardım üçün konfransa müraciət etsələr də, böyük dövlətlər bu hadisəni sükutla qarşıladı.

Bakı Texniki Kolleci

***Bolşevik istilası və onun nəticələri.*** Azərbaycan SSR-in təşkili. 1920-ci ilin aprel işğalı nəticəsində AXC süqut etdi. Azərbaycanda bolşeviklərin hakimiyyətə gəlməsi ölkənin tarixində özünə məxsus yer tutan yeni bir dövrün başlanması demək idi. Bu dövr yeni respublikanın adı ilə Azərbaycan SSR və ya sadəcə, sovet dövrü də adlandırılır. Azərbaycan SSR-in yaradılmasında yerli bolşeviklər də iştirak etdiyindən bu mərhələ tarixə İkinci Respublika dövrü kimi düşmüşdür. Zor gücünə AXC-nin varlığına son qoyan və hakimiyyətin yerli kommunistlərə verilməsini təşkil edən Sovet Rusiyası ilk vaxtlar işğal faktını ört-basdır etmək üçün nəinki milli müstəqilliyin əleyhinə çıxmış, əksinə, özünü onun qorunub saxlanılmasının "təminatçısı" kimi təqdim etməyə çalışmışdı. Müstəqilliyin saxlanılmasına ən tutarlı sübut respublikanın ali rəhbər orqanlarının Azərbaycan xalqının nümayəndələrindən təşkil edilməsi ola bilərdi. Bolşeviklər də burada öz hakimiyyətlərini qurmaq üçün elə həmin yolu seçmişdilər. Aprel işğalından sonra Azərbaycanda ilk dövrlərdə ali qanunverici orqan kimi Müvəqqəti İnqilab Komitəsi təşkil olundu. Onun tərkibinə ancaq azərbaycanlılar daxil edildilər. 1920-ci il aprelin 28-də Müvəqqəti İnqilab Komitəsi yeni hökumətin Azərbaycan SSR Xalq Komissarları Sovetinin tərkibini təsdiq etdi ki, o da azərbaycanlılardan ibarət idi. N.Nərimanov XKS-nin sədri təyin olundu. Əslində, respublikanın siyasi həyatında aparıcı rol Azərbaycan Kommunist (bolşevik) Partiyasına (AK(b)P) məxsus idi. Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin Siyasi və Təşkilat bürosunun qəbul etdiyi qərarlar nəinki yerli partiya təşkilatları, eyni zamanda qanunverici və icraedici orqanlar tərəfindən məcburi şəkildə icra olunmalı idi. Dövlət və hökumət orqanları üzərində partiya nəzarəti onun üzvlərinin dövlət aparatının müxtəlif pillələrində yerləşdirilməsi yolu ilə həyata keçirilirdi. Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin bir çox sahələrdə həlledici rolu kadr məsələsinin onun əlində cəmləşməsi ilə xeyli dərəcədə bağlı idi. İlk dövrlərdə, xüsusən partiyanın Bakı təşkilatında azərbaycanlılar ruslar və ermənilərdən az idilər. 1929-cu ilə qədər Azərbaycan

Bakı Texniki Kolleci

Kommunist Partiyasının katibləri, əslində, bütün partiya aparatına rəhbərlik edirdilər. Onların sırasında qeyri-millətlərin nümayəndələri üstünlük təşkil edirdi (V.Naneyşvili, Y.Stasova, V.Dumbadze, Q.Kaminski, S.Kirov, L.Mirzoyan). 1929-cu ildə Moskva ilk dəfə birinci katib vəzifəsini təsis etdi. 1933-cü ilə qədər bu vəzifəyə yenə də Mərkəzin emissarları təyin olunurdu (N.Gikalo, V.Polonski, R.Rubenov). AKP isə Azərbaycan SSR-də Rusiya Kommunist (bolşevik) Partiyasının qəbul etdiyi qərarları həyata keçirən "filial" funksiyasını yerinə yetirirdi. Bu isə yeni yaradılan respublikanın müstəqilliyinin formal xarakter daşıdığını göstərirdi. Tez-tez dəyişən partiya rəhbərliyi, arası kəsilməyən mübarizələr, intriqalar respublikanın iqtisadi və siyasi həyatına mənfi təsir göstərirdi. 1920–1930-cu illərdə ölkədə həyata keçirilən irimiqyaslı iqtisadi islahatlar şəraitində Mərkəzə Azərbaycanda bu çəkişmələrə və mübarizəyə son qoya biləcək güclü milli kadr lazım idi. 1933-cü ilin sonunda Mir Cəfər Bağırovun AK(b)P-nin birinci katibi vəzifəsinə təyin edilməsi heç də təsadüfi deyildi. Zaman göstərdi ki, o, partiya təşkilatını parçalayan prinsipsiz mübarizələrə, şəxsi qarşıdurmalara son qoya bildi və bütün hakimiyyəti əlində cəmləşdirərək, təxminən, 20 il Azərbaycan Kommunist Partiyasına rəhbərlik etdi.

Sovet hökumətinin ilk tədbirləri. 1920-ci il may-iyun ayları ərzində Azərbaycan İnqilab Komitəsi dövlət quruculuğu sahəsində Rusiya nümunəsini rəhbər tutaraq bir neçə mühüm qərar qəbul etdi. Belə ki yerlərdə qəza, nahiyə və kənd inqilab komitələri, polisin əvəzinə "fəhlə-kəndli milisi" yaradıldı. Azərbaycan İnqilab Komitəsi Xalq Məhkəməsi haqqında dekret qəbul etdi.

Məhkəməyə ancaq fəhlə və kəndlilərin nümayəndələri üzv seçilə bilərdilər. Azərbaycanda əks-inqilabçılığa, təxribatçılığa qarşı Fövqəladə Komissiya yaradıldı. Keçmiş AXC ordusunun ləğvi məqsədilə Azərbaycan İnqilab Komitəsi ordunun və donanmanın yenidən təşkili haqqında qərar çıxardı. Qərara əsasən, yeni yaradılacaq

Bakı Texniki Kolleci

Azərbaycan ordusu və donanması, əslində, Sovet Rusiyası Qızıl Ordusunun tərkib hissəsi kimi müəyyən edilirdi. Beləliklə, Müstəqil Azərbaycan Sovet Respublikası öz mövcudluğunun ilk anlarından dövlətçiliyin mühüm atributlarının birindən – ordu saxlanması hüququndan məhrum edildi. Respublikada cəmiyyətin təbəqələrə və mülki rütbələrə bölünməsi ləğv olundu. İlk qanunvericilik sənədləri arasında torpaq haqqında qərar xüsusi əhəmiyyət kəsb edirdi. Bütün xan, bəy, vəqf və kilsə torpaqları müsadirə edilir və təmənnasız olaraq kəndlilərin sərəncamına verildi. Azərbaycanda hakimiyyətin bolşeviklərin əlinə keçməsi və faktiki olaraq Moskvadan idarə olunması ölkənin sərvətlərinə, ilk növbədə, neftinə yiyələnməsi üçün Sovet Rusiyasına əlverişli şərait yaratdı. Müvəqqəti İnqilab Komitəsinin 1920-ci il 24 may tarixli dekreti ilə neft sənayesi yenidən milliləşdirildi, bir qədər sonra isə Xəzər Ticarət Donanması, zavodlar, fabriklər və digər sənaye müəssisələri dövlət mülkiyyəti elan edildi. Beləliklə, xalqın sərvətləri vətəndaş müharibəsi nəticəsində iqtisadiyyatı bərbad hala düşmüş Sovet Rusiyasına daşınmağa başladı. 1921-ci ilin may ayında Bakıda Birinci Ümumazərbaycan Sovetlər Qurultayı keçirildi. Qurultayda Azərbaycan SSR-in ilk Konstitusiyası qəbul edildi. Onun başlıca müddəaları, əslində, RSFSR-in birinci Konstitusiyasının təkrarı idi. Konstitusiya bəyan edirdi ki, Azərbaycanda ali hakimiyyət fəhlələrə və əməkçi kəndlilərə, öz əməyi ilə yaşayanların hamısına məxsusdur. Azərbaycan SSR Konstitusiyası vicdan, mətbuat və söz azadlıqlarını bəyan edirdi. Əsas qanunda irqindən, milli mənsubiyyətindən asılı olmayaraq, bərabərlik təsbit edilir, milli azlıqların mənafeyinin qorunmasına təminat verilirdi. Konstitusiya təsdiq edildikdən sonra və onun tələbinə uyğun olaraq Azərbaycan İnqilab Komitəsi ləğv edildi. Ali qanunverici hakimiyyət qurultayda seçilmiş Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin əlində cəmləşdi. Ali İcraedici hakimiyyət isə Azərbaycan SSR Xalq Komissarları Sovetinə məxsus oldu. N.Nərimanov yenidən Azərbaycan SSR XKS-in sədri seçildi. Beləliklə, Azərbaycanda "sovet milli dövlət quruculuğunun" hüquqi

Bakı Texniki Kolleci

cəhətdən təşəkkülünün ilkin mərhələsi başa çatdı. Azərbaycan SSR bütün müsəlman aləmində yeni tipli ilk sovet respublikası oldu.

Bolşevik işğalının nəticələri. Aprel çevrilişindən keçən bir il ərzində respublikada keyfiyyət baxımından mühüm dəyişikliklər baş verdi. Bu dəyişikliklər Rusiyada tətbiq edilən siyasi və sosial-iqtisadi sistemin Azərbaycanda da bərqərar olmasına xidmət edirdi. Eyni zamanda sovet rejimi ilk günlərdən respublikada siyasi repressiyalar həyata keçirdi. AK(b)P-dən başqa bütün siyasi partiyalar az vaxt içərisində qanundan kənar sayıldılar, onların mətbuat orqanları qadağan edildi. "Müsavat", "İttihad", "Əhrar" və başqa partiyalar zəhmətkeşlərin qatı düşməni kimi damğalandı, partiyanın görkəmli liderləri, hətta sıravi üzvləri də təqiblərə məruz qaldılar. Tezliklə bu partiyaların fəaliyyəti qadağan edildi. AXC-nin tanınmış rəhbərlərinin bir hissəsi həbs olundu, digərləri isə vətəni tərk etməyə məcbur qaldılar. Güllələnənlər arasında tanınmış dövlət xadimləri və hərbçilər – S.Sulkeviç, İ.Usubov, H.Səlimov, S.Tlexas, R.Şıxlinski, tanınmış ziyalılar və hökumət üzvləri – X.Rəfibəyov, İ.Ziyadxanov, tanınmış pedaqoq və alim F.Köçərli və başqaları vardı. Daşnak terrorçuları 1920–1921-ci illərdə F.Xoyskini və H.Ağayevi Tiflisdə, B.Cavanşiri isə İstanbulda qətlə yetirdilər. AXC-nin bir çox görkəmli xadimi (Ə.M.Topçubaşov, A.Şeyxülislamov, C.Hacıbəyli, M.Məhərrəmov, M.Y.Mehdiyev və b.) Paris kon fransında iştirak etdiklərinə görə vətəndə qalmış həmfikirlərinin faciəli aqibəti onların başına gəlmədi. Həbs edilmiş M.Ə.Rəsulzadə isə N.Nərimanov və İ.V.Stalinin müdaxiləsi nəticəsində bolşevik repressiyasından xilas ola bildi. Stalinin şəxsi vaqonunda Rusiyaya aparılan M.Ə.Rəsulzadə 1922-ci ildə oradan Finlandiyaya, sonra isə Polşaya mühacirət etməyə məcbur oldu. Azərbaycan SSR-də terroru həyata keçirən əsas təşkilat Fövqəladə Komissiya idi. Xalq arasında "çeka" (rus dilində Fövqəladə Komissiya sözlərinin baş hərfləri), üzvləri isə "çekist" adlandırılan bu təşkilatın əli ilə ölkədə siyasi baxımdan şübhə doğuran şəxslər həbs

edilir, əmlakları müsadirə olunurdu. "Şübhəli ünsür" anlayışı, ilk növbədə, buraxılmış partiyaların üzvlərinə, keçmiş sahibkarlara, bəylərə, tacirlərə və ümumiyyətlə, varlılara, ziyalılara aid olunurdu. Həbslər və sürətlə aparılan istintaqlar, adətən, güllələnmə, yaxşı halda isə sürgünlə nəticələnirdi. Bolşevik hakimiyyətinin yerli şəraiti nəzərə almadan apardığı sərt iqtisadi siyasət, amansız terror tezliklə siyasi böhrana və yerlərdə ciddi narazılıqlara səbəb oldu. Azərbaycan xalqı bolşevik hakimiyyətinə qarşı müqavimət hərəkatına başladı. Artıq 1920-ci il may ayının sonunda Gəncədə, iyun ayının əvvəllərində Qarabağda yerləşən keçmiş milli ordu hissələri üsyan etdi. Qırmızı Ordunun qarətlərindən, rus əsgərlərinin özbaşınalığından cana gəlmiş Azərbaycanın digər bölgələrinin yerli əhalisi də bu çıxışlara qoşulmuşdu. Zaqatala, Lənkəran, Şəmkir və s. bölgələrdə də ard-arda bolşevik zülmünə qarşı üsyanlar baş qaldırmışdı. Ümumiyyətlə, 1920–1924-cü illərdə Azərbaycan SSR-də istilaçı rus ordusuna, bolşevik rejiminə qarşı 60-dək silahlı üsyan baş vermişdi. Lakin qüvvələr qeyri-bərabər olduğundan və vahid mərkəzdən idarə edilmədiyindən çıxışlar yatırılır, ələ keçən vətənpərvərlərə divan tutulur, güllələnir, şəhərlər və kəndlər qarət olunurdu. Məsələn, Gəncə üsyanı zamanı rus-bolşevik ordusu yerli əhaliyə amansız divan tutmuş, üsyan etmiş hərbçilərlə yanaşı, onlarla dinc sakin qətlə yetirilmişdi. Qırmızı Ordunun idarəçiliyində xeyli sayda bolşevik libasına bürünmüş erməni daşnaklarının varlığı da qırğınların və terrorun daha geniş miqyas almasına səbəb olan amillərdən idi. Təəssüf doğuran digər məqam isə bu qəddar aksiyalarda yeni sovet "ağalarına" yarınmağa çalışan bəzi Azərbaycan bolşeviklərinin də (H.Sultanov, Ə.Qarayev) xüsusi canfəşanlıq göstərməsi idi. Bolşeviklər yüzlərlə adamı Solovetsk adalarına, Suzdala, Novqoroda və Rusiyanın digər ucqar yerlərindəki həbs düşərgələrinə sürgünə göndərirdilər. Buna baxmayaraq, üsyanların mühüm əhəmiyyəti ondan ibarət oldu ki, yeni hakimiyyət sarsıdıldı və Azərbaycan xalqının müqavimət əzmi nümayiş etdirildi.



Bakı Texniki Kolleci

# 10.Totalitar sovet rejiminin təşəkkülü. Kütləvi repressiyalar

Sosialist yenidənqurmalarının nəticələri. 1920–1930-cu illərdə respublikada həyata keçirilən siyasi və sosial-iqtisadi tədbirlər ölkənin ictimai həyatının bütün sahələrində köklü dəyişikliklərə səbəb oldu. Azərbaycanda da tətbiq edilən Stalin islahatları totalitar sosialist dövlətin formalaşmasına gətirib çıxardı. İqtisadi sahədə bu, azad bazar iqtisadiyyatı elementlərinin və xüsusi mülkiyyətin tamamilə ləğv edilməsi ilə nəticələndi. Mülkiyyət və sərvətlər üzərində dövlət nəzarətinin qoyulması elə bir şərait yaratdı ki, heç kəs heç nə üçün cavab vermir, bacardığı qədər dövlət mülkiyyətini talan edirdi. İstehsalatda bərabərlik prinsipinin möhkəmləndirilməsi insanlarda əməyə olan iqtisadi marağı, şəxsi təşəbbüs hissini öldürürdü. Nəticədə azad bazar münasibətlərinə son qoyuldu, fəhlə və kəndli təbəqələrinin faktiki olaraq mülkiyyətdən ayrılması prosesi başa çatdırıldı. Tədricən xalq kütlələrində bərabərlik psixologiyası formalaşmağa başladı. Sovet ideoloji aparatı tərəfindən cəmiyyətdə var-dövlətə, pula və xüsusi mülkiyyətə nifrət ruhu aşılanır, yoxsulların və yoxsulluğun təbliği genişləndirilirdi.

Siyasi idarəçilikdə də mühüm dəyişikliklər baş verdi. Rəsmən geniş səlahiyyətlərə malik olan ali hakimiyyət orqanı – Sovetlər bu dövrdə öz nüfuzunu tamamilə itirərək partiya qərarlarını yerinə yetirən quruma çevrildi. Təkpartiyalı sistem yaradıldı. Partiya aparatı dövlətin bütün sahələrinə müdaxilə və nəzarət etmək imkanlarını artırdı. 1936-cı il dekabrın 5-də SSRİ-nin yeni Konstitusiyası qəbul edildi. Stalin Konstitusiyası adı ilə məşhurlaşan bu hüquqi sənədi “qalib gəlmiş sosializmin Konstitusiyası” da adlandırırdılar. Burada “istismarçı təbəqələrin ləğv edildiyi”, cəmiyyətin fəhlə və kəndlilərdən, həmçinin onların sırasından çıxan ziyalılardan təşkil olunması tezisi təsbit olunurdu.



Bakı Texniki Kolleci

Konstitusiya ilə Zaqafqaziya Sovet Federativ Sosialist Respublikası da ləğv edildi. Zaqafqaziya federasiyasına daxil olan respublikalar müstəqil dövlət subyekti kimi birbaşa SSRİ-nin tərkibinə daxil oldular. 1937-ci ilin martında Azərbaycan Sovetlərinin IX Qurultayında Azərbaycan SSR-in yeni Konstitusiyası qəbul edildi. SSRİ-nin 1936-cı il Konstitusiyasının əsasında tərtib olunmuş Azərbaycanın yeni Konstitusiyasında respublika vətəndaşlarına geniş hüquq və demokratik azadlıqlar verilirdi. Lakin ümumi özbaşınalıq və qanunsuzluq mühitində, terrorun dövlət səviyyəsində aparıldığı bir şəraitdə Əsas qanunda vəd edilən hüquq və azadlıqlar yalnız kağız üzərində qaldı və simvolik təbliğat materialına çevrildi. 1930-cu illərin sonlarında Mərkəzin Azərbaycanda keçirdiyi dəyişikliklərdən biri də yerli əhalinin və dilinin adının dəyişdirilməsi oldu. Türk adı azərbaycanlı, türk dili isə Azərbaycan dili adlandırıldı. Bu fikir Azərbaycan SSR-in ikinci Konstitusiyasında da öz əksini tapdı. Birbaşa İ.Stalinin sifarişi ilə edilən bu düzəliş siyasi motivlərə əsaslansa da, obyektiv olaraq XIX əsrin sonlarından başlayan azərbaycançılıq ideyasının güclənməsinə səbəb oldu.

Repressiyalar başlayır. Stalinin ölkədə möhkəmlənmiş hakimiyyəti tədricən partiya aparatının siyasi hökmranlığına çevrildi. Artıq 1930-cu illərin ortalarında nəinki ölkə, həm də partiya daxilində onun siyasətinə qarşı çıxa biləcək bütün qüvvələr darmadağın edilmişdi. 1934-cü ildə Leninqrad şəhər və Vilayət Partiya Komitəsinin birinci katibi S.Kirovun öldürülməsindən sonra mərkəzdə güclənən kütləvi repressiyalar Azərbaycanda da həyata keçirilməyə başlandı.

Azərbaycan SSR-də əsası 1936-cı ilin sonlarında qoyulmuş kütləvi siyasi repressiyaların qurbanı, ilk növbədə, rəhbər kadrlar oldu. 1920-ci ilin fevralında Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin üzvləri seçilmiş və aprel işğalından sonra ilk hökumətin tərkibinə daxil olmuş R.Axundov, Ə.Qarayev, S.M.Əfəndiyev, Q.Musabəyov, D.Bünyadzadə, M.D.Hüseynov və b. keçmiş partiya

rəhbərləri 1937-ci ildə xalqa xəyanətdə, əks-inqilabi casusluq fəaliyyətində təqsirləndirildilər. Beləliklə, totalitar sistem, ilk növbədə, onu quranları "yeməyə" başladı. Keçirmiş partiya elitasının məhvi ilə işə düşən kütləvi repressiya maşını tezliklə ziyaliları, hətta ətrafda baş verən hadisələri hələ dərindən dərk edə bilməyən fəhlə və kəndliləri də öz məngənəsinə aldı. Yüzlərlə fəhlə, kəndli və ziyalı millətçilikdə, xalqa xəyanətdə, İngiltərə, Almaniya, Yaponiya, Türkiyə və başqa ölkələrin kəşfiyyat orqanları ilə əlaqədə təqsirləndirilərək məhv edildi. Azərbaycanda repressiyaların daha da şiddətli tüğyan etməsində partiya və sovet orqanlarında yuva salmış erməni millətinə mənsub məmurların da xüsusi rolu olmuşdur.

1937-ci ildə Şamaxıda bir qrup kommunist və bitərəfin, başda H.Sultanov olmaqla, açıq məhkəmə prosesi keçirildi. 1938-ci ildə Gəncədə "əks-inqilabçı – casus-terrorçu" təşkilata qarşı istintaq prosesi başlandı.Bu proseslərdə müttəhim simasında çıxış edən keçmiş partiya elitası Vətənə xəyanətdə, SSRİ-ni dağıtmaq, kapitalizm qurmaq cəhdlərində təqsirləndirildilər. "Xalq düşməni" elan edilən şəxsin təkcə özü deyil, yaxın adamları, dostları, qohumları da cinayət məsuliyyətinə cəlb olunur, onlarla bağlı ağır cəza tədbirləri həyata keçirilirdi. R.Axundov və H.Sultanovla bağlı uydurma "əks-inqilabçı-üsyançı-terrorçu" mərkəzin işi ilə əlaqədar 1700 nəfər, "Azneft"də aşkar edilmiş "əks-inqilabçı- terrorçu təşkilatın" işi ilə əlaqədar 3300 nəfər, Xəzər Gəmiçiliyi İdarəsindən 200 nəfər rəhbər işçiyə müxtəlif cəzalar verildi. Həbs olunanlardan işgəncə yolu ilə etiraf ifadələri alındı, ailə üzvləri isə təhqirlərə məruz qaldılar. Kütləvi repressiyalar Azərbaycan ziyalılarından da yan keçmədi. Repressiyaların ilk qurbanları içərisində H.Cavid, M.Müşfiq,


Mikayıl Müşfiq


Yusif Vəzir Çəmənzəminli

Bakı Texniki Kolleci

T.Şahbazi, Ə.Razi, S.Mumtaz, Y.V.Çəmənzəminli, Ə.Cavad kimi istedadlı, savadlı ziyalılar da var idi. Həmçinin Azərbaycan elminə öz böyük töhfələrini vermiş görkəmli alimlər – B.Çobanzadə, Ə.Qubaydulin, Azərbaycan səhnəsinin aparıcı aktyorları – Ülvi Rəcəb və Abbas Mirzə Şərifzadə də repressiya edilənlər sırasında idi. Cəzalandırılanların hamısı müxtəlif ölkələrin xeyrinə casusluqda, pantürkizmdə, panislamizmdə, xalq işinə xəyanətdə ittiham olunmuşdular. Təkcə 1936-cı il oktyabrın 1-dən 1938-ci il iyulun 1-dək Azərbaycan SSR-də 25222 insan həbs olunmuşdu. Lakin repressiyaların miqyası əhəmiyyətli dərəcədə böyük idi. Qurbanların ailə üzvləri və digər yaxın qohumları da cəzalandırılaraq Rusiyanın şimal rayonlarına və Orta Asiyaya sürgün edilmişdilər. Bunlar nəzərə alınarsa, yalnız 1937–1938-ci illərdə repressiya qurbanlarının ümumi sayı 100 min nəfərdən çox olmuşdur. Ümumittifaq səviyyəsin də həyata keçirilən cəza tədbirləri xüsusilə türk-müsəlman respublikalarında öz miqyası, xarakteri və qəddarlıq dərəcəsi ilə fərqlənirdi.

Güneyli soydaşlarımızın faciəsi. 1930-cu illərin ortalarında respublikada əslən Güney Azərbaycandan olan xeyli sayda insan yaşayırdı. Onlar sovet sənədlərində fars və ya İran təbəələri adlandırılırdılar və əksəriyyəti sovetləşməyə qədərki dövrdə Şimali Azərbaycana köçmüşdülər. 1930-cu illərin ikinci yarısında ailə üzvləri ilə birlikdə sayı 60 mindən çox olan bu insanların 46 mini Bakıda yaşayırdı və təsərrüfatın müxtəlif sahələrində çalışırdılar. 1930-cu illərin ikinci yarısında SSRİ-də siyasi rejimin sərtləşdirilməsi, beynəlxalq vəziyyətin, o cümlədən İranla münasibətlərin xeyli kəskinləşməsi şəraitində güneylilər rahat hədəf seçilərək şübhəli elementlər kateqoriyasına aid edildilər.


Salman Mümtaz


Hüseyn Cavid

Bakı Texniki Kolleci

1938-ci il yanvarın 19-da ÜİK (b)P MK Siyasi Bürosu İrandan gəlmiş azərbaycanlılara aid xüsusi qərar verdi. Bu qərara əsasən, sovet vətəndaşlığını qəbul etmək istəməyən və İran təbəəliyində qalmağı arzulayanlar 10 gün ərzində İrana köçürülməli, bundan imtina edənlər isə sovet vətəndaşı kimi bir ay müddətində Qazaxıstana köçməli idilər. Bu, deportasiya demək idi. Nəticədə on minlərlə Cənubi Azərbaycanlı seçim qarşısında qaldı: ya İrana köçmək, ya da sovet vətəndaşlığını rəsmiləşdirərək Qazaxıstana sürgün olunmaq. Əks halda onları həbs təhlükəsi gözləyirdi. Bu insanların xeyli hissəsi Azərbaycan SSR-in hüdudlarını tərk etməyə məcbur olub İrana köçdülər. Pəhləvi rejiminin hakim olduğu İranda isə onlara münasibət birmənalı olmadı. Şah rejimi bu insanlara sovet casusu gözü ilə baxırdı. Nə Azərbaycanın şimalında, nə də cənubunda özlərinə yaşamaq üçün yer tapa bilən azərbaycanlıların çoxu İranı da tərk edib mühacirətə getmək məcburiyyətində qaldılar. Bu, ayrı-ayrı dövlətlərin və müxtəlif ideologiyaların hökmranlığı altında əzilən insanların faciəsi idi. İki rejimin siyasəti nəticəsində onlar öz vətənlərindən didərgin salındılar.



# 11. Azərbaycan İkinci Dünya müharibəsi illərində

**İkinci Dünya müharibəsi və Azərbaycanın geosiyasi mövqeyi.** 1939-cu ilin sentyabrında Almaniyanın Polşaya hücumu ilə İkinci Dünya müharibəsi başlandı. Müharibənin əvvəlində SSRİ ilə Almaniya müttəfiq idi. İkinci Dünya müharibəsi Azərbaycan sərhədlərindən çox uzaqlarda başlansa da, onun elə ilk günlərindən neft Bakısı böyük diqqət mərkəzində idi. Həmin dövrdə SSRİ ilə Almaniya arasında bir-birinə hücum etməməklə bağlı paktın (1939) bağlanması Fransa və İngiltərəni daha çox narahat edirdi. Dünya mətbuatında SSRİ-nin Almaniyanı Bakı nefti ilə təmin etməsi haqqında yazılar verilirdi. Almaniya Bakı neftinə də nəzarət edə bilsə idi, Fransanı və İngiltərəni müharibədə tez məğlub etmək imkanı qazanacaqdı. Bütün bu səbəblərə görə İngiltərə və Fransa Bakıya bomba zərbəsi endirmək planı hazırlamağa başladı. Fransa hərbi dairələri 1940-cı ildə öz hökumətinə təqdim etdiyi məruzədə qeyd edirdi ki, Sovet İttifaqının neftinin 75 faizini Bakı verir və onu sıradan çıxarmaq lazımdır. Geniş müzakirələrdən sonra İngiltərə və Fransa hökuməti bu qərara gəldi ki, Bakıya bomba zərbəsi endirmək əvəzinə sualtı qayıqlar vasitəsilə onun neftinin Qara dənizlə Almaniyaya göndərilməsinə mane olmaq daha əlverişlidir. Bakının bombardman edilməsi planının dəyişdirilməsində Böyük Britaniyanın o dövrdəki Hərbi-dəniz naziri Uinston Çörçillin və Fransa generalı Şarl De Qollun mövqeyi müsbət rol oynamışdır. 1939–1940-cı illərdə Finlandiya ilə müharibə Sovet Ordusunun dövrün “mühərrik müharibəsi” üçün zəif olduğunu göstərdi. Bunu dərk edən faşist Almaniyası rəhbərliyi onu “ildırımsürətli” müharibə” planı ilə məğlub etmək qərarına gəldi. Beləliklə, 1941-ci il 22 iyunda faşist ordusu qəflətən və böyük qüvvə ilə SSRİ-yə hücum etdi. Müharibənin ilk aylarında alman qoşunu sürətlə irəliləyərək böyük ərazilər işğal etməyə müvəffəq oldu. 1942-ci ilin əvvəlində Hitler qərara gəldi ki, Qafqaz neftini ələ keçirmədən müharibəni davam etdirə bilməyəcək. Moskva yaxınlığındakı məğlubiyyətdən sonra



Bakı Texniki Kolleci

faşist ordusunun komandanlığı 1942-ci ilin yayında əsas hücumları Stalinqrad və Qafqaz istiqamətinə yönəltdi. Bu plana görə, həmin ilin sentyabrında Almaniya ordusu Qafqazdan keçərək İran-İraq əraziləri ilə Bağdad üzərinə hücumu davam etdirməli idi. Eyni zamanda Hindistanın zəbt edilməsi də nəzərdə tutulurdu.

Faşist Almaniyasının rəhbərliyi SSRİ-yə qarşı müharibənin başladığı ilk günlərdə hesab edirdi ki, tezliklə Bakı neftini ələ keçirəcək. Bunun üçün “Edelveys” adlı xüsusi plan hazırlanmışdı. Qafqaz regionunda iqtisadi və hərbi-strateji cəhətdən ən güclü respublika Azərbaycan olduğuna görə düşmənin əsas qüvvələri də bu istiqamətə yönəldilmişdi. Hitlerin tələbinə görə, Almaniyanın 1-ci tank ordusu 1942-ci il 25 sentyabrda Bakını zəbt etməli idi.1942-ci ilin iyununda faşist ordusunun Qafqaz üzərinə hücumu başladı. Sovet rəhbərliyi Bakının müdafiəsi üçün xüsusi qərar qəbul etdi. Cənubi Qafqazda hərbi vəziyyət elan olundu. Qafqaz uğrunda döyüşlər Stalinqradı müdafiə edən Sovet ordu hissələri üçün böyük kömək idi və Stalinqrad uğrunda əks-hücumlar, əsasən, bu zəmində başlandı. Almaniya ordusunun böyük bir hissəsi burada mühasirəyə alındı və təslim oldu. Yalnız bundan sonra faşist ordu hissələrinin Qafqaz istiqamətindəki hücumu dayandırıldı və 1943-cü ilin əvvəlində Sovet Ordusu əks-hücuma keçdi. Şimali Qafqazdan başlanan bu əks-hücumda Azərbaycanın milli diviziyaları böyük döyüş rəşadəti göstərdilər.

Ön cəbhədə. Müharibənin ilk günlərində, bütün ölkədə olduğu kimi, Azərbaycanda da ümumi səfərbərlik elan edildi. Könüllü olaraq cəbhəyə getmək üçün 40 min nəfərdən çox adam ərizə ilə müraciət etmişdi. Sovet İttifaqının rəhbərliyi Bakının və bütün Azərbaycanın müharibə illərində strateji əhəmiyyətini nəzərə alaraq müvafiq göstərişlər vermişdi. Moskvanın müdafiəsinə göndərilmiş Bakı Zenit Artilleriyası Alayı qəhrəmancasına döyüşdü. 1941-ci ilin qışında Moskva ətrafında aparılan döyüşlər və alman faşist ordusunun burada darmadağın edilməsi İkinci Dünya müharibəsinin ən böyük hadisələrindən biri idi. Bu qələbə

Bakı Texnik Kolleci



Züleyxa Seyidməmmədova

faşist ordusunun məğlub edilməzliyi haqqındakı əfsanələrə son qoydu. Moskva uğrunda döyüşlərdə tank hissə komandiri Həzi Aslanov, polkovnik Yaqub Quliyev, snayperçi Ziba Qəniyeva, təyyarəçi Züleyxa Seyidməmmədova və başqa azərbaycanlılar qəhrəmanlıq göstərmişdilər. Hərbi həkim Aliyə Rüstəmbəyova bir çox yaralı döyüşçünün həyatını xilas etmişdi. 1941-ci ilin dekabrında Novqorod vilayətinin Pustinka kəndi yaxınlığında baş vermiş döyüşdə göstərdiyi igidliyə görə İsrafil Məmmədova Sovet İttifaqı Qəhrəmanı fəxri adı verildi. O bu ada layiq görülmüş ilk azərbaycanlı idi. Azərbaycanlılar Stalinqrad uğrunda döyüşlərdə də fəal iştirak etmişdilər. Məhz burada göstərdiyi rəşadətə görə tank alayının komandiri Həzi Aslanov birinci dəfə Sovet İttifaqı Qəhrəmanı adı ilə təltif edildi. Azərbaycanlı general Yaqub Quliyev 1942-ci ilin dekabrında Stalin qrad ətrafında keçirilən böyük hücum əməliyyatı zamanı qəhrəmancasına həlak oldu. Kiyev şəhərinin düşməndən azad edilməsində xidmətlərinə görə batalyon komandiri, mayor Xıdır Mustafayev Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü. Belarusiyanın azad edilməsində (1944-cü ilin yayı) Sovet İttifaqı Qəhrəmanı, general-mayor Həzi Aslanovun komandiri olduğu 35-ci tank briqadası böyük şücaət göstərdi. O, hərb tarixində cinahlardan zərbə taktikasının mahir ustası kimi tanınmış sərkərdə olmuşdur. H.Aslanovun tank briqadası 1944-cü ilin yayında Belarusiyanın, Baltik ölkələrinin azad edilməsində qəhrəmanlıq göstərdi və ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı fəxri adı ilə təltif edilmək üçün təqdim olundu. Lakin düşmən qüvvələr onun sənədlərini gizlətdilər və bu ad H.Aslanova ölümündən uzun müddət keçdikdən sonra – 1991-ci ildə verildi. Təyyarəçi Adil Quliyev faşistlərin 18 təyyarəsini məhv etmiş, göstərdiyi bu şücaətə görə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür. Stalinqrad döyüşlərində kəşfiyyatçı Əli Kərimov və baş leytenant Həmzə Sadıxov feldmarşal Paülsün əsir alınmasında fəal iştirak

Bakı Texniki Kolle

etdiklərinə görə "Qırmızı Ulduz" ordeninə layiq görülmüşlər. Ziya Bünyadov isə Polşa və Çexoslovakiyanın azad edilməsində göstərdiyi qəhrəmanlığa görə Sovet İttifaqı Qəhrəmanı adını almışdır. Gəray Əsədov Rumıniyanın Markita şəhəri uğrunda döyüşdə öz bədənini düşmənin pulemyotuna sipər etmiş və əməliyyatın uğurlu olmasını təmin etmişdir. Bu misilsiz qəhrəmanlıq nümunəsinə görə o, Sovet İttifaqı Qəhrəmanı adı ilə təltif edilmişdir. Berlin uğrunda döyüşlərdə, Reyxstaqın alınmasında igidlik göstərmiş daha bir Sovet İttifaqı Qəhrəmanı da Yusif Sadıqov idi. Ümimiyyətlə, on minlərlə azərbaycanlı qəhrəmanlığına görə orden və medallarla təltif olunmuşdur. 43 nəfər azərbaycanlıya isə Sovet İttifaqı Qəhrəmanı adı verilmişdir. O da məlumdur ki, İkinci Dünya müharibəsi illərində Cənubi Qafqaz respublikaları arasından cəbhəyə daha çox adam Azərbaycandan getmiş, lakin onların qəhrəmanlığı layiqincə qiymətləndirilməmişdir. Halbuki bu insanların şücaəti barədə Ali Baş Komandanlığa təqdimatlar göndərilirdi. Ancaq mərkəz tərəfindən bəzi hallarda məhz azərbaycanlı olduqları üçün onlarla bağlı ayrı-seçkilik edilirdi. Mərkəzin məqsədyönlü şəkildə həyata keçirdiyi siyasət nəticəsində müharibə illərində Azərbaycan xalqının qəhrəmanlığı layiqli qiymətini almamışdır. Ümumiyyətlə, 1941–1945-ci illərdə Azərbaycandan orduya 700 minə qədər adam səfərbər olunmuşdu ki, onların 11 mindən çoxu qadın idi. 300 min nəfərdən çox azərbaycanlı isə döyüşlərdə həlak olmuşdur. Döyüşlərdə azərbaycanlı komandirlərdən Heybət Heybətov, Mahmud Əbilov, Hacıbaba Zeynalov, Tərlan Əliyarbəyov, Akim Abbasov və digərləri yüksək hərbi sərkərdəlik qabiliyyətinə malik olduqlarını sübut edərək general-mayor rütbəsinə layiq görülmüşdür.

Azərbaycanlı döyüşçülər partizan hərəkatında. Azərbaycanlı döyüşçülər partizan hərəkatında da fəal rol oynamışlar. Onlardan Azərbaycanın igid qızları Aliyə Rüstəmbəyovanın və Alfa Şirazinin adlarını qeyd etmək olar. Azərbaycanlı

Bakı Texniki Kollec

döyüşçülər partizan dəstələrinin tərkibində Avropanın bir neçə ölkəsində faşizmə qarşı müqavimət hərəkatında fəal iştirak etmişlər. İtaliyada 1944-cü ildə təşkil edilmiş böyük partizan dəstəsinin komandiri Cavad Həkimli, komissarı isə Mehdi Hüseynzadə idi. Onlar İtaliya və Yuqoslaviya partizanları ilə birlikdə faşizmə qarşı mübarizə aparırdılar. Azərbaycanlı partizan Vilayət Hüseynov İtaliyada Mussolinini həbs edən partizanlardan biri olmuşdur. 1944-cü ildə fransız və azərbaycanlı partizanlar Fransnın Rodez şəhərini faşistlərdən azad edə bildilər. Burada fəaliyyət göstərən partizan hərəkatında iştirak edənlərdən biri isə Əhmədiyyə Cəbrayılov idi. 1944-cü ildə Paris şəhərinin faşistlərdən azad edilməsi münasibətilə keçirilən mitinqdə Əhmədiyyə Cəbrayılov da çıxış etmişdir. O və digər azərbaycanlı Danial Abdullayev Fransanın ən yüksək hərbi mükafatı olan "Hərbi Xaç" medalı ilə təltif edilmişdir.

İqtisadiyyat. Arxa cəbhədə də bütün işlər "Hər şey cəbhə üçün, hər şey qələbə üçün" şüarı ilə müharibənin tələblərinə uyğunlaşdırılmışdı. Sənaye və kənd təsərrüfatında qadınlar, yeniyetmələr cəbhəyə gedənləri əvəz edirdilər. Müharibə dövründə, əsasən, Azərbaycan neftçiləri cəbhələri benzin və digər yanacaqla təchiz edirdilər. Dünya tarixində ilk dəfə olaraq neft sisternləri gəmilərin arxasına bağlanaraq daşınırdı. Azərbaycan neftçilərinin bu böyük tarixi xidmətləri hələ müharibə illərində Marşal G.Jukov və marşal K.Rokosovski tərəfindən minnətdarlıqla qeyd edilmişdir. Bütün bunlara baxmayaraq, Sovet İttifaqının "mühərrik müharibəsi"ndə əldə etdiyi tarixi qələbədə cəbhənin yanacağa olan tələbatının böyük hissəsini təchiz edən Bakı şəhərinə "Qəhrəman şəhər" adı verilmədi. Halbuki müharibə illərində Bakı SSRİ-nin əsas neft bazası olmaqla qələbənin qazanılmasına güclü təsir göstərdi. 1941-ci ilin sonunda Bakı dünya neft sənayesi tarixində rekord həcmdə – 23 milyon tondan çox neft istehsal etmişdi. Müharibə dövründə Bakı ölkə neftinin 75-80%-dən çoxunu verirdi. İkinci Dünya

Bakı Texniki Kolleci

müharibəsi illərində Bakının maşınqayırma zavodlarında bir çox silahlar hazırlanır, məşhur "Katyuşa" reaktiv qurğuları, döyüş sursatı və cəbhə üçün digər ləvazimatlar istehsal edilirdi. ABŞ və İngiltərənin SSRİ-yə yardımları İran ərazisindən məhz Azərbaycan vasitəsilə daşınırdı. Bu isə nəqliyyat işinin yenidən təşkil edilməsinə səbəb olmuşdu. Müharibə illərində Bakı yaralı döyüşçülərin müalicəsi işində də yaxından iştirak edirdi.

Mədəniyyət. Müharibə mədəniyyətin də inkişafına təsir göstərmişdi. Ədəbiyyat və incəsənətdə müharibə mövzusu diqqət mərkəzində idi. Mədəniyyət xadimləri cəbhəyə səfərlər təşkil edir, əsgərlərlə görüşür, onlarda döyüş əhvali-ruhiyyəsinin yaradılmasına əhəmiyyətli dərəcədə təsir göstərirdilər. Elm sahəsində müharibənin tələblərinə uyğun tədqiqat işləri aparılır və istehsalata tətbiq edilirdi. Azərbaycan alimləri Yusif Məmmədəliyevin başçılığı ilə neft-kimya sahəsində yenilik olan yüksək oktanlı aviasiya yanacağını məhz bu dövrdə hazırladılar. 1945-ci ilin martında Azərbaycan Elmlər Akademiyasının yaradılması isə elmin inkişafına əsaslı bir təkan verdi.

**Azərbaycan milli diviziyaları**

| Diviziya | Yaranma tarixi | Fəaliyyəti |
|---|---|---|
| 77-ci diviziya | 1920-ci il | Azərbaycanın bu ilk milli diviziyası 1938-ci ildə SSRİ-dəki bütün milli hərbi hissələr kimi ləğv edilmiş, 1941-ci ildə yenidən bərpa olunmuşdur. Qafqaz cəbhəsində keçirilən hərbi əməliyyatlarda və Şimali Qafqazın düşməndən azad edilməsində fəal iştirak etmişdir. Diviziyaya "Simferopol diviziyası" fəxri adı verilmişdir. Krım, Ukrayna və Litvanın düşməndən azad edilməsi zamanı göstərdiyi şücaətlərlə fərqlənmişdir. |
| 402-ci diviziya | 1941-ci il | Qafqaz uğrunda döyüşlərdə iştirak etmişdir. Təchizatı yaxşı təşkil edilmədiyi üçün qəhrəmancasına vuruşmasına baxmayaraq, tərkibinin bir hissəsini itirmiş, 416-cı diviziyaya birləşdirilmişdir. |
| 223-cü diviziya | 1941-ci il | Diviziyanın fəaliyyəti Qafqaz uğrunda döyüşlərdən başlamışdır. Qafqazın, Ukraynanın, 1944-cü ildə Rumıniya, Bolqarıstan və Yuqoslaviyanın azad edilməsində yaxından iştirak etmişdir. Belqrad uğrunda döyüşlərdə fərqləndiyi üçün "Belqrad diviziyası" adını almışdır. |
| 416-cı diviziya | 1942-ci il | Şimali Qafqazın azad edilməsində iştirak etmişdir. Taqanroq şəhəri uğrunda gedən döyüşlərdə fərqləndiyinə görə ona "Taqanroq diviziyası" fəxri adı verilmişdir. Bu diviziya 1945-ci ildə Berlinə ilk daxil olan hərbi hissələrdən biri idi. Hətta qələbə bayrağını Brandenburq qapılarına bu diviziyanın döyüşçüləri asmışdılar. |
| 271-ci diviziya | 1942-ci il | Ukrayna, Polşa və Çexoslovakiyanın azad edilməsində iştirak etmişdir. |

# 12.Cənubi Azərbaycan 1920-1940-cı illərdə. "21 Azər" hərəkatı. Cənubi Azərbaycan və İran İslam inqilabı

***Cənubi Azərbaycan 1920-ci illərdə.*** 1920-ci illərin birinci yarısında ictimai-siyasi vəziyyət mütərəqqi liberal-demokratların deyil, əks-təmayüllü qüvvələrin xeyrinə dəyişməyə başladı. Burada öz nüfuzunu yaymaq məqsədi güdən Böyük Britaniya fəal surətdə İranın daxili işlərinə qarışırdı. Əvvəlcə iri feodallara arxalanaraq yerini möhkəmləndirməyə çalışan ingilislər tezliklə fikirlərini dəyişərək daha çevik olan və Sovet Rusiyasına nifrət edən Rza xan kimi hərbçilərə üstünlük verdilər. Hələ 1920–1922-ci illərdə Cənubi Azərbaycanda demokratik hərəkatın silah gücünə yatırılması zamanı buraya göndərilmiş hökumət qoşunları, əsasən, Hərbi nazir Rza xanın komandanlığı altında olan kazak diviziyasının hissələri Təbrizi və digər şəhərləri tutdular. Hərbi vəziyyət elan edildi. 1924–1925-ci illərdə Təbriz, Ərdəbil, Miyanə, Diklidaş nahiyələrində yaşayan tayfalar silahsızlaşdırıldı.1925-ci ilin iyulunda Rza xan Cənubi Azərbaycana səfər edib Təbriz, Xoy, Salmas, Ərdəbil şəhərlərində oldu. O, səfərə çıxmamışdan əvvəl xüsusi bəyanatında bildirdi ki, 1924-cü ilin yazında və yayında bu səfəri Azərbaycanın fövqəladə xidmətlərini nəzərə alaraq edir. Əslində isə məqsəd Azərbaycandakı bütün qüvvələri səfərbər edib Qacarları devirməyə hazırlaşdırmaq idi. İşsizlikdən, bahalıqdan, rüşvətxorluqdan, özbaşınalıqdan bezən geniş xalq kütləsi Rza xanın yağlı vədlərinə inanırdı. Nəhayət, 1925-ci ildə Qacarlar sülaləsi devrildi və hakimiyyətə Rza şah Pəhləvi gəldi.



*Rza şah Pəhləvi*

Cənubi Azərbaycan Rza şahın hakimiyyəti illərində. 1920-ci illərin ikinci yarısı – 1930-cu illərdə Cənubi Azərbaycanda müəyyən sosial-iqtisadi, siyasi və mədəni dəyişikliklər baş verdi. Bu dövrdə Cənubi Azərbaycanda xüsusi kapital əsasında onlarla xırda, orta və iri sənaye müəssisəsi tikildi. Bunların içərisində, əsasən, Təbrizdə təmərküzləşmiş trikotaj – corab, pambıq və yun parça, kibrit fabriklərini, düyü, pambıq təmizləmə, göndəri, taxta-şalban zavodlarını göstərmək olar. Bütün bunların nəticəsində Cənubi Azərbaycanda milli sənaye kapitalının əsası qoyuldu. Lakin Pəhləvi rejiminin təmsil etdiyi qüvvələr sosial-iqtisadi sahələrdə dərin dəyişikliklərin həyata keçirilməsini arzulamır, yalnız öz hakimiyyətini möhkəmləndirmək məqsədi güdən səthi islahatlarla kifayətlənirdi. Bu dövrdə sosial strukturda baş vermiş dəyişikliklərdən biri də vaxtilə ən güclü və nüfuzlu təbəqələrdən olan ruhanilərin sayının azalması və mövqeyinin zəifləməsi oldu. Rza şah, bütün diktatorlar kimi, heç bir müxalif qüvvələrlə hesablaşmayan və zorakı siyasətə üstünlük verən dövlət başçısı idi. Onun dövlət səviyyəsinə qaldırdığı və paniranizmə söykənən milli zülm siyasəti qeyri-fars xalqlara, o cümlədən Azərbaycan türklərinə qarşı maddi və mənəvi həyatın, demək olar ki, bütün sahələrində həyata keçirilirdi. Əski türk kitabları, Təbriz şairlərinin çap olunmuş əsərləri və əlyazmaları toplanılıb yandırılırdı. Türkcə coğrafi adlar – dağ, çay, şəhər, kənd, tarixi türk əsərlərinin və abidələrinin adları və s. sistematik olaraq farslaşdırılırdı. Rza şahın mərkəzləşmiş güclü dövlət yaratmaq məqsədilə apardığı inzibati siyasət də qeyri-fars millətlərin varlığına, milli təmərküzləşməsinə qarşı çevrilmişdi. 1937-ci ildə təsdiq olunan yeni inzibati bölgüyə əsasən Azərbaycan ərazisində üç ostan – vilayət yaradıldı.

Rza şah diktaturasının süqutu. 1941-ci il avqustun 25-də SSRİ və Böyük Britaniya hökuməti öz qoşunlarını Almaniyanın əlaltısına çevrilməkdə olan İrana yeritdi. Sovet qoşunları şimal regionlarını, o cümlədən Cənubi Azərbaycanı tutdu.

Bakı Texniki Kolleci

Demokratik qüvvələrin təzyiqinə dözməyən şah öz oğlunun xeyrinə taxt-tacdan imtina etdi. Rza şahın hərbi-polis rejiminin iflasa uğraması nəticəsində ölkədə real hakimiyyət parlamentə və onun təşkil etdiyi hökumətə keçdi. Konstitusiyada nəzərdə tutulmuş bəzi təsisatların, siyasi azadlıqların qismən bərpası, siyasi məhbusların həbsdən buraxılması İranda ictimai-siyasi həyatın canlanması üçün əlverişli şərait yaratdı. İlk vaxtlar kortəbii çıxışlar, mitinq və nümayişlər sonralar müxtəlif partiyaların, qəzet və jurnalların fəaliyyəti nəticəsində getdikcə mütəşəkkil ictimai-siyasi mübarizə formasını aldı.

Milli hökumətin yaranması və süqutu. 1945-ci ilin yayında Cənubi Azərbaycanda demokratik hərəkatın yeni ikinci mərhələsi başladı. Bu, əsaslı surətdə dəyişmiş beynəlxalq vəziyyətlə xeyli dərəcədə bağlı idi. Cənubi Azərbaycanın iri torpaq sahibləri, ticarət burjuaziyasının bir çox nümayəndələri demokratik hərəkatın qarşısını almaq üçün hər vasitəyə əl atırdılar. Onlar kiçik silahlı dəstələr təşkil edib terror hadisələri törədir, köçəri tayfalarla əhalini toqquşdurmağa çalışırdılar. Buna cavab olaraq Azərbaycanın müxtəlif yerlərində silahlı fədai dəstələri yaranmağa başladı. Bu mübarizənin gedişində bəzi yerlərdə müvəqqəti idarəetmə orqanları da meydana çıxdı. 1945-ci il sentyabrın əvvəlində Seyid Cəfər Pişəvəri başda olmaqla bir qrup tanınmış demokrat Azərbaycan Demokratik Partiyasının yaradılması haqqında bəyanatla çıxış etdi. Sentyabrın 13-də ADP təsisçilərinin ilk konfransı keçirildi. Konfrans 11 nəfərdən ibarət Müvəqqəti Komitə seçdi və partiyanın I Qurultayını çağırmağı qərara aldı. ADP-nin orqanı olan "Azərbaycan" qəzeti ana dilində çıxmağa başladı. ADP-nin yaranması əhalinin geniş təbəqələri arasında böyük rəğbətlə qarşılandı. Bir neçə həftə ərzində minlərlə adam partiya sıralarına daxil oldu. 1945-ci ilin oktyabrında ADP-nin I Qurultayı keçirildi. Qurultay partiyanın rəhbər orqanlarını seçdi və siyasi mübarizəni genişləndirməyi qət etdi. Mərkəzi hökumətin hücumunun qarşısını almaq üçün bütün şəhərlərdə yeni

hakimiyyət orqanları yaradıldı. Noyabr ayında xalqın tanınmış xadimlərindən ibarət Azərbaycan Xalq Konqresi çağırıldı və o özünü Müəssislər Məclisi elan etdi. Əsas tələb Milli hökumətin yaradılması oldu. Dekabrın 12-də başda S.C.Pişəvəri olmaqla Milli hökumət yaradıldı. Bu hadisə tarixə “21 Azər” hərəkatı kimi daxil oldu. Çünki 12 dekabr İran təqvimi ilə Azər ayının 21-nə təsadüf edir. Hökumət 10 nazirlikdən, Ali Məhkəmə və Baş Prokurorluqdan ibarət oldu. Milli hökumətin yaradılması ilə demokratik hərəkatın üçüncü mərhələsi başladı. Milli hökumət Azərbaycanın İranın tərkibində muxtariyyət prinsipi əsasında mübarizə aparacağını bildirdi. Milli hökumətin qarşısında duran əsas vəzifə yerlərdə yeni inzibati-ərazi orqanlarının yaradılması idi. Bu məqsədlə əncümənlərin formalaşdırılmasına başlanıldı.

Demokratik hərəkatın ən mühüm tədbirlərindən biri də zəhmətkeşlərin xeyrinə sosial-iqtisadi islahatların keçirilməsi idi. Buna görə də Milli hökumət 1946-cı il fevralın 16-da Aqrar Qanun verdi. Bu qanuna əsasən, torpaqsız kəndlilər torpaqla təmin olunmalı idi. Bir qədər sonra – mayın 12-də qəbul olunmuş “Əmək haqqında” Qanun sosial sahədə digər mühüm addım oldu. Bu qanuna görə, fəhlə və qulluqçuların iş şəraiti xeyli yaxşılaşdırıldı, sahibkarlar tərəfindən istismar məhdudlaşdırıldı.

Lakin Milli hökumətin ən böyük nailiyyəti milli mədəniyyətin inkişafının əsaslarını yaratmaq yolunda atdığı addımlar oldu. Bu istiqamətdə birinci dərəcəli tədbir 1946-cı il yanvarın 6-da Milli Məclisin qəbul etdiyi “Dil haqqında” Qanun idi. 1946-cı ilin iyununda Təbriz Universitetinin təsis edilməsi, müxtəlif yaradıcı birlik və təşkilatların, muzeylərin yaradılmasına başlanması əsl milli mədəni inqilab üçün əsas yaradır, demokratik hərəkatın milli məzmununu möhkəmləndirirdi. Bütün bu hadisələrdən istifadə edən İran hökuməti hücuma keçməyi qərara aldı. Noyabrın 30-da hökumət qoşunları ilə fədailər arasında döyüşlər başladı. Sovet dövləti Cənubi Azərbaycanda İran qoşununa müqavimətin qarşısını almaq üçün ölkədəki

Bakı Texniki Kolleci

nümayəndələri vasitəsilə dekabrın 11-də gecə ikən hərəkat rəhbərlərini, ilk növbədə, Pişəvərini Sovet İttifaqına mühacirətə məcbur etdi. Hərəkatın yeni rəhbərliyi bütün silahlı qüvvələrə döyüş meydanlarını tərk etmək haqqında göstəriş verdi. Dekabrın 12-də Təbrizə daxil olan şah qoşunları minlərlə adamı güllələdi və ya həbs etdi. Kütləvi təqiblərə başlanıldı. Cəza tədbirlərindən qurtulmaq üçün on minlərlə vətənpərvər qaçmağa, mühacirət etməyə məcbur qaldı. 1941–1946-cı illər milli azadlıq hərəkatı məğlubiyyətə uğradı. Cənubi Azərbaycandakı milli demokratik hərəkat məğlub olsa da, ölkənin sonraki tarixinə çox böyük təsir göstərdi, xalqda öz milli varlığı, tarixi və mədəniyyəti ideyasını möhkəmləndirdi, bu məqsədlər uğrunda gələcək mübarizə üçün təməl daşı qoydu.

## ⁂Cənubi Azərbaycan və İran İslam İnqilabı⁂

İnqilabaqədərki dövr. XX əsrin 50–60-cı illərində ağır ictimai-siyasi durumda olan İranda kəndlilərin çıxışları baş verirdi. Bu çıxışlar Cənubi Azərbaycanda xüsusilə güclü idi. Ölkədə sosial partlayış gözlənilirdi. Şah hökuməti genişlənən demokratik mübarizənin qarşısını hərbi yolla almaqla bərabər, islahatlar keçirməyə qərar verdi. Bu, İran tarixinə "Ağ inqilab" adı ilə düşdü. 1962-ci ildə keçirilmiş aqrar islahat nəticəsində tezliklə Cənubi Azərbaycan kəndlilərinin 80 faizi torpaq sahibinə çevrildilər. Buna baxmayaraq, kəndlilər fermer təsərrüfatı yaratmaq yolunda böyük çətinliklərlə qarşılaşırdılar. Ölkədə inkişaf birtərəfli gedirdi. Cənubi Azərbaycan inkişaf tempinə görə İranın əsas sənaye mərkəzlərindən geri qalırdı. Aparılan islahatlar ölkənin inkişafını şərtləndirməklə yanaşı, İranda Qərb həyat tərzinin yayılmasına da yol açdı. İran İslam inqilabı ərəfəsində şah hökumətinin apardığı islahatlar, həmçinin mədəniyyət sahəsində modernləşdirmə cəhdləri, siyasi-hüquqi sferada qatı mühafizəkar siyasət yürüdülməsi ölkədə ziddiyyətləri daha da dərinləşdirdi. Eləcə də xarici dövlətlərin ölkənin daxili işlərinə qarışmaqla qarışıqlıq

Bakı Texniki Kolleci

yaratmaq səyləri müxalif qüvvələrə fikirlərini açıq ifadə etmək, etiraz aksiyaları keçirmək imkanı verdi. Tezliklə inqilabi hərəkat başladı. Hərəkat şah üsul idarəsinə, eyni zamanda ölkənin ABŞ inhisarlarının xammal əlavəsinə çevrilməsinə qarşı yönəlmişdi.

İnqilabın başlanması. 1977-ci il dekabrın 12-də Milli hökumətin yaranmasının (1945-ci il) ildönümü münasibətilə Təbriz Universiteti tələbələrinin şah əleyhinə çıxışları başladı. 1978-ci il yanvarın 9-da Qum şəhərində Konstitusiya prinsiplərinə və qaydalarına riayət olunması, şahlığın ləğv edilməsi tələbi ilə çıxış edən nümayişçilərlə polis arasında toqquşmalar baş verdi. Toqquşmalarda həlak olanların dəfninin 40-cı günü – fevralın 18-də Təbrizin din başçılarının əhaliyə müraciəti hər kəsi ayağa qaldırdı. Nümayişlərdə 100 min nəfər iştirak edirdi. Nümayişçilər islam və demokratiya istəyini özündə əks etdirən şüarlar irəli sürürdülər.Dinc etiraz aksiyası sonra mövcud quruluşa qarşı üsyana çevrildi. Bunu "29 bəhmən üsyanı" da adlandırırlar. Şah Təbrizə başqa şəhərlərdən əlavə nizami hərbi dəstələr göndərdi. Qüvvələr bərabər olmadığından üsyan qəddarlıqla yatırıldı. Antişah və antiimperialist hərəkat olan 1978–1979-cu illər İran inqilabının sosial-siyasi mahiyyətini, əslində, elə 18 fevral Təbriz üsyanı müəyyən etmişdi. Təbriz üsyanı Pəhləvi monarxiyasına zərbə vuran ilk xalq çıxışı idi. Bu üsyandan sonra etiraz dalğası Tehran, İsfahan, Məşhəd, Əraq, Qum, Zəncan və başqa şəhərlərə də yayıldı. İnqilabın rəhbərləri arasında xeyli azərbaycanlı var idi. Bunlardan Ayətullah Kazım Şəriətmədarini, Müvəqqəti hökumətin başçısı Mehdi Bazərqanı və başqalarını misal çəkmək olar. Təbriz, 1978-ci il İnqilabın qarşısını almaq üçün şah bir neçə kabinet dəyişikliyi etdi. Lakin bunun elə bir faydası olmadı. Həmin ilin sentyabrında inqilabın ikinci mərhələsi başlandı. İlk çıxışlar ayın 7-də ölkənin 12 şəhərində, o cümlədən Təbrizdə kütləvi xarakter aldı. Sentyabrın 8-də – cümə günü hakimiyyətin nümayiş iştirakçılarını güllələbaran etməsi də üsyançıları öz yolundan döndərə

Bakı Texniki Kolleci

bilmədi. “Qanlı cümə günü” adını almış həmin gün əhalinin şaha qarşı qəzəb və nifrətini daha da artırdı. Neftçilərin noyabr ayında həftəlik, daha sonra isə 1978-ci ilin dekabrından 1979-cu il fevralın əvvəllərinədək davam etmiş aramsız ümumi tətili şah hakimiyyətinə ağır zərbə vurdu və inqilabın taleyini həll etdi. Şah 1979-cu il yanvarın 16-da İrandan qaçdı. Fevralın 16-da şahpərəstlərin son törtöküntüləri Təbrizdə və Cənubi Azərbaycanın başqa şəhərlərində tamamilə zərərsizləşdirildi, nəzarət xalqın əlinə keçdi. Beləliklə, inqilab başa çatdırıldı. 1978–1979-cu illərin İran inqilabı dövründə azərbaycanlılar 25 min nəfərə yaxın qurban verdilər.

Respublika qurulması yolunda. 1979-cu ilin fevralında dini-siyasi məzmunlu hərəkatın liderlərindən olan Ayətullah Xomeyninin Fransadan Tehrana gəlməsi ilə İran İslam inqilabı bitdi. Bundan sonra ölkənin idarəçilik sisteminin hansı əsasda qurulması ilə bağlı fikir ayrılıqları yarandı. Tudə Partiyası başda olmaqla bir qrup sosialist respublikasını, daha çox ingilislərin təsir dairəsində olan başqa bir qrup (əsasən, dini qrup) İslam respublikasını, ABŞ yönümlü qüvvələr və xüsusən Milli Cəbhə tərəfdarı olanlar demokratik quruluşu müdafiə edirdilər. Ölkənin ən nüfuzlu dini liderlərindən biri, əslən azərbaycanlı olan Seyid Məhəmməd Kazım Şəriətmədarinin rəhbərlik etdiyi Müsəlman Xalq Respublikası Partiyası (MXRP) isə dinin siyasətdən ayrı tutulmasını istəyən, milli və etnik azlıqların haqlarını müdafiə edən, liberal dəyərlərə üstünlük verən idarəçilik sisteminin yaradılmasını istəyirdi. Lakin qələbənin ilk günündən hakimiyyət sükanını ələ alan Ayətullah Xomeyni tərəfdarları ümumxalq rəy sorğusu ilə 1979-cu il aprelin 1-də İran İslam Respublikasını (İİR) elan etməyə nail oldular. İnqilab dövründə İranın heç bir xalqı milli tələblər irəli sürmədi. Yalnız inqilabın qələbəsi ərəfəsində və ondan sonra milli hüquqların təmin olunması məsələsi gündəmə gəldi. İnqilab zamanı Xomeyni başda olmaqla bəzi siyasi xadimlər məzlum xalqlara öz müqəddəratını təyin etmək haqqının veriləcəyini bildirmişdilər. Ruhanilər tərəfindən idarə edilən və ölkənin ən

Bakı Texniki Kolleci

güclü dini-siyasi partiyası olan İslam Respublikası Partiyası da verdiyi bəyanatında hər xalqın dili, ədəbiyyatı, mədəniyyəti və adət-ənənələrini qorumaq hüququnun olduğunu bildirmiş, etnik və milli ayrı-seçkiliyi haram saymışdı. Müvəqqəti hökumətin başçısı, əslən azərbaycanlı olan Mehdi Bazərqan İranda etnik azlıqlara mədəni hüquqların verilməsinin tərəfdarı idi. O, İranın ərazi bütövlüyü daxilində əyalətlərin belə bir hüquqa sahib olmasını məqbul sayırdı.

Hüquqi mübarizə. Bununla yanaşı, İran daxilində Azərbaycana muxtariyyətin verilməsi, məktəblərdə tədrisin ana dilində aparılması, ana dilində dərsliklərin, kitabların, qəzet və jurnalların çap olunması kimi məsələləri gündəmə gətirən bir sıra təşkilatlar yaradıldı. Belə təşkilatlardan biri də Tehranda meydana gələn Azərbaycan Yazıçıları və Şairləri Cəmiyyəti idi. 1979-cu ilin aprelində cəmiyyət ana dili probleminin həlli ilə bağlı proqram qəbul etdi. Azərbaycan dilini Azərbaycan xalqının rəsmi dili elan edən bu proqramın başlıca maddələri İran universitetlərində bu dilin rəsmən tanınması, Azərbaycan dili və ədəbiyyatı kafedralarının yaradılmasına hazırlıq aparılması məsələlərini özündə əks etdirirdi. Eləcə də proqramda məktəblər üçün ana dili və ədəbiyyat müəllimlərinin hazırlanmasına başlanılması, milyonlarla azərbaycanlının yaşadığı Tehranda ikidilli məktəblərin açılması və dərs kitablarının çap olunması kimi məsələlərə də diqqət yetirilirdi. Əsasən, ziyalılardan ibarət olan bu qrupun fəaliyyəti 1980-ci illərin əvvəllərinə kimi davam etmişdir. Bu dövrdə İran azərbaycanlılarının haqları uğrunda mübarizə aparan siyasi təşkilatlar arasında MXRP də var idi. MXRP-nin Azərbaycan təşkilatı suveren İran dövləti daxilində Azərbaycan xalqının muxtar hüquqları uğrunda mübarizəni öz başlıca vəzifəsi kimi göstərir, eyni zamanda islam prinsiplərinə dayanaraq sosialist cəmiyyətinin əsaslarını qoymaq əzmini bildirirdi. Bütün bunlara baxmayaraq, 1979-cu ilin dekabrında qüvvəyə minmiş Konstitusiya ölkədə ruhanilərin mütləq hakimiyyətini təsbit etmiş oldu.

Bakı Texnik Kolleci

Sonuncu üsyan. Konstitusiya layihəsinin yeni mətnindən milli əyalətlərin bəzi hüquqları ilə bağlı qeydlərin çıxarılması, həmçinin ibtidai məktəblərdə ana dilində təhsil hüququ əvəzinə fars dilinə icazə verilməsi kəskin etiraz doğurdu. 1979-cu il dekabrın 5-də İran MXRP-nin Azərbaycan bölməsi Təbriz əhalisini Konstitusiyaya etiraz etməyə, bəzi fiziki və mənəvi hücumlara məruz qalmış Şəriətmədariyə dəstək olmaq üçün mitinq və nümayişə çağırdı. Bu, Təbrizdə üsyanın başlanmasına təkan oldu. Konstitusiyanın 110-cu maddəsinə (bu maddə Xomeyniyə mütləq ali hakimiyyət hüquqları verirdi) etirazla başlanmış bu üsyan zamanı Təbrizdə dövlət idarələri, radio və televiziya stansiyaları, başqa kütləvi informasiya vasitələri, təyyarə meydanı ələ keçirildi. Cənubi Azərbaycan "Azərbaycan İslam Respublikası" elan edildi. Bir neçə gün davam edən nümayişlər dalğası Təbrizdən kənara yayılsa da, elə bir uğur əldə edə bilmədi. Buna səbəb Şəriətmədarinin tələblərin yerinə yetirilməsi üçün şəxsi nüfuzundan və milli hərəkatın gücündən istifadə etməməsi və geri çəkilməsi oldu. Beləliklə, müxtəlif sosial-siyasi qüvvələr tərəfindən dəstəklənən iki dini başçı – Xomeyni ilə Şəriətmədari arasındakı ziddiyyətlər ikincinin tərəfdarlarının məğlubiyyəti ilə nəticələndi. Hakim İslam Respublika Partiyasının yerli təşkilatları geniş fəaliyyət meydanı əldə etdilər.

Hakimiyyətin möhkəmləndirilməsi. 1980-ci ilin yanvarında prezident seçkiləri keçirildi. Mart-may aylarında parlament seçildi, avqust-sentyabrda isə yeni, daimi hökumət işə başladı. Yeni hökumət torpaq, işsizlik məsələsini həll edə bilmədi. İran İslam Məclisi torpaq islahatı haqqında qanunu qəbul etsə də (sentyabr, 1981), dövlət bu qanunu həyata keçirməkdə aciz oldu. Çünki islahata şamil edilən torpaq sahələrinin çoxu varlı ruhanilərin, Məclis vəkillərinin, yüksək vəzifə sahiblərinin mülkiyyətində idi. Elə bu səbəbdən də İİR rəhbərliyi işsizlik problemini həll edə bilmədi. 1980-ci illərin əvvəllərindən etibarən mövcud quruluşa zidd olan çevrələrə qarşı təqiblərə başlanıldı. Fəalların bir qismi həbs olundu, bəziləri məhv edildi, qalan

Bakı Texniki Kolleci

hissə isə mühacirətə getmək məcburiyyətində qaldı. Lakin müəyyən qurumlar öz fəaliyyətlərini 1983-cü ilin əvvəllərinə qədər, gizli şəkildə də olsa, davam etdirdilər. Tezliklə gizli fəaliyyət göstərən təşkilatlara “mədəni inqilab” adı altında müxtəlif siyasi damğalar vuruldu və onlara qarşı aparılan təqiblər daha da genişləndirildi. Bununla yanaşı, 1983-cü ilin əvvəllərinə kimi mədəni təşkilatlar da azad nəşr imkanlarından məhrum edilib təqiblərə məruz qaldılar. Dövlət yerli dillərə yalnız


Ayətullah Xomeyni

farscanın yanında işlədilməsi şərtilə məhdud hüquqlar versə də, reallıqda qeyri-fars xalqlar məktəblərdə milli ədəbiyyatların belə ana dilində tədrisini həyata keçirmədilər. Əvəzində islam adı altında şovinist ideologiya təbliğ olunmağa başlandı. 1984-cü ildə Ayətullah Xomeyninin rəhbərliyi və səyi ilə “təhsilin islamlaşdırılması” haqqında konsepsiya qəbul edildi. Ali və orta təhsil sahəsində mövcud olan bütün dərsliklərin məzmunu formaca dəyişdirilsə də, məzmunca fars millətçiliyinə xidmət göstərirdi. İran prezidenti Haşemi Rəfsəncaninin hakimiyyəti dövründə (1997–2005) qeyri-fars xalqların milli ədəbiyyatlarının məktəbdə ana dilində tədris olunması məsələsi rəsmi formada gündəmə gətirilsə də, bu sahədə konkret bir addım atılmadı.

Bakı Texniki Kolleci

# 13.Azərbaycan SSR XX əsrin 40-70 -ci illərində

İqtisadi inkişaf. İkinci Dünya müharibəsi ölkənin təsərrüfatına ağır zərbə vurdu. Müharibədə Azərbaycanın sənaye istehsalının göstəriciləri kəskin surətdə aşağı düşdü. Sənayenin ümumi məhsulu 1940-cı illə müqayisədə 22% az idi. Neft hasilatı, təqribən, yarıbayarı azalmış, istehlak mallarının istehsalı kəskin surətdə enmiş, kənd təsərrüfatının maddi-texniki bazası zəifləmişdi. İşğal olunmuş sovet əraziləri azad olunduqca respublikada xalq təsərrüatı bərpa edilirdi. Xəzər dənizində neftçıxarma sənayesinin iqtisadi cəhətdən səmərəsiz olması iddialarına baxmayaraq, Azərbaycan alimlərinin, neftçilərinin gərgin əməyi sayəsində dünyada ilk dəfə olaraq Azərbaycanda açıq dənizdə neft çıxarılmasına başlanıldı. Dənizdə qazılan kəşfiyyat quyusu 1949-cu ildə fontan vurdu. Bu dövrdə Azərbaycanda Sumqayıt, Daşkəsən, Mingəçevir, Əli Bayramlı (indiki Şirvan) kimi yeni sənaye mərkəzləri yaradıldı. Sumqayıt böyük kimya və metallurgiya şəhərinə çevrildi. Tezliklə burada Azərbaycan əlvan metallurgiyasının ilk müəssisəsi – Alüminium zavodu işə salındı. 1945–1954-cü illərdə Mingəçevirdə Cənubi Qafqazda ən böyük Su Elektrik Stansiyası, Daşkəsəndə Filiz saflaşdırma kombinatı tikilib istifadəyə verildi. 1951-ci ildə SSRİ-də ən böyük tikinti müəssisələrindən olan Qaradağ sement zavodu işə salındı. Respublikada yüngül və yeyinti sənayesində də yüksəliş müşahidə olundu. Azərbaycanda həyata keçirilən aqrar siyasət imperiya mənafeyinə tabe edilmişdi. Məqsəd həm daşınıb aparılan pambıq, ipək, tütün, habelə sonralar tərəvəz və üzüm istehsalını artırmaq, həm də respublikanın vacib ərzaq məhsullarına olan tələbatını mərkəzdən daha çox asılı vəziyyətə salmaq idi. Suvarılan torpaqların sahəsini genişləndirmək üçün 1950–60-cı illərdə Samur-Dəvəçi, Yuxarı Qarabağ, Yuxarı Şirvan, Baş Muğan, Abşeron kanalları kimi iri irriqasiya sistemləri inşa edildi. Bununla belə, əhalinin sosial rifahının yüksəldilməsinə də diqqət ayrılırdı.

Bakı Texniki Kolleci

Əhalinin sosial rifahı. Mühüm sosial dəyişikliklərdən biri şəhər əhalisinin sürətlə artımı olmuşdu. 1970-ci ildə əhalinin artıq 50 faizi şəhərlərdə məskunlaşmışdı. Buna səbəb şəhərlərin sürətlə inkişaf etməsi, habelə kolxozçulara pasport verilməsi idi. 1947-ci il dekabrın 14-də ərzaq və sənaye mallarına kartoçka sistemi ləğv edildi. İstehsalın ardıcıl olaraq artması əhalinin gəlirlərinin çoxalması ilə nəticələndi. 1967-ci il noyabrın 6-da Bakı metropoliteninin istismara verilməsi respublikanın həyatında böyük hadisə kimi yadda qaldı. Bu, Yaxın Şərqdə birinci metropoliten idi. Adamların maddi rifahının yaxşılaşması və səhiyyə sahəsindəki nailiyyətlər əhali arasında ölüm hadisələrini azaltdı. Totalitar rejim davam edir. Güclü totalitar rejimin təmin olunmasında Stalinin, Azərbaycanda isə Bağırovun şəxsi nəzarəti altında işləyən Dövlət Təhlükəsizlik və Daxili İşlər Nazirliklərinin mühüm rolu var idi. Çuğulluq, satqınlıq, adamlara qarşı etimadsızlıq, gizli izləmə, düşüncələrə nəzarət daha da artmışdı. Tarix elmi üzərində hakim ideologiyanın təzyiqi gücləndirilmişdi. Şimali Azərbaycanın Rusiyaya könüllü birləşdirilməsi haqqında cəfəng uydurmalar irəli sürülür, Azərbaycan Cümhuriyyəti hökumətinin xalqa zidd siyasət yürütdüyü iddia edilirdi. Akademik Heydər Hüseynovun 1949-cu ildə çap olunmuş "XIX əsr Azərbaycanda ictimai və fəlsəfi fikir tarixindən" əsərində Şeyx Şamilin başçılığı ilə xalq hərəkatını çarizmin müstəmləkəçilik siyasətinə qarşı mübarizə kimi qiymətləndirməsi "yuxarılar"a xoş gəlməmiş, bu əsərə görə ona verilmiş "Stalin mükafatı" geri alınmış, təqiblərə başlanmışdı. Türk dünyasının möhtəşəm orta əsr abidəsi "Kitabi- Dədə Qorqud" "irticaçı feodal-xan eposu" adı ilə damğalanmış, A.A.Bakıxanov fanatizmdə, xan və bəyləri müdafiə etməkdə, M.M.Kazım bəy "çarizmin sadiq qulu" olmaqda günahlandırılmışdı. Akademik M.A.Dadaşzadə "Türkiyə casusu" kimi damğalanmışdı. Bununla yanaşı, mərkəz azərbaycanlılara etibar etmir, mühüm vəzifələrin çoxuna, xüsusən güc orqanlarına başqa millətlərin, əsasəndə rus və ermənilərin nümayəndələrini cəlb edirdi.

Bakı Texniki Kolleci

Erməni fitnəkarlığı. Moskvanın fitvası və havadarlığı ilə erməni millətçiləri, kommunist-daşnaklar vaxtaşırı azərbaycanlıların Ermənistan SSR-dəki tarixi etnik ərazilərindən sıxışdırılıb çıxarılması, birinci növbədə, Qarabağın qoparılıb Ermənistana verilməsi tələbi ilə çıxış edirdilər. Ermənistan K(b)P MK və XKS-i Qarabağ ərazisinin iqtisadi cəhətdən Ermənistan SSR-lə bağlı olduğunu Stalinə sübut etməyə çalışırdı. O vaxt Azərbaycan K(b)P MK-nın birinci katibi M.C.Bağırovun bu barədə rəyi soruşmuşdur. O, cavab məktubunda Dağlıq Qarabağın Ermənistana güzəştə gediləcəyi təqdirdə müxtəlif vaxtlarda Ermənistana, Gürcüstana və Sovet Rusiyasına verilmiş bir çox tarixi ərazilərin Azərbaycan SSR-ə qaytarılmasını vacib hesab etdiyini bildirmişdir. Məsələnin bu səpkidə müzakirə olunması ermənilərin planlarının pozulmasına səbəb olmuşdu.

Deportasiya. Qarabağ məsələsini öz xeyirlərinə həll etməyi bacarmayan ermənilər başqa bir fitnəyə əl atdılar. Onların fitnəkarlığı sayəsində 1947-ci il dekabrın 23-də SSRİ Nazirlər Soveti "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 4083 saylı qərar verdi. SSRİ Nazirlər Sovetinin 1948-ci il 10 mart tarixli daha bir qərarı ilə bu işi həyata keçirmək üçün konkret tədbirlər planı müəyyən olundu. Bu qərara görə, 100 min azərbaycanlı 1948–1950-ci illərdə "könüllülük prinsipinə əsasən" Azərbaycana köçürülməli idi. Ermənistandan deportasiya olunmuş azərbaycanlılar Azərbaycan SSR-in Kür-Araz ovalığı və digər rayonlarında (Saatlı, Göyçay, İmişli, Əli Bayramlı, Zərdab, Salyan, Kürdəmir, Sabirabad, Yevlax, Ucar və s.) yerləşdirildilər. Ermənistan SSR-də etnik təmizləmənin bu mərhələsində 100 min nəfərdən çox azərbaycanlı zorla köçürüldü və ya köçməyə məcbur edildi. Eyni zamanda Azərbaycanda yaradılan yeni sənaye mərkəzlərinə – Sumqayıta, Əli Bayramlıya, Mingəçevirə, Daşkəsənə başqa respublikalardan minlərlə adam, o cümlədən erməni yerləşdirildi.

Bakı Texniki Kolleci

Siyasi rejimdə yumşalma. İ.D.Mustafayev. 1953-cü il martın 5-də totalitar sovet sistemini quran İ.V.Stalin vəfat etdi. N.S.Xruşşov 1953-cü ilin sentyabrında Sov.İKP MK-nın birinci katibi seçildi. M.C.Bağırov Azərbaycan KP MK və Bakı Komitəsinin birgə plenumunda (12–13 iyul 1953-cü il) ziyankarlıqda, qüsurlu rəhbərlik metodlarında, kadrlara səmərəli fəaliyyət üçün şərait yaratmamaqda və başqa əməllərdə təqsirkar bilinib vəzifəsindən kənar edildi. Tezliklə həbs edildi, xalq düşməni kimi ölüm cəzasına – güllələnməyə məhkum olundu. 1954-cü il fevralın 14–16-da Azərbaycan KP-nin XX Qurultayı keçirildi və akademik İmam Daşdəmir oğlu Mustafayev MK-nın birinci katibi seçildi. İ.D.Mustafayev və həmkarları yeni şəraitdə respublikanın, xalqın vəziyyətini yaxşılaşdırmağa, milli, mənəvi dəyərlərin, mədəniyyətin, elmin, təhsilin inkişaf etdirilməsinə, xalq təsərrüfatının tərəqqisinə nail olmağa cəhd göstərdilər. Sənayenin sürətlə inkişafı, yeni iş yerlərinin açılması, kəndli gənclərin Bakıya axını nəticəsində paytaxtın iqtisadi-ictimai həyatında azərbaycanlı kadrların rolu artdı. Beynəlmiləl şəhər kimi məşhurlaşmış Bakıda yerli əhalinin tərkibi azərbaycanlıların xeyrinə dəyişməyə başladı. Respublikada kənd təsərrüfatına göstərilən diqqət nəticəsində ərzaq məhsullarının istehsalı artdı. Respublikada Azərbaycan dilinin rəsmi dövlət dili statusunun təmin olunmasının mətbuatda açıq müzakirəsi keçirildi. 1956-cı ildə Azərbaycan SSR Ali Soveti 1937-ci ildə qəbul edilmiş Konstitusiyaya respublikada dövlət dilinin Azərbaycan dili olması barədə maddə əlavə etdi. Kargüzarlıq işlərinin Azərbaycan dilində aparılması üçün konkret tədbirlər görüldü. 1956-cı ildə Bakı telestudiyası işə düşdü. Məhkəmə quruculuğu məsələləri, mülki və cinayət məcəllələrinin qəbulu respublikaların öz ixtiyarına verildi. Repressiya illərində cəzaya məruz qalanların işlərinə yenidən baxılması üçün komissiyalar təşkil edildi və günahsız olduqları sübut edilərək onlara bəraət verildi. Minlərlə azərbaycanlının üzərindən “xalq düşməni” damğası götürüldü. Tezliklə Azərbaycan rəhbərliyinə qarşı təqiblərə başlanıldı. Dağlıq Qarabağ məsələsi növbəti dəfə ortaya atıldı. Ermənistan SSR Dağlıq Qarabağın

Bakı Texniki Kolleci

Ermənistana verilməsini tələb etdi. Bu respublikada antitürk əhvali-ruhiyyə yenidən qızışdırıldı. Yerevan Pedaqoji İnstitutunun Azərbaycan bölmələri bağlandı. Yerevan Azərbaycan Pedaqoji Texnikumu Azərbaycanın Xanlar (indiki Göygöl) rayonuna köçürüldü. C.Cabbarlı adına Dram Teatrının, Azərbaycan dilində çıxan rayon qəzetlərinin və b. nəşrlərin fəaliyyəti dayandırıldı. V.Y.Axundov. Belə bir şəraitdə Sov.İKP MK-nın 1959-cu ilin iyununda keçirilən plenumu Azərbaycan SSR rəhbərliyini qondarma ittihamlarla ciddi tənqid etdi. İ.D. Mustafayev vəzifəsindən azad olundu. Vəli Yusif oğlu Axundov Azərbaycan KP MK-nın birinci katibi seçildi. Milli dəyərlərə diqqət daha da artırıldı. 1966-cı ildə İranda yaşayan böyük Azərbaycan şairi Məhəmməd Hüseyn Şəhriyarın "Heydərbabaya salam" poeması Bakıda çap olundu. Yaradıcı gənclər üçün "Ulduz" jurnalının nəşrinə başlandı. Novruz bayramı "Bahar bayramı" adı ilə rəsmi şəkildə qeyd edildi. 1962-ci il dekabrın 17-də 95 nəfərin iştirak etdiyi gizli yığıncaqda Milli Azərbaycan Qərargahı (MAQ) təşkil olundu. MAQ-ın rayonlarda şöbələri yaradıldı. Təşkilat üzvlərinin əksəriyyəti vəzifəli şəxslər idi. Başlıca məqsəd rəhbər vəzifələrdə azərbaycanlıların olmasına, respublika büdcəsinə ayırmaların Moskvada deyil, Bakıda həll edilməsinə çalışmaq, milli oyanışa xidmət etmək idi. MAQ-çılar bir neçə mühüm vəzifəyə azərbaycanlı kadrların təyin edilməsinə nail oldular. Belə bir şəraitdə mərkəzin təzyiqi nəticəsində Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti 1969-cu il 7 may tarixli qərarı ilə sərhəd rayonlarında 2 min hektardan çox Azərbaycan torpağının Ermənistana verilməsi haqqında hələ 1938-ci il mayın 5-də qəbul olunmuş qərarı təsdiq etdi. Lakin bir qədər sonra Azərbaycan rəhbərliyinə gəlmiş Heydər Əliyev bu qərarın icrasına yol vermədi.


*Çingiz Aytmatov, Vəli Axundov, Tahir Salahov, Qara Qarayev*

## İdarəçiliyin möhkəmləndirilməsi. 70–80-ci illərdə sosial-iqtisadi uğurlar

“Qoy ədalət zəfər çalsın”. Azərbaycan KP Mərkəzi Komitəsinin 1969-cu il iyulun 14-də keçirilən Plenumu Azərbaycan üçün böyük tarixi əhəmiyyət kəsb edən taleyüklü hadisə idi. Plenumda Heydər Əlirza oğlu Əliyev Azərbaycan KP MK-nın birinci katibi seçildi. Heydər Əliyev qısa müddət ərzində respublikada idarəçilik sistemini xeyli möhkəmləndirdi. Rüşvətxorluğa, korrupsiyaya qarşı ciddi mübarizəyə başladı. Sosialist cəmiyyətində vəzifədən sui-istifadə, korrupsiya kimi mənfi hallar olduğunu, onların aradan qaldırılmasının vacibliyini sovet hakimiyyəti tarixində ilk dəfə cəsarətlə elan etdi və bu hallara qarşı qəti mübarizəyə başladı. Tezliklə SSRİ rəhbərliyində böyük nüfuz qazanan Heydər Əliyev 1976-cı ildə Sov.İKP MK Siyasi Bürosunun üzvlüyünə namizəd seçildi və Azərbaycanın inkişafı naminə bu vəzifənin verdiyi imkanlardan məharətlə istifadə etdi. O, 1982-ci ilin dekabrında Moskvaya yüksək dövlət və partiya vəzifələrinə dəvət olundu. Sov.İKP MK Siyasi Bürosuna üzv seçildi, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin edildi.


Heydər Əliyev

Hüquqi bazanın yaradılması. Heydər Əliyevin həyata keçirdiyi siyasət bütün sahələrdə olduğu kimi, qanunverici orqanlara da ən bacarıqlı və layiqli adamların seçilməsinə imkan yaratdı. Bu orqanların işi xeyli fəallaşdı, yeni komissiyalar formalaşdırıldı, onların səmərəli işləməsi üçün qayğı göstərildi. Azərbaycan Ali Soveti respublikanın iqtisadi, mədəni inkişafını təmin etmək məqsədilə hüquqi baza təşkil edən onlarla qanun qəbul etdi. Heydər Əliyevin təşəbbüsü ilə partiya və dövlət orqanlarının, ictimai təşkilatların, ziyalıların respublikanın milli kadr potensialının möhkəmləndirilməsinə diqqəti artdı. Minlərlə azərbaycanlı gənc təhsil almaq üçün SSRİ-nin aparıcı təhsil və elm ocaqlarına göndərildi. 1978-ci il aprelin 21-də

Bakı Texniki Kolleci

Azərbaycan SSR-in yeni Konstitusiyası qəbul edildi. Bu Konstitusiya mövcud olan dar imkanlar daxilində xalqın mənəvi sərvətlərinin, xüsusən dilinin qorunub saxlanması və inkişaf etdirilməsi üçün hüquqi əsasları genişləndirdi. SSRİ rəhbərliyinin etirazına baxmayaraq, H.Əliyevin siyasi iradəsi nəticəsində Azərbaycan dili respublikada dövlət dili statusunu saxladı. “Qoy ədalət zəfər çalsın!” – o zaman Heydər Əliyevin söylədiyi və bütün fəaliyyətinin mahiyyətini təşkil edən bu sözlər xalqın dilində şüara çevrildi. İrsə sahib çıxma, Milli-mənəvi sərvətlərin tədqiqi və təbliği, tarixi araşdırmaların geniş vüsət alması Heydər Əliyev dövrünün həyata keçirilən tədbirlərindən idi. 1977-ci ildə Nizami irsinin yenidən öyrənilməsi haqqında qərar qəbul edildi. Bir zamanlar “pantürkist” kimi damğalanmış Hüseyn Cavidin cəsədinin qalıqları 1982-ci ildə İrkutsk vilayətindən gətirilib Naxçıvanda torpağa tapşırıldı. Heydər Əliyev Bakı neftinin İkinci Dünya müharibəsində faşizm üzərində qələbədə oynadığı ümumdünya tarixi əhəmiyyətli rolunun SSRİ rəhbərləri tərəfindən etiraf edilməsinə nail oldu. 1978-ci ildə Bakı Lenin ordeni ilə təltif edildi. Naxçıvan MSSR və DQMV-nin iqtisadi və mədəni tərəqqisinə diqqət artırıldı. Şuşa şəhərinin inkişafı üçün bir neçə xüsusi qərar qəbul edildi. Şəhərin tarixi abidələrinin bərpa olunmasına, yeni binaların tikilməsinə başlanıldı. 1980–1981-ci illərdə Molla Pənah Vaqifin qəbri üzərində böyük məqbərə ucaldıldı. Üzeyir Hacıbəylinin, Bülbülün ev-muzeyləri açıldı. Natəvanın heykəli qoyuldu. Şəhərdə böyük mehmanxana, çoxmərtəbəli yaşayış binaları, inzibati binalar tikildi. Şuşa ümumittifaq səviyyəli kurort şəhərinə çevrildi. 1970-ci illərdə mərkəz ermənilərin təhriki ilə Kəlbəcər rayonunun perspektivsizliyi, buradan əhalinin köçürülməsi, torpaqların isə yaylaq kimi respublikalar arasında bölüşdürülməsi haqqında məsələ qaldırdı. Buna qarşı çıxan H.Əliyev 1977-ci ildən rayonun potensial imkanlarını genişləndirmək tədbirlərinin hazırlanmasına və həyata keçirilməsinə nail oldu. İqtisadiyyat xeyli dirçəldi. Mərkəzin, erməni millətçilərinin niyyətləri alt-üst oldu.

Bakı Texniki Kolleci

İqtisadi inkişaf. Heydər Əliyevin siyasi dövlətçilik fəaliyyəti sayəsində 1970-ci illərdə – Sovet İttifaqında əsas orta iqtisadi göstəricilərin artım sürətinin aşağı düşdüyü bir vaxtda Azərbaycanda bütün başlıca iqtisadi göstəricilər durmadan yüksəlirdi. 14 ildə respublikada milli gəlirin ümumi həcmi 2,5 dəfə artmış, 250-dən çox fabrik, zavod, istehsal sexləri tikilmiş, iki milyondan çox adamın mənzil şəraiti yaxşılaşdırılmışdı. Respublika elektrotexnika sənayesinin flaqmanı Sovet İttifaqının ən böyük zavodlarından biri – Bakı Məişət Kondisionerləri zavodu idi. Bu zavod 1975-ci ildə H.Ə.Əliyevin təşəbbüsü ilə tikilmişdi. Aparılan islahatlar nəticəsində Azərbaycan SSRİ-nin ən iri elektrotexnika sənayesi mərkəzlərindən biri oldu. Həmin dövrdə ölkənin bütün neft-mədən avadanlığının üçdə iki hissəsi, məişət kondisionerlərinin hamısı, sintetik kauçuk və bir sıra digər kimya məhsullarının xeyli hissəsi Azərbaycanda istehsal olunurdu. Respublikanın 350 növ yüksək keyfiyyətli məmulatı dünyanın 65 ölkəsinə ixrac edilirdi. Azərbaycan ərazisinin şimal-qərb hissəsini Bakı–Tiflis dəmir yolu xətti ilə birləşdirən Yevlax–Balakən (uzunluğu 162 km) dəmir yolu başa çatdırılıb istifadəyə verilmişdi.

XX əsrin 60-cı illərindən başlayaraq, əsasən, Sovet İttifaqının başqa ərazilərində, xüsusilə Qərbi Sibirdə yeni neft yataqlarından çox böyük həcmdə daha ucuz xammal çıxarılırdı. Yanacaq sənayesinin inkişafına lazımi qədər vəsait ayrılmaması nəticəsində respublikada 1960-cı illərin ikinci yarısından neft hasilatı ildən-ilə aşağı düşməyə başladı. Lakin 1980-ci illərin ikinci yarısından onun hasilat səviyyəsi sabitləşdirildi. Bu illərdə Azərbaycanda təbii qazın çıxarılması sahəsində də uğur qazanıldı. Bakıda müasir texnologiyaya əsaslanan neft emalı üzrə yeni qurğuların yaradılması nəticəsində Azərbaycan qonşu respublikalardan gətirilən xam neftin də emalını həyata keçirirdi. Neft hasilatının respublikada sabitləşməsi fürsətindən istifadə edərək Azərbaycanın Xəzər sektorunda geniş miqyasda geoloji-kəşfiyyat işlərinin aparılmasına başlanıldı. Məhz həmin illərdə respublikanın neft

Bakı Texniki Kollec

sənayesinin Xəzər dənizi hesabına böyük gələcəyini nəzərə alaraq son dərəcə mühüm bir tədbir həyata keçirildi. Sovet İttifaqının ümumi vəsaitindən alınan 400 milyon dollar hesabına Bakıda Dərin Özüllər zavodu kimi çox nəhəng bir zavodun tikilməsi reallaşdırıldı. Zavod 1986-cı ildə fəaliyyətə başladı

Kənd təsərrüfatı. Azərbaycanda kənd təsərrüfatı üçün yararlı torpaqlar nisbətən məhdud olduğundan məhsuldar qüvvələrin mümkün ehtiyatından tam və hərtərəfli istifadə edilməsi vacib idi. 1970–80-ci illərdə bir çox hidrotexniki komplekslər və dəryaçalar, o cümlədən Tərtərçay və Yuxarı Xanbulançay su təsərrüfatı kompleksləri, Araz, Arpaçay, Sirab dəryaçaları, Baş Mil, Lənkəran kanalları və başqa obyektlər istifadəyə verildi. Bu tədbirlər nəticəsində suvarılan əkin sahələri, təqribən, 30 faizə qədər artdı. Respublika 1970-ci illərin axırında üzüm istehsalına görə İttifaqda birinci yerdə, pambıq toplanışına görə dördüncü yerdə, barama istehsalına görə ikinci yerdə dururdu.

Memarlıq. Paytaxtın abadlaşdırılmasında və tikintisində Azərbaycan SSR Nazirlər Soveti sədrinin müavini Ə.C.Ləmbəranskinin böyük xidməti oldu. Bu dövrdə Dəniz kənarı park yenidən quruldu, ərazisində “Bakı Venesiyası” adlanan şəhərcik, şəhərin mərkəzi hissəsində Fəvvarələr meydanı yaradıldı. 1970-ci illərdə Bakı Dəniz vağzalı, Lenin adına saray (indiki Heydər Əliyev adına saray), Respublika velotreki tikildi, Lenin adına meydanının (indiki Azadlıq meydanı) memarlıq ansamblı yaradıldı. 1980-ci illərdə “Gülüstan” sarayı, yeni zoopark, örtülü idman kompleksləri quruldu. Bakıda yeni mikrorayonlar, Əhmədli, Günəşli, Badamdar kimi yaşayış massivləri salındı.

Bakı Texniki Kolleci

# 14."Yenidənqurma" və "aşkarlıq" siyasətinin iflasa uğraması.Dağlıq Qarabağ münaqişəsinin başlanması. Xalq hərəkatı

Geriləməyə doğru. Yüzlərlə xalqı və milləti zor gücünə özündə birləşdirmiş Sovet Sosialist Respublikalarının saxta "ittifaqı" kommunist nəzəriyyəsi ilə təcrübəsi arasında heç bir əlaqənin olmadığını açıq-aydın sübut edən nümunə idi. 1982-ci ildə SSRİ KP MK-nın baş katibi və ölkənin faktiki dövlət başçısı L.İ.Brejnev vəfat etdi. Bundan sonra 3 il ərzində MK-nın baş katibləri bir-birinin ardınca 3 dəfə dəyişdi. Nəhayət, 1985-ci ilin martında bu vəzifəyə M.S.Qorbaçov gətirildi.1985-ci ildən sonra SSRİ-nin süquta doğru getməsinin əlamətləri iqtisadi qüdrətinin ildən-ilə zəifləməsində özünü büruzə verməyə başladı. Ölkənin ictimai-siyasi həyatında baş verən gərgin və təlatümlü hadisələr onu sarsıdaraq iqtisadiyyatın tənəzzülünü sürətləndirdi. Azərbaycanın ictimai-siyasi həyatının, təsərrüfat sisteminin ahəngi 1988-ci ildə erməni millətçilərinin Dağlıq Qarabağ ətrafında başladıqları fitnəkarlıqla pozuldu. Sovet İttifaqının səlahiyyətli orqanlarında yüksək vəzifələr tutan erməni millətçiləri Azərbaycan iqtisadiyyatına böyük zərbələr endirmək üçün öz xəyanətkar fəaliyyətlərini genişləndirdilər. Azərbaycana düşmən qüvvələr SSRİ-nin bu əsas üzümçülük respublikasında iqtisadiyyatın ildən-ilə yüksəlməsi üçün üzümçülük-şərabçılıq kompleksinin şərait yaratdığını heç cür qəbul edə bilmirdilər. 1985-ci ildə alkoqolizmə qarşı mübarizə pərdəsi altında üzümçülüyün ləğvinə başlandı. 1990-cı ilə qədər üzüm bağlarının ümumi sahəsi 107 min hektar azaldı. 1980-ci illərin ikinci yarısında Azərbaycan sənayesi ziddiyyətli, çox çətin və ağır dövr keçirirdi. Digər tərəfdən isə metodları yararsız olan yenidənqurma,


Mixail Qorbaçov

Bakı Texniki Kolleci

millətlərarası toqquşmalar, Azərbaycanda rəhbərliyin zəifliyi iqtisadi inkişafa mane olurdu.

Sonuncu nəfəs. Cəmiyyətdə formalaşan meyarlara görə sovet dövlətinin başçısı üçün gənc hesab edilən, hakimiyyəti ələ keçirən Qorbaçov sosial-iqtisadi inkişafı sürətləndirmək, inzibati- bürokratik sistemin korrupsioner fəaliyyətini zəiflətmək, ictimai quruluşu durğunluqdan azad etmək və vətəndaşların Kommunist Partiyasına olan inamını bərpa etmək məqsədilə ölkədə bir neçə fəaliyyət xəttini ("sürətləndirmə", "aşkarlıq", "demokratikləşmə") özündə birləşdirən və ümumi şəkildə "yenidənqurma" adlandırılan siyasi islahatlar həyata keçirməyə başladı. 1989-cu ildə ölkə tarixində ilk dəfə olaraq Xalq Deputatları Sovetinə alternativ əsaslarla seçkilər keçirildi. Azərbaycanlılar da bu seçkilərdə fəal iştirak etdilər. M.S.Qorbaçov Kommunist Partiyasının ideologiyası üzərində möhkəmlənən sovet cəmiyyətinin siyasi dayaqlarına zərbə vuracaq təkliflərlə çıxış etdi. O, "hüquqi dövlət"in yaradılması, hakimiyyətin bölünməsi prinsipinə əsaslanan idarəçilik sisteminin seçilməsi, müxtəlif təsərrüfat formalarının tətbiqi, icarə sisteminin, kooperasiyaların formalaşdırılması kimi təkliflər irəli sürdü. Düzdür, iqtisadi baxımdan ortaya atılan təkliflər ölkədə, qismən də olsa, həyata keçirildi, lakin bu, sovet iqtisadiyyatının bölgələr arasında qarşılıqlı asılılığa əsaslanan sənayesini tamamilə sıradan çıxardı. Müəssisələr arasında iqtisadi münasibətlər pozuldu və tədricən yox dərəcəsinə endi. Proses çox qısa müddətdə yüzlərlə zavod və fabrikin müflisləşməsinə, işinin dayandırmasına gətirib çıxardı. İşsizlik davamlı bir problemə çevrildi. Bu baxımdan, "yenidənqurma", əslində, SSRİ-nin iflasını daha da sürətləndirdi.

Demokratiya, yoxsa özbaşınalıq? "Yenidənqurma", "aşkarlıq" və "demokratiya" imperiyanın qurbanlarına çevrilmiş xalqların milli özünüdərkinə böyük təsir göstərdi. İdeologiyanın qurbanı olan tarix yenidən öyrənilməyə başlandı.

Bakı Texniki Kolleci

Saxtalaşdırılmış və "unutdurulmuş" tarixi məqamlar işıqlandırıldı. Azərbaycan xalqının milli oyanış prosesi sürətləndi. Mərkəzi hökumət xalqların milli dirçəlişindən bərk narahat idi. Buna görə də hər vəchlə yerlərdə milli və dini zəmində qırğınların törədilməsinə şərait yaradır, cinayətkar ünsürlərin əməllərinə qəsdən göz yumur, əhalinin diqqətini yayındırmağa çalışırdı. Ölkə ərazisində milli münaqişə ocaqlarını yaratmaq da bu siyasətin bir hissəsi idi. Belə bir münaqişə ocaqlarından biri də ermənilərin Azərbaycana qarşı ərazi iddiaları ilə başlamış milli qırğın siyasəti idi. Qarabağda başlanan separatçılıq hərəkatı SSRİ-nin dağılmasında böyük rol oynadı.

Deportasiya. Əslində, ermənilər bu münaqişəyə planlı şəkildə hazırlaşmışdılar. "Demokratikləşmə" xətti başlayar-başlamaz qarşısına Azərbaycan torpaqlarını mənimsəmək məqsədi qoyan millətçi "Daşnaksutyun" partiyası Ermənistanda fəallaşdı. Müxtəlif mətbuat orqanlarında erməni ziyalıları tarixi faktların saxtalaşdırılması və azərbaycanlılara qarşı təhqiredici məlumatlarla çıxış edir, yalan informasiyanı həqiqət kimi verir, millətləri düşmənçiliyə səsləyirdilər. Azərbaycan xalqına qarşı cinayət əməlləri ilə "məşhur" olan Zori Balayan bu cür "ziyalılardan" biri idi. Onun yazdığı "Ocaq" kitabı "Ermənistanı türklərdən (azərbaycanlılardan) təmizləmək", "dənizdən dənizə Böyük Ermənistan" kimi şüarlarla zəngin idi. Təəssüf ki, mərkəzi hökumət buna göz yumur, əksinə, ermənilərin hər cür cinayətinə rəvac verirdi. İş o yerə gəlib çıxdı ki, Moskva Azərbaycanın Qazax və Gədəbəy rayonlarından min hektarlarla torpaq sahəsinin Ermənistana verilməsinə belə, razılığını bildirdi. Lakin yerli əhalinin səyi nəticəsində bu plan həyata keçmədi. Bununla belə, ermənilər 1988-ci ilin yanvarından etibarən Ermənistanda yaşayan azərbaycanlıları öz tarixi yurdlarından qovmağa başladılar. İlk qaçqınlar Azərbaycan ərazisinə qonşu respublikanın Qafan və Mehri rayonlarından axın etdı.

Bakı Texniki Kolleci

Ermənistanda və Xankəndində (ermənilər bu şəhərə Stepanakert deyirlər) azərbaycanlılara qarşı etiraz mitinqləri keçirildi. Fevralın 28-də isə ermənilər Sumqayıtda əvvəlcədən hazırlanmış ssenari əsasında azərbaycanlıların adı altında öz millətlərinə qarşı qırğın (Sumqayıt fitnəkarlığı) törətdilər. Bu qırğına "Paşa" ləqəbli erməni E.Qriqoryan başçılıq edirdi. Mərkəzi hökumətin cinayətin əsl səbəbkarlarını araşdırmaması və hadisəyə düzgün siyasi qiymət verməməsi nəticəsində azərbaycanlılara qarşı informasiya müharibəsi genişləndi. Bundan sonra azərbaycanlıların Ermənistandan kütləvi surətdə köçürülməsi prosesi gücləndi. Artıq 1991-ci ildə Ermənistanın sonuncu azərbaycanlı kəndi olan Mehri rayonunun Nüvədi kəndi də boşaldıldı. Ermənistanda yaşayan 230 min nəfər azərbaycanlı öz tarixi torpaqlarından zor gücünə köçməli oldu. Beləliklə, Qərbi Azərbaycandan (Ermənistan SSR) azərbaycanlıların deportasiya prosesi başa çatdırıldı. Sovet hökuməti "ədaləti qorumaq" adı ilə ermənilərin cinayətlərinə göz yumdu və yüz minlərlə köçkünün taleyinə biganə qaldı. Lakin Azərbaycan əhalisi ermənilərin bu cür özbaşınalığına sakit yanaşmayacağını elə ilk gündən nümayiş etdirdi. 1988-ci ilin noyabrından etibarən xalq Şuşa şəhəri yaxınlığında yerləşən Topxana meşəsinin qırılmasına etiraz etdi. Başlayan hərəkat, əslində, ermənilərin və mərkəzin antimilli siyasətinə qarşı istiqamətlənən xalq hərəkatı idi. Mərkəz bundan bərk təşvişə düşdü və respublikanın rəhbərlərini və sadə vətəndaşları müxtəlif fəndlərlə sakitləşdirməyə çalışdı. 1989-cu ilin yanvarında SSRİ Ali Sovetinin Rəyasət Heyəti Dağlıq Qarabağ Muxtar Vilayətində "xüsusi idarəçilik formasının tətbiqi haqqında" (XİK) qərar qəbul etdi. Bu komitə, başda rəhbəri A.Volski olmaqla, sözdə bir, əməldə başqa iş görərək utanmadan Qarabağın dağlıq bölgəsində yaşayan azərbaycanlıların köçürülməsi siyasətini yürütdü. Artıq həmin ilin yayında Xankəndində yaşayan bütün azərbaycanlılar şəhərdən çıxarıldı. XİK-in tezliklə ləğv edilməsinə baxmayaraq, Ermənistanın özbaşınalığı son həddə çatdı. Həmin ilin dekabrında Ermənistan SSR Ali Soveti bütün siyasi normaları kobudcasına pozaraq

Bakı Texniki Kolleci

Azərbaycanın ərazi bütövlüyünə olan iddiasını rəsmi şəkildə bildirdi və Dağlıq Qarabağı Ermənistana birləşdirmək haqqında qərar qəbul etdi. Dağlıq Qarabağda başlanan separatçı hərəkat və özbaşınalıq mərkəzi hakimiyyətin nüfuzunu aşağı salmaqla "yenidənqurma" prosesinin iflasa uğramasında və SSRİ-nin dağılmasında böyük rol oynadı.

## Xalq Hərəkatı.

Azadlığa gedən yol. Milli dirçəliş. Mərkəzin Qarabağ münaqişəsinə qeyri-obyektiv münasibəti və erməni azğınlığına şərait yaratması Azərbaycanda əhalinin etirazlarına səbəb oldu. Bununla belə, Moskva azərbaycanlıların etirazlarından da narahat olaraq əhalini müxtəlif fəndlərlə fikrindən döndərməyə çalışırdı. Belə fəndlərdən biri də Azərbaycan Kommunist Partiyasının birinci katibi vəzifəsində dəyişikliyin edilməsi və xalqın milli təəssübkeşliyindən çox uzaq olan bir şəxsin – Əbdürrəhman Vəzirovun bu vəzifəyə təyin edilməsi idi. Onun qətiyyətsizliyi və Moskvadan açıq-aşkar asılılığı, əhalinin diqqətini gərəksiz məsələlərə yönləndirməsi xalqı bərk narahat edirdi. Tezliklə etirazlar ziyalıların çıxış etdiyi tribuna arxasından küçələrə keçdi. 1988-ci ilin yanvar ayında Ermənistanda və Xankəndində ermənilərin azərbaycanlılara qarşı etiraz mitinqləri keçirildi, burada yaşayan soydaşların dədə-baba torpaqlarından qovulması prosesi başladı. Özbaşınalığın qarşısını almaq isə yüksək məmurların heç ağlına belə gəlmirdi. Səbir kasası dolmuş Azərbaycan xalqı fevralın 19-da etiraz əlaməti olaraq küçələrə axışdı. Bakıda ilk mitinqlər keçirildi və hərəkat

Bakı Texniki Kolleci

digər bölgələrə də təsir göstərdi. Hamı çox gözəl başa düşürdü ki, bu çıxışlar yeni bir dalğanın başlanğıcından xəbər verir. Azərbaycanda xalq hərəkatı yaranırdı. Qeyd etmək lazımdır ki, hərəkat əvvəlcə kortəbii xarakter daşıyırdı. Prosesə bir qrup ziyalı rəhbərlik etməyə çalışsa da, istənilən nəticə əldə edilməmişdi. Dağlıq Qarabağda Şuşa şəhərinin ətrafındakı zəngin Topxana meşəsinin ermənilər tərəfindən məhv edilməsi noyabrın 17-də əhalini yenidən küçələrə çıxardı, o zamankı Lenin meydanı (indiki Azadlıq meydanı) mitinqlərin mərkəzinə çevrildi. Bu dəfə Bakı sakinləri tələbləri yerinə yetirilməyincə meydanı tərk etməyəcəklərini bəyan etdilər. Xalq SSRİ rəhbərliyindən Ermənistanın işğalçılıq siyasətinin və Azərbaycan torpaqlarına qarşı təcavüzünün dayandırılmasını istəyirdi. Mitinqdə Sovet hakimiyyəti qurulandan sonra ilk dəfə olaraq "suverenlik", "azadlıq", "müstəqillik" kimi şüarlar səslənməyə başladı. Bu, xalqın milli həmrəyliyinin yüksək nümayişi idi. Bir neçə gün ərzində Azadlıq meydanına bölgələrdən də insanlar axışmağa başladılar. Meydan yarım milyonluq əhalinin izdihamına çevrildi. İlk dəfə olaraq Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı qaldırıldı. Bu hərəkat xalq tərəfindən "Meydan hərəkatı" adlandırılaraq tarixə düşdü. Moskva hərəkatın miqyasından və digər bölgələrə də yayılmasından bərk narahat idi. Tezliklə ölkədə komendant saatı tətbiq olundu. Hərəkat yatırıldı, meydan


*"Azadlıq" meydanında mitinq (keçmiş "Lenin" meydanı)*

Bakı Texniki Kolleci

boşaldıldı. Meydan hərəkatının Azərbaycan dövlətinin tarixində xüsusi rolu olmuşdur. Məhz bu hərəkat xalqın birliyini göstərmiş, onun müstəqillik, azadlıq uğrunda əzmini ilk dəfə belə açıq şəkildə nümayiş etdirmişdir. Buna görə də 17 noyabr Azərbaycan tarixinə əbədi olaraq Milli Dirçəliş Günü kimi yazıldı.

XX əsrin 80-ci illərinin sonlarında Azərbaycan xalqının başına açılan müsibətlər göstərdi ki, respublikaya qətiyyətli rəhbər və lider gərəkdir. Xalq bunu dərk edir və Heydər Əliyevin yenidən respublika rəhbərliyinə gətirilməsini istəyirdi. Lakin Ə.Vəzirov və əlaltıları bu məsələdə Moskvanın mövqeyindən çıxış edərək Heydər Əliyevin Azərbaycanla əlaqəsini hər vəchlə kəsməyə çalışırdılar. 1989-cu ilin iyununda Meydan hərəkatında liderliyi öz öhdələrinə götürməyə çalışan fəal ziyalılar Azərbaycan Xalq Cəbhəsi (AXC) adlı təşkilat yaratdılar. Təşkilatın təsis konfransında Əbülfəz Elçibəy (Əliyev) sədr seçildi. Əhalinin əksəriyyəti AXC-ni müdafiə edirdi, çünki o zaman respublikada xalqı öz arxası ilə apara biləcək heç bir qüvvə qalmamışdı. Lakin AXC liderləri bu sahədə təcrübəsiz idilər. Bu da təşkilatın səmərəli fəaliyyətinə əngəl törədirdi. Təşkilatlar arasındakı qarşıdurma və çəkişmələr xalq hərəkatına da mənfi təsir göstərirdi. Bununla belə, xalqın əsas tələbi respublikanın müstəqilliyi idi. Çünki hamı gözəl anlayırdı ki, məhz suveren dövlətə sahib olmaqla vətən torpaqlarını müdafiə edə və əhalini vəhşi ermənilərdən qorumaq mümkündür. Azərbaycan SSR KP MK-nın I katibi Ə.Vəzirov bu mübarizədə xalqın yanında olmağa cəsarət edə bilmədi, buna görə də

Bakı Texniki Kolleci

mitinqlərdə artıq azadlıqla bərabər, birinci katibin istefası tələbi də səsləndirilirdi. Nəhayət, 1989-cu il sentyabrın 23-də Azərbaycan SSR Ali Soveti xalqın təkidi ilə tarixi bir addım atdı. “Azərbaycan SSR-in suverenliyi haqqında” Konstitusiya qanunu qəbul edildi. Bu, xalqın qələbəsi idi. Ümumxalq hərəkatının təsiri ilə 1989-cu il dekabrın 30-da Gəncənin tarixi adı bərpa olundu, dekabrın 31-də isə Naxçıvandan başlayaraq Araz çayı sahilində və digər quru sahələrdə salınmış Sovet-İran sərhədinin qurğuları dağıdılaraq Cənubi azərbaycanlılarla canlı təmas yaradıldı. Bütün bunlar Sovet hökumətini bərk narahat edirdi. Moskva Ermənistanın işğalçılıq siyasətini daha da qızışdırmağa başladı. 1990-cı il yanvarın 15-də Xanlar (indiki Göygöl) rayonunun Quşçu kəndinə silahlı basqın olundu. Silahsız dinc əhali özünü müdafiə edə bilmədi. Bu hadisə AXC-nin Milli Müdafiə Şurası yaratmaq təşəbbüsünü reallaşdırmasına böyük təsir göstərdi. Tezliklə yanvarın 19-da ermənilər Naxçıvana da basqın etdilər. Naxçıvan Ali Soveti isə muxtar respublikanın SSRİ-nin tərkibindən çıxması haqqında qərar qəbul etdi. Bu, SSRİ tarixində görünməmiş hadisə idi. Azərbaycanın müstəqillik uğrunda apardığı mübarizədə bununla Naxçıvan MSSR ilk qətiyyətli addımı atmış oldu. **Qan yaddaşımız. Qürur yerimiz.** Respublikanın rəhbərliyi isə Azərbaycanda baş vermiş hadisələrdən təşvişə düşən Moskvaya müraciət edərək Qarabağda fövqəladə rejimin tətbiq edilməsini xahiş etdi. Moskva xahişi yerinə yetirərək yanvarın 15-də Azərbaycana silahlı qüvvələr yeritdi. Yanvar ayının 19-dan 20-nə keçən gecə xəbərdarlıq edilmədən

Bakı Texnik Kolleci

Bakıda fövqəladə vəziyyət elan olundu və dərhal da qoşunlara hücum əmri verildi. 20 Yanvar faciəsi adı ilə tarixə düşən hadisə nəticəsində bir gecədə Bakıda və ətraf rayonlarda aralarında azyaşlıların, qocaların və qadınların da olduğu 131 nəfər öldürüldü, 744 nəfər yaralandı, 400 nəfər həbs olundu. Xalq öz şəhidlərinin xatirəsini əziz tutub sovet rəhbərliyinin bu addımına etiraz əlaməti olaraq 40 günlük matəm tətilinə çıxdı. 40 gün ərzində Bakıda heç bir müəssisə, fabrik, zavod işləmədi. Faciənin ertəsi gün Moskvada yaşayan Ümummilli lider Heydər Əliyev təzyiqlərə məhəl qoymadan Azərbaycanın daimi nümayəndəliyinə gəlib qəti şəkildə sovet hökumətinin bu addımını pislədi və bunun fəsadları haqqında rəhbərliyə xəbərdarlıq etdi. Heydər Əliyev faciəni dünyaya fərqli şəkildə çatdırmaq istəyən erməni və sovet məmurlarının planlarını alt-üst edərək dünyanın diqqətini Bakıya çəkə bildi. Moskva isə ölkədə Əbdürrəhman Vəzirovu özünün digər sədaqətli nümayəndəsi Ayaz Mütəllibovla əvəz etdi. 1990-cı ilin may ayında prezident vəzifəsi təsis edilən kimi onu bu vəzifəyə “seçdi”. Halbuki xalqın nəzərləri Heydər Əliyevə yönəlmişdi. 1990-cı il iyulun 20-də Ümummilli liderin Bakıya gəlməsi A.Mütəllibovu narahat etdiyindən onun paytaxtda qalmasına imkan vermədilər. Lakin Naxçıvan MSSR Ali Məclisinə və Azərbaycan Ali Sovetinə üzv seçilən Heydər Əliyev tezliklə öz mübarizəsini deputat tribunasından davam etdirməyə başladı. Məhz onun səyi nəticəsində noyabr ayında Naxçıvan MR-in adından “Sovet Sosialist” sözləri götürüldü, üçrəngli bayraq isə ilk dəfə olaraq dövlət bayrağı kimi təsdiq olundu. Bakıda da tezliklə adekvat

Bakı Texniki Kolleci

addımlar atıldı. 1991-ci ilin fevralında ölkə Azərbaycan Respublikası adlandırıldı, üçrəngli dövlət bayrağı xüsusi qanunla təsdiq olundu.

Bütün bunlar göstərir ki, Azərbaycan xalqı öz suverenliyinə gərgin mübarizə yolu ilə gəlib çıxmış, Heydər Əliyev isə bu mübarizənin Ümummilli liderinə çevrilmişdir.




Şəhidlər xiyabanı. 20 Yanvar faciəsi qurbanlarının məzarları

# 15. Birinci Qarabağ müharibəsi. Xocalı soyqırımı

Qarabağ Azərbaycanın əzəli və ayrılmaz parçasıdır. Ermənilər onun dağlıq hissəsində 1923-cü ildə sovet rəhbərliyi tərəfindən yaradılmış muxtar qurumu daima Azərbaycandan ayırmağa çalışmışlar. 1980-ci illərin sonlarında onların mövcud olan şəraitdən istifadə edərək fəallaşması Dağlıq Qarabağın və ətraf rayonların müvəqqəti olaraq itirilməsi ilə nəticələndi.

Qarabağ münaqişəsi. Ermənilər əvvəl sovet, sonra Rusiya hərbi qüvvələrinin köməyindən istifadə edərək Qarabağdakı fitnəkar əməllərini genişləndirdilər. Azər baycanlılar sıxışdırılır və ərazidən zorla çıxarılırdı. 1991-ci ilin sentyabrında ermənilər tərəfindən qeyri-qanuni qurumun–Dağlıq Qarabağ Respublikasının yaradıldığı elan edildi. Bu qanunsuz əmələ cavab olaraq Azərbaycan Respublikası həmin il noyabrın 26-da DQMV-nin statusunu ləğv etdi.

SSRİ-nin dağılmaqda olduğu bir vaxtda onlar öz havadarlarına və uzun müddətdən bəri hazırlaşdıqlarına güvənərək hərəkətə keçdilər. Düşmənin müvəffəqiyyətinin bir səbəbi də Azərbaycanda ordu quruculuğuna ciddi şəkildə başlanılmaması idi. Ermənilərin törətdiyi silahlı təxribatlara əhali arasından çıxan könüllülər və Azərbaycan milisi (polisin əvvəlki adı) cavab verməli olurdu. Azərbaycanda mövcud olan demokratik qüvvələrin təzyiqi 1991-ci ilin sentyabrında Müdafiə Nazirliyinin təşkil edilməsi, oktyabrın 9-da isə Azərbaycan Respublikasının silahlı qüvvələri haqqında qanunun qəbul edilməsi ilə nəticələndi. Noyabrın 19-da 22 rayon və şəhərdə özünümüdafiə batalyonlarının yaradılması qərara alındı. Lakin qat-qat yaxşı silahlanmış və təlim görmüş düşmənə qarşı bu dəstələrlə mübarizə aparmaq çox çətin idi. Müharibənin ilk illəri. Qarabağın azərbaycanlılar yaşayan məntəqələrinə ermənilər tərəfindən hücumlar genişləndirildi. 1992-ci ilin əvvəllərində Şuşa mühasirə vəziyyətində idi. Şuşanın

Bakı Texniki Kolleci

mühasirəsini yarmaq üçün yanvarın sonlarında Azərbaycan ordusu "Daşaltı" əməliyyatı keçirdi. Lakin düzgün rabitə qurulmaması səbəbindən əməliyyat uğursuzluqla nəticələndi. Malıbəyli, Aşağı Quşçular və Yuxarı Quşçular kəndləri də işğal edildi. Fevralın ortalarında düşmən Qaradağlı kəndini ələ keçirdi. Kəndin müdafiəçilərinə və dinc sakinlərə vəhşicəsinə divan tutuldu.Fevralın sonunda isə Xocalı soyqırımı törədildi. Azərbaycan dövləti Dağlıq Qarabağ münaqişəsini ATƏM-də müzakirəyə çıxardı. Münaqişənin həlli üçün yaradılan Minsk qrupu fəaliyyət göstərsə də, Dağlıq Qarabağdakı ərazilər bir-birinin ardınca ermənilər tərəfindən işğal edilirdi. 1992-ci il mayın 8-də Ermənistan Şuşa şəhərinin tutulması ilə Dağlıq Qarabağın, demək olar ki, bütün ərazisini ələ keçirmiş oldu. Bir neçə gün sonra Laçın rayonunun işğalı ilə Dağlıq Qarabağla Ermənistan arasında birbaşa əlaqə yaradıldı.Ölkəmizdə ordu quruculuğu prosesi də davam etməkdə idi. Fevral ayında Azərbaycan aviaeskadrilyası yaradıldı. 1992-ci ilin mayında imzalanmış Daşkənd müqaviləsinə əsasən keçmiş SSRİ-nin Xəzər donanmasının qüvvə və vəsaitinin 25 faizi Azərbaycan Respublikasının sərəncamına keçdi. Martın 25-də Azərbaycan Respublikasının o dövr üçün ən yüksək fərqlənmə dərəcəsi olan Azərbaycanın Milli Qəhrəmanı adı müəyyən olundu. İyunun 5-də Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin 11 əməkdaşı göstərdiyi şəxsi igidlik və şücaətə görə ölümlərindən sonra bu fəxri ada layiq görüldü.

1992-ci ilin yay aylarında Azərbaycan ordusu bir sıra müvəffəqiyyətlər əldə etdi. İyul avqust aylarında Ağdərə rayonunun ərazisi, demək olar ki, azad olundu. Goranboyun düşmən tərəfindən tutulmuş torpaqları geri alındı. Avqustun əvvəllərində Ermənistanın Azərbaycan (Gədəbəy rayonunda) ərazisindəki anklavı– Başkənd düşməndən təmizləndi. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası 30 aprel 1993-cü ildə qəbul etməyə məcbur olduğu 822 saylı qətnamə ilə Kəlbəcər rayonunun işğalından narahatlığını ifadə etdi.

Bakı Texniki Kolleci

Respublikadakı siyasi böhran, Surət Hüseynovun hərbi qiyamı və ən əsası, ermənilərin cəzasız qalması düşmənə iyun ayının əvvəllərində güclü hücuma keçməyə imkan verdi. İyul ayında Ağdam, avqustda Cəbrayıl, Füzuli, Qubadlı, oktyabrın sonlarında isə Zəngilan rayonları işğala məruz qaldı. BMT-nin Təhlükəsizlik Şurası Azərbaycan torpaqlarının işğalı ilə bağlı olan 853, 874, 884 saylı qətnamələr qəbul etdi. Həmin sənədlərdə ermənilərin işğal olunmuş ərazilərdən dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılması tələb edilsə də, Ermənistan müxtəlif bəhanələrlə bu tələbləri yerinə yetirməkdən boyun qaçırdı.

Müharibənin gedişində dönüş. Ümummilli lider Heydər Əliyevin 1993-cü ilin iyun ayında respublikanın rəhbərliyinə qayıdışı ordu quruculuğunda da ciddi nəticələrə gətirib çıxardı. Nizamsız hərbi hissələr ləğv edildi, güclü nizami ordu yaradılması prosesi başladı. 1993-cü il noyabrın 2-də Heydər Əliyev televiziya və radio ilə müraciət edərək xalqı düşmənə qarşı birləşməyə və mübarizəyə qalxmağa səslədi. Xalq öz rəhbərinin çağırışına səs verdi. Tez bir zamanda könüllülərdən ibarət taborlar yaradıldı və cəbhəyə göndərildi. Əfqanıstanda xidmətdə olmuş keçmiş döyüşçülər Prezidentə müraciət etdikdən sonra onlardan ibarət hərbi hissə yaradıldı. 1993-cü ilin noyabrında Ali Sovet Müdafiə haqqında qanun qəbul etdi. Prezident şəxsən cəbhə bölgələrində olub konkret tədbirlər müəyyənləşdirdi. Həmin il noyabrın ortalarında Azərbaycan ordusu artıq cəbhələrdə ermənilərin hücumlarına ciddi müqavimət göstərə bilirdi. Dekabrın ortalarında Azərbaycan əsgərləri Beyləqan istiqamətində böyük qəhrəmanlıq nümayiş etdirdilər. Akif Xanəliyev bir döyüşdə 50-yə qədər düşmən əsgərini məhv etdi, Etibar İsmayılov döyüşçü yoldaşlarını xilas edərək özünü düşmən tankının altına atdı və onu partlatdı. Ölümündən sonra o, Azərbaycanın Milli Qəhrəmanı adına layiq görüldü. Dağlıq Qarabağ münaqişəsinin gedişində təkcə azərbaycanlılar deyil, digər millətlərdən olan bir çox Azərbaycan vətəndaşı da qəhrəmanlıq gös tərmişdir. Onların arasından

Bakı Texniki Kolleci

ölümlərindən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüş İsgəndər Aznaurovun, Yuri Kovalyovun, Albert Aqarunovun və başqalarının adlarını çəkmək olar. Azərbaycan öz suverenliyinə hörmət çərçivəsində Rusiyanın münaqişəni həll etmək səylərinə də sayğı ilə yanaşdı. Azərbaycan Respublikası 1994-cü il mayın 8-də münaqişədə iştirak edən tərəflərin, o cümlədən Dağlıq Qarabağın azərbaycanlı və erməni icmalarının niyyətini təsdiq edən Bişkek protokolunu imzaladı. 1994-cü il mayın 12-də cəbhə xəttində atəşkəs əldə edildi. 1994-cü il yanvarın 5-də Azərbaycan ordusu Füzuli rayonundakı mühüm strateji əhəmiyyətə malik olan Horadiz qəsəbəsini və 22 kəndi azad etdi. Hücum genişləndirildi, Cəbrayıl rayonunun bir hissəsi, Kəlbəcər rayonunun bir sıra yaşayış məntəqələri düşməndən təmizləndi. Döyüşlərdə düşmən 4 min əsgər və zabit itirdi. Nüfuzlu imperiyapərəst qüvvələr ermənilərə köməklərini daha da artırdı. Lakin Azərbaycan Silahlı Qüvvələri düşmənin bütün cəbhələrdəki hücumlarına sinə gərə bildi.  Birinci Qarabağ müharibəsində 20 min azərbaycanlı şəhid, 5 min nəfər əlil oldu, 100 min nəfər yaralandı. 4 minə yaxın Azərbaycan vətəndaşı itkin düşmüş hesab olunur. Qaçqın və köçkünlərin sayı isə 1 milyonu keçmişdi.

## Xocalı soyqırımı

Öz tarixində dəfələrlə ermənilər tərəfindən soyqırımına məruz qalan Azərbaycan xalqı 1992-ci ilin fevralında Xocalıda növbəti faciə ilə üzləşdi. Bu zaman əsrin ən dəhşətli hadisələrindən biri baş verdi və ölkənin tarixinə qara hərflərlə yazıldı. Xocalı soyqırımının səbəbləri. Xocalı Xankəndidən 10 kilometr şimal-şərqdə, Ağdam- Şuşa və Əsgəran-Xankəndi yollarının üzərində yerləşir. Dağlıq Qarabağ münaqişəsinin ilk günlərindən etibarən Xocalı diqqət mərkəzində idi. Ermənistanda repressiyaya məruz qalaraq öz doğma torpaqlarından qovulan 1500 azərbaycanlı və Fərqanədən (Özbəkistandan) gəlmiş 495 Axıska türkü məhz Xocalıda

Bakı Texniki Kolleci

məskunlaşmışdı. Həmin dövrdə Xocalıya qayğı göstərilirdi. Hələ 1988-ci ilin oktyabrında Azərbaycan hökuməti Xocalının sosial inkişafına dair xüsusi qərar qəbul etmişdi. Həmin qərara görə respublikanın müxtəlif rayonlarından Xocalıya tikinti materialları, işçi qüvvəsi göndərilir, şəhər sürətlə tikilir və genişlənirdi. Xankəndidən qovulan 18 min azərbaycanlının da bir qismi Xocalıya pənah gətirmişdi. Ermənistan tərəfindən işğal olunmazdan əvvəl bu şəhərin əhalisinin sayı 7000 nəfərə çatmışdı. Ermənilər Xocalı aeroportu vasitəsilə Xankəndinə hərbi sursat daşıyırdılar. Xocalı polisi fədakarlıq edərək bunun qarşısını tədricən alırdı. Belə ki sərnişin reyslərindən başqa, heç bir yük təyyarəsinin həmin aeroporta enməsinə yol vermirdi. Ermənilərin Xocalını əsas hədəflərdən biri kimi seçməsi təsadüfi deyildi. Düşmən Xocalını işğal etməklə bir sıra məqsədlər güdürdü: 1. Dağlıq Qarabağ regionunun digər şəhərlərini ələ keçirmək üçün strateji üstünlük qazanmaq;

2. Regionda yeganə mülki hava limanına malik olan mühüm kommunikasiya mərkəzini ələ keçirmək;

3. Xocalıda törədilən soyqırımı ilə psixoloji üstünlük əldə etmək və azərbaycanlıların iradəsini qırmaq;

4. Xocalıda və ətraf ərazilərdə olan tarixi izlərin onların ərazi iddialarını puça çıxartdığı üçün bu şəhəri yer üzündən silmək.

**Xocalı soyqırımının törədilməsi.** 1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə güclü artilleriya atəşindən sonra SSRİ dövründə Xankəndi şəhərində yerləşdirilmiş 366-cı motoatıcı alayın zirehli texnikası və hərbi heyətinin köməyi ilə Ermənistan silahlı qüvvələri və yarım hərbi birləşmələr şəhəri ələ keçirmək üçün hərəkətə keçdi. Hücum başladıqdan sonra şəhərdə qalan 2500-ə yaxın əhali azərbaycanlıların nəzarətində olan ən yaxın məkana çatmaq məqsədilə buranı tərk etməyə çalışdı. Lakin insanların ümidi boşa çıxdı. Şəhəri tərk edənlər pusquya salındılar, Naxçıvanlı və Pircamal kəndləri yaxınlığında erməni hərbi postları tərəfindən ya atəşə tutularaq



Bakı Texniki Kolleci

qətlə yetirildilər, ya da əsir götürüldülər. Düşmən Xocalı soyqırımını törətməklə 613 nəfəri qətlə yetirdi; o cümlədən 63 uşaq, 106 qadın, 70 qoca, 8 ailə tamamilə məhv edildi; 25 uşağın hər iki valideyni, 130 uşağın isə bir valideyni öldürüldü. Həmçinin 487 nəfər yaralandı, 1275 nəfər girov götürüldü, 150 nəfər isə itkin düşdü. Yalnız çox az sayda insan Azərbaycanın nəzarətində olan Ağdam şəhərinə çata bildi. Xocalıda mülki əhalinin bilərəkdən, zorakılıqla qətlə yetirilməsini çoxsaylı faktlar sübut edir. Məsələn, həmin gün əhalinin xilas olmaq istəyən xeyli hissəsinin ərazidən çıxış yollarında əvvəlcədən hazırlanmış xüsusi pusqularda məhv edilməsi bunlardan biridir. Xocalı soyqırımının törədilməsinə işğalçı ölkə olan Ermənistanın rəhbərləri də xeyir- dua vermişdilər. Məsələn, 1992-ci ildə L.Ter-Petrosyan erməni ordusuna müraciətində demişdi: "Siz ermənilər düşməni öldürərkən ürəyi yumşaqlıq göstərməməlisiniz. Dağlıq Qarabağda azərbaycanlıları qırıb qurtarana və orada öz sivilizasiyamızı bərqərar edənə qədər sizin düşmənə yazığınız gəlməməlidir". Keçmiş Ermənistan prezidenti S.Sarkisyan Xocalı soyqırımını törədən qüvvələrə başçılıq edənlərdən, onları təşkilatlandıranlardan biri olub və soyqırımında bilavasitə iştirak edib. Onun Tomas de Vaalın "Qarabağ" kitabında verilən fikirləri erməniləri ifşa edir: "Xocalıya qədər azərbaycanlılar elə bilirdilər ki, bizimlə zarafat etmək olar, onlar elə fikirləşirdilər ki, ermənilər dinc əhaliyə əl qaldırmazlar. Biz o stereotipi sındırdıq". Xocalının düşmən tərəfindən işğal olunması zamanı böyük şücaət göstərərək şəhid olmuş bir sıra igid vətən oğulları Azərbaycanın Milli Qəhrəmanı fəxri adına layiq görülmüşlər. Bunların arasında Xocalı aeroportunun komendantı Əlif Hacıyevin, Xocalı ərazi özünü müdafiə batalyonunun komandiri Tofiq Hüseynovun, rota komandiri Aqil Quliyevin, silahlı dəstəyə başçılıq etmiş Ələsgər Novruzovun adlarını çəkmək olar. Xocalı soyqırımı zamanı dinc əhalinin xilas edilməsində fərqlənmiş və şəhidlik zirvəsinə yüksəlmiş Hikmət Nəzərli, Füzuli Rüstəmov, Canbulaq Rzayev, Araz Səlimov da ölümlərindən sonra Azərbaycanın Milli Qəhrəmanı adını aldılar. Xocalı həqiqətlərinin dünyaya çatdırılmasında



Bakı Texniki Kolleci

Azərbaycanın Milli Qəhrəmanı Çingiz Mustafayevin çəkdiyi video çəkilişlərin rolu əvəzsizdir.Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev Xocalı hadisəsi ilə bağlı demişdir: “Xocalı soyqırımı XX əsrin ən böyük insan faciələrindən biridir. Xocalıda misli görünməmiş qəddarlıqla törədilmiş bu insan qırğınının Yer kürəsinin hər hansı bir guşəsində baş verməsinin qarşısını almaq üçün Xocalı soyqırımı həqiqətləri dünya ictimaiyyətinə hərtərəfli çatdırılmalı və humanizm ideallarına sədaqət nümayiş etdirən bütün insanların bu faciəyə öz qəti, birmənalı mövqelərini bildirmələri üçün ciddi və məqsədyönlü iş aparılmalıdır” Xocalı faciəsinə qiymət verilməsi. Məhz Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıtmasından sonra Xocalı soyqırımına ciddi siyasi, hüquqi qiymət verilmişdir. Milli Məclis onun təşəbbüsü ilə 1994-cü ildə “Xocalı soyqırımı günü haqqında” qərar qəbul etmişdir. Həmin sənəddə hadisənin səbəbləri və günahkarları ətraflı şəkildə göstərilmişdir. Ulu öndərin 25 fevral 1997-ci il tarixli sərəncamı ilə hər il fevral ayının 26-sı saat 17.00-da Azərbaycan Respublikasının ərazisində Xocalı soyqırımı qurbanlarının xatirsinə ehtiram əlaməti olaraq sükut dəqiqəsi elan edilir. Xocalı faciəsinin soyqırımı kimi dəyərləndirilməsi və dünya ictimaiyyətinə təqdim edilməsi Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərindən biridir. Bu istiqamətdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ardıcıl və sistemli tədbirlər həyata keçirir. Bununla bağlı Heydər Əliyev Fondu, xüsusən onun prezidenti, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın fəaliyyəti də xüsusi olaraq qeyd edilməlidir. 2008-ci ildə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə “Xocalıya ədalət” beynəlxalq maarifləndirmə kampaniyasına start verilmişdir. Kampaniya Xocalı soyqırımının dünya ölkələri tərəfindən tanınması, erməni cinayətkarlarının məsuliyyətə cəlb olunması, həmçinin Xocalı soyqırımı qurbanlarının yad edilməsi, onların xatirəsinin əbədiləşdirilməsi və sağ qalmış ailələrə dəstək verilməsi məqsədi daşıyır.

Bakı Texniki Kolleci

# 16.Dövlət müstəqilliyinin bərpası. Milli Qurtuluş. Azərbaycan Respublikasının daxili və xarici siyasəti

Xalqın azadlıq mübarizəsi XX əsrin sonunda müstəqil Azərbaycan dövlətinin bərpası ilə nəticələndi. 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının Ali Soveti "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı"nı qəbul etdi. Bununla da Azərbaycan tarixinin Üçüncü respublika dövrü başlandı.

Müstəqilliyin bərpasına gedən yolda. Heydər Əliyev hələ 7 mart 1991-ci ildə – Azərbaycan Respublikası Ali Sovetinin sessiyasındakı çıxışında SSRİ-nin saxlanılmasına münasibət bildirilməsi üçün keçiriləcək Ümumittifaq referendumunda iştirakın əleyhinə çıxış etmiş, Azərbaycanın müstəqil dövlət kimi mövcud ola biləcəyini əsaslandırmışdı. Naxçıvan MR-in Ali Məclisi 1991-ci il martın 14-də SSRİ-nin saxlanılması barədə referendumda iştirak etməmək haqqında qərar qəbul etdi. Bundan ruhlanan Azərbaycanın demokratik qüvvələri bütövlükdə həmin referendumu boykot etdi. SSRİ rəhbərliyinin yarıtmaz siyasəti, xüsusən Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qərəzli mövqeyi, həmçinin həyat səviyyəsinin getdikcə aşağı düşməsi müstəqillik ideyalarının respublika əhalisi arasında daha çox yayılmasına səbəb oldu. Həmin dövrdə Heydər Əliyev sovet imperiyasını qorumağa çalışan qüvvələrə, xüsusən SSRİ və respublika rəhbərliyinə öz etirazını bildirməkdən çəkinmir, çıxışlarında Azərbaycanın müstəqil dövlət ola biləcəyini əsaslandırırdı. Xalqın azadlıq mübarizəsinə rəhbərliyi Heydər Əliyev, parlamentdə müxalifətə rəhbərliyi isə "demokratik blok"un üzvləri həyata keçirirdi. Dağılmaqda olan SSRİ-nin mühafizəkar liderləri 1991-ci ilin avqustunda ölkə başçısı Qorbaçovu

Bakı Texniki Kolleci

hakimiyyətdən kənarlaşdıraraq Dövlət Fövqəladə Vəziyyət Komitəsi yaratdılar. Lakin Rusiyada demokratik qüvvələr dövlət çevrilişinin qarşısını aldılar. Azərbaycanın da hər yerində mühafizəkarlara qarşı mitinqlər başladı. Avqustun 22-də fövqəladə vəziyyətin hökm sürməsinə (bu zaman bir çox demokratik hüquqlar məhdudlaşdırılır, eyni zamanda kütləvi aksiyalar keçirilməsinə icazə verilmirdi) baxmayaraq, Bakının Nizami meydanında mitinq keçirildi və zorla dağıdıldı. Növbəti gün AXC binasının qarşısındakı mitinqə də amansızlıqla son qoyuldu. Lakin xalqın qəzəbi gündən-günə artmaqda idi. Bakının Azadlıq meydanında bir milyona yaxın adamın iştirakı ilə mitinqlər keçirildi. Respublikanın başqa yerlərində, o cümlədən Naxçıvanda da izdihamlı çıxışlar oldu. Bu kütləvi aksiyalarda respublikadakı fövqəladə vəziyyətin ləğv edilməsi, DQMV-də Azərbaycanın suveren hüquqlarının təmin olunması kimi cəsarətli tələblər irəli sürüldü. Nəhayət, xalqın tələbi ilə Azərbaycan Respublikası Ali Sovetinin növbədənkənar sessiyası çağırıldı. 1991-ci il avqustun 30-u keçirilən bu sessiyada Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa edilməsi haqqında Bəyannamə qəbul edildi.

Dövlət müstəqilliyi uğrunda mübarizənin genişlənməsi. Bundan sonra respublikada dövlət müstəqilliyi uğrunda mübarizə daha da genişləndi. Sentyabrın 14-də Azərbaycan Kommunist Partiyası fövqəladə qurultay keçirərək buraxıldığını elan etdi. Bu hadisə ilə bağlı Heydər Əliyev öz çıxışında demişdir: “Biz artıq Sovet imperiyasının, Kommunist Partiyasının dağılmasının şahidiyik... Bizim respublikamızın, Azərbaycan xalqının vəziyyəti daha çətin, daha ağırdır. Bunun əsas səbəbi respublikada hökm sürən Azərbaycan Kommunist Partiyasının diktatura rejiminin mürtəce siyasəti və buraxdığı kobud, bağışlanılmaz səhvləridir”. 1991-ci il sentyabrın 3-də Heydər Əliyev xalqın israrlı tələbi ilə Naxçıvan MR Ali Məclisinin sədri seçildi. 1991-ci ilin oktyabrında – o dövrkü iqtidar nümayəndələri

Bakı Texniki Kolleci

ilə Azərbaycan Xalq Cəbhəsi liderlərinin görüşündə Milli Şuranın yaradılması haqqında razılaşma əldə edildi. Azərbaycan xalqının müstəqilliyə yönəlmiş səyi qanuni sonluqla nəticələndi və 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı" yekdilliklə qəbul edildi.Konstitusiya Aktında qeyd olunurdu ki, Azərbaycan dövləti müstəqil, unitar və dünyəvi dövlətdir. SSRİ-nin Azərbaycan ərazisindəki bütün daşınar və daşınmaz mülkiyyəti Azərbaycan Respublikasının mülkiyyəti hesab olunur. Siyasi, iqtisadi və mədəni həyatını öz tarixi və milli ənənələrinə, ümumbəşəri dəyərlərə uyğun inkişaf etdirmək Azərbaycan xalqının inkar edilməz və bölünməz hüququdur. Azərbaycan xalqı Azərbaycan Respublikası ərazisində və ondan kənarda yaşayan, Azərbaycan dövlətinə və onun qanunlarına tabe sayılan bütün Azərbaycan Respublikası vətəndaşlarından ibarətdir.

● Siyasi hakimiyyət xalqa məxsusdur, suveren hakimiyyət parlament, ali icra orqanı və məhkəmələr, ümumi, birbaşa, gizli, bərabər səsvermə yolu ilə seçilmiş nümayəndələr vasitəsilə həyata keçirilir.

● Respublikanın ərazisi və sərhədləri toxunulmazdır.

● Təbii ehtiyatlar Azərbaycan Respublikasına məxsusdur.

● İqtisadi fəaliyyət bazar münasibətlərinə və azad sahibkarlığa əsaslanır.

● Qanunla müəyyənləşdirilmiş hallardan başqa məcburi əmək qadağandır.

● Zəhmətkeşlərin qanunla tənzimlənən tətil hüquqları vardır. Konstitusiya Aktında vətəndaşların seçib-seçilmək, siyasi partiya və birliklər yaratmaq hüququ, respublikanı müdafiə etmək, öz gəlirlərinə müvafiq olaraq vergilər ödəmək, qanunlara danışıqsız əməl etmək vəzifələri və s. təsbit olunurdu. Buna baxmayaraq,

Bakı Texniki Kolleci

o dövrdəki Azərbaycan rəhbərliyi imperiyanın dağılacağına inamsızlıq nümayiş etdirərək respublikanın müstəqilliyinin referendumla təsdiq edilməsini ləngidirdi.

**Müstəqilliyin hüquqi cəhətdən möhkəmlənməsi.** 1991-ci il dekabrın 8-də Belarusun Brest şəhəri yaxınlığında Rusiya Federasiyası, Ukrayna və Belarus rəhbərləri Müstəqil Dövlətlər Birliyi (MDB) yaradılması haqqında müqavilə bağladılar. Bununla da SSRİ beynəlxalq hüquq subyekti kimi tarix səhnəsindən silindi. Azərbaycanın müstəqil dövlətə çevrilməsində daha bir həll edici addım dekabrın 29-da atıldı. Həmin gün keçirilən referendum bülleteninə “Siz “Azərbaycan Respublikasnın dövlət müstəqilliyi haqqında” Azərbaycan Respublikası Ali Sovetinin qəbul etdiyi Konstitusiya Aktına tərəfdarsınızmı?” sualı yazılmışdı. Azərbaycan xalqı verilmiş suala yekdilliklə müsbət cavab verərək dövlət müstəqilliyinə tərəfdar olduğunu bildirdi.

**Dövlət atributlarının qəbul edilməsi.** 1991-ci il fevralın 5-də Azərbaycan SSR adından “Sovet Sosialist” sözləri götürüldü, üç rəngli, ay-ulduzlu bayraq dövlət bayrağı kimi təsdiq edildi. Beləliklə, dövlət rəsmən Azərbaycan Respublikası adlandırıldı.

Milli Məclis 1992-ci ilin mayında musiqisini Üzeyir Hacıbəylinin, sözlərini Əhməd Cavadın yazdığı “Azərbaycan marşı”nı Dövlət Himni kimi qəbul etdi. 1993-cü ilin yanvarında isə Dövlət Gerbi təsdiq olundu. Beləliklə, Azərbaycan xalqı yaranmış tarixi şəraitdən düzgün və uğurla istifadə edərək XX əsrdə ikinci dəfə öz dövlət müstəqilliyini elan etdi.



Azərbaycan Respublikasının Dövlət Gerbi

Bakı Texniki Kolleci

Böyük əziyyət və qurbanlar hesabına əldə edilmiş dövlət müstəqilliyini qoruyub saxlamaq və inkişaf etdirmək olduqca çətin idi. Azərbaycan Respublikası ilk gündən daxili və xarici siyasətdə müəyyən uğurlar qazansa da, siyasi hərc-mərclik və hakimiyyət uğrunda çəkişmələr ölkənin inkişafına maneçilik törədirdi.

***Müstəqilliyin ilk addımları.*** Müstəqil dövlətə çevrilmiş Azərbaycan Respublikası olduqca mürəkkəb beynəlxalq şəraitdə fəaliyyət göstərməli idi. Azərbaycanın daxili və xarici siyasətinin ali məqsədi dövlət müstəqilliyini tanıtmaq və möhkəmləndirmək, ölkə daxilində səmərəli dövlət quruculuğunu həyata keçirmək, güclü bir dövlət qurmaq və vətəndaşlarının daha yaxşı yaşayışını təmin etməkdən ibarət idi. Müstəqillik əldə edilən kimi xarici siyasətdə ilk addımlar atılmağa başlandı. Ölkənin müstəqilliyini 1991-ci il noyabrın 9-da ilk olaraq Türkiyə Cümhuriyyəti tanıdı. 1991-ci ilin sonuna qədər Azərbaycan Respublikası Rumıniya, Pakistan, İsveçrə, İran tərəfindən tanındı. Bu proses 1992-ci ildə də davam etdi.



Azərbaycan Respublikası müxtəlif beynəlxalq təşkilatların üzvlüyünə qəbul edilməkdə idi. O, 1991-ci ilin dekabrında İslam Konfransı təşkilatına, 1992-ci ilin fevralında İqtisadi Əməkdaşlıq Təşkilatına, iyulunda isə Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinə (ATƏM) qoşuldu. 1992-ci il martın 2-də Birləşmiş Millətlər Təşkilatına (BMT-yə) üzv olan Azərbaycan həmin təşkilatın qəbul və təsdiq etdiyi bir çox mühüm beynəlxalq sənədləri imzaladı. Respublikanın bir sıra ölkələrdə səfirlikləri açıldı.

Hakimiyyət uğrunda çəkişmələr. Bütün bunlara baxmayaraq, ölkə daxilində siyasi vəziyyət heç də sabit deyildi. 1991-ci il noyabrın 20-də Xocavəndin erməni quldurları tərəfindən tutulması ilə bağlı vəziyyətlə yerində tanış olmaq üçün Yuxarı Qarabağa getmiş nümayəndə heyətini Ağdama aparan vertolyot vurulub salındı. Həlak olmuş şəxslər arasında Dövlət katibi, Baş prokuror,respublikanın bir sıra yüksək rütbəli məmurları, habelə SSRİ Müdafiə Nazirliyinin nümayəndələri, Rusiya və Qazaxıstandan olan müşahidəçilər vardı. Bu hadisə respublikadakı siyasi vəziyyəti daha da gərginləşdirdi. Noyabrın 26-da Ali Sovetdə Milli Şura haqqında qanuna dəyişikliklər edildi. Yaradılan Milli Şuranın 50 üzvündən 25-i "demokratik blok"un üzvü, yerdə qalanlar isə deputatlardan ibarət idi. Bu, demokratik qüvvələrin ciddi uğuru kimi qiymətləndirildi. Ölkənin o dövrdəki prezidenti Ayaz Mütəllibov və onun yaxın ətrafı vəziyyətə tam nəzarət etməkdə çətinlik çəkirdi. Rusiyanın imperiyapərəst dairələri var qüvvələri ilə Azərbaycanda öz təsirlərini saxlamağa çalışırdı. Xocalı faciəsi ölkədəki siyasi gərginliyi daha da şiddətləndirdi. Əhalinin çox hissəsi uzun müddət ərzində mühasirədə qalan şəhərə lazımi köməyin göstərilməməsinə, geniş hücum olacağı barədə məlumat alındıqdan sonra da Xocalının dinc əhalisinin təhlükəsiz yerlərə köçürülməməsinə görə respublika rəhbərliyini ittiham edirdi. Ali Sovetin binası qarşısında izdihamlı mitinq keçirən xalqın tələbi ilə parlamentin 1992-ci il martın 5–6-da keçirilən fövqəladə sessiyası

Bakı Texniki Kolleci

A.Mütəllibovun istefasını qəbul etdi. Parlamentin sədri Yaqub Məmmədov prezident səlahiyyətlərini daşımağa başladı. Elan edilmiş prezident seçkiləri hakimiyyət uğrunda mübarizəni daha da gücləndirdi. Həm hakimiyyəti ələ keçirmək, həm də revanş almaq istəyənlər fəallaşmışdı. Həmin dövrdə Konstitusiyanın 121-ci maddəsinin 2-ci bəndi prezident seçilməsi üçün yaş senzi müəyyən edirdi. Xalqın həmin bəndin dəyişdirilməsi, bununla da Heydər Əliyevin hakimiyyətə qayıtmasına imkan verilməsi ilə bağlı çoxsaylı müraciətlərinə respublika rəhbərliyi məhəl qoymurdu.Hakimiyyət böhranı Şuşa və Laçının işğalından sonra yeni mərhələyə qədəm qoydu. A.Mütəllibov öz tərəfdarlarının köməkliyi ilə mayın 14-də keçirilən parlamentin sessiyasında yenidən öz vəzifəsinə qaytarıldı. O, dərhal ölkədə fövqəladə vəziyyət tətbiq etmək, siyasi azadlıqları məhdudlaşdırmaq haqqında fərman verdi. Demokratik qüvvələr A.Mütəllibovun hakimiyyətə qayıtmasını hiddətlə qarşıladı. Mayın 15-də Azərbaycan Xalq Cəbhəsinin qərargahı qarşısında mitinq başlandı. Ölkədəki proseslərlə bağlı Heydər Əliyevin bəyanatı dəfələrlə orada səsləndirildi. O, növbədənkənar sessiyada qəbul olunmuş qərarları Konstitusiyaya zidd qərarlar kimi qiymətləndirdi, Naxçıvan Muxtar Respublikası əhalisinin keçmiş prezidentin yenidən hakimiyyətə gəlməsini müdafiə etmədiyini və Bakıda keçirilən kütləvi mitinqlərlə həmrəy olduğunu bildirdi.


Ayaz Mütəllibov


Əbülfəz Elçibəy

AXC rəhbərliyinin A.Mütəllibovun Konstitusiyaya zidd rejimini tanımamaqla bağlı çağırışına bütün müxalif qüvvələr qoşuldu. A.Mütəllibovu dəstəkləyənlər qüvvələr nisbətini görərək silahlı münaqişə törətməkdən çəkindilər. Demokratik qüvvələrin yürüşü nəticəsində strateji əhəmiyyətli dövlət obyektləri ələ keçirildi. A.Mütəllibov ölkədən qaçmalı oldu. Ali Sovetin mayın 18-dəki sessiyası mayın 14-də parlamentin qəbul etdiyi qərarların qanuni olmadığını elan etdi. İsa Qəmbərov Azərbaycan Respublikası Ali Sovetinin sədri seçilərək prezident səlahiyyətlərini müvəqqəti olaraq həyata keçirməyə başladı. Beləliklə, AXC hakimiyyətə gəlişini legitimləşdirdi. Həmin sessiyada Ali Sovetin Milli Şurası Milli Məclis adlandırıldı və parlament səlahiyyətlərinə malik oldu. İyunun 7-də keçirilən Prezident seçkilərində AXC-nin sədri Əbülfəz Elçibəy qalib gəldi. AXC hakimiyyəti dövründə ölkənin pul vahidi manat dövriyyəyə buraxıldı. Ordu quruculuğu və vahid komandanlığın yaradılması istiqamətində əsaslı addımlar atıldı. Lakin hakimiyyətə gəlmiş qüvvələr tezliklə xalqın etibarını itirməyə başladı. Onlar hakimiyyəti möhkəmləndirə və ondan xalqın xeyrinə səmərəli istifadə edə bilmədilər. Bunun başlıca səbəbi Azərbaycanın düşmənlərinin xalqın hakimiyyətinin güclənməsini, ölkənin güclü dövlətə çevrilməsini istəməmələri idi. Rəhbərliyin kadr siyasətindəki səhvləri, idarəçilikdə yol verdiyi ciddi qüsurları xalqı ondan daha da uzaqlaşdırdı. Həm iqtidarın səriştəsiz siyasəti, həm də xarici güclərin təhrikçiliyi ölkə daxilində separatçı qüvvələri ruhlandırdı.1993-cü il iyun ayının əvvəllərində hərbi qiyam başladı. Surət Hüseynovun başçılıq etdiyi hərbi hissə ölkə rəhbərliyinə tabe olmaqdan imtina etdi. İqtidar hərbi müxalifətin öhdəsindən gəlməkdə çətinlik çəkdi. İyunun 4-də Gəncədə silahlı toqquşma baş verdi və hökumət qüvvələri məğlub oldu. Qiyamçılar Bakı istiqamətində irəliləməyə başladılar. Danışıqlar nəticəsində parlamentin sədri, Baş nazir, üç güc naziri istefa verməli oldu və ölkədə hakimiyyət boşluğu yarandı.

Bakı Texniki Kolleci

# ⁂Milli Qurtuluş⁂

Azərbaycan xalqının böyük oğlu, Ümummilli lider Heydər Əliyevin respublika rəhbərliyinə qayıdışı, xalqın gözlədiyi kimi, ölkənin ən mühüm sahələrdə ciddi irəliləyişinə səbəb oldu və vətəndaş müharibəsinin qarşısını aldı. Azərbaycan xalqı haqlı olaraq onun ölkəyə yenidən rəhbərlik etməsinə Milli Qurtuluş adı verdi.

**Heydər Əliyevin Naxçıvandakı fəaliyyəti.** Naxçıvan MR Ali Məclisinin sədri Heydər Əliyev Muxtar Respublikaya olduqca çətin bir şəraitdə başçılıq edirdi. Ermənistan Naxçıvana gedən yolları bağlayaraq onu blokadada saxlayırdı. 1992-ci il mart ayında Heydər Əliyevin Süleyman Dəmirəllə görüşündən sonra Türkiyə Naxçıvana ərzaq, toxum, avadanlıq göndərdi. Enerji çatışmazlığını aradan qaldırmaq üçün Naxçıvan MR Türkiyənin elektrik şəbəkəsinə qoşuldu. 1992-ci ilin mayında Türkiyə ilə sərhəddə Sədərək- Dilucu "Ümid" körpüsü açıldı. 1992-ci ilin avqustunda Heydər Əliyev İranın prezidenti ilə görüşdü və Naxçıvanın bir sıra ehtiyaclarının ödənilməsi ilə bağlı razılaşmalar əldə etdi. Naxçıvan ərazisini İranla birləşdirən yeni körpü açıldı, İrandan elektrik enerjisi alınmağa başlandı. Ümummilli liderin Rusiya Federasiyasının Müdafiə Nazirliyi, Cənubi Qafqaz Hərbi Dairəsinin rəhbərliyi ilə apardığı danışıqlar nəticəsində Naxçıvanda yerləşən 75-ci diviziyanın ləğv edilməsi və onun bütün əmlakının Azərbaycan Respublikasına verilməsi barədə razılıq əldə edildi. Bu razılığın şərtləri 1992-ci ilin yayında həyata keçirildi. Naxçıvanda Azərbaycan Müdafiə Nazirliyinin Əlahiddə Motoatıcı Briqadası yaradıldı. Rusiyanın qoşun hissələrinin hərbi və təsərrüfat əmlakı Azərbaycanda yeni yaradılan Müdafiə Nazirliyinin hərbi hissəsinin sərəncamına verildi. Rusiya ordusunun hərbi hissələri avqustda Naxçıvanı tərk etdi. Azərbaycan Respublikası ilə İran və Türkiyə arasında – Naxçıvan ərazisindəki 215 km məsafədə olan dövlət sərhədinin mühafizəsinin də Azərbaycan sərhədçilərinə həvalə edilməsi

Bakı Texnik Kolleci

barədə razılaşma əldə olundu. Sentyabrın sonunda Rusiya sərhəd dəstəsinin sonuncu əsgər və zabitləri səlahiyyətlərini Azərbaycan Respublikasının Sərhəd Qoşunlarının 1-ci Sərhəd Dəstəsinə verərək muxtar respublikanı tərk etdilər. Beləliklə, ilk milli sərhəd qoşunlarının yaradılmasına da Naxçıvandan başlanıldı.

**Yeni Azərbaycan Partiyasının yaranması.** Ümummilli lider Heydər Əliyev respublika ziyalılarının ona ünvanlanan çağırışına cavab olaraq mövcud ictimai-siyasi durumu ciddi şəkildə təhlil etdi və yaranmış ağır vəziyyətdən çıxış yollarını göstərdi. Heydər Əliyev Yeni Azərbaycan Partiyasının yaradılmasının obyektiv zərurətə əsaslandığını və onun fəaliyyətində fəal iştirak etməyə hazır olduğunu bildirdi. Yeni Azərbaycan Partiyasının yaradılmasında məqsəd Azərbaycan Respublikasını mövcud böhrandan xilas etmək idi. 1992-ci il noyabrın 21-də Naxçıvanda Azərbaycan Respublikasının bütün bölgələrini təmsil edən nümayəndələrin iştirakı ilə Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirildi. Konfransda partiyanın yaradılması haqqında qərar, həmçinin onun proqramı və nizamnaməsi qəbul edildi. Heydər Əliyev yekdilliklə partiyanın sədri seçildi. Beləliklə, xalqın həyatında mühüm rol oynayan və öz üzərinə böyük tarixi missiya götürən Yeni Azərbaycan Partiyası yaradıldı. Heydər Əliyev çoxları tərəfindən təkcə YAP-ın deyil, bütün Azərbaycan xalqının lideri kimi qəbul edilirdi. O öz müdrik məsləhətləri ilə xalqı yaxınlaşmaqda olan fəlakətlərdən qurtarmağa, o dövrdəki iqtidara, siyasətçilərə düzgün yol göstərməyə səy göstərirdi. Yeni Azərbaycan Partiyasının yaradılmasında məqsəd Azərbaycan Respublikasını mövcud böhrandan xilas etmək idi. 1992-ci il noyabrın 21-də Naxçıvanda Azərbaycan Respublikasının bütün bölgələrini təmsil edən nümayəndələrin iştirakı ilə Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirildi. Konfransda partiyanın yaradılması haqqında qərar, həmçinin onun proqramı və nizamnaməsi qəbul edildi. Heydər Əliyev

Bakı Texnik Kolleci

yekdilliklə partiyanın sədri seçildi. Beləliklə, xalqın həyatında mühüm rol oynayan və öz üzərinə böyük tarixi missiya götürən Yeni Azərbaycan Partiyası yaradıldı. Heydər Əliyev çoxları tərəfindən təkcə YAP-ın deyil, bütün Azərbaycan xalqının lideri kimi qəbul edilirdi. O öz müdrik məsləhətləri ilə xalqı yaxınlaşmaqda olan fəlakətlərdən qurtarmağa, o dövrdəki iqtidara, siyasətçilərə düzgün yol göstərməyə səy göstərirdi.  Azərbaycan xalqının tarixində yeni bir dövrün başlanğıcı oldu. Ölkədəki ictimai-siyasi gərginlik davam etməkdə idi. Prezident Əbülfəz Elçibəy iyunun 17-dən 18-nə keçən gecə Bakını tərk etdi və Ordubad rayonunda yerləşən Kələki kəndinə getdi. O bunu paytaxtda qardaş qırğınının qarşısını almaq istəyi ilə izah etdi və ölkəni oradan idarə edə biləcəyini bildirdi. Ali Sovetin Prezidentə geri qayıtmaq təklifləri qəbul olunmadı. Belə olduqda Prezident səlahiyyətləri də Heydər Əliyevə həvalə edildi. 1993-cü ilin yayı və payızında xalq Ulu öndərin ətrafında daha sıx birləşdi. Avqustun sonunda ümumxalq referendumunda Azərbaycan xalqı Əbülfəz Elçibəyə bir prezident kimi etimadsızlıq göstərdi. 1993-cü il oktyabrın 3-də Ümummilli lider Heydər Əliyev mütləq səs çoxluğu ilə Azərbaycan Respublikasının Prezidenti seçildi. Beləliklə, Heydər Əliyev Azərbaycan Respublikasının rəhbərliyinə qayıtdı, onun müstəqilliyini möhkəmləndirdi, onu əbədi və dönməz etdi.  Müstəqilliyini yenicə elan etmiş Azərbaycan Respublikasının müasir, demokratik, hüquqi bir dövlətə çevrilməsi vacib idi. Ulu öndər Heydər Əliyevin rəhbərliyi altında ölkə həmin istiqamətlərdə inkişaf edərək qısa müddət ərzində dünya dövlətləri arasında öz layiqli yerini tuta bildi.


*Heydər Əliyev andiçmə mərasimində*

Demokratik dövlət quruculuğuna başlnılması. Müasir Azərbaycan Respublikası müstəqilliyinin ilk illərindən etibarən demokratik, hüquqi və dünyəvi dövlət yaratmaq məqsədini elan etmiş və dövlət quruculuğu sahəsində ardıcıl, qətiyyətli tədbirlər həyata keçirmişdir. Belə bir dövləti yaratmaq üçün ölkə tarixi təcrübəyə, qədim dövlətçilik ənənələrinə, güclü iqtisadiyyata, lazımi elmi potensiala, ən əsası isə Heydər Əliyev kimi təcrübəli bir siyasi liderə malik idi.

Demokratik, hüquqi və dünyəvi respublika quruculuğu ilə bağlı həyata keçirilən tədbirləri mərhələlərə bölmək mümkündür. Azərbaycanın dövlət müstəqilliyini bərpa etdiyi 18 oktyabr 1991-ci ildən Heydər Əliyevin ölkədəki hakimiyyətə qayıtdığı 15 iyun 1993-cü ilə qədər davam etmiş dövrü bu prosesin birinci mərhələsi hesab etmək olar. Heydər Əliyevin Azərbaycan Respublikası Ali Sovetinin sədri seçilməsindən Azərbaycan Respublikası Konstitusiyasının referendum yolu ilə qəbul edildiyi 12 noyabr 1995-ci il tarixinə qədər olan dövr demokratik dövlət quruculuğunun ikinci mərhələsi kimi qiymətləndirilə bilər. Bu dövrdə Heydər Əliyevin 1993-cü ildə ümumxalq səsverməsi ilə Azərbaycan Respublikasının Prezidenti seçilməsi xalqın ona olan yüksək etimadını bir daha nümayiş etdirdi.

Azərbaycanda demokratiyanın, qanunçuluğun inkişaf prosesi 1990-cı illərin ikinci yarısında xüsusən sürətləndi. Ümummilli liderin dediyi kimi, “1995-ci ilin ortalarında Azərbaycan bütün qeyri-qanuni silahlı qüvvələrdən xilas olmuş, tamamilə möhkəmlənmiş, keyfiyyətcə yeni bir mərhələyə daxil olmuş, dövlət quruculuğunda böyük işlərə başlamaq üçün möhkəm ictimai-siyasi sabitlik və qanunçuluq şəraitinə gətirilmiş dövlətə çevrilmişdi”.

Azərbaycan Respublikasının Konstitusiyası. 1995-ci ilin iyununda Prezident Heydər Əliyevin sədrliyi ilə Azərbaycan Respublikasının Konstitusiyasını hazırlamaq üçün Konstitusiya Komissiyası yaradıldı. Komissiyaya ölkənin tanınmış hüquqşünasları,

Bakı Texniki Kolleci

qanunverici, icra və məhkəmə hakimiyyəti nümayəndələri cəlb olunmuşdu. Komissiya Heydər Əliyevin dəyərli məsləhətlərini, Azərbaycan xalqının milli xüsusiyyətlərini, qabaqcıl demokratik ölkələrin təcrübəsini nəzərə alaraq Konstitusiya layihəsini hazırladı. Layihə mətbuatda dərc edildi və ümumxalq müzakirəsinə verildi. Vətəndaşlardan və təşkilatlardan alınan təkliflər nəzərə alınaraq layihəyə düzəliş və əlavələr edildi. “Azərbaycan Respublikası Konstitusiyası”nın layihəsinin yeni variantı əhalinin tanış olması üçün mətbuatda dərc olundu. Müstəqil Azərbaycan dövlətinin Əsas Qanunu – Azərbaycan Respublikasının Konstitusiyası 1995-ci il noyabrın 12-də referendumla qəbul edildi. Seçicilərin mütləq əksəriyyəti Konstitusiya layihəsini bəyəndiyini bildirdi.

Demokratik dövlət quruculuğu prosesinin davamı. Müstəqil Azərbaycanın Konstitusiyasının qəbul edildiyi vaxtdan Ümummilli liderin 12 dekabr 2003-cü ildə vəfatına qədər olan dövr demokratik dövlət quruculuğu prosesinin üçüncü dövrü hesab edilə bilər. Bu dövrdə də Heydər Əliyev hüquqi-demokratik dövlət quruculuğu sahəsində mühüm tədbirlər həyata keçirmişdir. 11 oktyabr 1998-ci ildəki seçkilərdə Heydər Əliyev seçicilərin əksəriyyətinin səsini toplayaraq yenidən Azərbaycan Respublikasının Prezidenti oldu. Bu onun fəaliyyətinin xalq tərəfindən yüksək qiymətləndirilməsinin təzahürü idi. 24 avqust 2002-ci ildə keçirilmiş referendumun nəticələrinə görə Azərbaycan Respublikasının Konstitusiyasında əlavələr və dəyişikliklər aparıldı. Bununla da ölkədə hüquqi və demokratik dövlət quruculuğunun konstitusiya əsasları möhkəmləndirildi. 1996-cı ildə qanunların beynəlxalq normalara uyğun hazırlanması məqsədilə Respublika Prezidentinin yanında Hüquqi İslahatlar Komissiyası yaradıldı. Milli Məclis tərəfindən ölkədə siyasi- iqtisadi, mədəni prosesləri nizama salan yüzlərlə qanun qəbul edildi. Prezident 1998-ci ildə insan, vətəndaş hüquq və azadlıqlarının, söz, fikir, mətbuat azadlığının təmin edilməsi, senzuranın ləğv olunması haqqında fərmanlar verdi.

Bakı Texniki Kolleci

Ölkədə məhkəmə islahatı keçirildi. Ölüm cəzası Şərqdə ilk dəfə olaraq Azərbaycanda 1998-ci ildə ləğv edildi. Ölkədə aparılan siyasi, hüquqi islahatlar demokratik inkişaf proseslərini də sürətləndirdi. 12 dekabr 1999-cu ildə Azərbaycan Respublikasında ilk bələdiyyə seçkiləri keçirildi. 1998-ci ildə ölkədə Konstitusiya Məhkəməsi yaradıldı. 2000-ci ildən etibarən hakimlərin xüsusi imtahan verməsi təcrübəsi həyata keçirilməyə başlandı. Dövlət idarəetmə sistemində islahatlar reallaşdırıldı. 1995-ci, 2000-ci illərdə ölkədə parlament seçkiləri keçirildi. Azərbaycanda azad siyasi fəaliyyətə, plüralizmə şərait yaradıldı. Məsələn, ölkədə 2001-ci ildə rəsmi surətdə qeydə alınmış 39 siyasi partiya, 30-a yaxın hüquq-müdafiə təşkilatı mövcud idi. Demokratiyanın inkişafı, cəmiyyətin yetkinləşməsi onun bütün üzvlərinin ümummilli məsələlərdə yekdil mövqeyini formalaşdırdı. Milli Məclisin deputatı olan İlham Əliyevin başçılıq etdiyi, iqtidar və müxalifət partiyalarından olan nümayəndə heyətinin 2001-ci ildən etibarən Avropa Şurasındakı səmərəli fəaliyyəti deyilənləri təsdiq edirdi. Müstəqil Azərbaycanda, xüsusən Heydər Əliyevin hakimiyyəti illərində qadınların cəmiyyətdəki rolunun artırılması sahəsində mühüm işlər görüldü. 1995-ci ildə Azərbaycan Respublikası "Qadınlara qarşı ayrı- seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Konvensiyaya qoşuldu. Heydər Əliyev qadın hüquqlarının reallaşması və təminatı istiqamətində mühüm fərman və sərəncamlara imza atdı. 1998-ci ildə Qadın Problemləri üzrə Dövlət Komitəsi yaradıldı. Azərbaycan 1990-cı illərin əvvəllərində, müstəqilliyin ilk dövründə çox ağır sosial-iqtisadi durumla üzləşmişdi. Ümummilli lider Heydər Əliyevin uzaqgörən və müdrik siyasəti, onun rəhbərliyi altında aparılmış islahatlar nəticəsində ölkə çətinliklərdən üzüağ çıxaraq sosial-iqtisadi sahədə böyük uğurlara imza atdı. Sosial-iqtisadi islahatların başlıca istiqamətləri. Heydər Əliyev Azərbaycanda hakimiyyətə qayıdarkən ilk iki ildə (1993–1994) dövlətçiliyin qorunub saxlanması və gücləndirilməsi, iqtisadiyyatın

Bakı Texniki Kolleci

sabitləşdirilməsi və bazar iqtisadiyyatına keçilməsinin üç başlıca istiqamətini müəyyənləşdirdi:

1. Ölkədə siyasi sabitliyin bərpa edilməsi, dövlətçiliyin qorunub saxlanılması və möhkəmləndirilməsi; demokratik, hüquqi, sivilizasiyalı dövlət qurulması və inkişaf etdirilməsi;

2. Respublika iqtisadiyyatının düşdüyü dərin böhrandan çıxarılması, islahatlar aparılması, bazar iqtisadiyyatına keçilməsi və onun sürətlə inkişaf etdirilməsi;

3. Respublikanın iqtisadiyyatının dünya iqtisadiyyatına bağlanılması, xarici investisiyaların, qabaqcıl elmi-texniki, texnoloji, təhsil və mədəniyyət yeniliklərinin, istehsal təcrübəsinin ölkəyə cəlb edilməsi.

Azərbaycan Respublikası Heydər Əliyevin rəhbərliyi altında hər üç istiqamətdəki problemləri ardıcıl olaraq, mərhələli şəkildə həll etdi. İslahatların birinci mərhələsi. 1993–1997-ci illəri əhatə edən I mərhələdə ölkə dərin, hərtərəfli böhrandan çıxarıldı, bazar iqtisadiyyatına və dünya iqtisadiyyatına inteqrasiyanın əsasları yaradıldı. Bu zaman torpaq öz sahiblərinə – kəndlilərə qaytarıldı. İlk növbədə, özəlləşdirilmənin normativ- hüquqi bazası yaradıldı. Torpağın kəndlilərə verilməsi kənd təsərrüfatının inkişafına imkan verdi. Bununla yanaşı, müxtəlif tabelikdə olan kiçik və orta istehsal, həmçinin xidmət müəssisələrinin özəlləşdirilməsinə başlanıldı.

Neft sənayesi iqtisadiyyatın qabaqcıl sahəsi kimi mühüm rol oynayırdı. O, iqtisadiyyatın digər sahələrini inkişaf etdirməkdə, xarici investisiyaları ölkə iqtisadiyyatına cəlb etməkdə və daxili investisiya imkanlarını genişləndirməkdə mühüm rol oynaya bilərdi. Neft amilinin ölkənin iqtisadi inkişafında və müstəqilliyin təmin edilməsindəki rolunu nəzərə alan Heydər Əliyev özünün neft strategiyasını müəyyənləşdirdi. Heydər Əliyevin rəhbərliyi altında işlənib hazırlanmış yeni neft strategiyası Azərbaycanın neft sənayesində köklü islahatların

Bakı Texniki Kolleci

aparılmasına, güclü infrastruktur yaradılmasına, neft sənayesinə müasir texnologiyaların, idarəetmə təcrübəsinin cəlb edilməsinə gətirib çıxardı.

1994–2001-ci illərdə Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti 14 ölkənin neft şirkətləri ilə çoxsaylı müqavilələr imzaladı. Həmin müqavilələrə görə Azərbaycana 60 milyard dollar həcmində investisiya cəlb olunması nəzərdə tutulurdu. 1999-cu ildə Azərbaycan Dövlət Neft Fondu təsis olundu. Bu fondda yığılan vəsaitlərin Azərbaycan iqtisadiyyatının başqa sahələrinə də yönəldilməsi nəzərdə tutulurdu. Fonddan respublikanın iqtisadi və sosial rifahı naminə səmərəli istifadə etmək üçün xüsusi proqram hazırlandı.

1997-ci ildə "Əsrin müqaviləsi" üzrə neftin hasilatına başlanıldı. Azərbaycanda çıxarılan neftin daşınma marşrutları mühüm əhəmiyyət kəsb edirdi. 1997-ci ildə Rusiyadan keçən "Şimal" (Bakı-Novorossiysk) neft kəməri istifadəyə verildi. Ölkə iqtisadiyyatına qoyulan xarici investisiyanın miqdarı durmadan artırdı. Nəticədə ölkə iqtisadiyyatı böhrandan çıxıb sabit inkişaf yoluna qədəm qoydu. Aparılmış islahatlar bazar iqtisadiyyatının və dünya iqtisadiyyatına inteqrasiyanın əsaslarını yaratdı. Neft strategiyasının vəzifələri həyata keçirilməyə başlandı. İslahatların ikinci mərhələsi. Azərbaycan iqtisadiyyatının inkişafının II mərhələsi 1998–2002-ci illəri əhatə edirdi. Bu mərhələ qısa və orta müddətli proqramlarla bazar iqtisadiyyatının əsaslarının möhkəmləndirilməsi, onun bütün sahələrində davamlı inkişafa nail olunması və dünya iqtisadiyyatına inteqrasiyanın genişləndirilməsi ilə səciyyələndirilə bilər. 1999-cu ildə Gürcüstan istiqamətində BakıSupsa "Qərb" neft kəməri istifadəyə verildi. 1999-cu il noyabrın 18-də İstanbulda xam neftin Bakı–Tbilisi–Ceyhan əsas boru ixrac neft kəməri vasitəsilə nəql edilməsi ilə bağlı saziş imzalandı. Azərbaycan, Gürcüstan və Türkiyə ərazilərindən keçməli olan bu kəmərlə əlaqədar bütün mübahisələrin uğurla həll edilməsi, ilk növbədə, Ulu öndər Heydər Əliyevin müdrik siyasətinin nəticəsi idi. 1999-cu ildə Azərbaycan Dövlət

Neft Fondu təsis olundu. Bu fondda yığılan vəsaitlərin Azərbaycan iqtisadiyyatının başqa sahələrinə də yönəldilməsi nəzərdə tutulurdu. Fonddan respublikanın iqtisadi və sosial rifahı naminə səmərəli istifadə etmək üçün xüsusi proqram hazırlandı.

Ölkə iqtisadiyyatının inkişafında Avropa Birliyinin "TRASEKA" proqramı üzrə Avropa–Qafqaz–Asiya nəqliyyat kommunikasiyası olan "Yeni İpək yolu"nun işə düşməsinin də mühüm rolu oldu. 1998-ci ilin sentyabrında Bakıda "Böyük İpək yolu" Beynəlxalq konfransı keçirildi və "Bakı Bəyannaməsi" qəbul edildi. Böyük İpək yolunun mənzil qərargahı yaradıldı və onun Bakıda yerləşməsi haqqında qərar verildi. 1990-cı illərin ortalarından başlayaraq həyata keçirilən iqtisadi siyasətdə əhalinin sosial müdafiəsi tədbirləri və islahatların sosial yönümü əsas yer tuturdu. Prezident Heydər Əliyev bu məsələləri daim diqqət mərkəzində saxlayır və bu sahədə müntəzəm iş aparırdı.1994-cü ildə qəbul edilmiş "Əhalinin sosial müdafiəsi haqqında" Qanun əhalinin sosial müdafiəsini gücləndirməkdə böyük rol oynadı. Həmin ildə Əhalinin Sosial Müdafiəsi Fondu təsis olundu. Aztəminatlı əhalinin rifahının yaxşılaşdırılmasında keçirilən əməkhaqqı islahatları və sosial müdafiə tədbirləri xüsusilə böyük rol oynadı. Əhalinin pensiya təminatı sahəsində əhəmiyyətli addımlar atıldı. Erməni qəsbkarları tərəfindən həyata keçirilən işğal nəticəsində qaçqına və məcburi köçkünə çevrilmiş vətəndaşların qayğıları daim dövlətin diqqət mərkəzində olmuşdur. 1998-ci ildə onların problemlərini sistemli şəkildə həll etmək və sosial müdafiələrini gücləndirmək üçün xüsusi Dövlət Proqramı qəbul olundu. Füzuli, Bərdə, Ağdam, Tərtər və s. rayonlarda 1998–2001-ci illərdə bu proqrama uyğun olaraq yaşayış məntəqələri salındı. Eyni zamanda qaçqın və köçkünlərin sosial müdafiəsi ilə bağlı çoxlu iş görüldü. Heydər Əliyevin hakimiyyəti illərində ölkədə sosial sahədə də ciddi irəliləyişə nail olundu və əhalinin maddi rifahı getdikcə yaxşılaşdı.

Bakı Texniki Kolleci

Yarandığı ilk gündən etibarən Azərbaycan Respublikası ümumbəşəri dəyərlərə, beynəlxalq münasibətlərdə qəbul olunmuş standartlara sadiqlik nümayiş etdirdi. Ağrılı problem olan Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli hər zaman Azərbaycanın xarici siyasətinin aparıcı xəttini təşkil etmişdir. Xarici siyasətin məqsəd və vəzifələri. Heydər Əliyevin rəhbərliyi altında xarici siyasət sahəsində taleyüklü addımlar atıldı. Azərbaycan dövlətinin əsas maraqları, xarici siyasətinin məqsəd və vəzifələri müəyyənləşdirildi.

Dağlıq Qarabağ münaqişəsi. BMT Təhlükəsizlik Şurasının Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğal olunması ilə bağlı qətnamələri ümdə əhəmiyyətə malik olan Dağlıq Qarabağ münaqişəsinin həllinin beynəlxalq hüquqi əsasını təşkil edirdi. Sonrakı illərdə ATƏT, Avropa Şurası, İKT, NATO, Avropa İttifaqı və s. kimi beynəlxalq təşkilatlar tərəfindən də oxşar qərarlar qəbul edildi. Bu rəsmi sənədlər də Ermənistanın Azərbaycana qarşı təcavüzünü və onun gətirib çıxardığı acı nəticələri pisləyir, işğala məruz qalmış torpaqların azad edilməli olduğunu birmənalı şəkildə tələb edirdi. ATƏT-in 1994-cü ildə Budapeştdə, 1996-cı ildə isə Lissabonda keçirilmiş sammitləri Dağlıq Qarabağ münaqişəsinin ədalətli, beynəlxalq prinsiplərə əsaslandırılaraq həll edilməsinin vacibliyini təsdiq etdi. Bu işdə Minsk qrupu vasitəçilik etməli idi. Budapeşt sammitində Minsk qrupu həmsədrləri təsisatı yaradıldı. Lissabon sammitində Heydər Əliyev siyasi uzaqgörənlik və iradə nümayiş etdirərək Azərbaycanın mövqeyinin dünyanın 53 dövləti tərəfindən tanınmasına və müdafiəsinə nail oldu. Zirvə toplantısının qəbul etdiyi və onun rəsmi sənədi elan olunmuş bəyanatda Azərbaycanın ərazi bütövlüyünün tanındığı vurğulandı. Dağlıq Qarabağ münaqişəsində atəşkəs haqqında razılaşma əldə olunduqdan sonra Azərbaycan Respublikası münaqişənin sülh yolu ilə həll edilməsi yolundakı səyini, bir an da olsun, dayandırmamışdır. Bu zaman Azərbaycan münaqişəni tənzimləmək iddiasında olan beynəlxalq qurumlarla

Bakı Texniki Kollec

sıx əməkdaşlıq etmişdir. ATƏT-in Minsk qrupunun həmsədr ölkələri olan ABŞ, Rusiya və Fransa ilə təmaslar xüsusilə vurğulanmalıdır. 1997–1998-ci illərdə Minsk qrupunun həmsədrləri münaqişənin tənzimlənməsi üçün müxtəlif təkliflər irəli sürdülər. Azərbaycan rəhbərliyi danışıqlarda daim konstruktiv mövqe nümayiş etdirir, işğal olunmuş torpaqların qaytarılması, ermənilərin ölkənin qanunlarına hörmətlə yanaşılmasını tələb edirdi. Lakin Ermənistanın Dağlıq Qarabağın qondarma müstəqilliyinin tanınmasına yönəlmiş qeyri-konstruktiv mövqeyi daim danışıqlarda ciddi nəticələr əldə edilməsinə mane olurdu. Azərbaycan ərazilərinin işğalından əl çəkməyən Ermənistan öz qeyri-qanuni əməllərinə son qoymurdu. Xarici dövlətlərlə münasibətlər. Ölkənin xarici siyasətində qonşu dövlətlərlə münasibətlər hər zaman mühüm yer tutmuşdur. Azərbaycan Respublikası Rusiya, Türkiyə, İran, Gürcüstan, Qazaxıstan və Türkmənistanla münasibətlərini beynəlxalq hüquq normalarına uyğun qurmuş və tarazlaşdırılmış siyasət həyata keçirməyə müvəffəq olmuşdur. Respublika Avropa dövlətləri ilə münasibətlərə də önəm verirdi. Ulu öndər Heydər Əliyevin Avropaya ilk rəsmi səfəri 1993-cü ilin dekabrında Fransaya olmuşdu. Səfər zamanı yüksək səviyyəli görüşlər keçirildi.Azərbaycan Prezidenti səfər müddətində hələ 1990-cı ildə qəbul edilmiş Avropa üçün Paris xartiyasını imzaladı. Azərbaycan bu sənədə qoşulmaqla BMT nizamnaməsinə, beynəlxalq təhlükəsizlik, əməkdaşlıq normalarına və prinsiplərinə əməl edəcəyini təsdiqləmiş oldu. Bununla da ölkə Avropa təhlükəsizlik sisteminə doğru ciddi şəkildə irəlilədi.1991–2003-cü illərdə Avropanın Almaniya, Böyük Britaniya, İtaliya, İspaniya və digər ölkələri ilə də yüksək səviyyəli əlaqələr quruldu, səmərəli qarşılıqlı səfərlər həyata keçirildi. Azərbaycan Respublikasının dövlət müstəqilliyinin möhkəmləndirilməsində Avropa ölkələri ilə münasibətlərin mühüm rolu var idi. ABŞ ilə münasibətlərin qurulması və inkişafı xüsusi əhəmiyyət kəsb edirdi. ABŞ Konqresinin “Azadlığı Müdafiə Aktı”na 1992-ci ildə qəbul etdiyi 907-ci düzəliş* münasibətlərə ciddi maneə idi. Heydər Əliyevin uğurlu fəaliyyəti ABŞ-

Bakı Texniki Kolleci

nin Azərbaycan siyasətində tədricən dönüş yaranmasına gətirib çıxardı. Son nəticədə ABŞ konqresi  dayandırmaqla bağlı səlahiyyət verdi. Azərbaycanın xarici siyasətinin daha bir mühüm istiqamətini beynəlxalq və regional təşkilatlarla əməkdaşlıq təşkil etməsidir.

Azərbaycan Respublikası hələ 1992-ci ildə NATO-nun Şimali Atlantika Əməkdaşlıq Şurasına (həmin şura 1997-ci ildən etibarən Avropa-Atlantika Tərəfdaşlıq Şurası – AATŞ adlanır) qoşulmuşdu. 1994-cü ildə Azərbaycan NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" Proqramına da qəbul edildi. Azərbaycanın NATO ilə sıx əməkdaşlığı sonralar da uğurla davam etdirildi. Ölkəni təmsil edən hərbi hissə sülhməramlı qüvvələrin Kosovoda və Əfqanıstandakı əməliyyatlarında iştirak etdi. NATO Parlament Assambleyası 2002-ci ildə İstanbuldakı iclasında Azərbaycan Respublikasını NATO PA-nın assosiasiyalaşdırılmış üzvlüyünə qəbul etdi. Heydər Əliyev Azərbaycanın bu təşkilatda iştirakının əhəmiyyətini yüksək qiymətləndirirdi. Azərbaycanın yürütdüyü siyasət ölkənin nüfuzunun beynəlxalq səviyyədə artmasına və yüksək qiymətləndirilməsinə aparırdı. Avropa Şurası Parlament Assambleyasının siyasi məsələlər üzrə 2000-ci il 3 may tarixli iclasında qeyd olunmuşdur ki, "Azərbaycan rəhbərliyi ölkənin Avropa standartlarına çatması üçün son dərəcə böyük səylər göstərir. Bu ölkədə rəhbərliyin və xalqın azad, çiçəklənən cəmiyyət qurmaq əzmi heyranlıq doğurur. 70 illik sərt rejimdən sonra Azərbaycan keçmişin irsindən əl çəkə bilmişdir və suveren, hüquqi dövlət qurur". Xarici iqtisadi əlaqələr. 1991–2003-cü illərdə iqtisadiyyat məsələləri ölkənin xarici siyasətində mühüm yer tutmuşdur. Azərbaycan beynəlxalq maliyyə-bank qurumları ilə sıx əməkdaşlıq edərək öz iqtisadiyyatında ciddi islahatlar aparmış, onu yeni əsaslar üzərində qurmuşdur. Azərbaycan Respublikası beynəlxalq təşkilatlarla əlaqələr quraraq Avropa–Qafqaz–Asiya (TRASEKA) nəqliyyat dəhlizi layihəsini həyata keçirdi. Nəqliyyatla bağlı müxtəlif layihələrin reallaşdırılması nəticəsində Azərbaycan

Bakı Texniki Kolleci

tranzit ölkəyə çevrilə bildi. Azərbaycan Respublikasının xarici siyasətinin vacib istiqamətlərindən biri də enerji diplomatiyası idi. Bu sahədə atılan addımlar külli miqdarda xarici sərmayənin respublikaya axmasına şərait yaratdı. Enerji diplomatiyasının uğurlu şəkildə aparılması Azərbaycanda sosial-iqtisadi və siyasi sabitliyin əldə edilməsinə və ölkənin müstəqil dövlət kimi möhkəmlənməsinə gətirib çıxardı. Azərbaycanın neft strategiyası ölkənin beynəlxalq nüfuzunun artmasına da səbəb oldu. Dövlət müstəqilliyinin tanıdılması, geniş diplomatik əlaqələrin qurulması, xarici siyasətin formalaşması, Azərbaycanın mövqeyinin möhkəmləndirilməsi, ölkə daxilində sosial-siyasi, iqtisadi, mədəni və digər sahələrdə dövlət quruculuğu üçün əlverişli beynəlxalq şəraitin yaradılması, ölkənin nüfuzlu bir dövlətə çevrilməsi 1991–2003-cü illərdə Azərbaycan Respublikasının xarici siyasət sahəsində keçdiyi yolun başlıca yekunu hesab edilə bilər. Heydər Əliyev xarici siyasət sahəsində keçilmiş yola qiymət verərək 1998-ci ildə demişdir: "Azərbaycanın xarici siyasəti ötən illərdə uğurlu olmuşdur. Hesab edirəm ki, biz xarici siyasətimizi düzgün qurmuşuq, strateji xəttimiz düzgündür, təyin etdiyimiz istiqamətlər doğrudur. Bunların hamısı xarici siyasət sahəsində Azərbaycana uğur gətiribdir. Birinci növbədə, bunların hamısı Azərbaycan dövlətinin fəaliyyətidir və prezidentin apardığı xarici siyasətin nəticələridir. Bizim əsas nailiyyətimiz ondan ibarətdir ki, ötən illər Azərbaycanın dövlət müstəqilliyini təkcə xarici siyasət nəticəsində deyil, bütün fəaliyyətimiz nəticəsində gündən-günə möhkəmləndirmişik, öz suverenliyimizin, müstəqilliyimizin toxunulmaz, sarsılmaz olduğunu nümayiş etdirmişik. Artıq beynəlxalq aləmdə Azərbaycanın tam müstəqil ölkə olduğu, tam müstəqil siyasət apardığı haqqında heç bir şübhə yoxdur".

Bakı Texniki Kolleci

# 17.Yeni minillik-yeni lider. Vətən müharibəsi. Böyük Zəfər

Ulu öndər Heydər Əliyevin layiqli varisi İlham Əliyev 2003-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçildi. Onun hakimiyyət illəri ölkənin hərtərəfli inkişaf illəri kimi səciyyələndirilir. İlham Əliyevin prezidentlikdən əvvəlki fəaliyyəti. 15 oktyabr 2003-cü ilə təyin edilmiş Azərbaycan Respublikasının prezident seçkilərində Ümummilli lider Heydər Əliyevin namizədliyi növbəti dövr üçün qeydə alınmışdı. Lakin o, səhhətində yaranmış problemlərlə əlaqədar olaraq mövcud vəziyyəti düzgün təhlil edib qiymətləndirdi və öz namizədliyini həmin vaxt ölkənin Baş naziri olan cənab İlham Əliyevin xeyrinə geri götürdü. İlham Əliyev keçmiş SSRİ-nin ən nüfuzlu ali məktəblərindən biri olan Moskva Beynəlxalq Münasibətlər İnstitutunda müəllim işləyərək elmi pedaqoji təcrübə toplamışdı. Heydər Əliyevin uzaq görən və müdrik rəbərliyi altında uzun və hərtərəfli dövlətçilik təcrübəsi keçmiş, müstəqil Azərbaycan Respublikasında Dövlət Neft Şirkətinin Birinci vitse-prezidenti, Milli Məclisin deputatı, Milli Olimpiya Komitəsinin prezidenti, Avropa Şurasında Azərbaycan nümayəndə heyətinin başçısı, Yeni Azərbaycan Partiyasının sədr müavini, Baş nazir və s. məsul vəzifələrdə böyük bacarıq nümayiş etdirmişdir.Yüksək elmi səviyyəyə, dövlət idarəçiliyində səriştə və peşəkarlığa malik olan İlham Əliyevin Azərbaycan Respublikasının Prezidentliyinə namizədliyi qeydə alındı. Ulu öndər İlham Əliyev haqqında Azərbacan xalqına olan müraciətində yazırdı: “O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya



Heydər Əliyev Yeni Azərbaycan Partiyasının üzvlük biletini İlham Əliyevə təqdim edərkən. 6 may 2000-ci il

Bakı Texniki Kolleci

siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıracaqdır. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm" Hələ 2002-ci ildə millət vəkili, ARDNŞ-nin Birinci vitse-prezidenti olarkən İlham Əliyev ABŞ-də rəsmi səfərdə olaraq yüksək səviyyəli görüşlər keçirmişdi. Görüşlərin birindən sonra görkəmli siyasətçi Brent Skoukroft demişdi: "...Mən Azərbaycanın gələcəyinə nikbin baxıram. İlham Əliyev bizə güclü siyasətçi təsiri bağışlayır". İlham Əliyevin prezidentliyinin birinci dövrü. 15 oktyabr 2003-cü ildə alternativ, demokratik əsaslarla keçirilən seçkilərdə İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi.Demokratik dövlət quruculuğunun sonrakı mərhələsi Heydər Əliyevin siyasi varisi və layiqli davamçısı olan İlham Əliyevin fəaliyyəti ilə bağlıdır. Onun islahatlarının 18 mart 2009-cu ilədək davam edən birinci mərhələsi Azərbaycanda hüquqi və dövlət quruculuğunun davam etdirilməsi ilə səciyyələnir. Azərbaycan Respublikası Konstitusiyasına əlavə və dəyişikliklərin edilməsi, həmçinin ölkə iqtisadiyyatındakı nailiyyətlər keçid dövrünün məhz 2009-cu ildə başa çatmasının təsdiqi kimi qəbul oluna bilər. İlham Əliyevin prezidentliyinin sonrakı dövrü. 2009-cu ildən sonrakı dövr isə Azərbaycan Respublikasında hüquqi dövlət quruculuğunun daha da möhkəmləndirilməsi dövrü kimi qiymətləndirilməlidir. Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə 21 fevral 2017-ci ildə Mehriban xanım Əliyevanın Azərbaycan Respublikasının Birinci vitse-prezidenti vəzifəsinə təyin edilməsi də bu istiqamətdə atılmış mühüm bir addımdır. İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsi ilə dövlətin xarici siyasətində yeni mərhələ başlandı. Bu mərhələ özündən əvvəlki dövrün təməlləri üzərində dayanır və onun

Bakı Texniki Kolleci

davamını təşkil edirdi. Bununla yanaşı, həmin mərhələ məzmununa görə zəngin, mahiyyəti baxımından daha dərin, əhatəliliyinə görə daha geniş oldu. 2003-cü ildən etibarən Azərbaycan Respublikasının xarici siyasətində başlıca məqsədlər dövlətin hər cəhətdən müasir, rəqabətədavamlı ölkəyə çevrilməsi, Ermənistanın hərbi təcavüzü nəticəsində yaranmış Dağlıq Qarabağ münaqişəsinin dinc yollarla həll edilməsi, ölkənin beynəlxalq enerji, nəqliyyat-kommunikasiya və tranzit mərkəzlərindən biri olması prosesinin davam etdirilməsi, vətəndaşların rifahının daha da yüksəldilməsi üçün daha əlverişli beynəlxalq şəraitin təmin edilməsi və s. idi. Bu məqsədlərin həyata keçirilməsi üçün çevik, tarazlaşdırılmış, səmərəli xarici siyasət xətti yürüdülürdü. 2003-cü ilin dekabrında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Cenevrədə keçirilmiş İnformasiya Cəmiyyəti üzrə dünya sammitindəki iştirakı onun ilk xarici səfəri oldu.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan

Prezidentliyinin 2003–2008-ci illərini əhatə edən birinci dövründə İlham Əliyev xarici dövlətlərə səfərlər etmişdi. Bu səfərlər və xarici ölkələrin nümayəndə heyətlərinin Azərbaycana davamlı səfərləri xarici siyasətin nə qədər dinamik və səmərəli olduğunu nümayiş etdirir. İntensiv fəal xarici siyasət nəticəsində 2003–2017-ci illər ərzində ölkədə bir çox ikitərəfli, regional və beynəlxalq toplantılar keçirildi. Azərbaycan ölkələr arasındakı ziddiyyətlərin aradan qaldırılmasında vasitəçilik etmək istiqamətində də səmərəli fəaliyyət göstərdi. Ölkənin beynəlxalq əlaqələri genişləndi, dünyadakı rolu artdı və mövqeyi möhkəmləndi. Azərbaycanın 2003–2017-ci illərdəki xarici siya sətində ölkənin BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi mühüm yer tutur. Hələ 2003-cü ildə İlham Əliyev Azərbaycan Respublikasının Baş naziri olarkən BMT Baş

Bakı Texniki Kolleci

Məclisində tarixi bir çıxış etmişdi. O öz çıxışında BMT-nin iş mexanizmi ilə bağlı təkliflər vermiş, həm də Şərqi Avropa ölkələrindən birinin BMT Təhlükəsizlik Şurasına üzv seçilməsi ideyasını irəli sürmüşdü. 2011-ci il oktyabrın 24-də Azərbaycan Respublikası 2012–2013-cü illər üçün BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə keçirilən seçkilərdə layiqli qələbə qazandı. Bu zaman Azərbaycanın BMT üzvü olan 193 dövlətdən 155-nin səsini toplaması böyük nəticə idi. Azərbaycan Respublikasının BMT Təhlükəsizlik Şurasındakı qeyri- daimi üzvlüyü 2012-ci il yanvarın 1-dən 2013-cü il dekabrın 31-nə qədər davam etdi. Bu müddət ərzində Azərbaycan dünya siyasətini müəyyən edən 15 dövlətdən birinə çevrildi. Azərbaycanın Cənubi Qafqaz və Mərkəzi Asiya regionundan Təhlükəsizlik Şurasının üzvü seçilən ilk ölkə olması da diqqətəlayiqdir. Azərbaycan Respublikası 2011-ci ilin mayından Qoşulmama Hərəkatının tam hüquqlu üzvü olmuş, 2018–2023-cü ildə bu təşkilata sədrlik etmişdir. İlham Əliyevin ölkəyə başçılıq etdiyi illərdə sosial-iqtisadi sahədə ciddi irəliləyiş müşahidə olunmuşdur. Onun hakimiyyətdə olduğu ilk 10 il ərzində iqtisadiyyat 3,4 dəfə, dövlət büdcəsi 19 dəfə artmış, iqtisadiyyata 110 milyard manat sərmayə qoyulmuşdur. İstismara verildiyi vaxtdan 2013-cü ilə qədər Bakı–Tbilisi–Ceyhan ixrac kəməri ilə 214 milyon ton neft, Bakı–Tbilisi–Ərzurum kəməri ilə 24 milyard kub metr qaz ixrac edilmişdir. 2003–2013-cü illərdə ölkədə beynəlxalq hava limanları, yeni avtovağzal kompleksləri və metro stansiyaları tikilib istifadəyə verilmiş, çoxlu miqdarda körpülər, avtomobil yolları, qaz kəmərləri çəkilmişdir. Yenə həmin illər ərzində əhalinin sosial müdafiəsi və təminatına çəkilən xərclər, əhalinin gəlirləri, əməkhaqları və pensiyalar bir neçə dəfə artmışdır. Erməni təcavüzünə məruz qalaraq qaçqın və məcburi köçkünə çevrilmiş azərbaycanlıların sosial problemlərinin həlli üçün 2003-2013-cü illərdə İlham Əliyev tərəfindən fərman və sərəncamlar imzalanmış, Dövlət Proqramı və ona əlavələr qəbul olunmuşdur. Məcburi köçkünlərin yaşadığı çadır düşərgələri və fin tipli qəsəbələr ləğv edilmiş, əvəzində

Bakı Texniki Kolleci

yüksək standartlara uyğun yaşayış binalarından ibarət qəsəbə və məhəllələr salınmışdı. Məcburi köçkünlərin həyat şəritinin yaxşılaşdırılması və işlə təmin olunması üçün tədbirlər görülmüşdü. Son 20 il ərzində bütün maliyyə mənbələri hesabına ölkə iqtisadiyyatına külli miqdarda əsaslı vəsait qoyulmuşdur.

2017-ci ilin 30 oktyabrında Bakı–Tbilisi Qars dəmir yolunun təntənəli açılış mərasimi keçirildi. O, Avropanı Asiya ilə birləşdirən ən qısa və etibarlı yol kimi qiymətləndirilir. Bu yol Avrasiyanın nəqliyyat xəritəsinin önəmli hissəsinə çevrilməkdədir. Çin, Qazaxıstan, Orta Asiya, Avropa ölkələrinin istifadə edəcəyi bu yolun çəkilişinin uğurla başa çatdırılması Azərbaycanın növbəti ciddi nailiyyəti kimi qiymətləndirilir.2018-ci il 12 iyunda Türkiyənin Əskişəhər şəhərində TANAP-ın (Trans-Anadolu qaz boru kəməri) açılış mərasimi keçirildi. Bu kəmərin çəkilişi Azərbaycanın qaz ehtiyatlarının Avropaya nəql edilməsində mühüm bir addım oldu. İlham Əliyevin ölkəyə uğurlu rəhbərliyi Azərbaycan xalqının onu 2008, 2013, 2018-ci illərdə də Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçilməsində aydın təzahür edir. 2003–2017-ci illərdə ölkənin qazandığı uğurların baş memarı olan İlham Əliyev artıq xalqın tarixində qurucu Prezident olaraq özünə layiqli yer qazanmışdır.

## ⁂Cəbhə xəttində toqquşmalar. 4 günlük müharibə⁂

Elan edilməmiş Qarabağ müharibəsində atəşkəs əldə olunduqdan keçən müddət ərzində Azərbaycan rəhbərliyi və ictimaiyyəti münaqişənin sülh yolu ilə həll edilməsinə üstünlük vermişdir. Lakin hadisələrin sonrakı inkişafı sübut etdi ki, Ermənistan tərəfi Azərbaycan hökumətinin sülh istiqamətində təşəbbüslərini düzgün dəyərləndirə bilmədi. Qarabağ münaqişəsindəki atəşkəs dövrü. Cəbhədə atəşkəsin elan edildiyi 1994-cü ildən sonrakı dövrdə Azərbaycan Respublikası müvəqqəti itirilmiş torpaqlarının geri  Ulu öndər Heydər Əliyev Dağlıq Qarabağ

Bakı Texniki Kolleci

münaqişəsini mümkün qədər dinc vasitələrlə həll etmək xəttinə üstünlük verirdi. Eyni zamanda Azərbaycanın öz torpaqların qaytarılması uğrunda səylərini bir an da azaltmamışdır. Bu zaman həm ordu quruculuğuna, həm də Azərbaycanın haqq səsinin dünyaya çatdırılmasına və diplomatik fəaliyyətə xüsusi diqqət yetirilmişdir. Ümummilli lider Heydər Əliyev Azərbaycanda hakimiyyətə qayıtdıqdan sonra Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏM 1994-cü ildə keçirilmiş Budapeşt sammitindən sonra ATƏT adlanır) Minsk qrupunun fəaliyyətinin əhəmiyyətli şəkildə canlanmasına və münaqişənin həllinə marağın artmasına nail oldu. Dağlıq Qarabağ münaqişəsi Heydər Əliyevin beynəlxalq səviyyədəki görüşlərində daim əsas mövzulardan biri idi. Təəssüf ki, bu görüşlərdən sülh istiqamətində ciddi irəliləyişlər əldə edilmədi. Heydər Əliyev müxtəlif beynəlxalq təşkilatlardakı çıxışlarında və görüşlərində, demək olar ki, həmişə bu məsələyə toxunmuşdur. Bütün bunların nəticəsində Ermənistan Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həqiqi mahiyyəti dünya ictimaiyyətinə məlum olmuşdur. Heydər Əliyev ATƏT çərçivəsində də çox uğurlu fəaliyyət göstərirdi. ATƏT-in 1994-cü ildəki Budapeşt sammiti gələcəkdə regionda sülhməramlı beynəlxalq qüvvələrin yaradılacağı ilə bağlı qərar qəbul etdi. Təşkilatın 1996-cı ildə keçirilmiş Lissabon sammitində ölkənin ərazi bütövlüyünü tanıyan bəyanat verildi. Lissabon sammitindən sonra Minsk qrupunun fəaliyyətində fəallaşma müşahidə olundu. Qrupa həmsədrlik edən ABŞ, Rusiya və Fransa heç də obyektiv mövqe tutmamışdı. Onların təklifləri də ya Azərbaycan üçün yolverilməz olur, ya da Ermənistanın qeyri-konstruktiv mövqeyinə görə qəbul edilmirdi. İşğalçı Ermənistan dövlətinə hər hansı bir təzyiqlər göstərilmirdi. Bu isə münaqişənin uzanmasına başlıca səbəb olmuşdur. Bütün bu illər ərzində Azərbaycan Respublikası münaqişənin həllinin yalnız onun ərazi bütövlüyünün təmin olunması və bu ərazilər üzərində suveren dövlət hüquqlarının tanınması şəklində mümkün olduğunu bəyan etməkdədir. Lakin Ermənistan Dağlıq

Bakı Texniki Kolleci

Qarabağın Azərbaycandan qopardılmasına yönəlmiş səylərindən əl çəkmirdi. Atəşkəsdən sonra keçmiş uzun dövrdə Ermənistan və onun havadarları cəbhə xəttində saysız-hesabsız təxribatlara əl atmış, Azərbaycan hərbçilərini və mülki şəxsləri atəşə tutmuşlar. Azərbaycan daim bu hərəkətləri beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmış və dözümlü mövqe nümayiş etdirmişdir. Bu təxribatlar zamanı azərbaycanlı hərbçilər böyük dəyanət və fədakarlıq göstərdikləri üçün ölkə rəhbərliyi daim onları dəstəkləmiş və yüksək qiymətləndirmişdir. 2010-cu ilin iyun ayında gizir Mübariz İbrahimov təkbaşına ermənilərlə döyüşə girmiş və çoxlu sayda düşməni məhv edə bilmişdir. Məhz bundan sonra Ermənistanda matəm elan olunmuşdur. Elə həmin ildə Azərbaycan Pespublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə Mübariz İbrahimova ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adı verilmişdir. Bu, ermənilərə və onların havadarlarına konstruktiv mövqe tutmayacaqları halda, Azərbaycan oğullarının edə biləcəkləri ilə bağlı tutarlı bir işarə idi. Heydər Əliyevin rəhbərliyi altında həyata keçirilən daxili və xarici siyasət, ordu quruculuğundakı inkişaf Azərbaycanın haqlı mövqeyinin dəyişməzliyini təmin edirdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin hakimiyyəti illərində də münaqişənin sülh yolu ilə həlli üçün Azərbaycanın səyləri davam etdirilmişdir. 2016-cı ilin aprel döyüşləri. Ermənilərin həm kompromisə gəlməməsi, həm də arası kəsilməyən təxribatları Azərbaycanı qətiyyətli addımlar atmağa vadar edirdi. 2016-cı il aprelin 1-dən 2-nə keçən gecə və gün ərzində Azərbaycanın mövqeləri və yaşayış məntəqələri bütün cəbhə boyu



Azərbaycanın Milli Qəhrəmanı
Mübariz İbrahimov

Bakı Təxniki Kolleci

Ermənistan silahlı qüvvələri tərəfindən növbəti dəfə güclü artilleriya atəşinə tutuldu.


Azərbaycanın Milli Qəhrəmanı
Şükür Həmidov


Azərbaycanın Milli Qəhrəmanı
Murad Mirzəyev


Azərbaycanın Milli Qəhrəmanı
Samid İmanov

Azərbaycan Silahlı Qüvvələrinin komandanlığı bu hücumun qarşısının alınması,mülki əhalinin təhlükəsizliyinin təmin olunması üçün Ağdərə–Tərtər–Ağdam və Xocavənd Füzuli istiqamətində təxirə salınmaz cavab tədbirlərinin keçirilməsi barədə qərar qəbul etdi. Döyüş nəticəsində Goranboy rayonuna və Naftalan şəhərinə təhlükə yarada biləcək Talış kəndi ətrafındakı yüksəkliklər azad olundu. Füzuli rayonu istiqamətində yerləşən, geniş ərazini nəzarətdə saxlamaq imkanı verən strateji əhəmiyyətli Lələtəpə yüksəkliyi də Azərbaycan ordusunun nəzarəti altına keçdi. Beləliklə, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin təhlükəsizliyi təmin olundu. Beynəlxalq qurumların müraciətləri və öz sülhsevər siyasətinin nəticəsi olaraq Azərbaycan dövləti hərbi əməliyyatları birtərəfli qaydada dayandırdı. Ermənilər növbəti dəfə xəyanətkarlıq edərək əks-hücuma keçmək istədilər. Azərbaycan Silahlı Qüvvələri uğurlu əməliyyatlar apararaq erməni birləşmələrinin uzun illər ərzində mühəndis-istehkam baxımından möhkəmləndirdiyi müdafiə xəttini yardı, strateji əhəmiyyətli bir sıra mövqeləri düşməndən azad etdi. Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunub saxlanması, erməni işğalçılarının silahlı təxribatlarının qarşısının alınması və düşmənin dinc əhaliyə hücumlarının dəf edilməsi zamanı göstərdikləri igidliyə görə Azərbaycan hərbçilərinin böyük bir qrupu Azərbaycan Respublikasının Prezidenti

Bakı Texniki Kolle

tərəfindən orden və medallarla təltif olundu. Şükür Həmidov, ölümlərindən sonra isə Murad Mirzəyev, Samid İmanov İlham Əliyevin fərmanı ilə Azərbaycanın Milli Qəhrəmanı adına layiq görüldülər. 2016-cı ilin aprel hadisələri erməni qəsbkarlarına Azərbaycan dövlətinin və xalqının qətiyyətli mövqeyini və öz torpaqlarının azad edilməsi uğrunda mübarizəyə hazır olduğunu bir daha nümayiş etdirdi. Azərbaycan xalqı Qarabağ münaqişəsini, lazım gəlsə, silah yolu ilə həll etmək hüququnu daim özündə saxlayır. 2018-ci il mayın 20-dən 27-nə qədər Naxçıvan Muxtar Respublikası Əlahiddə Ümumqoşun Ordusunun əks-həmlə əməliyyatı nəticəsində Şərur rayonunun Ağbulaq, Qızılqaya yüksəklikləri, həmçinin Günnüt kəndi ordumuzun nəzarəti altına keçdi. Döyüşlər nəticəsində, ümumi olaraq, 11000 hektarlıq ərazi işğaldan azad edildi. Bu uğurlu əməliyyat Azərbaycan Silahlı Qüvvələrinə İrəvan– Gorus–Laçın–Xankəndi avtomobil yoluna nəzarət etməyə imkan yaratdı.

## ⁂Mədəniyyət⁂

Azərbaycan xalqı öz qədim və zəngin mədəniyyəti ilə dünya miqyasında tanınır. Müstəqil Azərbaycan Respublikasının mövcud olduğu müddətdə də mədəniyyətin müxtəlif sahələrində ciddi irəliləyişlərə nail olunmuşdur. Müstəqillik dövrünün bir sıra çətinliklərinə baxmayaraq, mədəniyyətin müxtəlif sahələrində inkişaf müşahidə olunurdu. Ulu öndər Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə xalqının tarixi keçmişinə, zəngin mənəvi dəyərlərinə, maddi-mənəvi irsinə, incəsənətinə öz qayğısını əsirgəməmişdir. Xalqın mənəviyyatını zənginləşdirən, onu bütün dünyada tanıdan milli mədəniyyətin hərtərəfli inkişafı, yüksəlişi daim onun diqqət mərkəzində olmuşdur. İlham Əliyevin Azərbaycan Respublikasına rəhbərlik etdiyi illərdə də mədəniyyətin inkişafı böyük vüsət tapmış, ən müxtəlif sahələrdə ciddi nailiyyətlər əldə edilmişdir. 2004-cü ildə Ulu öndər Heydər Əliyevin xatirəsinə

Bakı Texniki Kollec

xalqın ehtiramını ifadə etmək, onun zəngin mənəvi irsini əks etdirmək, azərbaycançılıq fəlsəfəsinin ölkə üçün əhəmiyyətini vurğulamaq, milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə Heydər Əliyev Fondu yaradıldı. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın başçılıq etdiyi bu qurum təhsil, səhiyyə, mədəniyyət, idman, elm, texnologiya, ekologiya və digər sahələrdə müxtəlif layihələr həyata keçirir, bununla da ölkənin sosial-iqtisadi inkişafında və yeni cəmiyyət quruculuğunda fəal iştirak edir.

**Elm.** Elm və təhsilə göstərilən qayğının artması, Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıtmasından sonra dərhal müşahidə olunmağa başladı. O, 1993-cü ilin sentyabrında Azərbaycan Respublikası Elmlər Akademiyasında ziyalılarla görüşdə demişdir: "Əmin ola bilərsiniz ki, Elmlər Akademiyası da, institutlar da fəaliyyət gös tərəcəklər və biz buna imkan yaradacağıq. Azərbaycanın elmi inkişaf etməlidir. Universitetlər, ali məktəblər də inkişaf etməlidir". 15 may 2001-ci ildə Heydər Əliyevin sərəncamı ilə Elmlər Akademiyası Azərbaycan Milli Elmlər Akademiyası adlandırılmağa başlandı. Prezidentin 4 yanvar 2003-cü il tarixli fərmanı ilə Milli Elmlər Akademiyasının statusu və əhatə etməli olduğu fəaliyyət sahələri müəyyənləşdirildi, ölkə üzrə bütün elmi müəssisələrin və ali məktəblərin elmi tədqiqat işlərinin əlaqələndirilməsi AMEA- ya həvalə olundu. Bu fərmandan sonra Azərbaycan Respublikası üzrə Elmi Təd qiqatların Əlaqələndirilməsi Şurası yaradıldı. Azərbaycan elminin inkişafı sonrakı illərdə də dövlətin daim diqqət mərkəzində olmuşdur. 2016-cı ildə Milli Məclis geniş müzakirələrdən sonra "Elm haqqında" Qanunu qəbul etdi.

**Təhsil.** 1998-ci ildə Heydər Əliyevin sərəncamı ilə Təhsil Sahəsində İslahatlar üzrə Dövlət Komissiyası yaradıldı. Azərbaycan Respublikasının Təhsil İslahatı Proqramı hazırlandı və 1999-cu ildə təsdiq olundu. Bu proqramda Azərbaycanın

Bakı Texniki Kolleci

milli təhsil sisteminin strategiyası və konsepsiyası öz əksini tapdı. 2009-cu ildə Azərbaycan Respublikasının "Təhsil haqqında" Qanununun Milli Məclis tərəfindən qəbul edilməsi Azərbaycanda müasir təhsilin qanunvericilik bazasının yaradılmasında və hüquqi təminatında mühüm rol oynadı. 2003–2013-cü illərdə dövlət büdcəsindən elmin inkişafına sərf olunan və təhsilə yönəldilən xərclər artırıldı. Müstəqillik dövründə Azərbaycan təhsil sistemində ali məktəblərə tələbə qəbulunun sağlam əsaslar üzərində qurulması sahəsində məqsədyönlü dövlət siyasəti həyata keçirilmişdir. 1992-ci ildə yaradılmış Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının (TQDK ) fəaliyyəti həm Ümummilli lider Heydər Əliyevin, həm də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin diqqət mərkəzində olmuş və daim təkmilləşdirilmişdir. Respublika üzrə test üsulu ilə tələbə qəbulunun həyata keçirilməsi bu sahədə şəffaflığa nail olunmasına, biliyin əsas meyara çevrilməsinə gətirib çıxarmışdır. Tələbə qəbulu prosesində obyektivliyin təmin edilməsi təhsilə münasibətin əsaslı şəkildə dəyişməsinə səbəb olmuşdur. Bütün bunlar tələbə qəbulu kimi mühüm işdə əsaslı nailiyyət sayıla bilər. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə 2016-cı ildə TQDK-nın bazasında Dövlət İmtahan Mərkəzi Publik hüquqi şəxsi yaradıldı. Bu sərəncam ali məktəblərlə yanaşı, dövlət qulluğuna işə qəbulla əlaqədar imtahanların və imtahan götürülməsi tələb olunan digər fəaliyyətlərin də yüksək səviyyədə təşkilinə imkan verir.

**İncəsənət**. Azərbaycan Respublikası mədəniyyət sahəsində beynəlxalq əlaqələrin genişləndirilməsinə də daim önəm vermişdir. Əsası 1993-cü ildə qoyulan türkdilli dövlətlərin beynəlxalq təşkilatı olan TÜRKSOY-un yaranması və fəaliyyətində Azərbaycanın əvəzsiz rolu vardır. Bu təşkilat regional mədəni inteqrasiyanın inkişafında mühüm xidmətlər göstərir.

Mədəni irsin qorunması sahəsindəki tədbirlər nəticəsində 2003-cü ildə Azərbaycan muğamı, 2007-ci ildə Qobustan Milli Tarixi Bədii Qoruğu, 2009-cu ildə aşıq sənəti

Bakı Texniki Kolleci

və Novruz bayramı, 2010-cu ildə Azərbaycan xalça sənəti, 2012-ci ildə isə tar ifaçılıq sənəti UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilmişdir.Muğam sənəti hazırda özünün çiçəklənmə dövrünü yaşayır. Azərbaycan muğamının UNESCO-nun "Qeyri-maddi mədəni irs inciləri" siyahısına daxil edilməsi Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə baş vermişdir. 2009-cu ildən başlayaraq Bakıda "Muğam aləmi" Beynəlxalq Muğam festivalının keçirilməsi muğamın təbliğində mühüm rol oynayır.

## ⁂ Ərəfə⁂

Azərbaycan ordusunun Aprel döyüşlərində və Günnüt əməliyyatındakı uğurları Ermənistanda böyük əks-sədaya səbəb olmuşdu. İşğalçı ordunun bir neçə yüksək rütbəli zabiti vəzifəsindən uzaqlaşdırılmış, bəzi vəzifəli şəxslərə qarşı isə cinayət işi qaldırılmışdı. Lakin bu kimi tədbirlər də mövcud rejimi xilas edə bilmədi. 2018-ci ilin yazında Soros fondunun və xaricdəki erməni lobbisinin dəstəyi ilə Ermənistanda çevriliş baş verdi, hakimiyyətə Qarabağ cinayətlərində birbaşa əli olmayan qüvvələr gəldi. Bu, sülh danışıqları prosesinin sürətlənəcəyinə müəyyən ümidlər yaratdı. Lakin hadisələrin sonrakı inkişafı bunun əksini sübut etdi.

**Zəfərə aparan yol.** Azərbaycan Respublikasının Prezidenti və Ali Baş Komandan İlham Əliyev öz çıxışlarında dövlətimizin Qarabağ münaqişəsinin sülh yolu ilə həllinin tərəfdarı olduğunu, lakin danışıqlar daha da uzadılarsa, işğal altında olan ərazilərimizin Azərbaycan ordusunun hərbi yolla azad edəcəyini dəfələrlə bəyan etmişdi. Ermənistanda hakimiyyətə gələn yeni qüvvələr üzdə ilk vaxtlar sülh tərəfdarı olduqlarını elan etsələr də, tədricən təhdid ritorikasına keçdilər. 2019-cu ilin martında Nyu-Yorkda erməni lobbisi ilə görüş keçirən Ermənistan müdafiə nazirinin "yeni ərazilər – yeni müharibə" şüarını səsləndirməsi, Baş nazir

Bakı Texniki Kollec

N.Paşinyanın isə Şuşada “andiçmə” mərasimi keçirərək “Qarabağ Ermənistandır və nöqtə!” iddiası ilə çıxış etməsi yeni hakimiyyətin əsil niyyətlərini ortaya qoydu. Ermənistan rəhbərliyinin qızışdırıcı müharibə ritorikasına Azərbaycan Respublikası Prezidentinin cavabı 2019-cu ilin oktyabrın 3-də Rusiyanın Soçi şəhərində keçirilən




“Valday” Beynəlxalq Disskusiya Klubunun sessiyasında gəldi: “Qarabağ Azərbaycandır və nida!” Bütün Azərbaycanda məşhurlaşan bu kəlmə Vətən müharibəsində qəhrəman hərbçilərimizin azad edilmiş ərazilərdən Ali Baş Komandana məruzələrinin tamamlayıcı hissəsinə çevriləcəkdi. N.Paşinyan hökuməti həmçinin illərlə davam edən sülh danışıqlarının formatının dəyişdirilməsi, Qarabağın erməni icmasının tərəf kimi qəbul edilməsi şərtini irəli sürdü. Bu isə ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə Azərbaycan və Ermənistan arasında 1994-cü ildən aparılan sülh danışıqlarında razılaşdırılmış müəyyən məsələlərin əhəmiyyətsiz olması anlamına gəlirdi. Bütün bunların qanunauyğun davamı olaraq istər diplomatik səviyyələrdə, istərsə də cəbhə xəttində Ermənistanın təxribatçı davranışları artmağa başladı. 2020-ci ilin fevralında Münhen Təhlükəsizlik Konfransında N.Paşinyanın Qarabağın guya qədim erməni torpağı olması ilə bağlı iddialarını Prezident İlham Əliyev tarixi dəlillərlə ifşa etdi, Ermənistanın Baş naziri dünyanın gözü qarşısında gülünc vəziyyətə düşdü. Düşmən isə cəbhə xəttində, eləcə də münaqişə zonasından uzaqda yerləşən sərhəd ərazilərində təxribatçı hərəkətlərini genişləndirirdi.




*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Nikol Paşinyan Münhendə*

Qələbənin başlanğıcı – Tovuz döyüşləri. 2020-ci il iyul ayının 12-də Ermənistan silahlı qüvvələri Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində təxribata əl atdı. Düşmənin əsas məqsədi sərhəddə yerləşən strateji yüksəklikləri ələ keçirməklə Azərbaycandan Gürcüstana keçən beynəlxalq neft və qaz kəmərlərini atəş nəzarət altında saxlamaq idi. Artilleriya qurğularından və digər ağır silahlardan mövqelə rimizin atəşə tutulması ilə başlanan təxribatlar iyulun sonlarınadək davam etdi. Azərbaycan ordusunun dəqiq atəşləri ilə qarşı tərəfin dayaq məntəqələri, artilleriya qurğuları, avtomobil texnikası və çoxlu sayda canlı qüvvəsi məhv edildi. Düşmən Tovuz rayonunun Ağdam və Əlibəyli kəndlərini müxtəlif çaplı silahlardan atəşə tutmağa başladı. Düşmən təxribatının qarşısını almaq məqsədilə ön xəttə gələn Azərbaycan ordusunun general-mayoru Polad Həşimov, polkovnik İlqar Mirzəyev və bir neçə döyüşçümüz qəhrəmanlıqla şəhid oldu. Əsgərlərinin sevimlisi olan generalın və digər hərbçilərimizin şəhid edilməsinə

ordumuzun cavabı sərt oldu: düşmənə məxsus müxtəlif təyinatlı texnikalar, komanda məntəqəsi, müdafiənin dərinliyindəki silah- sursat ehtiyatları və çoxlu sayda canlı qüvvə məhv edildi. Azərbaycan ordusunun isə 12 hərbi qulluqçusu və bir mülki şəxs şəhid olmuşdu.



Polad Həşimov



İlqar Mirzəyev

Qəhrəman Azərbaycan ordusu düşmənin Tovuz və Qazax rayonları ərazisindən keçən Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft boru kəmərini, Bakı–Tbilisi–Ərzurum qaz boru kəmərini, həmçinin Bakı–Tbilisi–Qars dəmir yolu xəttini təhlükə altına almaq kimi məkrli planlarını alt-üst etdi. Döyüşlərdə həlak olan Azərbaycan hərbçilərinin, xüsusilə general-mayor Polad Həşimovun dəfn mərasimi pandemiya şəraitinə baxmayaraq, böyük izdihama səbəb oldu. Xalqımızın səbir kasası dolmuşdu. Əhali Ali Baş Komandana müraciət edərək işğalçıların daha sərt şəkildə cəzalandırılmasını, torpaqlarımızın tezliklə azad edilməsini istəyirdi. Azərbaycan xalqının illərlə davam edən danışıqlara etibarı tamamilə qırılmışdı. Yurd-yuvasından

didərgin düşmüş insanlar isə nəyin bahasına olursa-olsun, tezliklə doğma torpaqlarına qayıtmaq istəyirdilər. Tovuz döyüşləri Azərbaycanı istəməyən qüvvələrə Ali Baş Komandan-Ordu-Xalq birliyinin ilk böyük nümayişi olmaqla yanaşı, sonrakı proseslərə də təkan verdi. İnsanlar Prezidentin çağırışı ilə axın-axın hərbi komissarlıqlara üz tutdular. Düşmən təxribatı davam edir. Tovuz döyüşlərindəki məğlubiyyətdən nəticə çıxarmayan Ermənistan hərbi "strateqləri" təxribatlarına ara vermirdi. 2020-ci ilin avqust ayında Qarabağ ərazisində təmas xəttini keçməyə çalışan kəşfiyyatçı-təxribat qrupu hərbçilərimizin sayıqlığı nəticəsində zərərsizləşdirildi. Qrupun başçısı isə əsir götürüldü. Bütün bu hadisələr Ermənistanın yeni müharibəyə hazırlaşmasından xəbər verirdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev baş verənlər haqqında beynəlxalq ictimaiyyəti məlumatlandırır və qonşu dövlətin yeni müharibəyə hazırlaşdığını diqqətə çatdırırdı. Lakin əvvəllər olduğu kimi, Minsk qrupunun həmsədr ölkələri, həmçinin digər beynəlxalq qurumlar bu xəbərdarlıqları "qulaqardına" vurur və Ermənistana heç bir siyasi-diplomatik təzyiqlər etmirdi.

## ⁂Vətən müharibəsi⁂

**2020**-ci il sentyabrın əvvəllərindən etibarən silahlı qüvvələrin cəbhə boyu təmas xəttində Ermənistan qoşunlarının aktivliyinin artması, ayın ortalarında isə döyüş hazırlığı tədbirlərinin həyata keçirilməsi kəşfiyyat məlumatları əsasında təsdiqləndi. Düşmənin artıq xırda təxribatlarla kifayətlənmək istəmədiyi, aktiv surətdə yeni müharibəyə hazırlaşması, "yeni müharibə, yeni ərazilər" kimi təcavüzkar ideyalarını reallaşdırmaq niyyətləri aydın sezilirdi. Sentyabrın 26-dan başlayaraq düşmən cəbhə xəttindəki mövqelərimizi, həmçinin mülki yaşayış məntəqələrini iriçaplı silahlar, mina atanlar və müxtəlif tipli artilleriya qurğularından

Bakı Texniki Kolleci

intensiv atəşə tutdu. Nəticədə mülki əhali arasında ölən və yaralananlar oldu. Hər cür düşmən təxribatına qarşı döyüş hazırlığı vəziyyətinə gətirilən Azərbaycan Silahlı Qüvvələri Ali Baş Komandanın əmri ilə sentyabrın 27-si səhər saat 6:00 da əks-hücum əməliyyatına keçdi. Bununla da tariximizə qızıl hərflərlə yazılan 44 gün davam etmiş Vətən müharibəsi başlandı. Azərbaycan ordusu II Qarabağ müharibəsində ***"Dəmir Yumruq"*** adını alan planı həyata keçirməyə başladı. Müharibənin ilk günündə Ağdərə, Kəlbəcər və Füzuli–Cəbrayıl istiqamətində əks-hücuma keçən Azərbaycan ordusu düşmənə ağır zərbələr endirdi. Füzuli rayonunun Qaraxanbəyli, Qərvənd, kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı, Cəbrayıl rayonunun Böyük Mərcanlı və Nüzgar kəndləri işğaldan azad edildi. Şimal istiqamətində isə ordumuz düşmən postlarını darmadağın edərək Ağdərə rayonunda bir sıra yüksəklikləri və Kəlbəcərin strateji əhəmiyyətli Murovdağ zirvəsini azad etdi. Elə ilk gündəcə ordumuzun sarsıdıcı zərbələri nəticəsində düşmənin 3 silah-sursat anbarı, 22 tankı, 15 ədəd "OSA" zenit- raket kompleksi, 8 artilleriya qurğusu, 550 nəfərdən artıq canlı qüvvəsi məhv edildi. "Qarabağ mücrüsü". Düşmən atəşkəs dövründə işğal etdiyi Qarabağda və ətraf rayonlarda güclü müdafiə səddi yaratmışdı: postlar istiliyə həssas müşahidə qurğuları və digər texniki vasitələrlə möhkəmləndirilmiş, qalın beton laylardan istifadə olunmaqla yeraltı və yerüstü bunkerlər tikilmiş, mövqelərarası əlaqələndirici tunellər, bəzi istiqamətlərdə isə 4 eşelonlu müdafiə xətləri qurulmuşdu. Üstəlik ərazi və relyef şərtləri də düşmənə əlavə üstünlük verirdi. Onlar dağlıq ərazilərdə mövqelər quraraq yüksəkliklərdən ordumuzun hərəkətini rahatlıqla izləyə və hədəfə ala bilirdilər. Azərbaycan ordusu isə işğal edilən əraziləri azad etmək, döyüş tapşırıqlarını icra etmək üçün düzən ərazilərdən yüksəkliklərə doğru hücuma keçmək kimi çətin bir vəzifəni icra etməli idi. Bu isə canlı qüvvə itkisinin çox olacağını qaçılmaz edirdi. Məhz bu amili nəzərə alan ordu komandanlığı düşmən üçün maraqlı bir "sürpriz" hazırlamışdı. Bu,

Bakı Texniki Kolleci

“Qarabağ mücrüsü” adlandırılan əməliyyat planı idi. Müharibənin ilk günlərində Hərbi Hava Qüvvələrimiz dünya hərb tarixində o vaxtadək görünməmiş yeni taktika tətbiq etdi: düşmənin Qarabağ ərazisində yerləşdirdiyi Hava Hücumundan Müdafiə sistemlərinin aşkara çıxarılıb məhv edilməsi üçün əvvəlcə köhnə və ucuz, pilotsuz uçuş təyyarələrinə çevrilmiş AN (Antonov-2: yüngül, çoxtəyinatlı təyyarə növü) təyyarələri havaya buraxılırdı. Hərbi məqsədlərə uyğunlaşdırılmış bu təyyarələrdən yalançı hədəf kimi istifadə edilirdi. İçərisində hərbi sursat olan AN təyyarələri vurulmazdısa, özü də hədəfə çırpıla bilirdi. Bunu həqiqi döyüş təyyarələri hesab edən düşmən isə “hədəfi” atəşə tuturdu. Beləliklə, düşmənin hava hücumundan müdafiə sistemləri aşkara çıxarılırdı. Aşkar edilən atəş nöqtələri isə Türkiyədən alınmış “Bayraktar TB-2”, İsrail istehsalı olan “Harop” və Azərbaycanın yerli istehsalı olan “Zərbə” adlı PUA-larla (Pilotsuz Uçuş Aparatı) məhv edilirdi. İfadə edilirdi. İçərisində hərbi sursat olan AN təyyarələri vurulmazdısa, özü də hədəfə çır “Zərbə” adlı PUA-larla (Pilotsuz Uçuş Aparatı) məhv edilirdi. Müharibənin ilk günlərində Ermənistan Müdafiə Nazirliyi hər gün Azərbaycanın bir neçə qırıcı təyyarəsinin vurulduğunu fəxrlə bəyan edirdi. Əsil həqiqəti anlayanda isə artıq gec idi. Düşmənin Qarabağdakı hava hücumundan müdafiə sistemləri məhv edilmişdi. Müzəffər Azərbaycan ordusu XXI əsrin müharibəsini aparır, düşmənə, sözün həqiqi mənasında, hərbi “dərs” keçirdi. Ermənistan ordusunun hava hücumundan müdafiə sistemləri – “OSA”, “S-300”, “TOR” qurğularının böyük hissəsi müharibənin ilk günlərindəcə məhv edildi. Nəticədə Qarabağ səmasında Azərbaycan şahinləri böyük üstünlük əldə etdilər. Bu isə öz növbəsində moto atıcı birliklərimizin hücumunu asanlaşdırdı, canlı qüvvələrin itkisini də minimuma endirdi.

Düşməni çaşbaş salan taktika. Döyüşlərin ilk günləri hərbi əməliyyatlar şimal-şərq və şimal cəbhələrində Tərtər-Ağdam və Kəlbəcər iqtiqamətində keçirilirdi.Nəticədə düşmən əsas qüvvələrini cəbhənin məhz bu xəttinə yönəltdi. Bu

Bakı Texniki Kolleci

isə Azərbaycan komandanlığının hazırladığı əməliyyat planına tam uyğun idi: düşməni ordumuzun əsas hücum istiqamətindən yayındırmaq məqsədi daşıyırdı. Azərbaycan ordusunun əsas hücumu cənub-şərq cəbhəsindən, Füzuli-Cəbrayıl istiqamətindən başladı. Sentyabrın 30-dək düşmən xeyli itki verərək bütün cəbhə boyu bir çox mövqelərindən geri çəkilməyə məcbur oldu. Bu müddət ərzində Ermənistan ordusunun 30 hava hücumundan müdafiə vasitəsi, 1 ədəd "S-300" zenit-raket kompleksi, 200-dək tankı, 110-dan artıq avtomobil texnikası, 6 komanda – idarəetmə mərkəzi məhv edilmişdi. Suqovuşan (Madagiz) istiqamətində gedən döyüşlərdə xeyli canlı qüvvə və texnikasını itirən düşmən geri çəkilməyə məcbur oldu. Oktyabrın 3-də Suqovuşan azad edildi. Ağdərə ilə Ağdamı birləşdirən əsas təminat yolu hərbi qüvvələrimizin nəzarətinə keçdi.

Füzuli-Cəbrayıl istiqamətində döyüşlər. Cənub-şərq istiqamətində gedən bu döyüşlərdə düşmənə ağır zərbələr endirildi. Oktyabrın 3-dən başlayan hərbi əməliyyatlara Azərbaycan ordusunun generalları Mais Barxudarov və Xüsusi Təyinatlı Qüvvələrin komandanı Hikmət Mirzəyev rəhbərlik edirdi. Ordumuzun bölmələri oktyabr ayının 4-də Cəbrayıl şəhərini və həmin rayonun bir neçə kəndini işğaldan azad etdi. Cəbrayılın azad olunması ilə Azərbaycan-İran sərhədinin böyük hissəsinə dövlət nəzarəti bərpa edildi. Həmçinin Xocavəndin cənub kəndləri və strateji əhəmiyyətli Hadrut qəsəbəsi istiqamətində hərbi əməliyyat keçirilməsi üçün geniş imkanlar yarandı. Ermənistan Müdafiə Nazirliyinin sözçüləri isə öz xalqını aldadır, işğalçı ordunun uğursuzluqlarını "taktiki geriçəkilmə" kimi təqdim edərək həlledici zərbə endirəcəklərindən dəm vururdular. Düşmənin mümkün hücum istiqamətlərini əvvəlcədən aşkar edən Azərbaycan Komandanlığı əks-hücuma cəhd edən işğalçı ordunun mövqelərimizin içərilərinə doğru irəliləməsinə mane olmadı. Hadrutdan cənuba Araz çayı istiqamətində hərəkət edən erməni silahlı birləşmələrinin əsas məqsədi qüvvələrimizi parçalamaq və ayrı-ayrılıqda məğlub

Bakı Texniki Kolleci

etmək idi. Lakin Cəbrayıldan şimala yönələn hərbi birləşmələrimiz tarixi “Turan taktikasını” tətbiq edərək düşmənin hücum edən böyük bir qruplaşmasını mühasirəyə aldı. Rəşadətli ordumuzdan ağır zərbələr alan düşmən canlı qüvvə baxımından böyük itkilər verdi, müxtəlif növ döyüş sursatlarını və hərbi texnikalarını döyüş meydanında atıb qaçdı. Təkcə bu əməliyyatda 27 düşmən tankı qənimət kimi ələ keçirildi, onlarla hərbi texnika məhv edildi. Qarabağın qapısı, Şuşanın açarı – Hadrut. Müharibənin ilk günlərindən Hadrut qəsəbəsi ordumuzun əsas hədəfinə çevrilmişdi. Çünki ətraf ərazilərdəki erməni hərbi birləşmələrinin idarə olunması və təchizatı buradan həyata keçirilirdi. Hadrutda həm də Ermənistan ordusuna məxsus böyük silah- sursat və təchizat anbarları yerləşirdi. Yüksək peşəkarlıqla hazırlanan plana uyğun olaraq hərbi birləşmələrimiz cənub cəbhə sində irəliləyərək Cəbrayıldan Hadrut istiqamətinə yönəldi. Düşmən bu hücumu gözləmirdi. Qoşunlarımızın bir qruplaşması erməni silahlı birləşmələrinin nəzarətində olan yüksəklikləri azad etdi. Digər qruplaşması isə Xocavənd istiqamətindən gələn yolları nəzarətə götürərək qəsəbəyə daxil oldu. Oktyabrın 9-da Hadrut qəsəbəsi düşməndən tamamilə təmizləndi. Bu qəsəbənin azad edilməsinin mühüm əhəmiyyəti var idi:

1. Azərbaycan ordusu düşmən üzərində böyük mənəvi-psixoloji üstünlük qazandı;

2. Cəbhənin digər istiqamətlərində də erməni silahlı birləşmələrinin müqavimət gücü sarsıldı;

3. Ordumuzun Şuşa üzərinə sürətli hücumuna əlverişli şərait yarandı

Düşmən isə Şuşaya hücumu Laçın dəhlizindən və Qırmızı Bazar istiqamətindən gözləyirdi. Oktyabrın 18-də Xudafərin körpüsü üzərində də Azərbaycan bayrağı dalğalanmağa başladı. İgid hərbçilərimiz böyük şücaət göstərərək oktyabrın 17-də Cəbrayıl, Hadrut və Xocavənd istiqamətlərindən mühasirəyə aldığı Füzuli şəhərini

Bakı Texniki Kolleci

də düşməndən təmizlədilər. Artıq Zəngilana və Qubadlıya yol açıldı. Uğurla başa çatan Cəbrayıl-Füzuli istiqamətindəki əməliyyatlar ilə ordumuz düşmən üzərində mühüm qələbə qazandı. Nə müharibə ərəfəsində  Ermənistan hərbi rəhbərliyinin "keçilməz" deyə öyündüyü bir neçə xətdən ibarət müdafiə eşelonları, nə də 30 il ərzində qurduqları yeraltı-yerüstü istehkamları qəhrəman Azərbaycan oğullarının hücumuna əngəl ola bildi. Düşmənin uydurduğu və uzun illər ərzində  təbliğ etdiyi "məğlub edilməz erməni ordusu",  "keçilməz Ohanyan səddi" haqqındakı mif  cəmi bir neçə gün içərisində rəşadətli Azərbaycan ordusu tərəfindən yox edildi. Artıq işğalçı düşmən ordusu Azərbaycan əsgərinin ayaq səslərini eşidən kimi döyüş mövqelərini qoyub qaçırdı. Düşmən ordusunda idarəçilik itmiş, fərarilik isə kütləvi hal almışdı. Erməni mənbələrinin özlərinin etirafına görə, "məğlub edilməz ordu"nun 10 mindən artıq əsgər və zabiti fərarilik edərək döyüş meydanından qaçmışdı. Erməni hərbi komandanlığı baş alıb gedən fərariliyin qarşısını almağın çıxış yolunu əsgərlərini postlara zəncirləməkdə görürdü. Digər tərəfdən isə Ermənistan rəhbərliyi hərbi əməliyyatların gedişi haqqında düzgün məlumatlar vermir, hərbi həqiqətləri – cəbhə xəttində baş verənləri öz xalqından gizlədirdi. Döyüş meydanında aldığı ağır məğlubiyyətlərdən azğınlaşan düşmən təmas xəttindən uzaqda yerləşən yaşayış məntəqələrimizi, dinc əhalini hədəfə alırdı. Tərtər, Bərdə, Beyləqan və Gəncə raket atəşinə tutuldu. Nəticədə 90-dan artıq mülki şəxs həyatını itirdi.

Zəngilan və Qubadlının azad edilməsi.  Hücumlarını cənub-qərb istiqamətində də davam etdirən Azərbaycan hərbi birləşmələri Zəngilan-Qubadlı istiqamətində düşmənin daha bir hərbi qruplaşmasını darmadağın etdi. Oktyabrın 20-də Zəngilan, beş gün sonra isə Qubadlı rayonu işğalçılardan təmizləndi. Rəşadətli Azərbay an ordusu torpaqlarımızı işğalçılardan təmizləməklə BMT-nin qəbul etdiyi, lakin 30 ilə yaxın dövr ərzində icra olunmayan qətnamələrinin qərarlarını da bir-birinin ardınca

Baki Texniki Kolleci

yerinə yetirir, bu nüfuzlu beynəlxalq təşkilatın imicini bərpa edirdi. Oktyabrın 22-də Zəngilanın Ağbənd kəndinin işğaldan azad edilməsi ilə Azərbaycan-İran sərhədi tamamilə ordumuzun nəzarətinə keçdi.

**Əziz Şuşa, sən azadsan!** Qubadlının azad edilməsindən sonra Azərbaycan ordusunun bölmələri Laçın istiqamətində hücum edərək Laçın–Şuşa yolunu nəzarətə götürmək planını həyata keçirməyə başladı. Bu da erməni hərbi rəhbərliyinin təşvişinə səbəb oldu. Ordumuzun Qubadlıdan Laçına doğru əməliyyatları genişləndirməsi erməni hərbi rəhbərliyində bu ərazilərin əsas zərbə istiqaməti olduğu təsəvvürünü yaratmışdı. Çünki Hadrut–Qırmızı Bazar yolu Ermənistan silahlı qüvvələrinin ciddi nəzarəti altında idi və düşmən inanırdı ki, Azərbaycan Silahlı Qüvvələri buradan Şuşa istiqamətində hücum etməyəcək. Azərbaycan hərbi-siyasi rəhbərliyinin əsas məqsədi də erməni hərbi komandanlığında məhz belə bir aldadıcı gümanın yaradılması idi. Düşmən bu tələyə düşdü. Həmin gün Azərbaycan ordusu Tərtər, Ağdərə və Ağdam istiqamətində də hücum əməliyyatları həyata keçirərək Ermənistan silahlı qüvvələrinə ağır zərbələr endirdi. Azərbaycan komandanlığının bu addımları düşmən qüvvələrinin bu istiqamətlərdən Şuşaya yardıma getməsinin qarşısını almağa hesablanmışdı və özünü doğrultdu. Düşmən ordumuzun hücumlarının qarşısını almaq üçün bu istiqamətlərdə “ilişib” qaldı. Noyabrın 6-da Şuşa uğrunda ağır və həlledici döyüşlər başlandı. Düşmən Pənahəli xanın əsasını qoyduğu bu şəhərin bütün giriş yollarında möhkəm müdafiə sistemləri yaratmış, çoxlu sayda canlı qüvvə, silah-sursat və ağır texnika cəmləşdirmişdi. Ermənistanın keçmiş müdafiə naziri, I Qarabağ müharibəsində əli dinc azərbaycanlıların qanına bulaşmış S.Ohanyan Şuşanın müdafiəsinin təşkilini öz üzərinə götürmüşdü. Lakin bütün bunlar Şuşanı azad etmək üçün alışıb-yanan rəşadətli Azərbaycan hərbçilərinə



Bakı Texniki Kol

mane ola bilmədi.  Azərbaycan hərbi komandanlığı Laçın istiqamətində gərginliyi saxlayaraq, bir tərəfdən də Qırmızı Bazar istiqamətində düşmən qüvvələrini aldadıcı döyüşlərə cəlb etdi. Şuşaya əsas hücum isə Hadrut–Qırmızı Bazar yolunun qərbindəki  yolsuz dağlıq və meşəlik ərazilərdən başlayacaqdı. Bu istiqamət hətta adi piyadalar üçün belə çətin keçilən ərazilər olduğundan ordumuzun buradan Şuşa istiqamətində hərəkət edəcəyi düşmən üçün inandırıcı görünmürdü. Lakin Xüsusi Təyinatlı Qüvvələr və Azərbaycan Silahlı Qüvvələrinin digər bölmələri belə bir mürəkkəb relyefli ərazilərin keçilməsi tapşırığını  uğurla yerinə yetirdi. Noyabr ayının 5-də ağır döyüşlərdən sonra Daşaltı kəndi və onun ətrafındakı bütün yüksəkliklər düşmən qüvvələrindən təmizləndi. Bu, Şuşa şəhərinə həlledici hücum üçün əlverişli mövqelərin qazanılması demək idi.  Yalnız yüngül atıcı silahlarla silahlanmış və sayca ermənilərdən bir neçə dəfə az olan Xüsusi Təyinatlı Qüvvələrimiz sıldırım qayalıqlara dırmanaraq Şuşaya daxil oldu. Şəhərin daxilində qanlı döyüşlər başlandı. Noyabrın 7-də Şuşa düşmən qüvvələrindən təmizləndi, onun müdafiəsini öz üzərinə götürən S.Ohanyan şəhərdən qaçdı. Ermənistan silahlı qüvvələrinin şəhəri geri almaq cəhdləri isə heç bir nəticə vermədi. Noyabrın 8-də artıq bütün şəhər rəşadətli ordumuzun tam nəzarəti altına keçdi və Şuşa düşmən tapdağından azad edildi.  Azərbaycan bayrağını Şuşa Şəhəri İcra Hakimiyyətinin binası üzərinə Xüsusi Təyinatlı Qüvvələrin mayoru Gündüz Səfərlinin tabeliyində olan bölmənin döyüşçüləri sancdı. Şuşa uğrunda döyüşlərə qədər Azərbaycan ordusunun qələbələrini müasir silahlara, PUA-lara bağlayan hərbi ekspertlər, həmçinin dünya mediası hərbçilərimizin peşəkarlığı və döyüş ruhu qarşısında heyrətlərini gizlədə bilmədilər. Həmin gün müzəffər Ali Baş Komandan İlham Əliyev radio və televizya vasitəsilə Şəhidlər xiyabanından Azərbaycan xalqına müraciət etdi: “Böyük fəxarət və qürur hissi ilə bəyan edirəm ki, Şuşa şəhəri işğaldan azad edildi! Şuşa bizimdir! Qarabağ bizimdir! Bu münasibətlə bütün Azərbaycan xalqını təbrik edirəm.

Bakı Texniki Kolleci

Bütün şuşalıları təbrik edirəm... 28 il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz bu tarixi qələbəni döyüş meydanında qazandıq! 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır!... Bu tarixi gündə Azərbaycan xalqına bu müjdəni vermək mənim həyatımda ən xoşbəxt günlərdən biridir. Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır! Şuşa azad edildikdən dərhal sonra 9 Noyabrda – Dövlət Bayrağı Günündə Azərbaycan ordusu daha 71 kəndi, 1 qəsəbəni və 8 strateji yüksəkliyi işğaldan azad etdi. Bununla da hərbi əməliyyatlar gedişində işğaldan azad edilmiş yaşayış məntəqələrinin sayı 300-ə çatdı. Şuşanın və ətraf yüksəkliklərin alınması düşmənin müqavimət gücünü tamamilə sarsıtdı. Bu qələbə Azərbaycan ordusunun həlledici üstünlüyünü təmin etdi.

Kapitulyasiya. Şuşanın azad edilməsindən sonra Qarabağdakı qondarma rejimin rəhbər vəzifəli şəxsləri başda olmaqla, demək olar, bütün sakinlər Xankəndini tərk etməyə başladı. Vəziyyətin çıxılmaz olduğunu anlayan Ermənistan rəhbərliyi Rusiyanın vasitəçiliyi ilə məğlubiyyəti qəbul etməyə məcbur oldu.

Noyabrın 9-dan 10-na keçən gecə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyan və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin birgə bəyanat qəbul etdilər. Bəyanatda nəzərdə tutulurdu:

1. 10 noyabr 2020-ci il tarixindən etibarən Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması elan olunur. Azərbaycan Respublikası və Ermənistan Respublikası tutduqları mövqelərdə qalırlar.

2. 20 noyabr 2020-ci il tarixinədək Ağdam rayonu Azərbaycan Respublikasına qaytarılır.

Bakı Texniki Kolleci

3. Dağlıq Qarabağda təmas xətti və Laçın dəhlizi boyu Rusiya Federasiyasının odlu silahlı hərbi qulluqçuları, hərbi zirehli texnika, avtomobil və xüsusi texnikadan ibarət sülhməramlı kontingenti yerləşdirilir.

4. Rusiya Federasiyasının sülhməramlı kontingenti erməni silahlı qüvvələrinin çıxarılması ilə paralel şəkildə yerləşdirilir. Rusiya Federasiyasının sülhməramlı kontingentinin qalma müddəti 5 ildir və müddətin bitməsinə 6 ay qalmış hazırkı müddəanın tətbiqinə xitam verilməsi niyyətini Tərəflərdən hər hansı biri bəyan etməzsə, avtomatik olaraq növbəti 5 illik müddətlərə uzadılır.

5. Münaqişə tərəflərinin razılaşmalara əməl etməsinə nəzarətin səmərəliliyinin artırılması məqsədilə atəşkəsə nəzarət üzrə sülhməramlı mərkəz yaradılır.

6. Ermənistan Respublikası 15 noyabr 2020-ci il tarixinədək Azərbaycan Respublikasına Kəlbəcər rayonunu, 1 dekabr 2020-ci il tarixinədək isə Laçın rayonunu qaytarır. Dağlıq Qarabağla Ermənistan arasında əlaqəni təmin edəcək və bununla belə Şuşa şəhərinə toxunmayacaq Laçın dəhlizi (5 km. enliyində) Rusiya sülhməramlı kontingentinin nəzarəti altında qalır. Tərəflərin razılığı əsasında növbəti üç il ərzində Dağlıq Qarabağla Ermənistan arasında əlaqəni təmin edən Laçın dəhlizi üzrə yeni hərəkət marşrutunun inşası planı müəyyən ediləcək və bununla da həmin marşrutun mühafizəsi üçün Rusiya sülhməramlı kontingentinin gələcək yerdəyişməsi nəzərdə tutulur. Azərbaycan Respublikası Laçın dəhlizi üzrə hər iki istiqamətdə vətəndaşların,nəqliyyat vasitələrinin və yüklərin hərəkətinə təhlükəsizlik zəmanəti verir.

7. Daxili məcburi köçkünlər və qaçqınlar Dağlıq Qarabağın ərazisinə və ətraf rayonlara BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Ofisinin nəzarəti altında geri qayıdır.

Bakı Texniki Kolleci

8. Hərbi əsirlər, girovlar və digər saxlanılan şəxslərin, habelə cəsədlərin mübadiləsi həyata keçirilir.

9. Bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vsitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin Sərhəd Xidmətinin orqanları həyata keçirir. Tərəflərin razılığı əsasında Naxçıvan Mutar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcəkdir.

Bəyanatın imzalanmasından sonra noyabrın 20-də Ağdam, 25-də Kəlbəcər, dekabrın 1-də isə Laçın rayonları boşaldılaraq işğaldan azad edildi. Hava şəraitinin pis olması nəticəsində Vardenis (Basarkeçər) keçidində problemlər yarandığından Ermənistan tərəfinin Kəlbəcərin boşaldılması üçün daha 10 gün vaxt istəməsinə Azərbaycan dövləti humanist yanaşaraq razılıq verdi. Lakin I Qarabağ müharibəsi zamanı 1993-cü ildə Kəlbəcər rayonu Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilərkən işğalçılar mülki əhaliyə bölgəni tərk etmək üçün cəmi 10 saat vaxt vermişdi. Vətən müharibəsindəki qələbənin səbəbləri. 44 günlük Vətən müharibəsində qazanılan qələbə işğal altında olan torpaqlarımızın azad edilməsinə hesablanmış məqsədyönlü daxili və xarici siyasətin nəticəsi idi. Birinci Qarabağ müharibəsi dövründən fərqli olaraq, ölkə iqtisadiyyatı sürətlə inkişaf etdirilmiş, Azərbaycan Respublikası bütün göstəricilər üzrə Ermənistanı geridə qoymuşdur. Aparılan uğurlu xarici siyasət nəticəsində beynəlxalq müstəvidə Azərbaycanın müttəfiqləri və dost ölkələrin siyahısı durmadan genişlənirdi. Vətən müharibəsinin gedişində Türkiyə, Pakistan, İsrail, Ukrayna, Gürcüstan, Əfqanıstan və bir neçə başqa ölkə Azərbaycanın bu müharibədə haqlı tərəf olduğunu bəyan etmiş, onun

Bakı Texniki Kolleci

ərazi bütövlüyünü tanıdıqlarını bildirmişdir. Xüsusilə, Türkiyənin mənəvi və siyasi dəstəyi, yüksək vəzifəli dövlət rəsmilərinin müharibə müddətində Azərbaycana çoxsaylı səfərləri diplomatik mübarizədə əvəzedilməz rol oynadı. Rusiya Federasiyasının Prezidenti V.Putin Ermənistan Baş nazirinin yardım etmək barəsində müraciətlərinə cavab olaraq müharibənin Azərbaycan ərazilərində aparıldığını, buna görə də Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının müharibəyə müdaxilə etmək üçün hərbi və siyasi əsasın olmadığını bəyan etdi. İran İslam Respublikası rəhbərliyi isə yalnız noyabrın 3-də, Vətən müharibəsinin taleyinə böyük ölçüdə aydınlıq gələndən sonra Azərbaycanın haqlı tərəf olduğu haqqında açıqlama yaydı. Ölkəmizin uğurlu xarici siyasətinin əsas istiqamətlərindən biri də Qoşulmama Hərəkatı təşkilatının işində fəal iştirak etmək, bu təşkilata üzv ölkələrlə yaxın əməkdaşlıq münasibətləri qurmaqdır. 2019-cu ildən etibarən Azərbaycan Qoşulmama Hərəkatı təşkilatına sədrlik edirdi. Məhz bu ölkələrin nümayiş etdirdikləri prinsipial mövqe sayəsində Vətən müharibəsi gedişində BMT Təhlükəsizlik Şurasında ölkəmizin mənafeyinə uyğun olmayan qətnamə layihəsinin qəbul edilməsinin qarşısı alınmışdır. Birinci Qarabağ müharibəsində isə Azərbaycan böyük dövlətlərin havadarlıq etdiyi Ermənistan ilə müqayisədə, demək olar ki, müttəfiqsiz qalmışdı. 44 günlük müharibədə Ali Baş Komandan – Ordu – Xalq birliyi dəmir yumruğa çevrilərək Qələbəmizdə böyük rol oynadı. Dinindən, dilindən və irqindən asılı olmayaraq, bütün Azərbaycan vətəndaşları, burada yaşayan bütün xalqların nümayəndələri torpaqlarımızın azad edilməsi uğrunda mübarizədə həmrəylik nümayiş etdirdilər. İnformasiya mübarizəsində də Ermənistan məğlub edildi. 44 günlük Vətən müharibəsi başlayandan əməliyyatların sonunadək Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə, Rusiya, ABŞ, İtaliya, Fransa, Almaniya, İngiltərə, Yaponiya və Qətərdən olan jurnalistlərə, həmçinin dün yada məşhur olan 30-a yaxın digər media agentliyinə müsahibələr vermişdir. Üç müxtəlif dildə verilən bu müsahibələr sayəsində beynəlxalq



Bakı Texniki Kolleci

ictimaiyyət münaqişə və müharibə haqqında əsil həqiqətlər və Ermənistanın apardığı təcavüzkar siyasət haqqında ətraflı şəkildə məlumatlandırılmışdır. XX əsrin 90-cı illərindən fərqli olaraq, ölkədə güclü siyasi hakimiyyət və vahid komandanlıq vardır. Ən müasir silahlarla təhciz edilmiş peşəkar ordu formalaşadırılmışdır. İlham Əliyev 2003-cü ildə Prezident seçiləndən sonra ordu quruculuğuna diqqət daha da artırıldı, yeni hərbi doktrina qəbul edildi. Həmin ildən etibarən dövlət büdcəsindən orduya ayrılan xərclər bəzi illərdə ya Ermənistan büdcəsinə bərabər, ya da ondan çox olmuşdur. Xüsusi Təyinatlı Qüvvələrin yaradılması və onun peşəkarlığının daim yüksəldilməsi də Vətən müharibəsinin gedişində mühüm rol oynadı. Müxtəlif ölkələrdə təlimlərə və hərbi yarışlara qatılan Xüsusi Təyinatlılarımız çətin keçilən mürəkkəb dağlıq relyefdə döyüş aparmaq keyfiyyətlərini parlaq şəkildə nümayiş etdirdi. Çətin döyüş şərtlərinə, mürəkkəb relyefə və bütün strateji yüksəkliklərin düşmən əlində olmasına baxmayaraq, XTQ inanılmaz manevrlər edərək düşmən qüvvələrini çaşbaş salmış, "alınmaz" hesab edilən müdafiə xətlərini bir-birinin ardınca fəth etmişdir. Xalqın böyük dəstəyini kürəklərində hiss edən rəşadətli ordumuz, Vətən uğrunda şəhidliyi zirvə hesab edən Azərbaycan əsgəri saysız–hesabsız qəhrəmanlıq nümunələri ilə 44 günlük müharibədə dastan yazdı. Düzgün seçilmiş taktika və strategiya da düşmən üzərində qələbədə, həmçinin itkilərimizin düşmən ilə müqayisədə az ol masında mühüm rol oynamışdır. Yüksəkliklərdə mövqe tutmuş düşmənin hərbi-müşahidə məntəqələri, möhkəmləndirilmiş döyüş postları, gizlədilmiş texnikaları, PUA və dəqiq artilleriya zərbələri ilə məhv edilir, mümkün itkilərin qarşısı alınırdı. Yüksək rütbəli zabitlərimiz isə öz əsgərləri ilə çiyin-çiyinə döyüşür, onları qələbəyə ruhlandırırdı. Təsadüfi deyil ki, Vətən müharibəsində şəhid olan üç minə yaxın şəhidin xeyli hissəsi zabit və gizirlərdir.

Bakı Texniki Kolleci

**Böyük Zəfərin təntənəsi.** Azərbaycan Respublikasının Prezidenti 2020-ci ilin sonlarında Vətən müharibəsinin yekunları ilə bağlı bir neçə fərman və sərəncam imzaladı. Bu sənədlərin əsasında:

● 8 noyabr Zəfər Günü və **27 sentyabr Anım Günü** təsis edildi.

● Azərbaycan Respublikasının ərazi bütövlüyü yolunda canlarını qurban vermiş Vətən müharibəsi şəhidlərinin əziz xatirəsi dekabrın 4-də saat 12:00-da bir dəqiqəlik sükutla yad edildi.

● Prezident Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək üçün “YAŞAT” Fondunun yaradılması haqqında Fərman imzaladı.

● “Vətən Müharibəsi Qəhrəmanı” fəxri adı, “Zəfər” və “Qarabağ” ordenləri, “Cəsur döyüşçü”, “Döyüşdə fərqlənməyə görə”, “Suqovuşanın azad olunmasına görə”, “Xocavəndin azad olunmasına görə”, “Füzulinin azad olunmasına görə”, “Zəngilanın azad olunmasına görə”, “Qubadlının azad olunmasına görə”, “Şuşanın azad olunmasına görə”, “Kəlbəcərin azad olunmasına görə”, “Ağdamın azad olunmasına görə”, “Laçının azad olunmasına görə” və digər medallar təsis edildi. Döyüşlərdə iştirak etmiş minlərlə hərbçi müxtəlif orden, medal və fəxri adlarla təltif edildi.

● Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi zəfərin nümayiş etdirilməsi, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə Bakı şəhərində Vətən müharibəsi memorial kompleksi və Zəfər muzeyinin yaradılması qərara alındı. 2020-ci il dekabrın 10-da Bakı şəhərində Azadlıq meydanında Vətən müharibəsinin yekunu olaraq hərbi parad təşkil edildi. Azərbaycanın böyük Qələbəsinə həsr olunmuş Zəfər paradında ölkə

Bakı Texniki Kolleci

ordusunun şəxsi heyətinin və hərbi texnikasının, habelə müzəffər ordumuzun düşməndən ələ keçirdiyi hərbi qənimətlərin bir qismi nümayiş etdirildi. Zəfər paradında Şuşaya sancılmış Qələbə bayrağını Azadlıq meydanına Şuşanın azad edilməsində müstəsna xidmətləri olan, Qarabağ xanlığının, Şuşa qalasının əsasını qoymuş Pənahəli xan Cavanşirin nəslindən olan və Şuşa azad olunandan sonra şəhərin ilk komendantı təyin edilən general-mayor Zaur Məmmədov gətirdi. Paradda qardaş Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və ölkələrimiz arasındakı qardaşlığın rəmzinin bariz nümunəsi kimi Vətən müharibəsində şəhid olan azərbaycanlıların sayı qədər də türk əsgəri iştirak etmişdir.




"Vətən uğrunda" medalı

"Qarabağ" ordeni

"Zəfər" ordeni

"Vətən müharibəsi iştirakçısı" medalı

**Hərbçilərimizin tərpaqlarımızın azad edilməsi barədə Ali Baş Komandana məruzələri**



Cəbrayıl. 4 oktyabr 2020-ci il



Şuşa. 8 noyabr 2020-ci il



Füzuli. 17 oktyabr 2020-ci il



Ağdam. 20 noyabr 2020-ci il



Zəngilan. 20 oktyabr 2020-ci il



Kəlbəcər. 25 noyabr 2020-ci il



Qubadlı. 25 oktyabr 2020-ci il



Laçın. 1 dekabr 2020-ci il

# Ədəbiyyat

1. Azərbaycan tarixi. XI sinif. Dərslik. Pərviz Ağalarov, Niyaməddin Quliyev, Rövşən Hətəmov, Faiq Babayev, Elşən Qasımov, Elnur Hüseynov, Hafiz Cabbarov, Sevil Bəhrəmova,Asif Hüseynov. Bakı, 2023.
2. Azərbaycan tarixi. 7 cilddə. AMEA Tarix İnstitutu IV-VII cildlər. Bakı, 1998-1999.
3. Həsən Qəniyev. Azərbaycan tarixi. Bakı, 2019.
4. İradə Nuriyeva. Azərbaycan tarixi. Bakı, 2024.
5. Mehman Abdullayev. Azərbaycan tarixi. Bakı, 2016.
6. Anar İsayev. Rəhim Məcnunov. Muxtar Abbasov. Azərbaycan tarixi. Bakı, 2024-2025.

Bakı Texniki Kolleci